ISSN 2224-0829



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

## İCTİMAİ ELMLƏR SERİYASI

TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR
FƏLSƏFƏ VƏ HÜQUQ ELMLƏRİ
İQTİSAD ELMLƏRİ

Nakhchivan State University
## SCIENTIFIC WORKS
SERIES OF SOCIAL SCIENCES

Нахчыванский Государственный Университет
## НАУЧНЫЕ ТРУДЫ
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

2023 № 2 (123)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

*İctimai elmlər seriyası*

*№ 2 (123)*

- **Tarix, antropologiya və siyasi elmlər**
- **Fəlsəfə və hüquq elmləri**
- **İqtisad elmləri**

**NAXÇIVAN – 2023**

*Naxçıvan Dövlət Universiteti. “Elmi əsərlər”.*
*İctimai elmlər seriyası. 2023, №2 (123)*

*Jurnal 13 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. (Şəhadətnamə № 550*)

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** **ELSEVƏR ƏSƏDOV**
*Elm və innovasiyalar üzrə prorektor,*
*biologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR:** **ƏLİ HƏŞİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*“Qeyrət” nəşriyyatının direktoru,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***

**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın həqiqi üzvü*
**Hacıfəxrəddin Səfərli**
*tarix elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*
**Şahin Fazil oğlu Fərzəliyev**
*tarix elmləri doktoru, professor*
**İbrahim Ethem Atnur**
*tarix üzrə elmlər doktoru, professor*
**Xəzər Allahverdi oğlu Hüseynov**
*tarix elmləri doktoru*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə və hüquq elmləri üzrə:***

**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Azər Xoşbəxt oğlu Mustafayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***İqtisad elmləri üzrə:***

**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iiqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Müslüm Əli oğlu Cabbarzadə**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Ceyhun İlham oğlu Mahmudov**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Siyasi elmlər üzrə:**

**Vüqar Gəncəli oğlu Rəhimzadə**
*siyasi elmlər doktoru, professor*

# MÜNDƏRİCAT
## TARİX

**İSMAYIL HACIYEV.** Naxçıvan əyalətinin quruluşu və idarəetmə strukturu (XIX əsr)................9

**HACIFƏXRƏDDİN SƏFƏRLİ.** Naxçıvan şəhəri Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən biri kimi.................................................................................................15

**FƏXRƏDDİN CƏFƏROV, NADİR HÜSEYNBƏYLİ.** XX yüzillikdə Qərbi Azərbaycanda, Naxçıvan bölgələrində və Zəngəzur qəzasında erməni vəhşilikləri.................................................21

**RƏSUL BAĞIROV.** Didivar qədim yaşayış yeri orta tunc dövründə............................................27

**ABDULLA MUSTAFAYEV, RUHİYYƏ RZAYEVA, MÜNƏVVƏR SÜLEYMANOVA.** Zəngəzur ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin ilkin mərhələsində.....................30

**ZAMİN ƏLİYEV.** Ermənilərin irəvana ərazi iddialarının tarixi kökləri..........................................37

**YAŞAR RƏHİMOV.** Naxçıvan MSSR-də zorakı kollektivləşmənin sosial-siyasi proseslərə təsiri (XX əsrin 20-30-cu illəri)..........................................................................................................42

**AYTƏN TAHİRLİ.** Antik dövrdə Naxçıvanın sosial münasibətləri və mədəni əlaqələri................49

**KÜBRA VƏLİYEVA.** Dünya tibb elminin təşəkkül və inkişafında ərəb alimlərinin rolu................53

**DOBRODUM O.V., MARTINYUK E.İ., NİKİTÇENKO Y.E.** Çağdaş müharibənin obrazı: dinşünaslıq aspekti........................................................................................................................61

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

**ELMAN ABBASOV, RƏŞAD ALLAHVERDİYEV.** Hadisə yerinin müayinəsi zamanı aşkar edilmiş mikroobyektlərin götürülməsinin texniki-taktiki üsulları.....................................................67

**QƏHRƏMAN BEHBUDOV.** Hürufilik ideyalarının Azərbaycandan kənarda yayılması və müxtəlif fikir cərəyanları ilə qarşılıqlı əlaqəsi.........................................................................................72

**RASİM MƏCİDOV.** İslam millətçilik ideyalarının müsəlman “strateji mədəniyyət” konsepsiyasına təsiri.........................................................................................................................................78

**OĞUZHAN UZAR, ATİLLA ÖZTÜRK.** Müstəqillik dövr hüququn formalaşması istiqamətində atılan addımlar..............................................................................................................................88

# İQTİSADİYYAT

**CEYHUN MAHMUDOV, NİHAD MAHMUDOV.** Biznesin rəqabət qabiliyyətliliyini təmin etmək üçün innovasiya fəallığının artırılması şərtləri........................................................................94

**CAVADXAN QASIMOV, SAMİR CƏFƏROV.** Milli iqtisadi inkişafda TANAP və TAP layihələrinin əhəmiyyəti.......................................................................................................103

**MƏHƏRRƏM BABAYEV.** Regional tənzimləmənin iqtisadi inkişafa təsiri................................107

**CAVADXAN QASIMOV, MURAD CƏFƏROV.** Əhalinin məşğulluq məsələsinin tənzimlənməsi prosesləri......................................................................................................................113

**NURİYYƏ İBRAHİMOVA.** İnnovasiyalı iqtisadiyyat................................................................119

**RAUF ALLAHYAROV, ŞƏFƏQ İSLAMOVA.** Müəssisənin fəaliyyətində audit metodikasının qiymətləndirilməsi.......................................................................................................123

**FATMA RZAYEVA.** İqtisadi qloballaşma və milli dövlət: nəzəri yanaşma.................................132

**NƏSRİN ƏLİYEVA.** Müəssisələrin fəaliyyətində idarəetmə funksiyaları....................................135

**ABBAS MUSAYEV.** Naxçıvan Muxtar Respublikasında sahibkarlığın formalaşması və inkişafının regional xüsusiyyətləri.......................................................................................................140

**ELŞƏN YUSİFOV.** Biznes mühitinin struktur elementləri və onların sahibkarlıq fəaliyyətinə təsiri.......................................................................................................................149

**ZAMİR TAĞIYEV.** Valyutanın mahiyyəti və elmi-nəzəri əsasları...............................................158

**KƏMALƏ TƏHMƏZBƏYOVA.** Mal-material ehtiyyatlarının qiymətləndirilməsinin xususiyyətləri əsas.......................................................................................................164

**YUSİF ZAMANLI.** İnnovasiya strategiyasının firmanın inkişafına təsiri....................................170

**AYNUR HÜSEYNZADƏ.** Təbii-turizm potensialının öyrənilməsinə elmi-metodiki yanaşmalar.......................................................................................................175

# CONTENTS

## HISTORY

**İSMAYIL HACİYEV.** The structure of nakhchıvan provınce and ıts governance system (xıx century)..........9

**HAJİFAKHRADDİN SAFARLİ.** Nakhchıvan cıty as one of the ımportant cultural centers of Azerbaıjan..........15

**FAKHRADDİN JAFAROV, NADİR HUSEINBEYLI.** Armenıan acrosses ın Western Azerbaıjan, Nakhchıvan regıons, and Zangazur Ghaza ın the 20th century..........21

**RASUL BAGHİROV.** The ancıent settlement of dıdıvar ın the mıddle bronze age..........27

**ABDULLA MUSTAFAYEV, RUHYYA RZAYEVA, MUNAVVAR SULEYMANOVA.** Zangazur ıs ın the first stage of the genocıde polıcy of the armenıans agaınst the azerbaıjans..........30

**ZAMİN ALİYEV.** Historical roots of armenian territorial claims to yerevan..........37

**YASHAR RAHİMOV.** The ımpact of vıolent collectıvızatıon on the socıo-polıtıcal processes ın the nakhchıvan autonomous republıc (20-30s of the xx century)..........42

**AYTEN TAHIRLI.** social relations and cultural relationships of nakhchivan in the antique period..........49

**KUBRA VALİYEVA.** the role of arabıc language ın the formatıon and development of world medıcal scıence..........53

**DOBRODUM O.V., MARTINYUK E.I., NIKITCHENKI Y.E.** the image of modern warfare: the religious aspect..........61

# SOCIAL SCIENCES AND LAW

**ELMAN ABBASOV, RASHAD ALLAHVERDİYEV.** Technıcal and tactıcal methods for removıng mıcro-objects detected durıng ınspectıon of the ıncıdent scene.......... 67

**GAHRAMAN BEHBUDOV.** dıssemınatıon of hurufism ıdeas outsıde of azerbaıjan and theır ınteractıon wıth varıous currents of thought..........72

**RASİM MAJİDOV.** the ımpact of ıslamıc natıonalıstıc ıdeas on the muslım concept of "strategıc culture"..........78

**OGUZHAN UZAR, ATILLA OZTURK.** Steps taken towards the formation of law in the independence period..........88

# ECONOMY

**JEYHUN MAHMUDOV, NİHAD MAHMUDOV.** condıtıons for ıncreasıng ınnovatıon actıvıty to ensure busıness competıtıveness.......................................................................................94

**JAVADKHAN GASIMOV, SAMIR JAFAROV.** ımportance of tanap and tap projects ın natıonal economıc development.................................................................................................103

**MAHARRAM BABAYEV.** the ımpact of regıonal regulatıon on economıc development ..........107

**JAVADKHAN GASİMOV, MURAD JAFAROV.** employment regulatıon processes.................113

**NURİYA IBRAHİMOVA.** ınnovatıve economy.............................................................................119

**RAUF ALLAHYAROV, SHAFAQ ISLAMOVA.** evaluation of audit methodology in the activity of the enterprise……………………………………………………………………………123

**FATMA RZAYEVA.** economıc globalızatıon and the natıon state: a theoretıcal approach............132

**NASRİN ALİYEVA.** admınıstratıve functıons ın the actıvıty of ınstıtutıons.................................135

**ABBAS MUSAYEV.** Regıonal characterıstıcs of entrepreneurshıp formatıon and development ın nakhchıvan autonomous republıc.......................................................................................140

**ELSHAN YUSİFOV.** Structural elements of the busıness envıronment and theır ımpact on entrepreneurıal actıvıty.......................................................................................................149

**ZAMİR TAGİYEV.** The essence and scıentıfıc theoretıcal basıs of currency................................158

**KAMALA TAHMAZBAYOVA.** Maın characterıstıcs of ınventory valuatıon..............................164

**YUSİF ZAMANLI.** The ımpact of ınnovatıon strategy on the development of company..............170

**AYNUR HUSEYNZADE.** Scientific and methodological approaches to the study of natural-tourism potential.......................................................................................................175

# СОДЕРЖАНИЕ

## ИСТОРИЯ

**ИСМАИЛ ГАДЖИЕВ.** структура управления и строение нахчыванской провинции (xıx век)....................9

**ГАДЖИФАХРАДДИН САФАРЛИ.** город нахчыван как один из важных культурных центров азербайджана....................15

**ФАХРАДДИН ДЖАФАРОВ, НАДИР ГУСЕЙНБЕЙЛИ.** Армянские пересеки в западном Азербайджане, Нахчыванской области и зангезур-газе в хх веке....................21

**РАСУЛ БАГИРОВ.** древнее поселение дидивар в эпоху средней бронзы....................27

**АБДУЛЛА МУСТАФАЕВ, РУХИЯ РЗАЕВА, МУНАВВАР СУЛЕЙМАНОВА.** зангазур находится в первой этапе политики геноцида армян против азербайджанцев....................30

**ЗАМИН АЛИЕВ.** исторические корни территориальных претензий армян на ереван....................37

**ЯШАР РАГИМОВ.** влияние насильственной коллективизации на социально-политические процессы в нахчыванской асср (20-30-е годы хх века)....................42

**АЙТЕН ТАХИРЛИ.** социальные отношения и культурные связи нахчывана в античном периоде....................49

**КУБРА ВЕЛИЕВА.** роль арабских ученых в становлении и развитии мировой медицинской науки....................53

**ДОБРОДУМ ОЛЬГА ВИКТОРОВНА, МАРТЫНЮК ЭДУАРД ИВАНОВИЧ, НИКИТЧЕНКО ЕЛЕНА ЭДУАРДОВНА.** Образ современной войны: религиоведческий аспект.................... 61

## СОЦИАЛЬНЫЕ НАУКИ И ПРАВО

**ABBASOV ELMAN, АЛЛАХВЕРДИЕВ РАШАД.** Технико-тактические методы удаления микрообъектов, обнаруженных при осмотре места происшествия....................67

**КАХРАМАН БЕЙБУТОВ.** Распространение хуруфильных идей за пределами Азербайджана и его связь с различными течениями мысли....................72

**РАСИМ МЕДЖИДОВ.** Влияние исламских националистических идей на мусульманскую концепцию «стратегической культуры»....................78

**ОГУЗАН УЗАР, АТИЛЛА ОЗТУРК.** Шаги по формированию права в период Независимости.................... 88

## ЭКОНОМИКА

**ДЖЕЙХУН МАХМУДОВ, НИХАД МАХМУДОВ.** Для обеспечения конкурентоспособности бизнеса условия повышения инновационной активности..................94

**ДЖАВАДХАН ГАСИМОВ, САМИР ДЖАФАРОВ.** значение проектов tanap и tap в национальном экономическом развитии.........................................................................103

**МАГЕРРАМ БАБАЕВ.** Влияние регионального регулирования на экономическое Развитие.....................................................................................................................107

**ДЖАВАДХАН ГАСИМОВ, МУРАД ДЖАФАРОВ.** процессы регулирования Занятости....................................................................................................................113

**НУРИЯ ИБРАГИМОВА.** Инновационная экономика..........................................................119

**РАУФ АЛЛАХЬЯРОВ, ШАФАГ ИСЛАМОВА.** Оценка методологии аудита в деятельности Предприятия.............................................................................................................123

**ФАТЬМА РЗАЕВА.** экономическая глобализация и национальное государство: теоретический подход.................................................................................................132

**НАСРИН АЛИЕВА.** функции управления в деятельности предприятий...............................135

**АББАС МУСАЕВ.** региональные особенности формирования и развития предпринимательства в нахчыванской автономной республике...............................................140

**ЭЛЬШАН ЮСИФОВ.** структурные элементы бизнес-среды и их влияние на предпринимательскую деятельность.........................................................................149

**ЗАМИР ТАГИЕВ.** Сущность и научно-теоретическая основа валюты социальные науки и право...........................................................................................................................158

**КАМАЛА ТАХМАЗБЕКОВА.** Основные характеристики оценки запасов...........................164

**ЮСИФ ЗАМАНЛЫ.** Влияние инновационной стратегии на развитие фирмы.......................170

**АЙНУР ГУСЕЙНЗАДЕ.** Научно-методические подходы к изучению природно-туристского потенциала...................................................................................................................175

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 9-14
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 9-14
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 9-14

# TARİX

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*haciyev.i1951@gmail.com*

**UOT: 94 (479.24)**

## NAXÇIVAN ƏYALƏTİNİN QURULUŞU VƏ İDARƏETMƏ STRUKTURU (XIX ƏSR)

*Məqalədə çar Rusiyasının Şimali Azərbaycan xanlıqlarını işğal etməsi nəticəsində yaratdığı idarəetmə quruluşu və strukturlarının forma və mahiyyətindən bəhs edilir. Naxçıvan əyalətinin yaradılması nəticəsində onun idarəetmə strukturu da araşdırılır. Müəyyən edilir ki, Naxçıvan xanlığı dövründə Kəngərlilərin oynadığı rol sonrakı illərdə tədricən aradan qaldırılmış, Ehsan xan və Şeyxəli bəyə bəslənilən münasibət dəyişmiş, onlar naiblikdən kənarlaşdırılmışdır.*

*Burada çar Rusiyasının tətbiq etdiyi inzibati-ərazi islahatları, komendant üsul-idarəsinin yaradılması, 1828-ci ildə yaradılmış erməni vilayətinin ləğvi, Qafqaz canişinliyinin səlahiyyətlərinin genişləndirilməsi ilə əlaqədar komendant üsul-idarəsinin aradan götürülməsi, quberniya və qəzaların yaradılması, onların inzibati-ərazi strukturlarındakı dəyişikliklərindən də bəhs edilir.*

***Açar sözlər:*** *Çar Rusiyası, xanlıqlar, Naxçıvan xanlığı, Naxçıvan əyaləti, komendant, canişinlik, quberniya, qəza*

Çar Rusiyası Qacarlar İranı ilə apardığı müharibələr nəticəsində Azərbaycanın şimal xanlıqlarını işğal etdi. Bundan sonra Rusiya Azərbaycanın şimal ərazilərində olan xanlıqlarının müstəqilliyini ləğv etməyə və müstəmləkə idarə sistemi yaratmağa başladı. Şimali Azərbaycan xanlıqları çar qoşunları tərəfindən tutulanda, Rusiyanın ali hakimiyyətini döyüşə girməkdən məcburiyyət qarşısında qəbul etmişdilər. Qarabağ, Şəki, Şamaxı xanlıqları ciddi müqavimət göstərmədiklərindən onlarda idarə sistemi olduğu kimi saxlanıldı. Gəncə, Bakı, Quba və başqa xanlıqlar çar qoşunlarına müqavimət göstərdiklərinə görə, həmin xanlıqların ərazilərində xan üsul-idarəsi ləğv edildi. Lakin hakimiyyətdə qalan xanların da ömrü uzun olmadı.

Naxçıvan xanlığına gəldikdə isə xanlıqdan əvvəl o, Naxçıvan tüməni adlanırdı, sonra isə bu tümən Çuxur-Səəd bəylərbəyliyinə tabe oldu. Nadir şah hakimiyyətə gəldikdən sonra Azərbaycan vilayəti yaratmış və dörd bəylərbəyliyi onun tərkibinə qatmışdı. Naxçıvanın hakimi Azərbaycan valisi tərəfindən təyin edilirdi. Naxçıvanın ali vəzifəli şəxsi Naxçıvan, Azadciran və Ordubad hakimi və Kəngərli kəndxudalarının rəisi adlanırdı. Kəndli tayfasının rəisi həm də kəngərlilərdən ibarət qoşunun rəisi idi. Xanlığın işğalı ərəfəsində bu vəzifəni Lütfəli Sultan daşıyırdı [12, s.79]. Bu vəzifəni sonra oğlu Novruz ağa aparmışdır. Kəngərli tayfasının rəisi kəngərli bəylərindən, Naxçıvan hakimi isə kəngərli xanlarından təyin edilirdi.

Naxçıvan xanlığı işğal edilən dövrdə Naxçıvanın hakimi Kərim xan Kəngərli idi. K.Smirnov qeyd edir ki, Kəngərli xanı aşağı titul sayılırdı. Bu inzibati ərazi hələlik xanlıq olmadığına görə buradakı ali vəzifəli şəxslər Naxçıvan xanı deyil, Kəngərli xanı və Naxçıvan hakimi adlanırdılar [17, s.24].

Naxçıvan xanlığı onun əsasını qoyan Heydərqulu xanın, sonralar isə I Kəlbəli xanın hakimiyyəti dövründə özünün apardığı siyasi diplomatiyası ilə həmişə fərqlənmişdir. Naxçıvan xanlığının ərazisi, qoşunu, işlətdiyi pul vahidi, özünəməxsus xarici və daxili siyasəti, müstəqil dövlətə məxsus atributları olmuşdur.

1747-1797-ci illərdə Naxçıvan xanlığının ərazisi 9428,71 kv.km, 1797-1828-ci illərdə isə 4642,83 kv.km olmuşdur [12, s.26]. Xanlığının ərazisinin azalmasının səbəbi Fətəli şahın Naxçıvan xanlarını cəzalandırmaq üçün Qapan (Qafan) və Mehri mahallarını Qarabağ xanlığına bağışlaması olmuşdu.

Naxçıvan xanlığının idarəedilməsində Azərbaycanın digər xanlıqlarından fərqləndirən bir xüsusiyyət də olmuşdur. Naxçıvan xanlığı formal olaraq 1840-cı ilədək fəaliyyət göstərmişdir. I Ehsan xan 1840-cı ilədək Naxçıvanın naibi olmuşdur. Rus şərqşünası, görkəmli tarixçi İ.P.Petruşevski yazır ki, Rusiyaya birləşdirilməsinə baxmayaraq, Naxçıvan xanlığı 1840-cı ilədək mövcud olmuşdur [18, s.8].

Xanlıq dövründə mahalları mirbölük adlananan şəxs idarə edirdi. Mirbölük Naxçıvan hakiminin tapşırıqlarını yerinə yetirirdi. O, mahal sakinlərini nəzarət altında saxlayır, qarşıya çıxan ciddi məsələləri həll üçün xana göndərir, kiçik məsələləri isə özü həll edirdi [14, s.53].

Mirbölüklər maaşlarını həm natura şəklində, həm də nağd pul formasında alırdılar. Onlar ildə 5-10 xalvar taxıl və 20-50 tümən maaş alırdı. Bir sıra hallarda xeyir iş görənlər, övladlarına toy edənlər mirbölüyə hədiyyələr də verirdilər. Kəndləri kəndxudalar, erməni kəndlərini isə məliklər idarə edirdi.  Onlar ildə 10 tümən maaş alırdılar [15, s.53].

Şəhərdəki polis idarəsi darğa və yextaşıbaşı tərəfindən idarə olunurdu. Darğa gündüzlər, yextaşıbaşı isə gecə vaxtı əmin-amanlığı təmin edirdi. Hər bir dükan ayda darğaya 15 qəpik, yextaşıbaşıya isə 15 gümüş qəpik pul verirdi [15, s.54].

Xanlıqlarda xüsusi bir məmur var idi ki, o, eşikağası adlanırdı və bu barədə xana məlumat verirdi. Mahalda və kənddə baş verənlər haqqında xana məlumat vermək üçün mirbölüyü və kəndxudaları da qəbul edir və xanın yanına aparırdı. Eşikağası xüsusi maaş almırdı. Kiminsə borcunu alıb özünə qaytaranda hər 10 manatdan 1 manat ona çatırdı. Digər məsələləri həll edəndə də ona müxtəlif bəxşişlər verirdilər [15, s.54].

İdarəetmə strukturunda suyun bölgüsünə baxan mirabın, cinayət hadisələrinə bəzən şeyxülislamın, axundun köməyindən istifadə edən xanın da böyük rolu var idi. Ölkədə dini hakimiyyəti baş axund-şeyxülislam və iki axund həyata keçirirdi. Bu şəxslər xana tabe deyildi.

Mülki işlərə baş axundun-şeyxülislamın sədrliyi ilə baxılırdı. Belə işlərə baxan dini məhkəmə - Şəriət məhkəməsi adlanırdı. Şəriət məhkəməsində baş axund, qazılar və məşvərətçi səslə axundlar və mollalar iştirak edirdi. Məhkəmədə bütün çəkişən tərəfləri dinləyirdilər. Şahidlərin dindirilməsinə də xüsusi əhəmiyyət verilirdi. Yekunda məhkəmə üzvləri öz aralarında müşavirə keçirirdilər, yəni məsləhətləşirdilər. Qərar qəbul edildikdə daha çox Qurana, peyğəmbərin hədislərinə müraciət edirdilər. Mülkiyyət məsələləri mülkiyyəti təsdiq edən rəsmi kağıza və başqa sənədlərə istinad etməklə həll edilirdi. Məhkəmənin qərarı yarlığa yazılır və məhkəmə heyətinin bütün üzvləri möhürünü basaraq onu haqlı tərəfə verirdilər [20, s.454-455].

Kəbin kəsmək, boşanma məsələlərini həll etmək və dəfn məsələləri ilə məşğul olmaq qazıların vəzifəsi idi. Məhəllə və kənd mollaları axundlara tabe idilər. Bütün din xadimləri və seyidlər vergidən azad idilər.

Rusiya imperiyası Naxçıvanı tutduqdan sonra burada ağır işğal rejimi quruldu, Naxçıvan xanlığının tarixən formalaşmış dövlətçilik ənənələrinin ləğv edilməsi siyasəti həyata keçirildi. Mövcud idarə sistemi dağıdılmağa və yeni imperiya idarə sistemi formalaşdırılmağa başlandı [11, s.120].

1827-ci il oktyabrın 6-da qraf Paskeviçin əmri ilə Müvəqqəti idarə yaradıldı. General-leytenant Krassovski bu idarənin rəisi, İrəvan qalasının komendantı polkovnik Borodin və erməni kotolokası Nerses isə onun müavinləri idi.  Nersesin təhriki ilə Müvəqqəti idarə türk əhaliyə qarşı elə qəddarlıq göstərdi ki, xeyli adam yerini-yurdunu tərk etdi. Bu hadisə Paskeviçi qəzəbləndirdi. Paskeviç general Krassovskini vəzifəsindən azad etdi, Nersesi isə Besserbiyadakı erməni kilsələrindən birinə arxiyepiskop təyin etdi. Əslində Paskeviç Nersesi sürgünə göndərdi [13, s.377-379].

Çar I Nikolay 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edərək onların yerindən Erməni vilayəti adlı yeni inzibati ərazi yaratdı. Paskeviç Erməni vilayətini idarə

etmək üçün İnzibati idarə adlanan yeni qurum yaratdı. A.Çavçavadzeni yeni quruma rəis təyin etdi [8, s.83].

İrəvan və Naxçıvan əyalətləri və Ordubad dairəsi Erməni vilayətinin tərkibinə daxil edildi. Naxçıvan əyaləti Naxçıvan şəhərindən və 5 mahaldan – Naxçıvan, Əlincəçay, Məvazixatın, Xok və Dərələyəz mahallarından ibarət idi. Naxçıvan əyalətini Naxçıvan şəhərində yaradılan Şəhər idarəsi idarə edirdi. Şəhər idarəsi 2 şöbədən ibarət idi. Bunlar Polis və Məhkəmə hakimiyyəti idi. Naxçıvan naibi Ehsan xan Polis idarəsinin rəisi idi. Rus qoşunlarının qərargah zabitlərindən ona pristav adlanan bir nəfər köməkçi təyin edilmişdi. Pristav, xəzinədar, seçki yolu ilə müəyyənləşdirilən bir nəfər müsəlman və bir nəfər erməninin də üzvü olduğu Şəhər məhkəməsinə də Ehsan xan sədrlik edirdi [15, s.63].

Ehsan xanın və Şeyxəli bəyin yanında pristavların təyin edilməsi onları narazı salmışdı. Çünki pristavlar onların fəaliyyətindən İnzibati idarəyə xəbər verirdilər. Şeyxəli bəy xüsusilə kapitan Rostanovun pristav təyin edilməsindən narazı qalmışdı. Şeyxəli bəy, hətta vəzifə yeri olan Ordubadı tərk edərək Naxçıvana gəlmiş, buradan özünün və kəndxudaların adından İnzibati idarənin rəisi Çavçavadzeyə məktub yazaraq pristavın onun yanından götürülməsini və onun əl-ayağına dolaşmamasını tələb edirdi.

Şeyxəli bəyin narazılığı təsadüfi deyildi. Ştabs-kapitan Kudaşevin 1828-ci ilin 5 oktyabrında qraf Paskeviçə yazdığı məktubdan onun narazı qalmasının səbəbi aydın olur. Kudaşev məktubda yazmışdır: “Ordubad əhalisi sakitdir, lakin mülkədarların, xanların və bəylərin vergiləri yığmağa gələn nökərləri əhalini incidir... Şəhər sakinləri ərzaq satışından rüsum alan iltizamçılardan da narazıdır. İltizamçılar böyük gəlir əldə etmək üçün məhsulunu satandan da, alandan da, hətta satmayanlardan da rüsum alırlar... Kapitan Rostanovun buraya pristav göndərilməsini öz hüquqlarının məhdudlaşdırılması hesab edən Şeyxəli bəy Ordubaddan Naxçıvana gedib və başqa kəndxudaların adından knyaz Çavçavedzeyə məktub göndərib ki, Şeyxəli bəy Ordubadı təkbaşına idarə etsin. Bütün əhali Şeyxəli bəydən, onun idarəetmə üsulundan narazı olduğuna görə kapitan Rastanovun yanına şikayətə və xahişə gedirlər. Şeyxəli bəyin incidiyi səbəb də budur” [8, s.84].

Çar I Nikolay 1837-ci ildə keçmiş komandiri qraf Paskeviçin işğal etdiyi əraziləri görmək üçün Erməni vilayətinə gəldi. Hadisələri qələmə alan qraf A.Benkendorf yazır ki, Ehsan xan komandiri olduğu Kəngərli süvari qoşunu ilə bizi qarşılayıb nizami ordumuzun zabitləri kimi rus dilində raport verdi. Kəngərli süvari dəstəsi imperatorun da, qraf A.Benkendorfun da xoşuna gəlmişdi. İmperator süvarilərin hər birinə 1 qızıl çervon bağışladı. İmperatorun səfərindən az sonra Ehsan xana general-mayor, böyük qardaşları Nəzərəli xanla Şeyxəli bəyə isə podpolkovnik rütbəsi verdi [8, s.85].

XIX əsrin 30-cu illərinin sonunda general Qolovin və baron Qanın rəhbərliyi ilə Cənubi Qafqazda islahatlara başlanıldı. Onların hazırladıqları təkliflər 1839-cu ilin may ayında I Nikolaya təqdim olundu. Həmin təkliflərdə Ehsan xan haqqında yazılmışdı: “Heç bir şübhə yoxdur ki, Ehsan xanın Naxçıvan diyarındakı idarəçiliyi həddindən artıq zərərlidir. O, keçmişdə baş verən hadisələrə görə general-mayor rütbəsi daşıyır. Maaşından əlavə rütbəsinə görə də ildə gümüş pulla 2.200 rubl təqaüd alır, nəhayət iranlıların vaxtında idarə etdiyi dairəyə də naib təyin olunub. Bir sözlə, o siyasi imtiyazları olan şəxsdir. Ehsan xanı vəzifədən azad etmək daha yaxşı idarəçiliyi həyata keçirmək üçün ilk addım olardı. Digər tərəfdən, onu naib vəzifəsindən məhrum etdikdən sonra həmin dairədə saxlamaq daha ziyanlıdır. Qəti və faydalı tədbir o olardı ki, onu naib vəzifəsindən məhrum edib indi yaşadığı ərazidən uzaqlaşdıraq” [8, s.85].

General Ehsan xan Naxçıvana gələn general Qolovinlə görüşdən sonra, 1839-cu ilin payızında Naxçıvan naibi vəzifəsindən azad olunmaq üçün ərizə yazdı. Şeyxəli bəy verilən təkliflərlə razılaşmadı və İrana qaçdı. Kiçik qardaşları Mehdi ağa da İrana qaçdı.

Naxçıvan qəzasına yeni rəis göndərildi. Bu Serbinov idi. Kəngərlilərlə Serbinov arasında münaqişə baş verdi. Serbinov tələb edirdi ki, kəngərlilər başqa əhalilər kimi ev vergisindən başqa digər vergiləri ödəməlidirlər. Əgər onlar vergiləri ödəməsələr sərt şəkildə cəzalandırılacaqlar. Bir sıra kəndlərin sakinləri də vergilərdən narazı idi. Bir qrup kəngərlilər vergi vermək istəmədiklərindən İrana qaçdılar.

Çar hökuməti Cənubi Qafqazda inzibati-idarə sistemini dəyişdirmək və bu sistemi ümumimperiya inzibati-ərazi bölgüsünə uyğunlaşdırmaq üçün islahatlar hazırlamağa başladı. Uzun müzakirələrdən sonra çar I Nikolay 1840-cı il aprelin 10-da komendant idarə üsulunun ləğv edilməsi və Cənubi Qafqazda inzibati-məhkəmə islahatı haqqında qanun imzaladı [7, s.120]. 1841-ci il yanvarın 1-dən qüvvəyə minən bu qanuna görə komendant idarə üsulu ləğv olunur və Cənubi Qafqaz inzibati cəhətdən iki yerə bölünürdü: 1. Gürcüstan-İmperiya quberniyası. 2. Xəzər vilayəti. Naxçıvan qəzası da bir sıra qəzalar kimi Gürcüstan-İmperiya quberniyasına daxil edilmişdi. Çünki, 1840-cı ildə Erməni vilayəti ləğv edilərək onun yerində İrəvan və Naxçıvan qəzaları yaradılmışdı. Ordubad şəhərinə isə ayrıca status verilmişdi. Naxçıvan və İrəvan qəzaları 1846-cı ildə Tiflis quberniyasına daxil edildilər.

Quberniya və vilayət qəzalardan, qəzalar isə sahələrdən (nahiyələrdən) ibarət olurdu. Mahalların ləğv edilməsi ilə mahal naibləri olan bəylər idarə işindən uzaqlaşdırılır, onlar ruslardan təyin olunan sahə iclasçıları ilə əvəz edilirdilər. Ali hakimiyyət Qafqazın baş hakiminə məxsus idi. Baş hakimin sədrliyi ilə Baş İdarə Şurası yaradılmışdı [7, s.121].

1844-cü ildə çar hökuməti Cənubi Qafqazda öz mövqeyini daha da möhkəmlətmək üçün Baş İdarə Şurasının əvəzinə canişinlik idarəsi sistemi yaratdı. Qafqaz canişini təyin olunan qraf Vorontsov-Daşkov çox böyük hərbi və mülki səlahiyyətlərə malik idi və çardan başqa heç kimin qarşısında hesabat vermirdi. Səlahiyyətdən istifadə edən Qafqaz canişini Vorontsov-Daşkov 1850-ci ildə kəngərliləri bütün vergi güzəştlərindən məhrum edib onları vergi mükəlləfiyyətli dövlət kəndliləri sinfinə daxil etdi. Yalnız xanların və bəylərin imtiyazları saxlandı [17, s.95].

1846-cı il 14 dekabr tarixli çar fərmanı ilə Cənubi Qafqazın inzibati-ərazi quruluşunda ciddi dəyişikliklər edildi və 4 quberniya – Tiflis, Kutais, Şamaxı və Dərbənd təşkil edildi. Sonralar 1849-cu ildə İrəvan quberniyası yaradıldı və 1850-ci il yanvarın 1-dən qüvvəyə mindi. Quberniya Aleksandropol qəzası və Şuşa qəzasının Meğri nahiyyəsinin böyük hissəsini əhatə edirdi və 5 qəzaya bölünürdü: İrəvan qəzası, Aleksandropol qəzası, Novobəyazid qəzası, Naxçıvan qəzası və Ordubad qəzası. Şərur nahiyəsi İrəvan qəzasının tərkibində idi. Naxçıvan qəzası Naxçıvan və Dərələyəz nahiyələrinə bölünmüşdü. Ordubad qəzası isə nahiyəyə bölünməmişdi. Bəzi mənbələrdə Naxçıvan qəzasının 3 nahiyyədən ibarət olması və Ordubadın da bura daxil olduğu göstərilir [16, s.114].

İrəvan qubernatoru həm hərbi, həm də mülki işlərə baxırdı. Qubernatorun sədrlik etdiyi Quberniya idarəsi vitse-qubernatordan, iki müşavirdən, katibdən, 4 nəfər pasport-masa rəisindən və onların 4 köməkçisindən, qeydiyyatçıdan, tərcüməçidən, arxiv işçisindən, quberniya memarından və torpaq mühəndisindən ibarət idi. Quberniya məhkəməsi 16 nəfərdən, prokuror və onun köməkçisindən təşkil olunurdu [8, s.87].

Hər bir qəza rəisi, onun köməkçisi və katibindən, katibin iki köməkçisi və tərcüməçidən ibarət olan Qəza idarəsindən ibarət idi. Nahiyə idarəsi nahiyə rəisi, onun köməkçisi və tərcüməçidən ibarət idi. Naxçıvanda qəza xəzinədarlığı həm Naxçıvanda, həm də Ordubadda vergiyığmanı və xərcləri həyata keçirirdi. Naxçıvan şəhərində polis rəisi, Ordubad şəhərində isə qəza rəislərinə tabe olan polis komissarı fəaliyyət göstərirdi. Kəndlərdə kəndxudalar və çavuşlar asayişə, vergilərin yığılmasına nəzarət edirdilər.

1867-ci ildə Rusiya Senatının qərarı ilə Cənubi Qafqazın, o cümlədən İrəvan quberniyasının inzibati-ərazi bölgüsündə dəyişikliklər edildi. Ordubad qəzası Naxçıvan qəzasına daxil edildi və İrəvan quberniyasında yeni Eçmiədzin qəzası yaradıldı. Meğri (Mehri) sahəsi isə yeni yaradılmış Yelizavetpol quberniyasına birləşdirildi. İrəvan quberniyası yenə də beş qəzadan (İrəvan, Aleksandropol, Novobayazid, Naxçıvan, Eçmiədzin) ibarət oldu (10, s.31). Ordubad qəzasının tərkibində olan Meğri nahiyəsi Yelizavetpol quberniyasının tərkibindəki Zəngəzur qəzasına verildi.

Qafqaz canişinliyinin səlahiyyətlərinin genişləndirilməsi ilə qəzaların sərhədlərinin dəyişdirilməsi işi ona həvalə olundu. Canişin bu hüquqdan istifadə edərək 1870-1874-cü illərdə qəzaların hüdudlarında dəyişiklik etdi. Sürməli sahəsi və Eçmiədzin qəzasının bir hissəsi İrəvan qəzasına birləşdirildi. 1874-cü ildə Şərur-Dərələyəz qəzası, Eçmiədzin qəzasının cənub Arazboyu ərazilərindən Sürməli qəzası təşkil edildi (10, s.32). Beləliklə, 1874-cü ildə İrəvan quberniyasında

qəzaların sayı beşdən yeddiyə çatdırıldı. İrəvan quberniyası üzrə bu bölgü quberniya inzibati vahidi ləğv edilib bölgədə erməni dövləti yaradılana kimi qaldı.

Çar hökuməti 1883-cü ildə Qafqaz canişinliyini ləğv etdi və diyarın idarəsi Qafqazdakı mülki hissə üzrə baş rəisə tapşırıldı.

Göründüyü kimi, çar Rusiyası Qacarlar İranı ilə apardığı müharibə nəticəsində Şimali Azərbaycanı işğal edərək onu Rusiyaya birləşdirdi. Rusiya imperiyası xanlıqlar dövründən başlayaraq XIX əsrin sonlarına qədər müxtəlif idarəetmə strukturları yaratmış və nəticədə Şimali Azərbaycanı, eləcə də Naxçıvan əyalətini siyasi inzibati-ərazi və iqtisadi cəhətdən özündən asılı vəziyyətə salmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA), F. 24, siy. 1, s. v. 353
2. AMDTA, F. 24, siy. 1, s.v. 354
3. AMDTA, F. 24, siy. 1, s.v. 355
4. AMDTA, F. 24, siy. 1, s.v. 356
5. AMDTA, F. 24, siy. 1, s.v. 372
6. AMDTA, F. 25, siy. 2, s.v. 6
7. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2007, 504 s.
8. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin Kameral təsviri. 1831-ci il. Bakı: Elm və təhsil, 2021, 712 s.
9. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 2007, 120 s.
10. Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər). Bakı: Nurlar NPM, 2022, 368 s.
11. Hacıyev İ. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı: Elm, 2018, 372 s.
12. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: Əcəmi NPB, 2013, 184 s.
13. Müəlliflər kollektivi. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan xanlıqlarına köçürülməsi. Bakı: 2009, 576 s.
14. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı: Elm və təhsil, 2014, 180 s.
15. Григорьев В. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 263 с.
16. Мильман А. Политический строй Азербайджана и Х1Х – начале ХХ веков. Баку: Азернешр, 1966, 398 с.
17. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. Москва: 2006, 432 с.
18. Петрушевский И.П. Система русского колониального управления в Азербайджанов I пол. XIX в. Вах: Колониальная политика Российского царизма в Азербайджане. М.-Л., 1936
19. Смирнов К. Материалы по истории и этнографии Нахичеванского края. Тифлис: 1934, 156 с.
20. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, 1236 с.

## SUMMARY

**İsmayıl Haciyev**

## THE STRUCTURE OF NAKHCHIVAN PROVINCE AND ITS GOVERNANCE SYSTEM (XIX CENTURY)

The article deals with the form and essence of the governance structures created by Tsarist Russia as a result of its occupation of the northern Azerbaijani khanates.The governance system and structure is also investigated as a result of the establishment of Nakhchivan province. It is determined that the role played by the Kangars during the Nakhchivan Khanate was gradually eliminated in the

following years, the attitude toward Ehsan Khan and Sheikhali Bey changed, and they were removed from the regentship.

The article examines the administrative-territorial reforms implemented by Tsarist Russia, the establishment of the commandant method-administration, the abolition of the Armenian province established in 1828, the abolition of the commandant method-administration in connection with the expansion of the powers of the Caucasian Viceroyalty, the creation of governorates and uyezds, and the changes in their administrative-territorial structures.

***Key words:*** *Tsarist Russia, khanates, Nakhchivan khanate, Nakhchivan province, commandant, viceroyalty, governorship, county*

## РЕЗЮМЕ

**Исмаил Гаджиев**

## СТРУКТУРА УПРАВЛЕНИЯ И СТРОЕНИЕ НАХЧЫВАНСКОЙ ПРОВИНЦИИ (XIX ВЕК)

В статье рассматриваются форма и сущность строения и управленческих структур, созданных царской Россией в результате оккупации ею Северо-Азербайджанских ханств. В связи с образованием Нахчыванской провинции исследуется и ее структура управления. Установлено, что роль Кенгерли во времена Нахчыванского ханства в последующие годы постепенно была устранена, изменилось отношение к Эхсан-хану и Шейхали-бею, они были отстранены от наибства.

В нем также говорится об административно-территориальных реформах, проведенных царской Россией, об учреждении комендантского метода-управления, об упразднении созданной в 1828 году армянской губернии, о расширении полномочий Кавказского наместничества, о создании губерний и уездов, об изменениях в их административно-территориальных структурах.

***Ключевые слова:*** *царская Россия, ханства, Нахчыванское ханство, Нахчыванская провинция, комендант, наместничество, губерния, уезд*

---

***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 15-20
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 15-20
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 15-20

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi*
*seferli949@mail.ru*

**UOT: 94(479.242)**

# NAXÇIVAN ŞƏHƏRİ AZƏRBAYCANIN MÜHÜM MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

*Məqalədə Naxçıvan şəhərinin yaranması, şəhər kimi formalaşması və Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilməsindən bəhs olunur. Qeyd edilir ki, əlverişli təbii-coğrafi mövqedə yerləşməsinə görə insanlar bu ərazidə erkən vaxtlardan məskunlaşmış, burada ilkin mədəniyyətlər yaranmışdır. Nəticədə əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan təxminən 5000 il bundan əvvəl şəhər kimi formalaşmışdır. İlk orta əsrlər dövründə islam dininin qəbulundan sonra Azərbaycan mədəniyyəti islami xarakter daşımış, yüksək dərəcədə inkişaf baş vermişdir. Bu inkişaf orta əsrlər zamanı daha da yüksəlmiş, Naxçıvan şəhəri Naxçıvanşahlıq kimi kiçik feodal dövlət qurumunun, Azərbaycan Atabəyləri dövləti kimi nəhəng bir dövlətin paytaxtına çevrilmişdir. Burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından olan Naxçıvan memarlıq məktəbi yaranmış və formalaşmışdır. Orta əsr qaynaqları və bizə qədər gəlib çatan nümunələr təsdiq edirlər ki, şəhərdə çoxlu memarlıq abidələri, o cümlədən türbələr, məscidlər, xanəgahlar, buxxanalar və s. memarlıq nümunələri  yaradılmışdır. Həmin memarlıq abidələrindən bir neçəsi zəmanəmizədək gəlib çatmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra xalqımızın içindən çıxmış sənətkarlar tərəfindən yaradılmış mədəni irsə diqqət və qayğı artırılmış, son illərdə 70-dən artıq müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunaraq xalqa qaytarılmışdır. Həmçinin Naxçıvan şəhərində zəngin infrastruktur yaradılmışdır. Bütün bunlara görə Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. Bu möhtəşəm tədbirlə əlaqədar 2018-ci lldə Naxçıvanda silsilə tədbirlər keçirilmiş, bu tədbirlər 15 dekabr 2018-ci ildə "Naxçıvan İslam mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbiri ilə başa çatmışdır.*

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan şəhəri, mədəniyyət, inkişaf, paytaxt*

Aparılan müxtəlif istiqamətli tədqiqatlar, xüsusilə arxeoloji araşdırmalar təsdiq edir ki, Naxçıvan bölgəsi insanların ən qədim zamanlardan məskunlaşdığı və yaşadığı yerlərdən biri olmuşdur. Keçən yüzilliyin 80-ci illərinin sonlarından başlayaraq Şərur rayonunun Tənənəm kəndi yaxınlığında yerləşən Qazma mağarasında aparılan arxeoloji tədqiqatlar göstərdi ki, ibtidai insanlar Naxçıvan bölgəsində 120-100 min il bundan əvvəl, Mustye dövründən məskunlaşmışdır. Şərur rayonundakı başqa bir abidədə – Ovçular təpəsində yerli və fransalı arxeoloqlardan təşkil olunmuş beynəlxalq ekspedisiyanın apardığı tədqiqatlar bu tarixi daha da qədimləşdirdi. Ovçular təpəsində arxeoloji tədqiqatlar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri təsdiq etdi ki, insanların bu ərazidə məskunlaşmaları təxminən 500-300 min il bundan əvvəl başlanmışdır.

Son illərdə aparılan tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Naxçıvan ərazisi Eneolit, Boyalı qablar və Kür-Araz mədəniyyətinin yarandığı və ətraf yerlərə yayıldığı mərkəz olmuşdur. XXI yüzilliyin ikinci onilliyində Naxçıvan şəhərinin cənubunda yerləşən Naxçıvantəpədə aparılan arxeoloji tədqiqatlar isə Naxçıvan ərazisinin daha qədim bir mədəniyyətin-Dalmatəpə mədəniyyətinin yayıldığı ərazilərdən biri olduğunu təsdiq etmişdir. Qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri Naxçıvan şəhərinin bir yaşayış məskəni kimi əsasının ən azı 8 min il bundan əvvəl qoyulduğunu söyləməyə əsas vermişdir. Belə zəngin bir mədəniyyətə malik olan Naxçıvan qanunauyğun olaraq nəinki Azərbaycanda, geniş miqyasda Yaxın Şərqdə ilkin şəhər

mədəniyyətinin meydana gəldiyi ilk mərkəzlərdən birinə çevrilmişdir. Yaxınlıqdakı Duzdağda duz istehsalının başlanması, sənətkarlığın, ticarətin inkişafı, mal mübadiləsinin tərəqqisi burada ilkin şəhər mədəniyyətinin yaranması üçün münbit şərait yaratmışdır. Beləliklə, təxminən beş min il bundan əvvəl, eramızdan əvvəl III minillikdə şəhər mədəniyyətinin yarandığı Naxçıvanda mədəniyyət sahəsində böyük inkişaf baş vermiş, müxtəlif dövrlərdə şəhərdə və bütün bölgə ərazisində çoxlu tarix-mədəniyyət abidələri meydana gəlmişdir.

Naxçıvanın ilkin şəhər mədəniyyətinin mərkəzlərindən olması fikri ilk dəfə keçən yüzilliyin 60-cı illərində AMEA-nın müxbir üzvü Vəli Əliyev tərəfindən irəli sürülmüşdür. O, arxeoloji qazıntılar zamanı əldə etdiyi maddi-mədəniyyət nümunələrinə əsaslanaraq Naxçıvanın e.ə. III minilliyin sonu – II minilliyin əvvəllərində, təxminən 3500-4000 il bundan əvvəl şəhər kimi formalaşması fikrini irəli sürmüşdü (2). Ancaq, onun bu fikri böyük əks-səda doğurmuş, bəzi tarixçilər tərəfindən qısqanclıqla qarşılanmış, hətta yüksək rütbəli alimlər tərəfindən tənqid olunmuşdu. Sonralar Naxçıvan ərazisinin müxtəlif yerlərində aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri professor Vəli Əliyevin bu məsələdə haqlı olduğunu təsdiq etdi və göstərdi ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti nəinki 3500-4000 il bundan əvvəl, əksinə daha qədim zamanlardan yaranmağa başlamışdır.

1996-cı ilin iyul ayında Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu Naxçıvan bölgəsi tarixinin müxtəlif problemlərinin milli təfəkkür baxımından öyrənilməsində dönüş nöqtəsi oldu. Bundan sonra müstəqilliyin yaratdığı imkanlardan istifadə olunaraq elmi-tədqiqat işlərində Naxçıvan bölgəsində şəhərlərin meydana gəlməsi ilə əlaqədar aparılan tədqiqatlar genişləndi. Yerli və xarici ölkə alimlərinin apardığı elmi-tədqiqat işləri göstərdi ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti təxminən 5000 il bundan əvvəl yaranmağa başlamışdır. 2009-cu ildə Naxçıvan şəhərində keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu bu istiqamətdə aparılan tədqiqatların ümumiləşdirilməsində və yeni tədqiqatların istiqamətlərinin müəyyənləşdirilməsində mühüm mərhələ oldu (8).

Simpoziumdakı çıxışlardan əldə olunan ən mühüm nəticə ondan ibarət oldu ki, Naxçıvan bölgəsinin ən böyük yaşayış məskəni olan Naxçıvan şəhərinin bir yaşayış məskəni kimi əsası Dünya tufanı, Nuh peyğəmbər və tərəfdarlarının ilk dəfə bu ərazidə quruya çıxması ilə əlaqədar qoyulmuş, Naxçıvan şəhərinin adında məhz bu məsələ (Nuhçıxan – Naxçıvan) dayanmış, yaxınlıqdakı duz mədənlərinin istismarına bu zamanlardan başlanmış, elə həmin vaxtlarda emal mədəniyyəti və alətləri yaranmış, nəticədə yaşayış məskəni mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdir.

Bunun ardınca Naxçıvan şəhərində 2011-ci ilin iyul ayında keçirilən "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumda (5) və 2012-ci ilin iyulunda isə yenə də Naxçıvan şəhərində keçirilən "Naxçıvan: ilkin şəhər və Duzdağ" beynəlxalq simpoziumunda (6) Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranması, ilkin şəhər mədəniyyətinin yaranmasında şəhərin yaxınlığında yerləşən Duzdağın rolu məsələsi ətraflı təhlil olundu. Müzakirələr nəticəsində belə bir qənaət əldə edildi ki, Duzdağda duz istehsalının başlanması və genişlənməsi Naxçıvanda ticarətin və sənətkarlığın inkişafı üçün münbit şərait yaratmış, həmçinin Naxçıvanın qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrinin yaranmasına əhəmiyyətli təsir göstərmişdir. Nəticədə əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvanda şəhərləşmə prosesi başlanmış və təxminən 5000 il bundan əvvəl o, şəhərə çevrilmişdir. Mühüm ticarət yollarının keçdiyi bir coğrafi mövqedə yerləşməsi də bölgənin bu cəhətdən yüksək dərəcədə inkişafını şərtləndirən amillərdən olmuşdur.

Naxçıvanlıların ulu babalarının – qədim türk tayfalarının yaşadığı Naxçıvan şəhəri dünyanın ən mühüm mədəniyyət mərkəzləri olan Mesopotamiya, Babil, Het, Egey sahilləri və s. ilə sıx mədəni-iqtisadi əlaqələr saxlamışdır. Həmin vaxtlar artıq tərəqqi dövrünü keçirən Naxçıvan duz mədənləri şəhər əhalisini duzla təmin etmiş, həmçinin ətraf yerlərə də buradan duz göndərilmişdir. Beləliklə, demək olar ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti Naxçıvan şəhərinin timsalında təxminən 5000 il bundan əvvəl yaranmağa başlamışdır.

Təxminən beş min il bundan əvvəl şəhər kimi formalaşan Naxçıvan şəhəri böyük inkişaf yolu keçmiş, Azərbaycanın yüksək səviyyədə inkişaf etmiş elm, təhsil və mədəniyyət mərkəzlərindən

birinə çevrilmişdir. Naxçıvan şəhərinin adı ilk dəfə e.ə. I yüzillikdə yaşamış İosif Flavinin və miladdan sonra II əsrdə yaşamış Klavdi Ptolomeyin əsərlərində xatırlanmışdır. Bəzi qaynaqlarda şəhərin təşəkkül tarixinin ilk orta əsrlər dövrünə təsadüf etdiyi bildirilsə də onun əsasının miladdan öncə 1539-cu ildə qoyulması fikrini irəli sürən qaynaqlar da vardır (11, s.113).

Qaynaqlarda Naksuana, Nəxcuan, Nəşəva, Nəşəvi, Nəqşi-cahan və s. kimi xatırlanan Naxçıvan miladdan qabaqkı yüzilliklərdə mühüm inkişaf yolu keçmiş, eramızın əvvəllərində artıq hərtərəfli formalaşmış bir şəhər olmuşdur. İlk orta əsrlər zamanı şəhərdə 30 min yaşayış evi, 150 min əhali olmuşdur (11, s.113). Həmin dövrdə Naxçıvan şəhəri Dvinlə (Dəbil) birlikdə Sasanilər dövlətinin mühüm dayaq məntəqələrindən biri olmuş, hətta bəzi vaxtlar mərzbanlar öz iqamətgahlarını Naxçıvan şəhərində yerləşdirmişdilər. Şəhər bu üstünlüyünü sonralar da saxlamış, bu səbəbdən də ərəblər Azərbaycanı tutduqdan sonra ətraf əraziləri idarə etmək üçün Naxçıvan şəhərini özləri üçün hərbi-inzibati mərkəz seçmişdilər.

VII əsrin ortalarından başlayaraq Azərbaycanın, o cümlədən Naxçıvanın islamlaşmasından sonra Azərbaycan mədəniyyəti özünün bütün nailiyyətləri ilə birlikdə ümumislam mədəniyyəti xəzinəsinə daxil oldu. Bundan sonra Azərbaycan mədəniyyəti islami xarakter daşımağa başladı və yüksək dərəcədə inkişaf etdi. İlk orta əsrlərin əvvəllərində əldə olunan bu yüksəliş nəticəsində orta əsrlər zamanı Azərbaycanın mühüm ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilən Naxçıvan şəhəri siyasi-inzibati mərkəz, hətta dövlət paytaxtına çevrilmək səviyyəsinə yüksəlmişdir. X-XI əsrlərdə bu ərazidə adında Naxçıvan toponimini əks etdirən dövlət qurumu yaranmışdır. Bu dövlət qurumu tariximizdə “Naxçıvanşahlıq” adı ilə tanınan, 983-cü ildən 1066-cı ilə qədər mövcud olan kiçik feodal dövləti olmuşdur. Mərkəzi Naxçıvan şəhəri olan bu dövlət qurumunun ərazisi qərbdə Dəbil (Dvin), şərqdə Ordubad da daxil olmaqla böyük bir ərazini əhatə edirdi.

Yaranmış tarixi şəraitdə Naxçıvan şəhəri XII əsrin ortalarına yaxın, 1136-cı ildə tarix səhnəsinə çıxan daha möhtəşəm bir dövlətin, Azərbaycan Atabəyləri dövlətinin paytaxtına çevrilmişdi. Əsası Səlcuq sultanı II Toğrulun oğlu Arslan şahın atabəyi Şəmsəddin Eldəniz tərəfindən qoyulmuş Azərbaycan Atabəyləri və yaxud Eldənizlər dövləti yarandığı vaxtdan Naxçıvan ərazisi onun tərkibinə daxil olmuş, hətta bir müddət Yaxın Şərqin mühüm ticarət və sənətkarlıq mərkəzi sayılan Naxçıvan şəhəri dövlətin paytaxtına çevrilmişdi. Orta əsr qaynaqlarına söykənən bir sıra tədqiqatçılar Naxçıvan şəhərinin 1175-ci ilədək Azərbaycan Atabəyləri dövlətinin paytaxtı olması haqqında məlumat verirlər.

Bu dövrdə ərazidə əsas şəhər olmaq etibarilə Naxçıvan çiçəklənmə dövrü keçirmişdir. Dövlətin baş şəhəri kimi Naxçıvan daim Eldəniz hökmdarlarının diqqət mərkəzində olmuş, onun abadlığına və tərəqqisinə xüsusi fikir verilmişdir. Ətrafındakı Əlincə, Sürməri, Təqmər və Fəqnən kimi nəhəng qalalarla müdafiə olunan Naxçıvan şəhəri XII əsrdə mühüm elm, təhsil, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir. Hətta bu dövrdə burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan memarlıq məktəbi yaranmış və formalaşmışdı. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri dövlətinin paytaxtına çevrildikdən sonra bu məktəb Azərbaycanın ən qabaqcıl memarlıq məktəbinə çevrilmişdi və dünya mədəniyyəti tarixinə Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi görkəmli bir memar, düha bəxş etmişdi. Böyük bir dövlətin paytaxtı statusunu daşıyan Naxçıvan şəhərində Azərbaycan memarlığının incilərindən sayılan Yusif Küseyir oğlu, Möminə xatın türbələri, Came məscidi, Qoşa minərəli baştağ və s. kimi möhtəşəm abidələr inşa edilmişdi. Naxçıvan şəhəri ilə birlikdə bütövlükdə bölgədə çoxlu türbələr, məscidlər, xanəgahlar, buzxanalar, hamamlar, körpülər və s. müxtəlif təyinatlı tarix-mədəniyyət abidələri yaradılmışdı.

Bu səbəbdən də, Naxçıvan şəhəri həmin vaxt çiçəklənmə dövrü keçirmişdir. XIII əsrdə anonim müəllif tərəfindən qələmə alınmış “Əcaib əd-Dünya” (“Dünyanın qəribəlikləri”) əsərində Naxçıvan şəhəri haqqında belə bir məlumat verilmişdir: “Eldənizin dövründə (Naxçıvan) özünün ən qüdrətli çağını yaşadı. Orada şah iqamətgahı quruldu və hökumət binası (dövlətxana) inşa edildi... Deyirlər ki, Naxçıvan məzarlığı kimi heç bir yerdə qəbiristanlıq yoxdur. ... Şəhərdə və kəndlərdə Naxçıvan məzarlığında olduğu qədər türbə yoxdur. Məscid, mədrəsə və çoxlu bağlara rast gəlinir” (9, s.135-136). Tarixə müsəlman intibahı adı ilə daxil olmuş həmin dövrdə yüksək səviyyədə tərəqqi etdiyinə,

çox gözəl və möhtəşəm tarix-mədəniyyət abidələri ilə zəngin olduğuna görə şəhər "Nəqşi Cahan" ("Dünyanın bəzəyi") epiteti ilə tanınmışdır. Orta əsr tarixçisi Həmdullah Qəzvini Naxçıvan şəhəri haqqında bəhs edərkən onu "Nəqşi Cahan" ("Dünyanın bəzəyi") adlandırmışdır (10, s.51).

Naxçıvan şəhəri bütün orta əsrlər dövründə bölgənin əsas ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyət mərkəzi kimi öz yerini qoruyub saxlamışdır. Təsadüfi deyildir ki, XV əsr müəllifi Əbdürrəşid Bakuvi şəhəri "Azərbaycanda divarları və iç qalası olan gözəl şəhər" adlandıraraq yazır: "Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var" (1, s.132).

1590-cı il İstanbul müqaviləsinə əsasən ərazini ələ keçirən osmanlıların tərtib etdikləri "İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvan şəhərində mövcud olan bir neçə gözəl məscidin adını qeyd etmişlər. Qaynağın şəhadətinə görə 1590-cı ildə Naxçıvan şəhərində 3 came və 10 məscid (cameyi-Qızıl Arslan, cameyi-Məhmət kətxuda, cameyi-Şərif, Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik məscidi (?) İsmayilan məscidi) olmuşdur (4, s.20). Qaynaqda adı çəkilən cameyi-Qızıl Arslan ehtimal ki, XII yüzilliyin 80-ci illərinin sonlarında Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş Came məscididir. Şəmsəddin Eldənizin oğlu Qızıl Arslanın hakimiyyəti illərində inşa edildiyi üçün onun adı ilə adlandırılmışdır.

Naxçıvan şəhəri haqqında bir sıra qaynaqlar maraqlı məlumatlar verirlər. Həmin qaynaqlarda şəhər "əzəmətli və gözəl paytaxt şəhəri", "dünyanın ən gözəl və məşhur şəhərlərindən biri", "çoxlu bağları, meşələri, meyvəsi, təmiz havası, şirin suyu, məşhur binaları, mədrəsəsi və xanəgahı olan", "yer üzündə bundan daha çox əhalisi olan şəhər yoxdur", "Təbriz və Bağdaddan sonra Naxçıvan kimi, cəlallı və əzəmətli şəhər yoxdur", "şəhərdə çoxlu saray, köşk və eyvan vardır... Köşklərin çoxu qəsrlər kimi üç-dörd mərtəbəlidir" və s. bu kimi ifadələrlə tərənnüm olunmuşdur. Şəhər monqolların, teymurilərin hücumları, Səfəvi-Osmanlı müharibələri zamanı böyük talanlara, dağıntılara məruz qalsa da, yenidən öz əzəmətini qismən də olsa bərpa edə bilmişdir. XVII yüzilliyin ortalarında şəhərdə olan türk səyyahı Evliya Çələbi orada 10200 ev, 70 came məscidi, 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000 dükan olduğunu yazmışdır (3, s.12). Səyyah məscidlərdən bəhs edərkən yazır ki, şəhərdə qəribə camelər vardır ki, hər biri bir cənnət bağçasıdır. Bəzi camelər zərgərlik məmulatları, çini, mina və kaşı ilə bəzədilmişdir. Həmin məscidlərin gözəlliyini xüsusi olaraq vəsf edən səyyah şəhərdəki məscidlərdən Əhməd paşa, Fərhad paşa, Gözəl Əli paşa, Cığaloğlu, Xadim Cəfər paşa camelərinin adını da qeyd etmişdir. "Səyahətnamə"dən aydın olur ki, o şəhərdə olarkən orada İstanbul minarələrinə bənzər 33 minarə ucalırmış (12, s.236-237). 1827-ci ildə osmanlılar tərəfindən hazırlanmış "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə də şəhərdə mövcud olan bəzi tarix-memarlıq abidələrinin, o cümlədən Seyid Haşım zaviyəsinin, Sultan Murad xan camesinin, Həzrət paşa camesinin adı qeyd olunmuşdur (7, s.52).

Digər orta əsr qaynaqları da təsdiq edirlər ki, tarixin müxtəlif dövrlərində, ümumiyyətlə, Naxçıvan bölgəsində, xüsusilə onun mərkəzi olan Naxçıvan şəhərində çox zəngin mədəni irs formalaşmışdır. Zəmanəmizədək müəyyən bir hissəsi gəlib çatan bu irs (Yusif Küseyir oğlu türbəsi, Möminə xatın türbəsi, Buzxana, İmamzadə kompleksi, Zaviyə məscid-mədrəsəsi, Xan Sarayı və s.) Azərbaycanın müstəqilliyinin bərpa olunmasından sonra yüksək dövlət qayğısı ilə əhatə olunmuş, abidələr bərpa olunaraq onlara yeni həyat verilmişdir. Bütün bunlara, həmçinin yeni və hərtərəfli infrastruktur, münbit şərait yaradıldığına və s. amillərə görə Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olundu. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 iyun 2016-cı ildə "Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzaladı. Bundan sonra "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi hazırlandı. Üzərində loqotip əks olunmuş 100 min zərf, 100 min poçt markası, markalardan ibarət 200 buklet, 500 döş nişanı və suvenirlər, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018"in rəsmi internet səhifəsi hazırlandı. 2017-ci il iyulun 7-də "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfrans, dekabrın 6-da "Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçirildi. "İslamda müdrik kəlamlar", "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "Naxçıvan imamzadələri", "Naxçıvan buzxanaları", "Naxçıvan

hamamları", "Naxçıvan türbələri" kitabları, "Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları, eləcə də məşhur naxçıvanlı mütəfəkkir Nemətullah Naxçıvaninin "Qurani-Kərim"in təfsirinə həsr olunmuş çoxcildliliyi Azərbaycan dilinə tərcümə edilərək nəşr etdirildi. Həmçinin "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan" televiziya filmləri, "Naxçıvan-2018. İslam mədəniyyəti" video-çarxı hazırlandı. 2018-ci il fevralın 21-də ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi" mövzusunda interaktiv dərs keçirildi. Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamında, Nehrəm imamzadəsində, Naxçıvan şəhər imamzadəsində və Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksində əsaslı bərpa işləri və s. tədbirlər həyata keçirildi (13). 15 dekabr 2018-ci ildə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018"in bağlanış tədbiri oldu.

Hazırda Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtı və Azərbaycan Respublikasının çox mühüm sənaye, elm, təhsil və mədəniyyət mərkəzlərindən biri kimi özünün inkişaf dövrünü yaşayır.

## ƏDƏBİYYAT


1. Bakuvi Ə. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhləri Ziya Bünyadovundur. Bakı: "Şur" nəşriyyatı, 1992, 176 s.
2. Əliyev V. Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemləri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: Elm, 1996, s. 51-54.
3. Çələbi E. Səyahətnamə. Bakı: Elm, 1997, 192 s.
4. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
5. Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (2024 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012, 398 s.
6. Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2013, 360 s.
7. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov. Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
8. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, s. 10-16.
9. Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə. Bakı: Nurlan, 2003, 192 s.
10. Казвини Хамдаллах. Нузхат ал-кулуб. Перевод с английского. З.М.Буниятова перевод с персидского И.П.Петрушевского. Баку: Элм, 1983, с. 37-65.
11. Никитин К.А. Народная предания в Нахичеванском уезде, Эриванской губернии / Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, 1882, вып. ЫЫ, отдель ЫЫ, с. 107-120.
12. Челеби Э. Книга путеществия. Выпуск 3, Москва: Наука, 1983, 375 с.
13. http://din.nmr.az/2018/12/17/naxcivan-islam-paytaxti-2018in baglanist%C9%99dbiri-kecirilib/


## SUMMARY

**Hajifakhraddin Safarli**

## NAKHCHIVAN CITY AS ONE OF THE IMPORTANT CULTURAL CENTERS OF AZERBAIJAN

The article discusses the establishment of Nakhchivan, its formation as a city and its transformation into one of the important cultural centers of Azerbaijan. It is noted that due to its

propitious natural-geographical location, people settled in this area since ancient times, where the first cultures were formed. As a result, Nakhchivan which was founded earlier as a settlement, was formed as a city about 5,000 years ago. After the adoption of Islam in the early Middle Ages, the culture of Azerbaijan had an Islamic character and developed to a higher degree. This development increased even more during the Middle Ages, when the city of Nakhchivan became the capital of a small feudal state institution such as the Nakhchivan Empire,and a giant state like the Atabeys of Azerbaijan. Being one of the most magnificent branches of Azerbaijani architecture, the Nakhchivan School of Architecture, was established and formed here. Medieval sources and examples that have come down to us confirm that architectural monuments were created in the city including tombs, mosques, khanagahs, ice houses, etc. Some of these architectural monuments have survived. After Azerbaijan regained its independence, attention and care were paid to the cultural heritage created by artists from among our people, and in recent years, more than 70 historical and cultural monuments of various purposes have been restored and given back to the people. Also, a rich infrastructure was created in Nakhchivan. Due to all this, the city of Nakhchivan was chosen as the Capital of Islamic Culture for 2018. In connection with this great event, a series of events were held in Nakhchivan in 2018, which ended on December 15, 2018 with the closing event of "Nakhchivan Capital of Islamic Culture - 2018".

***Key words:*** *Azerbaijan, Nakhchivan city, culture, development, capital.*

**РЕЗЮМЕ**

**Гаджифахраддин Сафарли**

**ГОРОД НАХЧЫВАН КАК ОДИН ИЗ ВАЖНЫХ КУЛЬТУРНЫХ ЦЕНТРОВ АЗЕРБАЙДЖАНА**

В статье говорится о становлении города Нахчыван как города и превращении его в один из важных культурных центров Азербайджана. Отмечается, что благодаря выгодному природно-географическому расположению люди заселили эту территорию с ранних времен, здесь возникли первичные культуры. В результате Нахчыван, основа которого была заложена еще раньше, как поселение, сформировался как город около 5000 лет назад. После принятия ислама в раннем средневековье азербайджанская культура приняла характерные особенности ислама и получила высокое развитие. Это развитие еще более усилилось в средние века, когда город Нахчыван стал столицей небольшого феодального государственного образования, такого как Нахчыванское ханство, и огромного государства – Азербайджанского государства Атабеков. Здесь возникла и сформировалась одна из самых величественных ветвей азербайджанской архитектуры – Нахчыванская архитектурная школа. Средневековые источники и дошедшие до нас образцы подтверждают, что в городе было создано множество архитектурных памятников, в том числе гробниц, мечетей, ханегахов, ледохранилища и др. архитектурные образцы. Некоторые из этих архитектурных памятников дошли до нашего времени. После восстановления Азербайджаном независимости было повышено внимание и забота о культурном наследии, созданном выходцами из нашего народа, в последние годы восстановлено и возвращено народу более 70 памятников истории и культуры различного назначения. Также в городе Нахчыван создана богатая инфраструктура. Благодаря этому город Нахчыван был выбран Столицей Исламской Культуры на 2018 год. В связи с этим грандиозным мероприятием в 2018 году в Нахчыване был проведен ряд мероприятий, которые завершились 15 декабря 2018 года заключительным мероприятием “Нахчыван - Столица Исламской Культуры-2018”.

***Ключевые слова:*** *Азербайджан, город Нахчыван, культура, развитие, столица.*

***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 21-26
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 21-26
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 21-26

**FƏXRƏDDİN CƏFƏROV**
**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242).**

# XX YÜZİLLİKDƏ QƏRBİ AZƏRBAYCANDA, NAXÇIVAN BÖLGƏSİNDƏ VƏ ZƏNGƏZUR QƏZASINDA ERMƏNİ VƏHŞİLİKLƏRİ

*Məqalədə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımından bəhs olunur. Bu məsələlər hələ də Azərbaycan tarixinin tamamilə öyrənilməmiş səhifələrindən biri kimi ciddi maraq doğurur və geniş tədqiq olunmağına ehtiyac duyulur. Araşdırılan sənədlərdən məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq 90-cı ilin əvvəllərinə kimi ermənilərin Azərbaycanın bir çox bölgələri ilə yanaşı, İrəvan quberniyasında, Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında törətdikləri etnik təmizləmə, soyqırımın və təcavüzlərin şahidi oluruq. Xüsusi ilə 1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda, Zəngəzur, Şərur-Dərələyəz və Ordubad bölgələrində törətdikləri ağır cinayətlər daha dəhşətli olmuşdur. Bütün bu məsələlər arxiv materialları əsasında araşdırılmış və təhlil süzgəcindən keçirilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, Ordubad, müsəlman, soyqırım*

Ümumilli liderimiz Heydər Əliyevin “1948-1953-cü illərdə Azərbaycan ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi deportasiya haqqında” 18 dekabr 1997-ci il tarixli və “XX əsrdə ermənilərin azərbaycanlılara qarşı soyqrım haqqında” 26 mart 1998-ci il tarixli fərmanlarından sonra Azərbaycan Respublikasının, eləcə də Naxçıvan MR Dövlət Arxivlərində ermənilərin XX yüzillikdə soyqırım və deportasiya siyasəti ilə bağlı sənədlər artıq geniş araşdırılır.

Araşdırılan sənədlərdən məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq 90-cı ilin əvvəllərinə kimi ermənilər Azərbaycanın bir çox bölgələri ilə yanaşı, İrəvan quberniyasında, Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında törətdikləri etnik təmizləmə, soyqırımlar etmişdir.

Ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı Azərbaycan tarixinin öyrənilməmiş səhifələrindən biri kimi hazırda ciddi maraq doğurur və geniş tədqiq olunmağa möhtacdır. Məhz bu baxımdan ulu öndər Heydər Əliyevin imzaladığı fərmanların çox böyük tarixi-siyasi əhəmiyyəti vardır. Bu sənəd yurdumuzun tarixinə, xalqımızın tarixinə sonsuz dərəcədə bağlılığın bir daha sübutudur.

XX yüzillikdə baş vermiş 1905-1907, 1918-1920, 1948-1953 və nəhayət 1988-1993-cü illərdə ermənilərin nəinki Naxçıvan bölgəsində, həmçinin Qərbi Azərbaycanda, Zəngəzur qəzasında, Qarabağda törətdikləri soyqırım daha dəhşətli olmuşdur. Arxiv sənədlərindən məlum olur ki, XX əsrin əvvəllərində -1905-1907-ci illərdə Naxçıvan, Şərur və Ordubad bölgələrində rus imperiyası və Tiflis daşnak şurasının rəhbərləri başda olmaqla yerli erməni daşnakları tərəfindən erməni və müsəlmanlar arasında dəfələrlə nifaq salınaraq böyük qırğınlar törədilmişdir.

Həmin dövrün arxiv sənədlərindən biri 18 iyul 1905-ci il tarixdə Naxçıvanda yerləşən Qafqaz atıcı batalyonunun komandirinin baş ştaba göndərdiyi raportdur. Raportda komandir yazır: “17 iyun 1905-ci il tarixdə Naxçıvan qəzasının Zeynəddin kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişənin aradan qaldırılmasında vətəndaş hakimiyyətinə kömək etmək məqsədi ilə, mənə həvalə edilmiş Naxçıvan şəhərində yerləşən batalyon 17 iyun tarixdə axşam 8-də silah işlətməyə məcbur olub, nəticədə Zeynəddin kəndinin 20-dən çox müsəlman sakini öldürülmüşdür” (1, s,10).

Həmçinin 5 iyul 1905-ci il tarixdə Nurs kəndində ermənilər tərəfindən 4 nəfər azərbaycanlının öldürülməsi, bundan başqa Ordubadda, Cəhridə, Şıxmahmudda, Çeşməbasarda, Tividə və s. kəndlərdə ermənilər azərbaycanlılara qarşı böyük qırğınlar törətməsi də sənədlərdə əksini tapır.

Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tunbul və onlarla başqa yaşayış yerlərini də əhatə etdi. 1905-ci ilin noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman binalarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur (2, v.78-84).

Sənədlərdən məlum olur ki, 1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində də rus imperiyası və Tiflis daşnak şurası rəhbərlərinin himayəsi ilə erməni daşnakları tərəfindən böyük qırğınlar törədilmişdir.

Sənədlərdən aydın olur ki, 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyul ayına kimi başda erməni daşnakları olan Andranik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və başqalarının başçılıq etdiyi erməni daşnaklarının quldur dəstələri tərəfindən qeyd olunan bu bölgələrdə 300-dən çox müsəlman kəndlərinə basqınlar edilmiş, yandırılmış, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşdür (3, v.103-105).

1918-ci ilin yanvar ayının 17-də Naxçıvan qəzasının Əznəbürd kənd erməniləri tərəfindən həmin kənddə yaşayan 22 nəfər müsəlman qadın və kişi qətlə yetirilmişdir (3, V.753). Ümumiyyətlə 1918-ci ilin əvvəllərindən başlayaraq Tiflis daşnak şurasından Naxçıvana göndərilmiş Y.Xarazyan başda olmaqla yerli daşnak erməniləri həm şəhərdə, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhalisinə basqınlar etmiş, neçə-neçə günahsız insanları qətlə yetirmişlər.

1918-ci ilin mart ayının 18-dən 21-nə kimi ermənilər Əlincəçay boyunca müsəlman kəndləri olan Bənəniyar, Qızılca, Saltax, Noraşen, Xoşkeşin, Qazança, və s. kəndlərə hücum edərək kəndləri yandırmış, qarət etmiş, əhalisini vəhşiliklə qətlə yetirmişdir.

Aprelin 3-də (1918) müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirov erməni Milli Komitəsinə müraciət edərək meyidlərin verilməsini tələb edir və 6 meyid ermənilərdən alınır. Gətirilən meyidlər ermənilər tərəfindən tanınmaz hala salınmış, yandırılmış, hətta Məşədi Rəhim Babayevin başını kəsmişlər. Şəhid olanlar Hacı Məhəmməd Quluzadə, İbrahim Xəlil Hacızadə, Kərbalai Əli Sənəm oğlu, Muxtar Hacı Bəyzadə və başqaları idi (4, s.33; 1, s.12).

Xüsusilə 1918-ci ilin iyun ayında Naxçıvan qəzasına soxulan erməni daşnakı Andranik Ozanyanın başçılıq etdiyi erməni qoşunları Naxçıvan qəzasının Yaycı kəndini və Aşağı Aza kəndinin əhalisini qırdıqdan sonra Naxçıvan şəhərinə hərəkən edərək qoşunlarını Camaldın kəndinin ərazisində yerləşdirərək Nehrəm kəndini mühasirəyə almışdır. Andranik Naxçıvanda XIX əsrdə köçürmə ilə məskunlaşan Təzəkənd adlanan kəndin erməniləri ilə birləşmək ümidində olduğu üçün Nehrəm kəndinə hücüm edir. Lakin bir neçə gün vuruşmadan sonra böyük təlefatla geri çəkilərək Naxçıvan şəhərinin şimalında hərbi düşərgə qurur. Andranikin Yaycı təcavüzü haqqında 17 avqust 1918-ci il tarixdə "Borba" qəzeti yazırdı: "...Yaycı kəndi darmadağın edilib, əhalisi qılıncdan keçirilmişdir" (4). Naxçıvan şəhərini mühasirədə saxlayan Andranik şəhər əhalisinin təslim olması barədə ultimatum verir. Lakin şəhər əhalisi bu ultimatumunu qəbul etmir və son nəfərə qədər ölənədək vuruşacaqlarını bildirirlər. Bu cavaba görə Andranik qoşunlarına 7 iyul 1918-ci il tarixdə əmr verir ki, Naxçıvan şəhəri alınsın. Lakin Naxçıvan şəhərini müdafiə edən hərbi komandan Kəlbalı xan Cəfərqulu xan oğlu Naxçıvanskinin rəhbərlik etdiyi könüllü müsəlman hərbi döyüşçüləri bir gün müddətində erməniləri şəhərə buraxmamış və onlara qarşı mərdliklə vuruşmuşdular.

5 iyul 1918-ci il tarixdə Andranik qoşunlarını izləyən türk hərbi ekspedisiyasının IX-XI alayı Naxçıvanın Şahtaxtı körpüsündən keçərək Duzdağ təpələrindən Andranikin düşərgə saldığı əraziya top atəşi ilə hücüm etmiş, Andranik türklərin Naxçıvana gəldiyini bu top atəşi ilə bildiyindən, əmr verir ki, bütün kazarmalar yandırılaraq Naxçıvanı tərk etsinlər. Andranik qoşunları Naxçıvandan qaçarkən Sirab, Qahab və Kərimquludizə əhalisini qırmış və həmin kəndləri dağıdaraq yandırmışdır. Naxçıvan bölgəsindən qaçan Andranik qoşunlarının Zəngəzurda azərbaycanlılara qarşı törətdikləri soyqırımı daha dəhşətli olmuşdur.

Arxiv sənədlərinə əsasən Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmış, bu kəndlərdə 3257 kişi, 9276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütün qəza üzrə 10068 nəfər azərbaycanlı öldürülmüş və şikəst edilmişdir. 1918-ci illərdə Zəngəzurda, Naxçıvanda, Ordubadda və İrəvan quberniyasının azərbaycanlılar yaşayan kəndlərində etdikləri vəhşilikdən usanmayan Andranik öz quldur dəstələri ilə Qarabağda: Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında da azərbaycanlılara qarşı qırğınlarını davam etmişdir. Ermənilərin Naxçıvanda, Qərbi Azərbaycanda törətdikləri vəhşiliklər haqqında qəzalardan, bölgələrdən, kəndlərdən, ayrı-ayrı adamlardan, dərdlə, məşəqqətlə, dolu göz yaşları ilə yazılmış məktublar, ərizələr, vurulmuş teleqramlar Azərbaycan Parlamentinə, Azərbaycan Xarici İşlər Nazirliyinə gəlməkdə davam edirdi. Həmin sənədlərdən biri 29 yanvar 1919-cu il tarixdə İrəvan quberniyasının Vedibasar və Məlistan müsəlmanlarının müvəkkili Məhərrəm Əliyevin Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə göndərdiyi məktubdur. M.Əliyev məktubda yazırdı: “...yanvar ayının 26-27-də (1919-cu il) polkovnik Doluxanovun başçılığı ilə ermənilərin “Vanslar” və “Sosunlar” adlandırdıqları silahlı dəstələri Vendibasar rayonunun Qaraxaç, Qadılı, Seyid Kətanlu, Yuxarı Qarabağ, Ağasıbəyli, Dəhnəz və Şahablı kəndlərinə hücüm edərək zəbt etdilər. Ermənilər bu kəndlərdə müsəlmanları qırmamışdan qabaq bir neçə yüz ərli qadınları və qızları əsir alırlar.

Bu adamların azad olması üçün müsəlmanlar İrəvana nümayəndə göndərirlər ki, qadınları azad etsinlər. Ermənistan hökuməti bu qadınları azad edib öz yerlərinə qaytarmağı söz versələr də sözlərinə əməl etmirlər”. Məhərrəm Əliyev məktubunun axırında Azərbaycan hökumətindən qadınların azad olunması və müsəlman kəndlərinə dəyən ziyanın ödənilməsi üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırılmasını xahiş etmişdir.

Qeyd etdiyimiz kimi Naxçıvan bölgəsindən Zəngəzur qəzasına qaçan Andranik öz quldur dəstəsi ilə Ordubad qəzasının bir çox bölgələrini- Tivi, Bist, Mürgüd, Nəsirvaz, Düylün, Əylis, Gənzə və s. kəndlərinə hücüm edərək yandırmış, qarət edib əhalinin çox hissəsini qırmışdır.

Ermənilərin bu təcavüzü ilə bağlı Azərbaycanın DC-nin Naxçıvandakı müvəkkili Səməd bəy Cəmilinsiki 20 mart 1919-cu il tarixdə Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda yazırdı: “...Martın 19-da ermənilərin nizami qoşunları bizim üzərimizə üç tərəfdən çox güclü hücuma başlamışlar. Birincisi böyük Vedi, ikincisi Tivi kəndinə, üçüncüsü Ordubad tərəfdən. Xahiş edirəm bu barədə vəziyyəti bizim hökumətimizə çatdırasınız”.

1919-cu ilin axırlarından başlayaraq 1920-ci ilin iyul ayına kimi ermənilər Qərbi Azərbaycanın, Zəngəzur qəzasının, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrinin demək olar ki, əksər kəndlərinə hücüm etmiş, yandırmış, Azərbaycan əhalisinin xeyli hissəsini qıraraq məhv etmiş, əhalinin bir qismi isə öz yurdlarını, ocaqlarını tərk etməli olmuşdur. 1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı güc işlətmək siyasəti kəsilmir. Azərbaycan Dövlət Tarix Arxivində və Naxçıvan MR Dövlət Arxivində mühafizə olunan işlərdəki məktublar, teleqramlar, məlumatlar və komissiyanın istintaq protokollarında bunlar öz əksini tapıb.

3 dekabr 1919-cu il tarixli teleqramda yazılır: “Bakı. Parlamentə. Axundzadə Mirzə Sadıxa. Zəngəzurdakı qanlı hadisələr təkrarən başladı. Ermənilər tərəfindən Çaylı və Oxçu kəndlərində 900 müsəlman qətlə yetirildi. İçində şagirdlərlə birlikdə məscid bombarduman nəticəsində dağıdılmışdır. Ölənlərdən 400 qadın və uşaq tikə-tikə edilmişdir. Bu dəqiqə Zəngəzur qanlı hadisələr meydanıdır. Qazı Behcat”.

1919-cu ilin iki ayı müddətində ermənilərin Qərbi Azərbaycanda dağıtdığı kəndlərin siyahısına da nəzər yetirək: “Eçmiədzin qəzasında: Hacılar, Molla Dursun, Tors, Qurakomlu, Aca-Qala, Kirannı, Kərəmli, Yarlı, Patrınca, Ucan, Kövş, Avan, Qaracalar, Maqda, Diyən, Talış Əkərək, Baxçacıq, Karvansara, Yaşıl, Yuxarı Ağcaqala, Aşağı Ağcaqala, Yuxarı Qaraqonmaz, Aşağı Qaraqonmaz, Eşnək, Mehriban, Çıxadcı, Ərind, Talın, Pir Maqək, Pir Tikan, Aralıx, Aqançı, Quludərviş, Quytul, Yerqov, Qoşa Bulaq, Kotanlı, Persi, Ənirsək, Uşu, Kiçik kənd, Naçravan, Təkiyə, Parna, Zeynal bulağı, Zeyvə, Qulu bəy, Qulu bəy-2, Aca arx, Kərim arx, Canfidə, İqdəli,

Urmudlu, Molla Bədəl, Quzuvənd, Türkmənli, Kolanlı, Səfiabad, Qəmərli, Qarğabazar, Yuxarı Qorxun, Aşağı Korxun; Sürməli qəzasında: Ədci, Oba, Küllük, Əhməmməd, Qasımca, Ərəpkirli, Quz ovudan, Sarı Çoban, Ağavər, Sürməli, Qaçanlı, Nəcəfli, Amarat, Mələkli, İğdır Mava, Sultanabad, Ər Hacı-1, Ər Hacı-2, Ər Hacı-3, Qaragünlü, Zülfiqar, Hüseyin kəndi, Səfər Qulu, Şirəçi, Qeycəli, Xaraba Əlican, Bayat, Hacılar, Cənnətabad, Aşağı Diçə, Yuxarı Diçə, Həsən xan, Qırış bağ, Öküzlü, Qızıl Zakir, Qurbaklı, Dara kəndi, Parpı, Təpə başı; İrəvan qəzasında: Zəngibasardan başqa hamısı məhv edilib" (3, v. 42-46). Bu sənəd Ordubad qəza rəisi Tahirovun Naxçıvan general qubernatoruna 6 yanvar 1920-ci il tarixli teleqramıdır. Tahirov göndərdiyi teleqramında yazırdı: "Üç gün bundan əvvəl Karçivan kəndində ermənilər 100 nəfərdən çox müsəlmanı bir yerə yığıb, qadın və uşaqları vəhşicəsinə qətlə yetirmişlər" (3, v.16).

Bu sənəd isə 7 yanvar 1920-ci il tarixdə Böyük Vedidən Naxçıvan hərbi müdafiə komandiri Kəlbalı xan Naxçıvanskiyə vurulan teleqramdır. Həmin teleqramda Vedi mahalının bəylərindən olan Vedi qırmızı taborunun komandiri olmuş Abasqulu Şadliniski yazırdı: "Toxmaqlı kənd sakinləri erməni müqaviləsinə inanaraq öz yurdlarına köçdülər. Ancaq ermənilərin orda yerləşən nizami qoşun hissələri tərəfindən onlar kəsilib doğrandılar. Məlumat üçün bu vəziyyəti sizə çatdırıram".

Bu teleqram isə 22 yanvar 1920-ci il tarixdə Cəbrayıldan Bakıya, Parlamentə vurulan teleqramdır. Həmin teleqramda yazılır: "19 yanvar, səhər Zəngəzur kəndinin erməni hissələri bütün cəbhə boyunca Mchaqandan Qaladərəsinə kimi top və pulemyotlarla müsəlmanlara atəş açıb 6 kənd məhv ediblər, 9-u yanır. Ermənilər qadın uşaq demədən müsəlmanları amansızcasına qətlə yetirir. Müsəlmanların onlara qarşı çıxmağa qüvvələri yoxdur və ancaq mülklərini ermənilərə qoyub qaçmaqla canlarını qurtarırlar. Bu hadisə haqqında hökumət qəti tədbir görməlidir. Cəbrayıl kənd məktəbinin direktoru Axundov".

23 yanvar 1920-ci il tarixdə Azərbaycan Parlamentinin üzvü Cəlil Sultanovun ermənilərin azərbaycanlılara qarşı soyqrımı ilə əlaqədar vurduğu teleqramda isə yazırdı: "Bu gecə qəza rəisi ilə birlikdə Cəbrayıla gəlmişəm. Zəngəzurdan gəlmiş, açıq havada on minlərlə qadın və uşaq, qaçqın gördüm. Zəngəzur qəzası İrəvandan gəlmiş, özü ilə 10 top gətirmiş nizami qoşunlar tərəfindən məhv edilib. Vuruşan ermənilərin sayı 10 mindən artıqdır. Erməni meyidlərinin içərisində ingilis əsgərlərinin meyidləri tapılıb. Top və pulemyotlarını Xocaqan və Zabux arasındakı bütün təpələrdə yerləşdirib. Axara çayının sağ tərəfindəki bütün üçüncü sahəni məhv ediblər. Bu gün isə Zəngəzur rayonunun 4-cü sahəsini mühasirəyə alaraq onları məhv edirlər. Hökumət yoxdur, müqavimət göstərmək və döyüşmək üçün vəsait yoxdur. Əhali artıq hökumətdən ümidini kəsərək kömək üçün bütün Azərbaycan xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Cəbrayıla Zəngəzur tərəfdən hücüm başlayacaq. Məqsəd Qarabağ erməniləri ilə birləşib Naxçıvanı ayırmaq və Naxçıvanla Qarabağı məhv etməkdir. Qarabağın dağlıq bölgəsində üsyan hazırlanır. Hakimiyyətin hərəkətsizliyi Qarabağın və Zəngəzurun məhv olmasına səbəb oldu. Kağız üzərindəki etirazlara, xain Xatisovun əməllərinə, Azərbaycan vətəndaşı olan 200 mindən artıq müsəlmanı qətlə yetirən ermənilərin əməllərinə son qoyulmalıdır.

Heç olmasa Şuşa, Qarabağ, Cəbrayıl qəzalarını qurtarmaq üçün qəti tədbirlər görməyinizi xahiş edirəm. Hər dəqiqə qiymətlidir. Yavaş hərəkət etmək cinayətdir və xalq qarşısında xəyanətdir. Hərbi nazirin olması vacibdir".

Parlamentin üzvü Cəlil Sultanov.

23 yanvar 1920-ci il tarixdə Cəbrayıl qəzasının əhalisi adından müəllim Axund Hüseynzadə Parlamentin ünvanına göndərdiyi teleqramda isə belə yazırdı: "Qətlə yetirilmiş Zəngəzur müsəlmanlarının ah-nalələri dağlar, dərələr arasında qaldı, heç yerə çatmadı. Onların köməyinə heç kəs gəlmədi. Uşaqların başları kəsilmiş və qanlı bədənləri yerdə qalmışdır. Zəngəzur kəndində müqavimət göstərmək üçün çox az kişi var, kənardan da kömək gəlməsinə heç bir ümid yoxdur. Erməni qüvvələrinin sayı 10 mindən çoxdur və daim Ararat tərəfdən yeni qüvvələr gəlir. Onların 60-a yaxın pulemyotu var. Topların səsi Cəbrayıla kimi gəlib çatıb. On minlərlə qaçqın Cəbrayıl qəzasında məskunlaşıb. Dördüncü gündür ki, hökumətdən heç bir kömək gəlmir. Müsəlmançılıq bundadırmı: Azərbaycandakı bütün müsəlmanlara müraciət edirik və vəhşicəsinə öldürülmüş

uşaqlara dərindən kədərləndiyimizi bildiririk. Onların ruhları rahatlıq tapsa da sizə müraciət edərək: "Kömək edin, kömək edin", deyirlər. Ermənilər Zəngəzuru dağıtdıqdan sonra öz qüvvələrini Cəbrayıla, Şuşaya, Cavanşirə doğru yönəltməyi planlaşdırırlar. Beləliklə onlar bu qəzaların erməniləri ilə birləşərək bizi Naxçıvandan ayıracaqlar. Əgər hökumət qəti tədbirlər görməsə müsəlmanların işi bitdi".

Ermənilərin Zəngəzur qəzasında törətdikləri vəhşilikləri haqda Azərbaycan Respublikası Xarici işlər Naziri F.X.Xoyski Ermənistanın Xarici İşlər Nazirinə 26 fevral 1920-ci il tarixdə göndərdiyi məktubda yazırdı: "Sizin 1029 saylı məktubunuza cavab olaraq bildirirəm ki, hökumətimiz 23 noyabr razılaşmasına tamamilə riayət edir və heç bir hücum əməliyyatı həyata keçirmək fikrində deyil. Mən sizə bildirmişdim ki, 23 müqaviləsi imzalandıqdan sonra Ermənistan qoşunları tərəfindən Zəngəzur qəzasında 40-a yaxın müsəlman kəndi dağıdılmışdır. 19 yanvarda isə Ermənistan hökumətinin ordusu silahlı quldur dəstələri ilə birlikdə Şuşa qəzası istiqamətində hücuma keçərək qarşılarına çıxan bütün müsəlman kəndlərini dağıdıblar. Kəndlərin dağıdılmasının qarşısını almaq, on minlərlə insanın həyatını və əmlakını xilas etmək, 23 noyabr sazişinə riayət olunmasını təmin etmək məqsədi ilə hökumətimiz azsaylı dəstəni göndərib və erməni qoşunlarının planlarının həyata keçirilməsinin qarşısını alıb. No 1258".

Xarici İşlər Naziri (imza) Xoyski.

1920-ci ilin mart ayının 21-də 10 min nəfərdən ibarət olan erməni daşnakları Ordubad qəzasının Düyülün, Vənənd, Vələvər, Xanağa, Beksar, Ağrı, Dizə, Unus, Əylis, Kilit, Anabad, Gənzə və s. kəndlərinə hücum edərək yandırmış, qarət edib əhalinin çox hissəsini qırmış və Ordubad şəhərini mühasirə etmişlər. Ordubad ətrafında gedən döyüşlərdə ermənilər tərəfindən çox itkilər olmuşdur, lakin ermənilər şəhərə giri bilməmişdir. Arxiv sənədlərindən məlum olur ki, ermənilərin XX yüzillikdə İrəvan quberniyasında yaşayan müsəlman kəndlərinə, Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, Zəngəzur qəzalarına təcavüzü müdafiəsiz dinc əhalini qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır.

1918-1920-ci illərdə erməni daşnakları Şərurda 76, Vendibasarda 118, Zəngəzurda 115, Dərələyəzdə 74, Əlincəçay və Simançay boyunca 50-dən artıq kəndi yerlə yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışdır (10, s.41).

Onu da qeyd edək ki, əldə olan məlumatlara görə 1918-1920-ci illərdə təkcə Naxçıvan bölgəsində 73727 nəfər azərbaycanlı erməni daşnakları tərəfindən ən vəhşi formada öldürülmüşdür (6, s.41).

XX yüzillikdə erməni daşnakları tərəfindən qanı axıdılan minlərlə dinc insanın, uşağın, qadının, qocaların ruhları intiqam gününü gözləyir. O gün hökmən gələcək.

## ƏDƏBİYYAT

1. Cəfərov F. Erməni vəhşiliyi. Bakı: Nurlan, 2009, 186 s.
2. Nax. MRDA. F.26 m.siy 1. iş, 24
3. Nax. MRDA. F.314 m.siy 5 a. iş, 73,74
4. "Borba" qəzeti 17 avqust 1918-ci il
5. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 142 s.
6. Nax. MRDA. F.582. Siy 1, iş, 48
7. "Naxçıvan" jurnalı. 2001, №5.

## SUMMARY

**Fakhraddin Jafarov, Nadir Huseınbeylı**

### ARMENIAN ACROSSES IN WESTERN AZERBAIJAN, NAKHCHIVAN REGIONS, AND ZANGAZUR GHAZA IN THE 20TH CENTURY

The article talks about deportation and genocide of Armenians against Azerbaijanis. These issues are still of great interest as one of the unstudied pages of Azerbaijan's history and need to be widely studied. From the researched documents, it is known that from the beginning of the 20th century to the beginning of the 90s, we are witnessing the ethnic cleansing, genocide and aggression committed by Armenians in many regions of Azerbaijan, in Zangezur, Nakhchivan, Sharur-Daraleyaz and Ordubad districts, as well as in many regions of Azerbaijan. Especially in 1918-1920, the heinous crimes committed by Armenians in Western Azerbaijan, Zangezur, Sharur-Daraleyaz and Ordubad regions were more terrible. All these issues were investigated and analyzed on the basis of archival materials.

***Key words*****:** *Azerbaijan, Zangezur, Ordubad, Muslim, genocide, aggression*

## РЕЗЮМЕ

**Фахраддин Джафаров, Надир Гусейнбейли**

### АРМЯНСКИЕ ПЕРЕСЕКИ В ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ, НАХЧЫВАНСКОЙ ОБЛАСТИ И ЗАНГЕЗУР-ГАЗЕ В XX ВЕКЕ

В статье говорится о депортации и геноциде армян против азербайджанцев. Эти вопросы до сих пор представляют большой интерес как одна из неизученных страниц истории Азербайджана и нуждаются в широком изучении. Из исследованных документов известно, что с начала 20 века до начала 90-х годов мы являемся свидетелями этнических чисток, геноцида и агрессии, совершаемых армянами во многих районах Азербайджана, в Зангезуре, Нахчыване, Шарур-Даралеязе. и Ордубадском районах, а также во многих районах Азербайджана. Особенно в 1918-1920 годах чудовищные преступления, совершенные армянами в Западном Азербайджане, Зангезурском, Шарур-Даралеазском и Ордубадском районах, были еще более страшными. Все эти вопросы были исследованы и проанализированы на основе архивных материалов**.**

***Ключевые слова:*** *Азербайджан, Зангезур, Ордубад, мусульмане, геноцид, агрессия*

***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Allahverdi oğlu Hüseynov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr  2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 27-29
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 27-29
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 27-29

**RƏSUL BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*bagirovresul11@gmail.com*

**UOT: 94(479.242)**

# DİDİVAR QƏDİM YAŞAYIŞ YERİ ORTA TUNC DÖVRÜNDƏ

*Məqalədə Naxçıvan Muxtar Respublikası Babək rayon ərazisində Didivar qədim yaşayış yerində aparılmış tədqiqatdan bəhs edilmişdir. Didivar qədim yaşayış yeri II Kültəpə abidəsindən Şərqdə yerləşir. Tədqiqat zamanı buradan Orta tunc dövrünə aid materiallar aşkar edilmişdir. Naxçıvançay vadisində yerləşən bu abidədə aşkar olunan materiallar II Kültəpə abidəsində tədqiq olunan Orta Tunc dövrü materialları ilə eyniyyət təşkil edir. Bu abidənin geniş tədqiqata ehtiyacı vardır. Orta tunc dövrü üçün bu abidə qiymətli yaşayış yeridir. Bu qədim yaşayış yeri II Kültəpə yaşayış yeri ilə bağlı olmuş e.ə. III-II minilliklərə aiddir.*

***Açar sözlər:*** *qala, yaşayış yeri, mədəni təbəqə, Kür-Araz mədəniyyəti, tikinti qatı, boyalı qablar, ilk tunc dövrü, daş alət*

Naxçıvan Muxtar Respublikasının ərazisində elmə məlum olan arxeoloji tapıntıların bir çoxu Babək bölgəsində aşkar olunmuşdur. Babək bölgəsində II Kültəpə abidəsində aparılan tədqiqatlar göstərir ki, Naxçıvançay vadisinin əkinçilik və maldarlıq üçün əlverişli olması Qədim dövrlərdən burada əhalinin məskunlaşmasına və uzun müddət yaşamasına şərait yaratmışdır.

Qədim Didivar yaşayış yeri Naxçıvanla Cəhri çayın birləşdiyi ərazidə II Kültəpə abidəsindən Şərqdə yerləşir. Bu abidə II Kültəpə abidəsi ilə eyni dövrə aiddir. II Kültəpə abidəsindən 2 km aralıda yerləşən abidənin sahəsi 5 ha, əsas hissəsi hazırda müasir evlərin altında qalmışdır. Bu abidə II Kültəpədə 1968-ci ildə qazıntı işləri aparılarkən O.H.Həbibullayev və B.H.Əliyev tərəfindən qeydə alınmışdır. Burada 1978-ci ildə tədqiqat aparılmışdır (7, s.105).

Qədim Didivar yaşayış yerində mədəni təbəqənin qalınlığı 3 m-dir. Mədəni təbəqə kül qarışıq gildən ibarətdir. Yaşayış yerində tikinti qalıqlarına rast gəlinmişdir. Didivar yaşayış yerində aşkar olunmuş müdafiə divarı çay daşlarından hörülmüş, arası kiçik daşlarla doldurulmuşdur. Müdafiə divarlarının meydana çıxması Orta tunc dövrü yaşayış yerlərinin xarakterik cəhətlərindən biridir. Lakin yaşayış yeri geniş tədqiq edilmədiyindən ətraflı fikir söyləmək mümkün deyildir.

Qədim Didivar yaşayış yerində xeyli miqdarda həndəsi naxışlarla bəzədilmiş gil qab, boyalı qab qırıqları, çaxmaqdaşından hazırlanmış dən daşları, süzgəclər, həvəngdəstələr aşkar olunmuşdur. Gil qablar qədim tayfaların məişətini, təsərrüfatını, mədəniyyətini və qonşu tayfalarla olan mədəni əlaqələri öyrənmək üçün əsas materiallardır. Yaşayış yerində tapılmış küpələrin bəzisi geniş həcmli, qısa genboğazlı olub, ağzı geriyə qatlanır. Belə küpələrin yalnız qırıqları tapılmışdır. Bəzi küpələrin ağzının qırağı batıq xətlə əhatələnmiş və qısa xətlərlə naxışlanmış, boğazları üç yerdə qoşa şaquli düz xətlərlə bərabər hissəyə bölünmüşdür. Həmin xətlərin arası dalğalı xətlərlə doldurulmuşdur. Həndəsi təsvirlərin içərisi dalğavari xətlərlə doldurulmuş, aşağıya sallanmış ucları isə kiçik dairələrlə tamamlanmışdır. Bu qablar II Kültəpədən tapılmış qablarla eyniyyət təşkil edir.

Qədim Didivar yaşayış yerində boyalı qab qırıqlarına rast gəlinir. Orta tunc dövrü dəmir dövrünün əvvəllərinədək dörd inkişaf mərhələsi keçmişdir. Yaşayış yerində məişətdə işlədilən sadə qablara rast gəlinir. Sadə qablar nisbətən aşağı keyfiyyətli gildən hazırlanmışdır. Boyalı qablar kimi onlar da nazik divarlı və simmetrikdir, əksəriyyətinin gilinə narın gil qatılmış, cilalı qara, boz və açıq rəngdədir (5, s.46).

Qədim Didivar yaşayış yerindən dən daşları, sürtgəclər, həvəngdəstələr aşkar edilmişdir (7, s.105). Orta tunc dövründə Naxçıvançay hövzəsində iqtisadiyyat xeyli inkişaf etmişdir. Arxeoloji tədqiqatlar göstərir ki, tunc dövründə təsərrüfatın başlıca sahələri əkinçilik və maldarlıq olmuşdur. Suvarma əkinçiliyi məhsulların istehsalının artırmağına imkan vermişdir (1, s.157). II Kültəpədə yumşaq buğda toxumlarının aşkarı onu sübut edir ki, Didivar yaşayış yerində əkinçilik inkişaf etmişdir. Eyni zamanda taxıl emalı üçün tapılmış alətlər bunu bir daha sübut edir. Tapılmış alətlər içərisində daşdan hazırlanmış taxıl döymə alətləri diqqəti cəlb edir. Bildiyimiz kimi, bu alətlər Qafqazda böyük rol oynamışdır.

Naxçıvanın Qədim Tunc dövrü abidələrindən boyalı qablarla yanaşı sınıq, həm də bütöv halda çoxlu dəndaşı və sürtgəclər tapılmışdır. O cümlədən, II Kültəpə abidəsi ilə bağlı olan Didivar yaşayış yerində də bu alətlər aşkar olunmuşdur. Qırmızı və boz tufan, qranit-porfir və digər süxurlarından hazırlanmış bu alətlərin əksəriyyətinin üzərində işləndiklərini göstərən izlər vardır. Dəndaşları qayıqşəkilli və oval formalıdır (4, s.92).

Naxçıvan ərazisində Qayıqşəkilli dən daşları II Kültəpə yaşayış yerində tapılmışdır. Dən daşlarında iş prosesinə alt daşı sürtgəcdən üst daşı kimi istifadə olunmuşdur. Tapılmış sürtgəclərin hamısı uzunsov şəkilli olub boz rəngli daşlardan hazırlanmışdır.

Qədim Didivar yaşayış yerində həvəngdəstələr də aşkar olunmuşdur. Bu növ əmək alətləri həcmcə kiçik, həm də düzgün olmayan dairəvi formasındadır. Hamısı boz rəngli tufadan hazırlanmışdır. Oturacaq qabarıq formasındadır. Diametri 9-12, çıxıntıların diametri 3-9, dərinliyi isə 3-6 sm-dir (6, s.36). Bu əmək alətləri II Kültəpədən tapılmış alətlərlə eyniyyət təşkil edir. Həvənglərdən yeməli kökləri, müxtəlif bitkilərin toxumlarını əzmək və taxıldan yarma almaq üçün istifadə edilmişdir. Naxçıvan ərazisində yaşayan qədim tayfalar onlarda duz döymüşlər. Naxçıvanda duz döymək üçün istifadə olunan həvəngləri "dibək" adlandırırlar (4, s.93).

Qədim Didivar ərazisində tapılmış maddi-mədəniyyət qalıqları onu sübut edir ki, bu yaşayış yeri bir başa II Kültəpə yaşayış yeri ilə bağlı olmuş, e.ə. III-II minilliklərə aiddir. Bu ərazidə geniş tədqiqat işləri aparılmamışdır. Lakin buna baxmayaraq toplanmış materiallar sübut edir ki, bu yaşayış yeri Naxçıvançay hövzəsinin ən qədim yaşayış yerlərindən biridir.

Didivar kəndinin şərqində nekrapol yerləşir. Bu ərazidə geniş tədqiqat işləri aparılmışdır. Buradan qırmızı rəng üzərindən qara rənglə naxışlanmış boyalı gil qab nümunələri aşkar olunmuşdur.

Qədim Didivar yaşayış yerində yaşayan əhali türk tayfasıdır, Kəngər tayfasından olmuşlar. XVIII-XIX əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirlərin içərisində Didivarlıların da adı çəkilir. Nadir şah Əfşarın hakimiyyəti dövründə (1736-1747) inzibati cəhətdən Naxçıvana vəkil və ağsaqqallar rəhbərlik edirdilər. Naxçıvan diyarında və Dərələyəz mahalında didivarlılar maldarlıq və əkinçiliklə məşğul olmuşlar. Bunu da ərazidən tapılmış arxeoloji materiallar sübut edir.

Qədim, zəngin tarixə malik olan Naxçıvan ərazisinin Naxçıvançay vadisində qiymətli tarixi abidələrin Naxçıvanın qədim tarixinin öyrənilməsində mühüm rolu vardır. Bu abidələrdən biri də Didivar qədim yaşayış yeridir. Bu abidənin geniş tədqiqata ehtiyacı vardır. Orta tunc dövrü üçün bu abidə qiymətli yaşayış yeridir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası (Ali məktəb tələbələri üçün vəsait). Bakı: Elm, 2007, 240 s.
2. Baxşəliyev V.B. Naxçıvanın erkən dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
3. Baxşəliyev V.B.Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
4. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
5. Əliyev V.H. Tarixin izi ilə. Bakı: Elm, 1975, 77 s.
6. Əliyev V.H. Seyidov A.Q. II Kültəpədə 1980-ci ildə aparılmış arxeoloji qazıntıların hesabatı. Azərbaycan EA TİSA-ın № H-262, 36 s.

7. Naxçıvan ensiklopediyası. 2002, 594 s.
8. Seyidov A.Q., Baxşəliyev Ə.İ., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 96 s.
9. Seyidov A.Q. Naxçıvan tunc dövründə. Bakı: Elm, 2000, 347 s.

**SUMMARY**

**Rasul Baghirov**

**THE ANCIENT SETTLEMENT OF DIDIVAR IN THE MIDDLE BRONZE AGE**

The article deals with the research carried out in ancient Didivar settlement of Babek region of Nakhchivan Autonomous Republic. The ancient settlement of Didivar is located to the east of the II Kultepe monument. During the study, materials from the Bronze Age of Oera were discovered here. It turned out that the materials found on this monument, located in the Nakhchivanchay valley, are identical to the materials of the Middle Bronze Age, studied on the monument II Kultepe. This monument needs extensive research. For the Middle Bronze Age, this monument is a valuable habitat. This monument needs extensive research. This monument is a valuable settlement for the Bronze Age. This ancient settlement dates back to III-II millennia BC, which was associated with Kultepe II settlement.

***Key word:*** *fortress, settlement, cultural layer, Kura-Araz culture, building layer, painted vessels, first Bronze Age, stone tool*

**РЕЗЮМЕ**

**Расул Багиров**

**ДРЕВНЕЕ ПОСЕЛЕНИЕ ДИДИВАР В ЭПОХУ СРЕДНЕЙ БРОНЗЫ**

В статье рассказывается об исследовании древнего поселения Дидивар на территории Бабекского района Нахчыванской Автономной Республики. Древнее поселение Дидивар находится к востоку от памятника II Кюльтепе. В ходе исследований здесь были обнаружены материалы бронзового века Оэра. Материалы, обнаруженные на этом памятнике, расположенном в Нахчыванчайской долине, идентичны материалам среднего бронзового века, исследованным на памятнике II Кюльтепе. Этот памятник нуждается в обширных исследованиях. Для среднего бронзового века этот памятник является ценным местом обитания. Это древнее поселение было связано с культовым поселением II тыс. до н. э. Относится к III-II тысячелетиям.

***Ключевые слова:*** *замок, поселение, культурный слой, кура-аразская культура, строительный слой, расписные сосуды, первая бронзовая эпоха, каменное орудие.*

***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Allahverdi oğlu Hüseynov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 30-36
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 30-36
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 30-36

**ABDULLA MUSTAFAYEV**
*mustafayevabdulla78@gmail.com*
**RUHİYYƏ RZAYEVA**
*rzayevaruhiyye0011@gmail.com*
**MÜNƏVVƏR SÜLEYMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*alexandra.tarverdiyeva@gmail.ru*

**UOT: 94(479.24).**

# ZƏNGƏZUR ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM SİYASƏTİNİN İLKİN MƏRHƏLƏSİNDƏ

*Məqalədə qeyd olunmuşdur ki, hələ XIX əsrin əvvəllərində çar Rusiyasının himayəsi ilə köçürülərək qədim Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər bu torpaqları ələ keçirmək məqsədilə hərbi, siyasi, iqtisadi, təşkilati və ideoloji hazırlıqlarını başa çatdıraraq XX əsrin əvvəllərindən etibarən təxribatçılıq hərəkətlərinə başladılar. Onlar əhali arasında qorxu yaratmaq məqsədilə müxtəlif vasitələrdən istifadə edir, çar hakimiyyət orqanlarının hadisələrə biganə qalmasından istifadə edərək daha da azğınlaşırdılar. Nəhayət, Rusiyada birinci burjua-demokratik inqilabının yaratmış olduğu şəraitdən yararlanmağa çalışaraq azərbaycanlılara qarşı XX əsr boyu müxtəlif vaxtlarda həyata keçirəcəkləri soyqırımı və deportasiya siyasətinin ilkin mərhələsini gerçəkləşdirməyə başladılar. 1905-1907-ci illəri əhatə edən ilkin mərhələdə Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Zəngəzurda azərbaycanlı əhaliyə qarşı qırğınlar təşkil edildi. Zəngəzur ermənilərin işğalçılıq planlarında xüsusi əhəmiyyətə malik idi. Onlar buranı ələ keçirməklə Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırmaq, gələcəkdə isə çox asanlıqla bölgəyə yiyələnmək və son nəticədə Türkiyəni türk dünyasından tamamilə ayrı salmaq məqsədini güdürdülər. Bu məqsədlə də ermənilər Zəngəzurda qırğınlar həyata keçirmişdilər. Məqalədə bəhs edilən dövrə aid mövcud ədəbiyyatlara və dövri mətbuata əsaslanmaqla bu qırğınların miqyası və nəticəsi araşdırılmışdır.*

***Açar sözlər:*** *Qərbi Azərbaycan, Zəngəzur qəzası, İrəvan quberniyası, Ordubad mahalı, Oxçu-Şabadək faciəsi, Cənubi Qafqaz, "Daşnaksütyun" partiyası*

Erməni silahlı dəstələrinin Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında 1905-1907-ci illərdə Azərbaycan türklərinə qarşı həyata keçirdikləri qırğınlar barədə arxiv fondlarında, dövri mətbuatda və ayrı-ayrı müəlliflərin əsərlərində müəyyən qədər məlumatlar verilmişdir. Belə ki, XX əsrin əvvəllərində Bakıda nəşr olunan "Kaspi", "Novoye obozrenie", Tiflisdə nəşr olunan "Tiflisskiy listok" və s. qəzetlərdə həmin dövrdə baş verən hadisələr öz əksini tapmışdır.

Dövri mətbuatdan əlavə, bir sıra müəlliflərin, məsələn, M.S.Ordubadinin "Qanlı illər" əsərində Oxçu dərəsində və Qatar kəndində yerləşən mis mədənlərində, M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində Zəngəzur qəzasının Qarakilsə (indiki Sisian) rayonunun Vağudi və digər kəndlərində baş verən erməni vəhşiliklərindən bəhs olunmuşdur.

Bir sıra erməni müəlliflərinin əsərlərində də həmin dövrdə baş verən hadisələrdən bəhs edilmişdir. Məsələn, A-do ləqəbli erməni müəllifi Ovanes Ter Petrosyan 1907-ci ildə İrəvanda nəşr etdirdiyi "1905-1906-cı illərdə İrəvanda erməni-türk toqquşmaları", S.Zavaryanın 1907-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi "Qarabağın iqtisadi vəziyyəti və 1905-1907-ci illərdə aclıq" və s. əsərləri göstərmək olar ki, bu əsərlərdə həmin dövrdə baş verən hadisələr işıqlandırılmışdır.

XX əsrin əvvəllərindən başlayaraq hərbi, siyasi, iqtisadi, təşkilati və ideoloji hazırlıqlarını başa çatdıran erməni quldur dəstələri yerli əhaliyə qarşı təxribatçılıq hərəkətlərini genişləndirməyə başladılar. Artıq 1903-cü ildən başlayaraq "Daşnaksütyun" partiyası azərbaycanlılara qarşı əvvəlcədən hazırladıqları planları həyata keçirməyə başlayırlar. Bakı polis departamentinin sənədlərinin birində göstərilmişdir ki, 1904-cü ilin mart ayında yerli əhalinin məhərrəm ayında keçirdikləri "şahsey-vahsey" tədbirləri zamanı ermənilər müsəlmanlar arasına bomba ataraq əhalini öldürmək və sonda da bunu jandarmaların üzərinə atmaq istəyirdilər (1, s.8). Onlar müxtəlif vasitələrlə, xüsusilə də ixtişaşlar, nümayişlər, baykot etmək, vəzifəli adamlara qarşı terror həyata keçirmək yolu ilə əhali arasına qorxu salmağa çalışırdılar. Onlar nəinki çar məmurlarına, hətta "Daşnaksütyun" partiyası ilə əməkdaşlıq etmək istəməyən ermənilərə qarşı belə terror hərəkətləri həyata keçirməkdən çəkinmirdilər.

Beləliklə, çarizmin ermənilərin cinayətkar hərəkətlərinə qarşı nəinki reaksiya verməməsindən, hətta millətlərarası düşmənçiliyin qızışmasında maraqlı olmasından istifadə edən ermənilər 1905-ci ilin ilk günlərindən öz əsas məqsədlərini, yəni azərbaycanlıların öz torpaqlarından qovularaq çıxarılması prosesini həyata keçirməyə başladılar. Ermənilərin kompakt halda yaşadıqları ərazilərdə, xüsusilədə Bakı, İrəvan, Qars, Şuşa, Naxçıvan, Zəngəzur, Tiflis və s. yerlərdə azərbaycanlıların kütləvi döyülməsi və qırğını baş verdi.

Ermənilər Şuşada və Ağdamda uğradıqları ağır məğlubiyyətin əvəzini Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasına hücum etməklə çıxmağa çalışırdılar. Daşnaksütyun partiyasının planlarında Zəngəzur qəzası xüsusi yer tuturdu. Bu planların gerçəkləşməsində əsas maneə, heç şübhəsiz ki, qəzada azərbaycanlıların üstünlük təşkil etməsi idi. Bölgənin etnik mənzərəsini öz xeyirlərinə dəyişmək üçün 1905-ci ildə fürsət əldə edən ermənilər İrəvan quberniyasının müxtəlif yerlərindən buraya hərbi qüvvə və silah-sursat göndərir, burada üstünlüyü ələ keçirmək üçün müxtəlif planlar cızırdılar. Ermənilər bu məqsədlə digər qəzalara yayılmış erməni silahlı dəstələrini bir yerə toplamağa, güclərini səfərbər etməyə başladılar. Onlar bütün qüvvələrini Qatar kəndi yaxınlığında yerləşən Barabatum və Çəkədək adlı erməni kəndlərinə toplayaraq buradan Zəngəzur qəzasının türk-müsəlmanlar yaşayan kəndlərinə hücumlar təşkil etməyi planlaşdırırdılar (7). Lakin İrəvandan Zəngəzura gedən yol əsasən azərbaycanlılar yaşayan kəndlərdən keçdiyindən, erməni komandirləri birinci növbədə bu kəndləri ələ keçirmək istəyirdilər. Hökumət qoşunları ilə əlbir olan ermənilər Xanlıqlar, İtqıran, Cəhri kəndlərində faciə törədərək, Zəngəzura aşmaq məqsədilə Ordubadın Dırnıs, Unus, Pəzməri kəndlərini ələ keçirməyə cəhd etsələr də, buna nail ola bilməmişlər.

Ermənilər Zəngəzurun açarı sayılan Oxçu, Şabadək, Pirdavud, Atqız kəndlərini ələ keçirmək üçün geniş hərbi hazırlıqlara başladılar. Onlar bir tərəfdən Qafan dairəsində öz qüvvələrini toplayır, digər tərəfdən isə İrəvan, Aleksandropol (Gümrü), Abaran, Şuragöldən gətirilmiş könüllülərə Ordubadın Əylis, Kələki, Danaqırt kəndlərində təlimlər keçirdilər. Erməni silahlı dəstələri buradan Oxçu-Şabadək üzərinə hücum planlaşdırırdılar. Eyni zamanda Şuşada məğlub olmuş nizami erməni qüvvələri də Qatar istiqamətində toplanmışdılar.

1906-cı il iyulun 29-da günorta saatlarında 5 min nəfərlik erməni silahlı dəstələri Karxanaya hücum edərək kəndi dağıdırlar. Kəndin əhalisi ermənilərin bu qədər silahlı dəstələri qarşısında tab gətirə bilməyib ev-eşiklərini tərk edərək dağlara çəkilirlər. Erməni vəhşiliyindən qaçaraq Qatar kəndinə sığınan əhalini təqib edən ermənilər kəndi mühasirəyə alırlar. Qayaların arxasında gizlənənlər içərisində olan azyaşlı uşağın ağlamaq səsini eşidən ermənilər gizlənmiş 30 nəfərin hamısını vəhşicəsinə öldürürlər.

Həmin gün bütün Karxana əhalisini öldürən ermənilər Zəngəzurun Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərinin əhalisinin böyük əksəriyyətini öldürmüş və kəndləri dağıtmışdılar. Yuxarıda da qeyd olunduğu kimi, salamat qalaraq Qatar kəndinə pənah aparmış əhalini təqib edən ermənilər kəndi mühasirəyə alaraq atəşə tuturlar. Qatar əhalisi mərdliklə çoxsaylı erməni silahlı dəstələrinə müqavimət göstərirdilər. Kəndi müdafiə edənlərin sayı və silah-sursatları barədə dəqiq məlumata malik olmayan ermənilər kəndə hücum etməyə cəsarət etmirdilər. Ona görə də ermənilərlə əlbir olan pristav Saxarovun xəyanəti nəticəsində məlumat əldə edən düşmən 8 min nəfərlik qüvvə ilə kəndə

hücum təşkil edir. Tam mühasirəyə alınan Qatar kəndinə heç bir azərbaycanlılar yaşayan kəndlərdən kömək etmək mümkün olmadı. 9 gün düşmənə müqavimət göstərən kənd əhalisinə mis mədənlərində işləyən iranlı fəhlələr xəyanət edirlər. Onların "Ya Əli" deyərək kəndə tərəf gəldiklərini eşidən əhali onlara kömək gəldiyini zənn edib iranlı fəhlələri kəndə buraxırlar. İranlı fəhlələr isə gətirdikləri neft və dinamitlərlə evləri partlatmağa, yandırmağa başlayırlar. Lakin bu xəyanət də kənd müdafiəçilərinin müqavimətini sındıra bilmədi. İrəvandan aldıqları əmrə əsasən Əylisdəki erməni qüvvələri ilə Qatarı mühasirədə saxlayan erməni qüvvələri 1906-cı il avqust ayının 8-də Panusluda birləşərək Azərbaycan kəndləri üzərinə yenidən hücuma keçirlər. Avqustun 8-də hər tərəfdən Qatar kəndinə hücuma keçən ermənilər ağır məğlubiyyətə uğrayaraq geri çəkilirlər. Avqustun 9-da əldə etdikləri qələbədən arxayınlaşaraq mövqelərini tərk edib evlərinə çəkilən kənd müdafiəçilərinin bu səhlənkarlığından məharətlə istifadə edən ermənilər bütün mühüm strateji mövqeləri ələ keçirirlər. Bu isə, Qatar müdafiəçilərinin məğlubiyyəti ilə nəticələnir. İyulun 29-da başlayan erməni təcavüza avqustun 9-da Qatar kəndinin düşmən əlinə keçməsi ilə nəticələnir. Əhali kəndi tərk edərək Kəllədağa çəkilmək məcburiyyətində qalır.

Artıq Qatar kəndinin ələ keçirilməsindən sonra Rusiya və Fransada istehsal olunan ən müasir silahlarla silahlanan erməni quldurları Zəngəzurun Oxçu, Şabədək, Pirdavud, Atqız kəndləri üzərinə hücuma keçsələr də məğlub olurlar. Bu kəndlərin müdafiəçiləri erməniləri nəinki Gicəvan kəndinə geri çəkilməyə məcbur edirlər, hətta bu kəndi ələ keçirərək dağıdırlar. Lakin ermənilər Panuslu, Girdəxan, Gicəlan kəndləri ətrafında olan mövqeləri ələ keçirib Oxçu-Şabədək dağlarını işğal edə bilirlər. Çətin vəziyyətdə qalan əhali Saqqarsuya çəkilirlər. Bundan istifadə edən ermənilər Oxçu, Şabədək, Pirdavud və Atqız kəndlərini ələ keçirərək qaça bilməyən əhalini qırırlar. Ermənilər Saqqarsu ətrafında 62 nəfəri öldürərək bir-birinin üstünə yığırlar. Digər bir istiqamətdə ermənilər 15 nəfər azyaşlı uşağın başlarını kəsmişdilər. Beləliklə də, avqustun 9-dan 15-ə qədər Zəngəzurun yuxarıda adları qeyd olunan kəndləri ilə yanaşı, Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Züzül, Güman, İyilli, Sənalı, Minəvvər, Fərcan, Qalaboyun, Əcəbli, Buğaaq kəndləri erməni vəhşiliyinin qurbanı oldu.

Oxçu-Şəbadək faciəsi Ordubad əhalisi arasında böyük həyəcan yaratmışdı. Ordubadlılar İrəvan və Gəncə general-qubernatorlarına 100-ə qədər teleqram göndərərək ermənilərdən şikayət etmişdilər. Həmin teleqramlardan sonra Ordubada bir rota draqun süvarisi gələrək qaçqınları öz kəndlərinə aparmağa cəhd göstərmişdilər. Lakin ermənilər bütün Qafan dairəsini ələ keçirdiklərindən müsəlmanların geri qayıtmasına mane olmuş, hətta süvarilərin gözü qarşısında iki azərbaycanlını öldürmüşdülər.

Ordubadda bu qədər qaçqının olması mahalın özündə çoxlu problemlər yaratmışdı. Qarabağla əlaqələr kəsildiyindən ticarət işləri tənəzzülə uğramış, qaçqınları təmin etmək üçün ərzaq çatışmırdı. Digər tərəfdən qaçqınların Ordubadda öz mal-qaralarını saxlamaları üçün şərait yox idi. Qabaqdan isə qış gəlirdi. Düzdür ordubadlılar qaçqınlar üçün bütün əllərindən gələn köməklikləri edirdilər. Lakin qaçqınların öz doğma yurdlarına dönmək fikrində qəti olduqlarını yəqin etdikdən sonra, ordubadlılar qaçqınların qayıtmasını öz öhdələrinə götürdülər. Çünki rəsmi hakimiyyət dairələrinin erməniləri cəzalandırmaq niyyətlərinin olmamasını yaxşı başa düşürdülər.

Nəhayət, erməniləri öz yerlərində oturtmaq üçün səfər tədarükünə qərar verildi. Rusiyanın hakim dairələrinin ermənilərin bu vəhşiliklərinin qarşısını alması üçün nəinki heç bir tədbir görmədiyini, hətta onları hərtərəfli müdafiə etdiyini görən, Zəngəzur qəzasında olan 68.443 desyatin əkin sahəsindən 64.000 desyatin əkin sahəsinin sahibi olan Qarabağ bəyləri Əhməd bəy Ağayev ilə məsləhətləşmələr apardıqdan sonra azərbaycanlıları daşnak zülmündən qorumaq məqsədilə yaranmış "Difai" müdafiə təşkilatının köməyi ilə ermənilərə qarşı tədbirlər hazırlayaraq həyata keçirməyə başladılar. Belə ki, 800 nəfərdən ibarət yaradılmış könüllü dəstə Ordubaddan toplanmış min nəfərlik könüllü dəstə ilə birləşərək əks-hücum əməliyyatına başladılar. Ordu bölüklərə bölünməklə baş komandanlığa tabe etdirildi. Əməliyyatın uğurla başa çatdırılması üçün hərbi plan hazırlanmış, kəşfiyyat və əlaqə dəstələri yaradılmışdı. Sentyabr ayının 16-da orduya iki istiqamətdə hərəkət edərək Girdəkan və Panuslu erməni kəndini ələ keçirmək tapşırığı verildi. 500 nəfərlik üçüncü bölük isə Lec

və Təştin dağlarında mövqe tutub Mehri və digər kəndlərdən köməyə gələn ermənilərin yolunu kəsməli idi. Sentyabrın 16-da səhər tezdən komandanlığın əmri ilə Girdəkan kəndi atəşə tutuldu. Dörd-beş dəqiqə sonra Panuslu yaxınlığında olan bölük də döyüşə başladı. Dörd saatlıq şiddətli döyüşdən sonra ermənilər hücuma keçib bizim bölüklər arasında rabitəni kəsməyə cəhd etsələr də Atqız kəndində ehtiyatda saxlanan dəstənin hücumu ilə onlar dəf edildilər.

Ermənilərin Zəngəzur qəzasında vəhşiliklərinə məruz qalan kəndlər arasında Bayandur, Gorus, Eyvazlar, Davudlu kəndləri də var idi. Onlar daşnaklar tərəfindən hazırlanmış və xumbalar (erməni drujinaları) tərəfindən həyata keçirilmiş planlar nəticəsində tamamilə talan edilmiş, əhalisi isə qaçqın düşmüşdü (10).

On iki saata qədər davam edən döyüşdən sonra müsəlman kəndləri azad edildi. Yalnız beş yüz nəfərlik hökumət qoşununun gəlməsi xəbərindən sonra azərbaycanlılar geriyə-ümumi qərargahları olan Saqqarsuya çəkildilər. Hökumət qoşunları gəldikdən sonra Oxçu-Şəbadək camaatı öz kəndlərinə qayıtdı. Beləliklə, 1906-cı il sentyabrın 16-da Panuslu-Girdəkan döyüşlərində uğradıqları məğlubiyyətdən sonra ermənilərin Oxçu-Şəbadəyi ələ keçirmək planları alt-üst edildi. M.S.Ordubadinin qeyd etdiyi kimi “Ordubad və mahal camaatının bu dərəcədə olan qeyrətləri milli səhifələrimizə qızılı qələm ilə qırmızı bir xətt çəkib onu bəzədi və qiymətə mindirdi” (4, s.140).

Yuxarıda da qeyd edildiyi kimi, XX əsrin ilk başlanğıcında baş vermiş hadisələr erməni müəllifi Zavaryanın “Qarabağın iqtisadi vəziyyəti və 1905-1907-ci illərdə aclıq” adlı əsərində öz əksini tapmışdır. Zavaryan həmin illərdə Zəngəzurda 43 müsəlman türk kəndinin yandırılaraq dağıdıldığını göstərmişdir (12, s.85-87).

Mayevski əsərində Cənubi Qafqazda həmin illərdə baş verən hadisələrin səbəbələrini araşdıraraq belə nəticəyə gəlir ki, “baş vermiş bəlalar”, həm “hakimiyyətin cinayətkar fəaliyyətsizliyi”, həm də “nifaqın başlıca xadimlərinin-Daşnaksütyunun cinayətkar fəaliyyəti” nəticəsində baş verə bilərdi. Bu iki səbəbdən hansı əsas səbəb olmuşdur sualına müəllif cavab verir: şübhəsiz, ikinci səbəb (11, s.28). İki ildən sonra-1908-ci ildə o məqaləsinə aşağıdakı fikirləri də əlavə edib: “… Mən böyük təkidlə deyirəm ki, “Daşnaksütyun” və ona oxşar cəmiyyətlər həm Türkiyədə, həm də Qafqazda erməni xalqının bədbəxtliklərinin başlıca mənbəyidir. Bu təşkilatların indən belə mövcudluğu erməni əhalisini yeni-yeni fəlakətlərlə daim hədələyəcəkdir” (11, s.44). 1915-ci ildə kitabça çapa hazırlananda Mayevski ona bir əlavə də edir: “...əgər Daşnaksütyun və onun kimi cəmiyyətlər olmaysaydı, erməni milləti necə də firəvan həyat sürərdi, necə də parlaq mövqe tutardı” (11, s.145).

Vorontsov-Daşkovun Vitteyə ünvanladığı məruzədə də etiraf edilirdi ki, daşnaklar Qafqazda tamamilə müsəlmanlara qarşı mübarizənin təşkili ilə məşğuldurlar (9, s.63). Bu fikri Mayevski bir daha təsdiq edərək qeyd edir ki, “Qafqazda erməni-tatar qırğınının başlıca səbəblərini araşdırarkən qəti qeyd edirəm ki, bu qırğının günahkarları “taleyin hökmü ilə” öz fəaliyyətlərini Qafqaza köçürən həmin gizli təşkilatlar olub” (11, s.27).

254 məktub əsasında yazılmış “Qanlı illər” əsərində XX əsrin əvvəllərində İrəvan quberniyasının bütün qəzalarında baş verən qanlı hadisələr öz əksini tapmışdır. Ordubadi bu əsərində Yelizavetpol quberniyasına daxil olan Zəngəzur qəzasında ermənilərin törətdikləri vəhşiliklər barədə ətraflı məlumat vermişdir. Qeyd etmişdik ki, Rusiyanın hakim dairələri XX əsrin əvvəllərində çar mütləqiyyətinə qarşı baş verən narazılıqların, inqilabi hərəkatın qarşısını almaq məqsədilə Yaponiya ilə müharibə aparmaq, qazanacaqları təqdirdə əldə edəcəkləri təzminat ilə ölkədəki sosial problemləri həll etmək ümidində idilər. Lakin məlum olduğu kimi, Rusiya müharibədə uduzdu və bu məğlubiyyət ölkədəki narazılıqların daha da artmasına gətirib çıxardı. Çar hökuməti imperiyaya daxil olan xalqların başını qatmaq üçün müxtəlif üsullardan istifadə etməyə çalışırdı. Məhz buna görə də, vaxtilə erməniləri köçürərək Azərbaycan torpaqlarında yerləşdirməklə millətlərarası ədavətin toxumunu səpən çarizm iki xalq arasında olan düşmənçiliyi alovlandırdı. Məhz Ordubadi də məlum əsərində Qafqazda baş verən münaqişənin səbəbi kimi, mərkəzi hökumətin başının inqilabi hərəkatı yatırmağa qarışmasına görə ermənilərin özbaşınalıqlarına göz yumulduğunu, münaqişəni yatırmaq üçün heç bir tədbir görülmədiyini göstərmişdir. Ordubadi əsərində Bakıda baş verən hadisələrdən sonra Naxçıvanda, İrəvanda ermənilərin hansı vəhşilikləri törətdiyini ardıcıl şəkildə qeyd etmişdir.

XX əsrin əvvəllərində azərbaycanlılara qarşı ermənilərin törətdikləri qırğınlar barədə məlumat verən mənbələrdən biri də Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsəridir (6). Müəllif əsərində Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Zəngəzurda baş verən qırğınlardan bəhs etmişdir.

Bu əsərlərdən başqa bir sıra erməni müəlliflərinin 1905-1907-ci illərin qanlı hadisələrindən məlumat verən əsərləri də mövcuddur. Belə ki, S.Zavaryanın, İ. Alibekovun, A-donun (A-do-Ovanes Ter Mortirosyan-A. M.) əsərlərində hadisələr təhrif olunmuş şəkildə də olsa, öz əksini tapmışdır (5).

A-do "Qafqazda erməni-türk toqquşmaları" adlı əsərində Cənubi Qafqazın 12 qəzasında, o cümlədən Zəngəzur qəzasında baş verən hadisələr barədə məlumat verərək yazmışdır ki, bu qırğınlar zamanı 7 şəhər böyük dağıntılara məruz qalmış, 12 qəzada 252 kənd yandırılmış, 10 min əhali məhv edilmiş, yüz minlərlə azərbaycanlı yurd-yuvalarından didərgin salınmışdır (8, s.1-18). A-donun əsərində baş verən hadisələr nəticəsində İrəvan quberniyasında 959 (1301 kənddən), Zəngəzur qəzasında 314 (406 kənddən) kənddə Azərbaycan türklərinin yaşadıqları göstərilir. Nəticədə həmin dövrdə İrəvan quberniyasında və Zəngəzurda mövcud olmuş 1273 azərbaycanlıların yaşadıqları kəndlərdən (Naxçıvan qəzası istisna olmaqla) bütün əhali qovulmuşdur.

S.Zavaryanın "Qarabağın iqtisadi şəraiti və 1905-1907-ci illər aclığı" adlı əsərində digər qəzalarla yanaşı Zəngəzur qəzasında da azərbaycanlılara məxsus olan 43 kəndin tamamilə dağıdıldığı qeyd olunur (5). Zavaryanın əsərində baş verən hadisələrə səbəb olaraq guya sosial-iqtisadi problemlərin mövcud olması göstərilir. Təbii ki, bu fikir tamamilə yanlışdır.

XX əsrin əvvəllərində baş verən hadisələr barədə Rusiya və Türkiyənin dövlət arxivlərində də müəyyən qədər məlumatlar vardır. Belə ki, son illərdə aparılmış araşdırmalar zamanı həmin dövlətlərin arxivlərindən də azərbaycanlıların ermənilər tərəfindən qırğınlara məruz qalmaları barədə materiallar əldə edilmişdir. Belə ki, Rusiyanın arxivlərində ermənilərin Yelizavetpol quberniyasının Zəngəzur qəzasında ermənilərin tatarlara-azərbaycanlılara qarşı qırğın törətmələri barədə məlumatlar vardır. Bu sənədlərdən birində Yelizavetpol Dairə məhkəməsi prokurorunun Tiflis Məhkəmə palatası prokurorunun adına göndərilən 1905-ci il 5 dekabr tarixli təqdimatının Ədliyyə nazirinə göndərilən surətində noyabr ayının 24-də baş verən atışmadan sonra nisbi sakitliyin yaranmasına baxmayaraq, yenə də gərginliyin davam etməsi göstərilmişdir (3, s.79-88).

Qərbi Azərbaycanda həmin dövrdə gedən proseslər, erməni təcavüzkarlığının artması, xüsusən 1905-1906-cı illərdə baş vermiş hadisələr bölgənin etno-demoqrafik vəziyyətinə ciddi təsir göstərmişdi. Yerli əhalinin-azərbaycanlıların soyqırımı və deportasiyası burada onların sayının əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxardı.

İrəvan quberniyasının ayrı-ayrı qəzalarında azərbaycanlıların sıxışdırılması nəticəsində ermənilərin sayı süni surətdə artdı. Bunu İrəvan quberniyasının etnik tərkibinə dair 1886, 1897, 1908 və 1915-ci ilin göstəriciləri əyani sübut edir (2, s.1). Təkcə Zəngəzur qəzasının etnik tərkibinə baxsaq görərik ki, 1897-ci il siyahıyaalınmasına əsasən burada yaşayan 137.871 nəfər əhalinin 63.622 nəfəri, və ya 46,1 %-ini ermənilər, 71.206 nəfəri və ya 51,6%-ini azərbaycanlılar, 3043 nəfəri və ya 1,8%-ini isə kürdlər və başqa millətlər təşkil etmişdir (13, s.71). Ümumiyyətlə isə, İrəvan qəzasında müsəlmanlar 1886-cı ildə 59,9 %, 1897-ci ildə 57,2 % təşkil etdikləri halda, 1915-ci ildə onlar əhalinin cəmi 45,5 %-i təşkil edirdilər. 1886-cı ildə əhalisinin cəmi 38,3%-ni təşkil edən ermənilər isə 1915-ci ildə artıq 52 % idilər. Eçmiədzin qəzasında azərbaycanlı əhalinin nisbəti 35,7 %-dən, 31 %-ə enmiş, erməni əhalisinin isə 63,7 %-dən 68,8 %-ə qalxmışdı. Bütövlükdə quberniya üzrə azərbaycanlılar 1886-cı ildə 41,2 % təşkil etdikləri halda, 1915-ci ildə cəmi 35,2 % təşkil edirdilər (2, s.1). 1917-ci ilə dair Qafqaz təqvimində 1.120.242 nəfərdən ibarət quberniya əhalisinin 423.123-ü azərbaycanlı (37,77), 669. 871-i erməni (59,79 %), 27.248-i digər millətlərin nümayəndələri (2.44 %) təşkil edirdi (2, v.9-10). Lakin kənd yerlərində azərbaycanlıların sayı yenə də kifayət qədər çox idi. 1908-ci ilin göstəricilərinə görə quberniya kənd cəmiyyətlərinin ümumi əhalisi 807.360, ermənilər 366.088 (47,8 %), azərbaycanlılar 383.151(45,1%), digər əhali isə 58.121 (0,7 %) idi. İrəvan qəzasında isə azərbaycanlılar 55,1% təşkil edirdi (2, v.17- 18).

Rusiya tarixçisi S.Zelinskinin apardığı tədqiqatlara əsasən 1886-cı ildə Zəngəzurda xəzinə torpaqlarına aid olan 161 kənddən 64-ü azərbaycanlılara, 49-u ermənilərə, 47-i isə kürdlərə məxsus olmuşdur. Bu kəndlərdə yaşayan əhalinin 38.712 nəfəri azərbaycanlı, 30.850 nəfəri erməni olmuşdur (13, s.72). Lakin S.Zelinskinin bu məlumatı dəqiq deyil, çünki onun əsərində azərbaycanlılar yaşayan kəndlərin böyük əksəriyyəti (məsələn, Bayandur, Binəyeri, Cağazür, Qarabəyli, Çaykənd, Xələc, Sarıyataq və s.) kürd kəndi kimi göstərilmişdir. Bir məsələni də xüsusilə vurğulamaq lazımdır ki, kürdlər yaşayan kəndlər də Gülüstan və Türkmənçay sülh müqavilələrinin imzalanmasından sonra əmələ gəlmişdir. Məlum müqavilələrdən sonra kürdlər də ermənilər kimi köçürülərək Azərbaycan torpaqlarında, o cümlədən də Zəngəzur qəzasında məskunlaşdırılmışdılar (13, s.72).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası SPİHDA, f.276
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f. 970
3. "Qafqazda erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə. 1905-1906-cı illər. 2. Bakı: Elm, 2010, 472 s.
4. Ordubadi M.S. Qanlı illər. 1905-1907-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: QXYK, 1991, 144 s.
5. N. Mustafa. Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında. "Xalq" qəzeti, 31 mart, 2009-cu il, s. 4
6. Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 148 s.
7. Həsənov T. 1906-cı ildə Zəngəzurun türk-müsəlman əhalisinə qarşı erməni təcavüzü. "EURO Xəbər", 11-29 mart, 31 mart-12 aprel 2011-ci il, № 5, 6, s. 8
8. А-До (Ованес Тер-Мартиросян). Об армяно-тюркских столкновениях в Ереване в 1905-1906 гг. с.18
9. Арутюнян А.Б. Народы Закавказья в борьбе против царизма в годы первой русской революции. Изд. ЕГУ, Ереван, 1957, 180 с.
10. К событиям в Эрванской губении. Газ. Каспий, 4 июня 1905 г. №104., 1906, 15 aprel, 15 avqust
11. Маевский В. Армяно-татарское смута на Кавказе как один из фазисов армянского вопроса. Тифлис, 1915, 61 с.
12. Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 г. Перевод с Армянского. Издательство Армянского Културного Союза в Баку. Санкт -Петербург, 1907, 87 с.
13. Urud Musa. Zəngəzur (Elmi-publisistik nəşr). Bakı, "Nurlan" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2005, 504 səh.


## SUMMARY


**Abdulla Mustafayev, Ruhyya Rzayeva,**
**Munavvar Suleymanova**


## ZANGAZUR IS IN THE FIRST STAGE OF THE GENOCIDE POLICY OF THE ARMENIANS AGAINST THE AZERBAIJANS


It was mentioned in the article that the Armenians, who were resettled in the lands of ancient Azerbaijan under the patronage of Tsarist Russia at the beginning of the 19th century, completed their military, political, economic, organizational and ideological preparations in order to seize these lands and started provocative actions from the beginning of the 20th century. They used various means to create fear among the population, and took advantage of the indifference of the tsarist authorities to become even more perverted.

Finally, trying to take advantage of the conditions created by the first bourgeois-democratic revolution in Russia, they began to implement the first stage of the genocide and deportation policy that they would carry out against Azerbaijanis at various times throughout the 20th century.

In the initial stage covering the years 1905-1907, massacres were organized against the Azerbaijani population in a number of regions of Azerbaijan, including Zangezur. Zangezur was of special importance in the Armenian invasion plans. By seizing this place, they aimed to separate Nakhchivan from the main part of Azerbaijan, and in the future to take over the region very easily, and ultimately to completely separate Turkey from the Turkic world. For this purpose, Armenians carried out massacres in Zangezur. Based on the available literature and periodical press of the period mentioned in the article, the scale and result of these massacres were investigated.

***Key words:*** *West Azerbaijan, Zangezur district, Iravan governorate, Ordubad district, Okchu-Shabadek tragedy, South Caucasus, "Dashnaksutyun" party.*

## РЕЗЮМЕ

**Абдулла Мустафаев, Рухия Рзаева,**
**Мунаввар Сулейманова**

## ЗАНГАЗУР НАХОДИТСЯ В ПЕРВОЙ ЭТАПЕ ПОЛИТИКИ ГЕНОЦИДА АРМЯН ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ

В статье отмечалось, что армяне, переселенные на земли древнего Азербайджана под покровительством царской России в начале XIX века, завершили свои военно-политические, экономические, организационные и идеологические приготовления для захвата этих земли и начали провокационные действия с начала 20 века. Они использовали различные средства для создания страха среди населения, а также воспользовались равнодушием царских властей, чтобы еще больше извратиться.

Наконец, пытаясь воспользоваться условиями, созданными первой буржуазно-демократической революцией в России, они приступили к осуществлению первого этапа политики геноцида и депортации, которую они будут проводить в отношении азербайджанцев в разное время на протяжении XX века.

На начальном этапе, охватывающем 1905-1907 годы, были организованы массовые убийства азербайджанского населения в ряде районов Азербайджана, в том числе в Зангезуре. Зангезур имел особое значение в планах армянского вторжения. Захватив это место, они стремились отделить Нахчыван от основной части Азербайджана, а в дальнейшем очень легко завладеть регионом, а в конечном итоге полностью отделить Турцию от тюркского мира. С этой целью армяне устроили массовые убийства в Зангезуре. На основании доступной литературы и периодической печати указанного в статье периода были исследованы масштабы и результаты этих массовых убийств.

***Ключевые слова:*** *Западный Азербайджан, Зангезурский уезд, Иреванская губерния, Ордубадский уезд, Окчу-Шабадекская трагедия, Южный Кавказ, партия «Дашнакцутюн».*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Allahverdi oğlu Hüseynov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 37-41
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 37-41
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 37-41

**ZAMİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*zamalisoy@gmail.com*

**UOT: 94(479.24).**

# ERMƏNİLƏRİN İRƏVANA ƏRAZİ İDDİALARININ TARİXİ KÖKLƏRİ

*Məqalədə İrəvanın yaşayış məntəqəsinə çevrilməsinin tarixi kökləri orta əsr mənbələrinə əsaslanaraq araşdırmış, bu şəhərin tarixi türk torpağı olması ilə bağlı danılmaz bir həqiqəti ortaya çıxarmışıq. XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiya və İngiltərənin dəstəyi ilə azərbaycanlıların sayına görə üçüncü böyük şəhəri olan İrəvan tutulur. Ermənilər İrəvanın ələ keçirilməsi ilə kifayətlənməyərək yeni ərazi iddiaları irəli sürməyə başlamışdılar.*

***Açar sözlər:*** *İrəvan, ADR, Rusiya, ermənilər, Qərbi Azərbaycan*

Çar Rusiyası tərəfindən məskunlaşdırılaraq Azərbaycana gətirilən ermənilərin Azərbaycan torpaqlarını tədricən ələ keçirmək üçün atdıqları addımları, yaratdıqları saxta faktları tarixi kontekstdən araşdırmaq önəmlidir. Bu səbəbə görə ermənilərin Qərbi Azərbaycana ərazi iddialarını əsaslandırmaq cəhdləri maraq doğurur. Bu mövzu ilə bağlı əsas prioritet istiqamətlərdən biri İrəvana olan iddialardır. Azərbaycanın üç ən böyük şəhərindən biri olan İrəvanda erməni iddialarını mənbələr əsasında araşdırmaq, bölgənin etnodemoqrafik vəziyyətinin ermənilərin xeyrinə necə dəyişdiyini öyrənmək olduqca aktual məsələlərdən biridir.

Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycanda XVIII əsrin birinci yarısında xanlıqlar dövrü başlandı. Bu xanlıqlara indiki Azərbaycan Respublikası, Cənubi Azərbaycan (İran İslam Respublikasının indiki şimal hissəsi), indi Ermənistan adlanan tarixi Qərbi Azərbaycan, Cənubi Dağıstan və Gürcüstanın cənub-şərqi daxil idi.

Səfəvilər dövründə mərkəzi hakimiyyətlə vassallar arasında münasibətlər zəifləməyə başladı. Azərbaycanın tədricən ayrılması və onun tarixi torpaqlarında dövlətin yenidən qurulması ölkədə bəylərbəylik ənənələrinin formalaşmasına səbəb oldu (6, s.6). Bəylərbəylik inzibati-ərazi quruluşunun əhəmiyyətinin artmasından sonra bəylərbəyilərlə şah hakimiyyəti arasında yaranan qarşıdurmalar onların mərkəzdən uzaqlaşma meylini gücləndirdi. Son Səfəvilər dövrünə qədər tapılan arxiv materialları İrəvan vilayətində və mərkəzi İrəvan şəhərində mərkəzi hakimiyyətə qarşı üsyanların baş qaldırdığını təsdiqləyir.

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Azərbaycan ərazisində bir növ dövlət qurumu kimi xanlıqlar yarandı. İrəvan xanlığından başqa Qarabağ, Bakı, Salyan, Quba, Cavad, Şamaxı, Şəki, Talış, Gəncə, Naxçıvan, Qaradağ, Xoy, Marağa, Ərdəbil, Maku, Sərab, Urmiya və Təbriz xanlıqları da yaradıldı. Bunlardan başqa kiçik dövlət formaları da yaradıldı. Bunlardan Şorayel (Şoragöl) və Pəmbək sultanlıqları İrəvan xanlığının tabeliyində idi. İrəvan xanlığının ərazisinə indiki Naxçıvan Muxtar Respublikasının Zəngəzur bölgəsi, Şərur və Sədərək bölgələri və Türkiyə Respublikasının İğdır vilayəti daxil idi. İrəvan xanlığı, Naxçıvan, Qarabağ və Maku xanlıqları, Osmanlı İmperiyası, Kartli-Kaxeti çarlığı, Borçalı, Qazax xanlığı ilə həmsərhəd idi. Mənbələr göstərir ki, xanlığın mərkəzi olan İrəvan XIV əsrdə yaşayış məntəqəsi kimi yaranmış və Səfəvi sərkərdəsi Rəvanqulu xanın bölgəyə gəlməsi ilə şəhər statusu almışdır (1, s.41). Şəhərin adı XX əsrin 50-ci illərində erməniləşdirilərək İrəvan adlandırılıb. Bu dövrdən etibarən ermənilər tarixdə varlığı sual altında olan və hansı ərazidə mövcudluğu bəlli olmayan Erebuni ilə əlaqələndirməyə cəhdlər etməyə başladılar.

Erməni tarixçiləri şəhərin adını Urartu padşahı I Argiştinin dövründə (eramızdan əvvəl 782) tikilmiş Erebuni (İrpuni) qalasının adı ilə bağlamağa çalışsalar da, bunun əksini göstərən tarixi

mənbələr şəhərin XV-XVI əsrlərdə salındığını göstərir. İrəvanın yaranması haqqında məlumat verən Övliya Çələbi İrəvanın XV əsrdə yaşayış məntəqəsi olduğunu qeyd edib. Hacı Çələbinin qeydlərinə görə, hicri təqvimlə 810-cu ildə (1407-1408) Əmir Tiymurun tacirlərindən Xacə Xan Lahicani adlı bir tacir çox məhsuldar İrəvan bölgəsinə gələrək ailə üzvləri ilə birlikdə burada yaşamışdır. O, çəltikçilik sayəsində varlanıb və bu kəndi salıb. Övliya Çələbi, Şah İsmayılın hicri 915-ci ildə (1509-1510) Rəvanqulu xana bu bölgədə qala tikdirməyi əmr etdiyini və Rəvanqulu xanın qalanı 7 ildə tikdirərək ona “Rəvan” adını verdiyini vurğulayır.

Ermənilərin qeyd etdiyi Erebuni qalası yalnız hərbi istehkam üçün tikilib və heç bir şəhər infrastrukturu yaradılmayıb. Urartuların ermənilərlə heç bir əlaqəsi olmadığı kimi, keçmiş Erebuni qalasının da indiki İrəvan şəhəri ilə nə zaman, nə də məkan baxımından heç bir əlaqəsi yox idi.

XIX əsrin əvvəllərində burada olmuş britaniyalı səyyah Robert Kerr Porters İrəvanın ərazisinin uzunluğunun 200 mil, eninin isə 100 mil olduğunu bildirmişdir. İrəvan şəhəri inzibati cəhətdən 4 yerə bölünürdü. Qala, şəhər məhəlləsi, Təpəbaşı və Dəmirbulaq məhəllələri. F.Əliyeva yazır ki, İrəvan xanlığının əhalisi əsasən türkdilli azərbaycanlılardan ibarətdir, onların yerli xalqlar olması danılmaz faktdır və bunu bütün mənbələr təsdiq edir. XIX əsrin əvvəllərində bölgəni işğal etməyə gələn rus qoşunlarının müxtəlif generalları da imperiya qərargahına verdikləri hesabatlarda bu həqiqəti qəbul edirdilər. Məsələn: Qafqazdakı rus qoşunlarının baş komandanı general Paskeviç buranı böyük çətinliklə ələ keçirdikdən sonra xanlıqdakı azərbaycanlı ailələrinin sayını 10 min ailə, ermənilərin sayını isə 3 min ailə kimi bildirmişdir (1, s.6). Digər çar məmuru İ.Şopen yazırdı ki, XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində bölgə əhalisinin mütləq əksəriyyəti müsəlmanlardan, yəni azərbaycanlılardan ibarət idi. O qeyd edib ki, İrəvan quberniyasında 16 755 ailə (81 749 nəfər) müsəlman, 4428 ailə (25 151 nəfər) xristiandır (11, s.639). Qeyd edək ki, bölgədəki xristian əhali dedikdə təkcə qriqorian erməniləri deyil, həm də müxtəlif xristian təriqətlərinin nümayəndələrini nəzərdə tutur, ermənilərin sayının az olduğu qənaətinə gəlmək olar. Amerikalı alim Castin Makkarti mənbələrə əsaslanaraq belə bir nəticəyə gəlib ki, Türkmənçay müqaviləsi imzalanana qədər İrəvan xanlığının əhalisinin 80 faizi Azərbaycan türkləri olub. İşğaldan sonra İrəvan xanlığında məskunlaşan ermənilər yerli azərbaycanlılara qarşı düşmənçilik münasibəti nümayiş etdirmiş, burada daim təxribatçılıq fəaliyyəti ilə məşğul olmuşlar. Xanlığın torpaqlarında ermənilərin Eçmiədzin (əslində Üçkilsə) adlandırdıqları dini mərkəz təxribat xarakterlidir və ərazi iddiaları üçün din pərdəsi altına salınmışdır. Üçkilisədəki qriqoriyan ruhaniləri rus çarlarına Azərbaycanda erməni dövlətinin qurulmasını xahiş edən məktublar göndərir, işğal zamanı yerli çar ordusu komandirlərinə hər cür xidmətləri göstərmək üçün əllərindən gələni edirdilər. Məsələn, 1827-ci il noyabrın 9-da Dehqarqanda aparılan danışıqlar zamanı Qriboyedov və Paskeviç görüşən zaman erməni keşiş Nersesin Xoydan olan nümayəndələri onlara ermənilərin köçürülməsi ilə məşğul olmalarını xahiş etdilər. Onlar Qriboyedovu “erməni millətinin sədaqətli müdafiəçisi” kimi xarakterizə edərək, Rusiyanın qüdrətli hökmranlığı bayrağı altında qalacağını gözlədiklərini bildiriblər. Bu səbəbdən müqaviləyə ermənilərlə bağlı maddə əlavə etmək istəyiblər. Rus çarlığının himayəsi altında Qacar ərazisinin şəhər və kəndlərində yaşayan ermənilərin sərbəst hərəkətini təmin etməyə çalışırdılar. Məktubda diqqət çəkən məqamlardan biri də ermənilərin miqrasiyanı “vətənlərinə qayıdış” kimi təqdim etmək cəhdləridir.

Rusiya işğalından sonra İrəvan xanlığında xristianlaşma və erməniləşdirmə digər Şimali Azərbaycan xanlıqlarına nisbətən daha sürətlə həyata keçirildi. Məsələyə obyektiv yanaşan bir çox qərb tədqiqatçıları bu faktları aşağıdakı kimi ifadə edirlər. “Yazırlar ki, Rusiya işğalı zamanı İrəvan xanlığında müsəlman əhalinin təxminən 30 faizi ya məhv edilib, ya da bölgəni tərk etməyə məcbur edilib” (4, s.18).

Rusiyanın dəstəyi ilə antiazərbaycan siyasəti həyata keçirən ermənilərin fəaliyyəti nəticəsində İrəvan xanlığı ləğv edildi. Ruslar xanlığın etnik quruluşunu dəyişməyə, erməniləşdirməyə çalışırdılar. Rus qoşunlarının baş komandanı İ.F.Paskeviç İrəvan şəhərini işğal etdikdən sonra İrəvan şəhərinin Müvəqqəti İdarəetmə Komitəsini yaratdı. Komitəyə üç nəfər daxil edildi: general-leytenant Krasovski (sədr), podpolkovnik Borodin – şəhər komendantı və erməni yepiskopu Nerses Aştaraketsi

(2, s.144). Göründüyü kimi, burada azərbaycanlıların sayının çox olmasına baxmayaraq, onların heç bir nümayəndəsi xanlığın idarəetmə sisteminə təyin edilməmişdi.

Rusiyanın Naxçıvan və İrəvan xanlıqlarını işğal etməsi ermənilərin orada ərazi iddialarını həyata keçirmək ümidlərini artırdı. Rusiya İmperiyası ilə Qacarlar sülaləsi arasında bağlanan Türkmənçay müqaviləsindən sonra Rusiya imperatoru I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edilib Rusiyaya birləşdirilərək "Erməni vilayəti" adlandırıldı. "Ali Senat bu vilayətin strukturu və idarəetmə qaydaları haqqında lazımi göstəriş alacaq" (9, s.38-39).

İrəvan xanlığı işğal edildikdən sonra Qacarların idarə etdiyi İranın daxilindən və Türkiyədən ermənilər tarixi Qərbi Azərbaycanda, İrəvan xanlığı ərazilərində yaranan "Erməni vilayəti"nə köçürülür, bölgənin yerli avtoxton azərbaycanlı əhalisi isə indiki Türkiyə və İran ərazilərinə köçməyə məcbur edilirdi. Qraf Paskeviç qraf Nesselora yazdığı məktubda İrəvan xanlığından 100 qarapapaq ailəsi və 300 müxtəlif ailənin Qarsa, Uluhanlı tayfasından isə 600 nüfuzlu ailənin Bəyazidə getdiyini bildirir. Mənbədən belə başa düşülür ki, 800 ailədən ibarət qarapaqlıların bir qismi Arazdan keçərək İrəvan xanı Hüseyn xanın qardaşı Həsən xana qoşulur.

"Erməni vilayəti" İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairələrinə ayrılmışdı. Vilayətin idarə rəisi vəzifəsini rus ordusunun komandanı Aleksandr Çavçavadze yerinə yetirirdi. Sonra isə 1830-1838-ci illərdə vilayətin idarə rəisi vəzifəsini erməni əsilli general V.Bebutov yerinə yetirmişdi. Bölgənin demoqrafik vəziyyətinə diqqət yetirdikdə ermənilərin daha bir saxtakarlığı üzə çıxır. Bu saxtakarlıq İrəvan xanlığının demoqrafik vəziyyətini ermənilərin xeyrinə dəyişmək cəhtləri olmuşdur. Erməni tarixçisi Corc Burnoutyan ingiliscə yazdığı əsərində XIV əsrdə İrəvan və Naxçıvan bölgələrində, ümumiyyətlə, tarixi Qərbi Azərbaycanda ermənilərin çoxluq təşkil etdiyini sübut etməyə çalışmışdır. Erməni tarixçisi C.Burnoutyanın iddiasına görə, Teymurun çoxsaylı yürüşlərindən sonra İslamın ali dinə çevrildiyi XIV əsrin sonlarından türk tayfaları bu bölgələrdə məskunlaşmışdır. Onun sözlərinə görə regionda qalan ermənilər yadelli hökmdarların idarəsi altına düşmüşdü (6, s.17). Lakin XVI əsrə qədər bölgə əhalisinin etnik quruluşu ilə bağlı mənbələrdən əldə edilən məlumatlar bunun əksini sübut edir. Nəsəvi Azərbaycanın XII-XVIII əsrlərdəki əhalisindən bəhs edərkən Azərbaycanı "türklərin dəniz qumu dənəsi qədər olduğu bir ölkə" kimi tərif etmişdir.

İrəvan xanlığının torpaqları Rusiya tərəfindən işğal edildikdən sonra bu bölgədə ermənilər yerləşdirilməyə başlansa da, azərbaycanlılar hələ də say üstünlüyünə malik idilər. Yerdəki Rusiya rəsmilərinin öz hesabatlarında ermənilərin sayını şişirtməyə çalışdıqlarını da müşahidə etmək olar. Bu, əsasən, imperiya mərkəzinin qarşıya qoyulan məqsədlərin yüksək səviyyədə icrasını göstərmək üçün idi. Sonrakı dövrdə erməni "tədqiqatçıları" Rusiya hakimiyyətinin bu cür şişirdilmiş məlumatlarından fəal şəkildə yararlanmağa başladılar. Məsələn: İ.Şopen yazırdı ki, 1838-ci ildə ermənilər əyalət əhalisinin yarısını təşkil edirdi. O, 1829-1832-ci illərdə Qacarlar İranından İrəvan vilayətinə 23.568, Türkiyədən 21.639 nəfər köçürüldükdən sonra "Erməni vilayəti"ndə ermənilərin sayının 65.280 nəfərə çatdığını göstərmişdir (6, s.635-638).

1829-cu ildə qraf Paskeviçin tapşırığı ilə kollec assesoru İ.Şopen Erməni əyalətinin əhalisinin kameral siyahılarını tərtib etmişdi. İ.Şopenin məşhur 20 cildlik əlyazmasında vurğulanır ki, "*Ermənistan vilayətində 752 kənd var idi və bu ərazidə 17 min ailə yaşayırdı. Siyahıyaalmanın nəticələrinə görə, İrəvanda 81.749 müsəlman, 25.131 erməni yaşayırdı*" (11, s.635-638). Başqa bir mənbədən də aydın olur ki, İran və Osmanlı imperiyaları torpaqlarından yalnız 57.226 erməni köçürülüb. Bu cür kütləvi köçürmə yerli əhalinin narazılığını artırdı. Bunun qarşısını almaq üçün çar hökuməti yeni inzibati islahatlar həyata keçirməyə başladı.1840-cı il aprelin 10-da imperator I Nikolayın fərmanı ilə "Erməni vilayəti" ləğv edildi. 1841-ci il yanvarın 1-də İrəvan qəza kimi Gürcü-İmereti qubernatorluğunun tərkibinə qatıldı. İrəvan qəzasının əhalisinin 51,4%-i Azərbaycan türkləri, 38,5%-i ermənilər, 5,4%-i kürdlər, 2%-i ruslar və 1,5%-ni aysorlar təşkil edirdi. I Nikolayın 14 dekabr 1846-cı il fərmanı ilə Cənubi Qafqaz dörd qubernatorluğa bölündü. İrəvan qəza kimi Tiflis qubernatorluğunun tərkibinə daxil edildi.

Nəticə etibarilə Ermənilər Türkmənçay müqaviləsindən sonra ruslar tərəfindən Azərbaycanda yerləşdirilib. Sonrakı dövrlərdə onların Qərbi Azərbaycan torpaqlarına iddiaları artmağa başladı.

Ermənilər Azərbaycan torpaqlarına qarşı iddialarını əsaslandırmaq üçün tarixi faktları saxtalaşdırmağa çalışırdılar. Cənubi Qafqazda yaradılacaq erməni dövləti Rusiya üçün xüsusi əhəmiyyət kəsb edirdi. Rusların fikrincə, bu bölgədə yaradılacaq erməni dövləti Çar Rusiyasının nəzarəti altında olmalı idi. Ermənistan dövləti Osmanlı imperiyasını Azərbaycandan ayırmaqla yanaşı həm də, Osmanlı imperiyasının digər türkdilli dövlətlərlə əlaqəsini kəsməli idi.

Bundan əlavə, İngiltərə bu bölgədə qurulacaq bir xristian ölkəsinə böyük maraq göstərirdi. XIX əsrdə və XX əsrin əvvəllərində, xüsusən də Birinci Dünya Müharibəsi illərində bu məsələ beynəlxalq aləmdə müzakirə olunmağa başlandı. Rusiyanın Naxçıvan və İrəvan xanlıqlarını işğal etməsi ermənilərin ərazi iddialarını həyata keçirmək ümidlərini artırdı. Bu cür tədbirlər aborigen əhali arasında narazılıq yaradırdı. Çar Rusiyası ermənilərdən öz məqsədləri üçün istifadə etməkdə davam etdi və onların Qafqaza köçürülməsinə şərait yaratdı. Xüsusən də Çar Rusiyasının düşmən gördüyü Osmanlı dövlətinə qarşı bu gücdən istifadə etmək planlarını nəzərdən keçirmək lazımdır. Osmanlı dövlətində uzun illər "milleti-siddika" (sadiq millət) adı ilə tanınan və Osmanlı dövlət quruluşuna yaxından bələd olan ermənilər Osmanlı dövlətinə qarşı mübarizədə mühüm rol oynaya bilərdilər. Bu məqsədlə ermənilər dəstəkləndi və I Dünya Müharibəsi illərində Osmanlı üçün gərgin olan vəziyyəti daha da qızışdırdı. XX əsrin birinci rübündə ermənilər beynəlxalq gərginlikdən istifadə edərək İrəvan şəhərini ələ keçirə bildilər.

## ƏDƏBİYYAT


1. Əliyeva, F. İrəvan xanlığı // Azərbaycan, 2009, 18 mart.
2. Naxçıvan ensiklopediyası: [2 cilddə]. İstanbul: Bakanlar Medya, 2005. c.1. 356 s.
3. Nəcəf, Ə. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından XIV əsrə qədər) / Ə.Nəcəf. – Bakı: Qanun, – 2010. – 756 s.
4. Muratoff. A,. (1966) Kafkas Harekatı, 1828-1921 Türk-Kafkas Sınırındaki Harplerin Tarihi Ankara: Gnkur, Basımevi, 525
5. Bournoutian, G.A. (1980) The Population of Persian Armenia Prior to and Immediately Following its Annexation to the Russian Empire, 1826-32 // Washington, D.C.: Woodrow Wilson International Center for Scholars; Kennan Institute Occasional Paper Series, 91
6. Мамедова, Э.К. (1999) Административное устройство и управление Азербайджанских ханств во второй половине XVIII века: Диссертация кандидата исторических наук, Баку, 34
7. Шопен, И. (1852) Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, СПб.: Типог, ИАК, 1231
8. Маккарти, Д. (1992) Тюрки и армяне. Руководство по армянскому вопросу (перевод с анг.) Д.Маккарти, К.Маккарти. Баку: Азернешр, 159
9. Гаджиев, И. (2011) Армянская область – мина замедленного действия, İRS, Наследие №6 (54), 38-42
10. Акты собранные Кавказской Археологической Комиссии. Архив Главного Управления Наместника Кавказского. /Издан под редакцией председателя комиссии д.с.с, Ад.Берже, Тифлис, Типография Главного Управления Наместника Кавказского, Т. 7, 1011
11. Шопен, И. (1852) Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи/ И.Шопен, СПб.: Типог, ИАК, 1231

## SUMMARY

**Zamin Aliyev**

## HISTORICAL ROOTS OF ARMENIAN TERRITORIAL CLAIMS TO YEREVAN

The article examines the historical roots of Yerevan's transformation into a settlement based on medieval sources, we have revealed an undeniable fact that this city is a historical Turkish homeland. At the end of the 19th century and the beginning of the 20th century, with the support of Russia and England, they captured Yerevan which was the third largest city in terms of population of Azerbaijanis. Armenians had started to declare new territorial claims by not satisfying with the capture of Yerevan.

***Key words:*** *Yerevan, ADR, Russia, Armenians, West Azerbaijan*



## РЕЗЮМЕ

**Замин Алиев**

## ИСТОРИЧЕСКИЕ КОРНИ ТЕРРИТОРИАЛЬНЫХ ПРЕТЕНЗИЙ АРМЯН НА ЕРЕВАН

В данной статье изучены исторические корни превращения Еревана в поселение, и на основе средневековых источников выявлено, что этот город является исторической турецкой родиной как неоспоримый факт. В конце 19-го и начале 20-го веков при поддержке России и Англии они захватили Ереван, третий по численности населения город азербайджанцев. Территориальные претензии армяне начали выдвигать новые территориальные претензии, которые не закончились взятием Еревана.

***Ключевые слова:*** *Ереван, АДР, Россия, Армения, Западный Азербайджан*


---


***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Allahverdi oğlu Hüseynov*

***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*

***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 42-48
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 42-48
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 42-48

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*rehimovyasar@gmail.com*

**UOT: 94(479.242)**

# NAXÇIVAN MSSR-DƏ ZORAKI KOLLEKTİVLƏŞMƏNİN SOSİAL-SİYASİ PROSESLƏRƏ TƏSİRİ (XX ƏSRİN 20-30-CU İLLƏRİ)

*XX əsrin 20-30-cu illərində sosialist yenidənqurmasının mühüm tədbirlərindən biri də kollektivləşdirmə idi. Əsas məqsəd fərdi kəndli təsərrüfatlarını kolxoz və sovxozlarda birləşdirmək, ictimai mülkiyyət adı altında onları dövlət idarəçiliyinə verməkdən ibarət idi. Məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində kənd təsərrüfatının zorakı kollektivləşdirilməsinin sosial-siyasi proseslərə təsirinin araşdırılmasına cəhd edilmişdir. XX əsrin 20-ci illərin əvvəllərində Naxçıvanda da fərdi kəndli təsərrüfatlarının ləğvi və kollektiv təsərrüfatların yaradılmasına keçid istiqamətində müxtəlif tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət Arxivinin 40-cı fondunda olan xeyli sənədlər, Torpaq komissarlığının kənd təsərrüfatının vəziyyətinə dair materialları (siyahı 1, sax.v.1/608), Zaqafqaziya MİK Rəyasət Heyətinin iclasının protokolları (siy.1 sax.v.30/48, 77), torpaq quruluşuna və bölgüsünə dair protokollar, onun qeydiyyatdan keçməsi haqqında qaydalara aid sənədlər (siy.1, sax.v.15/4) və b. yeni materiallar məqalənin işlənib hazırlanmasında mühüm rol oynamışdır. Məqalə yeni arxiv sənədləri və faktlar əsasında hazırlanmış və belə bir nəticəyə gəlinmişdir ki, burada da könüllülük prinsipinə əməl edilməmiş, zorakı vasitələrlə fərdi kəndli təsərrüfatları kollektiv təsərrüfata cəlb edilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan MSSR, pambıq, heyvandarlıq, kollektivləşdirilmə, kənd təsərrüfatı, kolxoz, torpaq, texnika*

Ötən əsrin əvvəllərində erməni qəsbkarlarının arası kəsilməyən təcavüz və işğalları, erməni müdaxiləsi, qeyri-sabit hakimiyyət Naxçıvan iqtisadiyyatına böyük zərbə vurmuşdur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda kənd təsərrüfatı sahələri zəif inkişaf etmişdi. 1914-1920-ci illərdə pambıqçılıq, taxılçılıq, baramaçılıq təsərrüfat sahələri xeyli azalmış, üzüm, meyvə və tut bağlarının çox hissəsi sıradan çıxmış, mal-qaranın sayı nəzərə çarpacaq dərəcədə aşağı düşmüşdü. Belə ki, göstərilən dövrdə barama istehsalı 20 min puddan 1,5 puda enmiş, pambıq istehsalı üç dəfə azalmışdı. İribuynuzlu mal-qaranın sayı 94 min başdan 21 minə, davarların sayı isə 172 min başdan 63 min başa yenmişdi (17, s.70).

XX əsrin əvvəllərində Naxçıvanda mövcud olan 508.300 desyatin torpaq sahəsinin 273.090 desyatin və ya 53,8%-i mülkədarlara, 180.500 desyatin və ya 35,5%-i xəzinəyə, 14.200 desyatin və ya 2,8%-i məscidlərə, 40,2 desyatin və ya 7,9%-i kəndlilərə məxsus idi (1, s.127).

Bu rəqəmlər torpağın qeyri-bərabər şəkildə bölündüyünü göstərməklə bərabər, torpaqların çox az bir hissəsinin, yalnız 8%-nin kəndlilərin istifadəsində olduğuna şahidlik edir. Araşdırılan sənədlər belə deməyə əsas verir ki, 1923-cü ildə müxtəlif qayda və təlimatlar-46 maddədən (bənddən) ibarət olan torpağın bölüşdürülməsinə dair, torpaq quruluşu işlərinin statistik tədqiqinə dair təlimat və torpaq cəmiyyətlərinin qeydiyyatı üçün müvəqqəti qaydalar (11, v.6-14) mövcud idi.

Aqrotexniki qaydalar yaratmaq, yeni təcrübə sahələri təşkil etmək və bu qaydaların yayılması işinə diqqət artırılmışdı. Muxtar respublikada kənd təsərrüfatının dirçəldilməsində aqrotexniki qaydalardan istifadə edilməsinin böyük rolu olmuşdur. 1924-cü ildə Naxçıvanda, Şərurda və

Ordubadda aqrotexniki, Biçənək kəndlərində isə zootexniki məntəqələr yaradılmışdı (17, s.75). 30-cu illərin əvvəllərində də təcrübə sahələri və aqrosahələr yaradılması işi davam etdirilirdi. Xüsusilə 1930-cu ildə MTS-lərin işi ilə əlaqəli rayonlarda aqro xidmət üçün aqrosahələr yaradıldı. Həmin vaxt Noraşen (Şərur) rayonunda 3 aqrosahə, Naxçıvanda isə 1 aqrosahə var idi (9, v.5). Aqro xidmət və təcrübə sahələrinin sayı sonralar da artırılmaqda davam etmişdir.

Arxiv sənədlərindən və aparılan araşdırmalardan məlum olur ki, kolxozlara məxsus olan torpaqların mənimsənilməsi hallarına yol verilirdi. Bunu aparılan yoxlamalar da sübut edirdi. Fikrimizi faktlarla əsaslandıraq. Məs., muxtar respublikanın kolxozlarında aparılan yoxlamalar nəticəsində aşkar edilmişdir ki, respublikanın 12.521 təsərrüfatından 1.124-də 98,16 hektar sahə mənimsənilmişdir. Təkcə Naxçıvan (indiki Babək) rayonunun Nehrəm kəndində 64 təsərrüfat həyətyanı sahələrini 7 hektar artırmışdı (12, v.40-59). Bu cür hallara yol verilməməsi üçün müxtəlif tədbirlər görülürdü.

Əkin sahələri və torpaqlarla yanaşı, taxıl, pul, heyvan və quşların mənimsənilməsini əks etdirən faktlara də rast gəldik. Muxtar respublikada xırda kolxozlar iriləşən zaman aşkar oldu ki, ayrı-ayrı şəxslər tərəfindən 118 hektar əkin sahəsi, 134 min manat pul, 8 tondan artıq taxıl, 21 baş at, 189 iribuynuzlu, 2963 baş xırda buynuzlu heyvan və 2500-dən artıq quş mənimsənilmişdir (13, v.9-21). Bu faktlar həmin illərin real mənzərəsini canlandırmağa yaxından kömək göstərirlər.

Sənədlərdəki sovxoz və kolxozlar, kənd təsərrüfatının traktorlaşması və maşınlaşdırılması, əkin sahələri, bostançılıq, su təsərrüfatı məsələləri, 1928-1929-cu illərdə sovetlərə seçkiqabağı hesabat kampaniyasının məlumat xarakterli məruzəsi (9, v.3-20) və b. məsələlərə aid olan materiallar araşdırmalar üçün çox faydalıdır. Belə ki, 1928-ci il 15 dekabrdan başlamış seçkiqabağı kampaniyada Naxçıvandakı seçki dairələrini təşkil edən 180 hesabat seçki məntəqəsi aşağıdakı sayda yerləşdirilmişdir: Ordubadda-18, Noraşendə (Şərurda)-52, Əbrəqunusda-25, Nərimanovda-30, Culfada-9, Tumbulda-34, Parağada-12. Seçkiqabağı kampaniyanın keçirilməsinə cəlb edilmiş 55 nəfər məsul və cavabdeh şəxsin 14 nəfəri qadın idi (9, v.16). Maraqlı bir fakt da ondan ibarətdir ki, Nərimanov dairəsinin Şahbuz kəndində, Əbrəqunus dairəsinin Qızılca, Paradəşt, Şurut, Saltax, Kırna, Qazançı, Bənəniyar və Əbrəqunus kəndlərində keçirilmiş hesabat yığıncaqlarında 225 nəfər qadın iştirak etmişdir (9, v.17). Rəqəmlərdən də göründüyü kimi, seçkiqabağı kampaniyanın və hesabat yığıncaqlarının keçirilməsində iştirak edən qadınların sayı getdikcə artırdı.

Muxtar respublikada seçki kampaniyasına hazırlıq vaxtı və onun gedişi zamanı müəyyən neqativ halların ortaya çıxdığı məlum olmuşdur. Məs., Əbrəqunus rayonunun Ərəfsə kəndində və Şərur dairəsinin Aralıq kəndində seçki kampaniyasına qarşı böhtanlar atılmış, kənd yoxsullarını öz tərəflərinə çəkmək məqsədilə onları müxtəlif üsullarla (plov, çay ziyafəti vermək, torpaq vəd etmək və s.) kampaniyaya qarşı təlimatlandırmağa təşəbbüs etmək cəhdləri qeydə alınmışdır (9, v.18). Bundan başqa digər faktlara da rast gəlinmişdir. Belə ki, seçkilər vaxtı Baş Noraşen dairəsinin Yengicə kəndində muzdurun öldürülməsinə görə 10 illik azadlıqdan məhrumetmə-həbs cəzası halı, 25 dekabr 1928-ci ildə Əbrəqunus dairəsinin Bənəniyar kəndində xalq məhkəməsi tərəfindən "kulak" Teymur Əliyevin muzduru döydüyünə görə 6 aylıq həbs cəzası alması, Baş Noraşen dairəsinin Qarahəsənli kəndində "kulak" Məmməd Hüseyninin seçki komisiyyasının üzvü Nazlı Nəcəfovanı təhqir etdiyinə görə işinə baxılması və digər faktlar qeydə alınmışdır (9, v.24). Keçiriləcək seçki kampaniyasını boykot etmək məqsədilə digər pozuculuq hallarına da təsadüf edilmişdir.

Əgər birinci beşillikdə başlıca vəzifə xalq təsərrüfatının qabaqcıl texnika ilə təhciz edilməsindən ibarət idisə, 30-cu illərin əvvəllərindən başlayaraq texnikaya yiyələnmək, texnikanı idarə etməyi bacarmaq, ixtisaslı fəhlə, texnik, mühəndis kadrları hazılamaq həlledici əhəmiyyət kəsb etməyə başladı. Bu vəzifənin yerinə yetirilməsi xalq təsərrüfatının getdikcə daha çox texnika ilə "silahlandırılma"sına istiqamətləndirilmişdir. Odur ki, Kommunist Partiyası yeni bir şüar- "Kadrlar hər şeyi həll edir" şüarını irəli sürdü.

Bəhs edilən illərdə iqtisadi-təsərrüfat sahəsinə ciddi fikir verilir, zəhmətkeşlərin maarifləndirilməsi və savadsızlığın ləğv edilməsi qarşıda duran vacib məsələ hesab olunurdu. Muxtar respublikada əhalinin savadlanmasında ümumi təhsil kurslarının mühüm əhəmiyyəti olmuşdur. Belə

ki, istehsalatdan ayrılmadan Bünyadzadə adına Şərur Şura təsərrüfatında ümumi təhsil kursları açılmışdı (8, v.28). Bu kurslarla bərabər uzun və qısa müddətli kurslar və həmkarlar ittifaqı xəttilə muzdurlar üçün məktəblər açılırdı. Əyricə və Salvartı yaylaqlarında çobanlar və naxırçılar üçün kurslar təşkil edilmişdi.

XX əsrin 20-ci illərində Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda sovetlər rejiminin bərqərar olmasından sonra həyata keçirilən tədbirlərdən biri də 1921-ci ildə Naxçıvan XKS-nin savadsızlığı ləğv etmək üçün komissiyaların yaradılması oldu. Bu dövrdə şəhər və kəndlərdə savad kurslarının açılması ilə bu işin ilk praktik təcrübəsi həyata keçirildi. Əhali arasında savadsızlığın ləğv edilməsində 20-ci illərin II yarısında həyata keçirilmiş əlifba islahatının köhnə ərəb əlifbasından latın qarikalı əlifbaya keçid də mühüm rol oynadı (3, s.95). 1921-27-ci illərdə savadsızlığı ləğvetmə məntəqələrində 10273 nəfər oxumuş və nəticədə əhalinin savad dərəcəsi 1926-cı ildə 12 faizə qalxmışdı, 1931-ci ildə bu göstərici artıq 22,5 faiz təşkil edirdi (2, s.26). Göründüyü kimi savadsızlığın ləğvi məsələsinə xüsusi diqqət verilirdi.

Bu dövrdə dövlət tərəfindən kolxozlara ixtisaslı kadrlar hazırlanıb göndərilir, kolxozlar lazım olan alət və digər təsərrüfat vasitələri ilə təmin olunurdular. 1930-cu ilin ortalarında vilayətdə 70 nəfər aqronom, 78 baytar, 45 zootexnik, 8 nəfər yer quruluşçusu, 15 nəfər mühəndis çalışırdı ki, onlardan 57 nəfəri ali təhsilli idi (1, s.137). İxtisaslı kadrların hazırlanması, kollektivləşdirilmə ilə bağlı digər məsələlərə sonrakı illərdə də ciddi fikir verilirdi.

Muxtar Respublikanın IV Sovetlər qurultayının qərarı ilə (25 fevral 1925-ci il) Naxçıvanda Kənd Təsərrüfatı Texnikumunun açılması, iki ixtisas-heyvandarlıq və aqronomluq ixtisaslarının yaradılması da bu illərdə Naxçıvan MSSR-də həyata keçirilən tədbirlər sırasında idi. Naxçıvanda kolxoz quruculuğunda texnikumun tələbələri yaxından iştirak edirdilər. Texnikumun hazırladığı kadrlar muxtar respublikanın kolxoz və sovxozlarında çalışmış və öz bacarıqlarını nümayiş etdirmişlər (3, s.96). Texnikum indiyədək aqronomluq, kənd təsərrüfatının mexanikləşdirilməsi, avtonəqliyyat, mühasibat uçotu ixisasları üzrə minlərlə kadr hazırlamışdır (16, s.78).

Kollektivləşdirilmə tədbirləri, onun gedişi və həyata keçirilməsini sürətləndirmək məqsədilə müxtəlif qurultaylar (zərbəçi kolxozçuların qurultayları, komsomolçu kolxozçuların qurultayı və s.), plenumlar və yığıncaqlar keçirilməsi ənənəvi hal almışdı. Belə ki, 1935-ci ilin fevralında zərbəçi kolxozçuların II qurultayı keçirildi. Həmin qurultayda kolxozları bolşevik kolxozu, kolxozçuları isə varlı etmək vəzifəsi irəli sürüldü. 1935-ci ilin fevralında zərbəçi kolxozçuların 2-ci ümumittifaq qurultayının qəbul etdiyi kənd təsərrüfatı artelinin yeni nümunəvi nizamnaməsi kolxoz quruluşunun daha da möhkəmlənməsinə səbəb oldu. Nizamnamə kolxozçunun şəxsi mənafeyi ilə bütün artelin ictimai mənafeyinin düzgün əlaqələndirilməsində mühüm rol oynadı.

Naxçıvan MSSR-də həyata keçirilən kollektivləşdirilmə tədbirləri, onun gedişi və b. məsələlər o dövrün mətbuatında da öz əksini tapırdı. Dövrü mətbuat materiallarında, xüsusilə "Kommunist" qəzetinin (qəzetin bölgə müxbiri Məmməd Rasizadə idi) səhifələrində diyarda aparılan bərpa və kolxoz quruculuğu, kollektivləşdirilmə tədbirləri haqqında müəyyən məqalələr nəşr etdirilirdi. Belə ki, Torpaq quruluşu idarəsinin rəisi İ.İbrahimov torpaq bölgüsü və yerölçmə işləri barədə "Kommunist" qəzetinə (23 oktyabr 1923-cü il tarixli sayında) verdiyi müsahibəsində bildirirdi ki, "1923-cü ilin sonuna qədər Naxçıvan MSSR-də bəylərdən alınmış torpaqların bərabərlik əsasında yoxsul kəndlilərə paylanmasından başqa bu sahədə heç bir iş gürülməmişdir" (19, s.96). "Kommunist" qəzetinin müxtəlif saylarında (7 may 1923, 27 may 1924 və b.) yer almış "Naxçıvan diyarında" adlı rubrikada bərpa məsələləri, xalq təsərrüfatının inkişafına aid olan məsələlər işıqlandırılır, dərc olunan məqalə və məlumatlarda bu rayonda (Naxçıvanda-Y.R.) su çatışmamazlığından bəhs edilirdi. Qəzetin 7 may 1923-cü il tarixli sayında nəşr etdirilmiş "Naxçıvan diyarının suvarılmasının perspektivləri" adlı məqalədə yazılırdı ki, "diyarda işlərin asanlaşdırılması üçün 4 su təsərrüfatı sahəsi təşkil edilmişdir: Naxçıvançay, Əlincəçay, Ordubad və və Şərur su sahələri" (4). Qəzetdə dərc olunmuş materiallardan (1923-cü il 15 iyun; 1923-cü il 3 avqust tarixli saylarında) aydın olur ki, yerli əhali (naxçıvanlılar- Y.R.) suvarma sistemlərinin bərpa edilməsində öz hesablarına, könüllü və fəal şəkildə iştirak edirdilər (19, s.125). AK (b) MK Rəyasət Heyətinin

qərarı ilə 1925-ci ilin yayında fəaliyyətdə olan və sıradan çıxan su qurğularının tədqiqinə başlandı. Bu məsələyə AK (b) MK Rəyasət Heyətinin də böyük əhəmiyyət verdiyi aydınlaşır. Belə ki, Azərbaycan MİK hələ 1924-cü ilin mart ayında Bazarçay kanalının tədqiqi və onun bərpası üçün təcili tədbirlər görməyi qərara almışdı (19, s.125).

1923-cü ilin yazında Naxçıvanda su ehtiyatlarını düzgün tənzimləmək məqsədilə bölgənin su təsərrüfatı işçilərinin qurultayı çağırıldı və bu qurultayda Diyar Su Təsərrüfatı idərəsi konkret plan təsdiq etdi. Suvarma sistemində bulaq və kəhrizlərin mühüm əhəmiyyətini qeyd edən qurultay həmin il üçün onların bərpa və təmirini başa çatdırmağı zəruri hesab etdi (20, s.134).

1925-ci ilin iyulunda Naxçıvan XKS-nin sədri H.Sultanovun "Naxçıvan MSSR-də irriqasiya işlərinin gedişi haqqında" məruzəsindən aydın görünür ki, "bu dövrdə fəaliyyətdə olan 300-dən çox kəhrizin əksəriyyətinin təxirəsalınmaz təmirə ehtiyacı vardır, onlardan 34-ü təmizlənmiş və akt əsasında qəbul edilmişdir..." (19, s.126). Kəhrizlərin bərpası məqsədilə plan tərtib edilmiş və 1925-ci il aprelin 27-də Naxçıvan MSSR XKS tərəfindən təsdiq edilmişdir. Mövsüm ərzində 60%-ə yaxın kəhrizin bərpa edilməsi nəzərdə tutulmuşdur. Hətta bu məqsədlə Xalq Xarici İşlər Komissarlığının xəttilə İrandan 30 nəfər kənkan gətirmək qərara alınmışdır. 1928-ci ilin sonunda 160-dan çox kəhriz, 25 km-lik Fərhad arxı bərpa edilmiş, həmçinin Arpaçay, Şahingirey və Arazdəyən kanallarının tikintisi başa çatdırılmışdır (19, s.126).

1925-ci ildə "Göybirliyi"nin su təsərrüfatı şöbəsinin apardığı işlər nəticəsində 43 kəhriz bərpa edilmişdir. 1926-cı ilin planına əsasən Naxçıvan diyarında 98 köhnə kəhriz təmir edilməli, 2 yeni kəhriz tikilməli idi. 1926-1927-ci illərdə ölkəmizdə Naxçıvan MSSR-siz 411 kəhriz bərpa edilmişdir (19, s.130-132). Göründüyü kimi kəhrizlərin bərpa və təmir işləri sürətlənmişdir.

Hökumət kənd təsərrüfatının geridə qalmış sahəsi olan heyvandarlığın inkişafına böyük qayğı göstərirdi. Görülmüş bir sıra tədbirlər nəticəsində kolxozların şəxsi mülkiyyətində olan hər növ mal-qaranın və quşların sayı xeyli artdı. Lakin kolxoz ictimai heyvandarlığının inkişafında ciddi nöqsanlar var idi. Kolxozların xeyli hissəsinin heyvandarlıq fermaları yox idi. Bəzi kolxozlar xırda fermalar təşkil edirdilər, bunlar da istənilən qədər satılıq məhsul və lazımınca gəlir vermirdi. Yem bazasının mütəşəkkil olmaması, heyvandarlıq sahəsində və ot yığımında mexanikləşdirmənin çox geri qalması heyvandarlığın inkişafına maneçilik törədirdi. Kolxozlar tərəfindən dövlətə ət və digər heyvandarlıq məhsullarının təədhüdlü təhvilinin 1939-cu ilə qədər mövcud olmuş sistemi, yəni bunları mal-qaranın sayına görə hesablayıb təhvil vermək sistemi heyvandarlığın inkişafına mənfi təsir göstərirdi. Həmin təsir ictimai heyvandarlığı inkişaf etdirərək qabaqcıl kolxozlar üçün əlverişli şərait yaratsa da, mal-qaranın sayının artırılmasına kolxozlarda maddi maraq oyatmırdı (3, s.32). Göründüyü kimi, təədhüdlü təhvil sistemi mal-qaranın sayının artırılmasına mane olan bir sistem təsiri bağışlayırdı.

Naxçıvan MSSR-in iqtisadiyyatında mühüm rol oynamış heyvandarlıq və maldarlıq 20-ci ildən sonra kənd təsərrüfatının əsas sahələrindən biri olmuşdur. Muxtar respublikada mal-qaranın inkişaf etdirilməsi üçün uyğun olaraq, kütləvi surətdə maldarlıq fermaları təşkil olunmağa başladı. Naxçıvan kolxozlarında heyvandarlıq fermaları ilk dəfə 1933-cü ildə təşkil edilmişdir. Həmin il kolxozların fermalarında 4.113 baş qaramal, 4.271 baş davar var idi (5, s.26).

1939-cu il iyulun 8-də XKS və ÜİK(b)P MK "Kolxozlarda ictimai heyvandarlığı inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etdilər və hər kolxozda üç heyvandarlıq ferması: qaramal, qoyunçuluq və donuzçuluq fermaları olmasını məqsədəuyğun bildilər. Dövlətə ət təhvilinin kolxoz fermalarındakı mal-qaranın sayına görə hesablanması sistemi ləğv olundu, kolxozlara təhkim edilmiş torpaq sahəsinin hər hektarından müəyyən norma üzrə ət təhvil verilməsi müəyyən olundu. 1940-cı ildə bu tədarük prinsipi bütün başqa heyvandarlıq məhsullarına aid edildi (3, s.32). Yeni heyvandarlıq fermalarının təşkili və tədarük formasının tətbiqi ət təhvilinin də artırılmasına müsbət təsir göstərməliydi.

Mövcud hakimiyyət kollektivləşməni tam uğurla başa vurmaq üçün yollar arayır və müxtəlif qərarlar qəbul edərək onları həyata keçirməyə çalışırdı. Bu deyilənlər barədə Zaqafqaziya Ölkə Partiya Komitəsinin 10 aprel 1930-cu il, Azərbaycan K(b)P MK Bürosu "Kollektivləşmə işlərində buraxılmış səhvlər haqqında" qərarında Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar

Respublikasında kolxoz quruculuğu sahəsində buraxılmış səhvləri aradan qaldırmaq üçün tədbirlər müəyyən etmişdi (6, s.382-383).

Fabrik-zavod texniki məktəblərində geniş miqyasda ixtisaslı kadrlar hazırlanırdı. Kənd təsərrüfatında yeni texnikanı yaxşı öyrənmiş çoxlu miqdarda işçilər meydana çıxdı, onlar əməyi yeni qaydada təşkil etməyə, əmək məhsuldarlığını əsaslı yüksəltməyə başladılar. 1935-ci ildə istehsalat yenilikləri hərəkatı yarandı ki, bu hərəkat onun təşəbbüsçülərindən birinin (Aleksey Staxanovun) adı ilə Staxanov adlandı. Muxtar respublikamızın zəhmətkeşləri də Staxanov hərəkatına qoşulmuşdular. Bağladıqları sosializm yarışının şərtlərinə əməl edərək Naxçıvan MSSR-in kənd təsərrüfatı işçilərindən bir qrupu Mərkəzi İcraiyyə Komitəsinin 19 yanvar 1936-cı il tarixli qərarı ilə qiymətli hədiyyə və pul mükafatına layiq görüldülər.

Yüksək pambıq ustası Naxçıvan MSSR Ali Sovetinin deputatı, Noraşen (Şərur) rayonunun Sərxanlı kənd kolxozunun manqa başçısı İlyas Mustafayev (1936-1938) 5 hektar sahənin hər hektarından 80,2 sentner pambıq topladığından "Qızıl medal" və 3000 manat pulla mükafatlandırılmışdır. Sosializm yarışı və Staxanov hərəkatında zərbəçilik göstərən Noraşen (Şərur) rayonu Çomaxtur kolxozunun üzvü, Naxçıvan MSSR Ali Sovetinin deputatı Nəsrulla Tahirov, Muğancıq-Mehrab kənd kolxozunun üzvü Əkbər Muradov, Naxçıvan rayonunun Bulqan kənd kolxozunun üzvü, Naxçıvan MSSR Ali Sovetinin deputatı Sara Əliyeva və başqaları qiymətli hədiyyə və pulla mükafatlanmışdılar (7, v.6,7). Sosializm yarışı və Staxanov hərəkatının geniş yayılması nəticəsində respublikada kənd təsərrüfatında əmək məhsuldarlığı artmışdır.

1931-1935-ci illərdə Azərbaycan SSR-də yayılmış bir çox sosializm yarışı hərəkatlarının Naxçıvan MR-də geniş yayılması üçün həvəsləndirmə tədbirləri də görülmüşdü. Həmin illərdə muxtar respublikanın kənd təsərrüfatı artellərinə yerlərdə 59 kənd zəhmətkeş deputatları sovetinin icraiyyə komitələri rəhbərlik etmişdir. Ayrı-ayrı kənd təsərrüfatı artellərinin briqadaları, manqaları və kolxozları sosializm yarışına qoşularaq kənd təsərrüfatı məhsullarının əkilib yığılmasında fəal iştirak etmişlər. Məs., 1935-ci ildə Azərbaycanda pambıq yetişdirmək və toplamaq sahəsində daha çox müvəffəqiyyət qazanmış Naxçıvan MR-in 5 kolxozu, 18 nəfər kolxozçusu və MTS işçiləri Azərbaycan K(b) P MK və respublika Xalq Komissarları Soveti tərəfindən pul və qiymətli hədiyyələrlə mükafatlandırılmışdı (17, s.90).

1930-1937-ci illər SSRİ-nin iqtisadi və mədəni quruculuq sahələrində yüksəliş illəri idi. Həmin illərdə birinci və ikinci beşillik planlar həyata keçirilmiş, kolxoz quruluşu qalib gəlmiş, sosializmin birinci fazası başa çatdırılmış, yeni Sovet Konstitusiyası qəbul olunmuşdur. Bu illər Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR-nin də iqtisadiyyat və mədəniyyətində çox əhəmiyyətli yüksəliş illəri oldu. Həmin illərdə muxtar respublikanın iqtisadi əsasını yeni bərqərar olmuş sosialist təsərrüfat sistemi və istehsal alət və vasitələri üzərində sosialist mülkiyyəti təşkil etməyə başladı.

Naxçıvan Vilayət Partiya Komitəsinin 1938-ci ilin dekabr ayında keçirilmiş IV plenumunda Sədərək, Bənəniyar və Nehrəm kolxozlarında kolxozçu qızlar arasında kütləvi siyasi və tərbiyə işinin vəziyyəti müzakirə edilmiş, məsələ ilə bağlı qərarlar qəbul edilmişdi. Bunun üçün birinci növbədə qızlar arasında savadsızlığın ləğvi işi sürətlənmişdi (18).

Sosialist mülkiyyətinin hakim forma olmasına dair Naxçıvan MSSR Konstitusiyasının 5-ci maddəsində göstərilirdi ki, "Naxçıvan MSSR-də sosialist mülkiyyəti ya dövlət mülkiyyəti formasında və ya kooperativ kolxoz mülkiyyəti-ayrı-ayrı kolxozların mülkiyyəti və kooperativ birləşmələrinin mülkiyyəti formasındadır" (14, s.3-4). Bir neçə il ərzində kolxoz kooperativ mülkiyyəti genişlənərək möhkəm yer tutmağa başladı. 1934-cü ildə keçirilən partiyanın XVII qurultayından sonra bütün ölkədə olduğu kimi, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR-nin zəhmətkeşlərinin iqtisadi həyatında çox böyük dəyişiklik və dönüş əmələ gəlmişdir.

Beləliklə, ötən əsrin 20-30-cu illərində ölkəmizin digər bölgələri kimi Naxçıvan MSSR-də də kəndli təsərrüfatlarının ləğvi və kollektiv təsərrüfatların yaradılması prosesinə başlanıldı. Kollektivləşdirmənin başlanması və onun həyata keçirilməsi sosialist yenidənqurmasının mühüm tədbirlərindən idi. Belə bir nəticəyə gəlinmişdir ki, kollektivləşdirilmə illərində Naxçıvanda da

könüllülük prinsipinə əməl edilməmiş, fərdi kəndli təsərrüfatları zorakı vasitələrlə kollektiv təsərrüfatlara cəlb edilmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixində Naxçıvan (S.Məmmədov, İ.Bağırovun redaktorluğu ilə). Bakı: ADPU-nun mətbəəsi, 1996, 142 s.
2. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolları və imkanları. Bakı: Elm və təhsil, 2011, 343 s.
3. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər). Naxçıvan: Əcəmi NPB, 2016, 352 s.
4. "Kommunist" qəzeti.
5. Məmmədov X. Naxçıvan MSSR 40 ildə. Bakı: Azərnəşr, 1960, 54 s.
6. Naxçıvan tarixi, üç cilddə, II c., Naxçıvan: Əcəmi NPB, 2014, 528 s.
7. NMRDA: f.34, siy.1, arx.525, v.6,7.
8. NMRDA, f.40, siy.4, arx.345, v.28.
9. NMRDA, f.40, siy.1, sax.vah.1/608, iş №5 .
10. NMRDA, f.40, siy.1, sax.vah.30/48,77, iş№ 12.
11. NMRDA, f.40, siy.1, sax.vah.15/4, iş №40.
12. NMRDA, f.1, siy.1, iş №196.
13. NMRDA, f.1, siy.1, iş №237.
14. Naxçıvan MSSR Kostitusiyası (Əsas Qanunu), 1954-cü il, s.3-4.
15. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Akademik H. Abdullayevin redaktorluğu ilə). Bakı: Elm, 1975, 360 s.
16. Naxçıvan Ensklopediyası. 2-ci cild. Naxçıvan: 2005, 381 s.
17. Sadiqov S. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: İrşad mərkəzi, 1995, 144 s.
18. "Şərq qapısı" qəzeti.
19. Магеррамов Э. Газета «Коммунист» (на азерб.языке) и вопросы восстановления сельского хозяйства Азербайджанский ССР (1921-1928 гг.). Баку: Нурлан, 2004, 344 стр. + иллюстрации.
20. Мадатов Г.А. Победа советской власти в Нахичеванской АССР. Б: Издание Академия наук Азербайджанской ССР, 1968 г., 188 стр.
21. Соколский Н. Материалы по изучению Нахичеванской ССР. Тифлис: ЗакГИЗ, 1933, 184 с.
22. Султанов Г. Нахкрай и его экономика. Баку, 1927, 249 стр.


## SUMMARY

**Yashar Rahimov**

## THE IMPACT OF VIOLENT COLLECTIVIZATION ON THE SOCIO-POLITICAL PROCESSES IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (20-30S OF THE XX CENTURY)

Collectivization became one of the most important measures of the socialist reconstruction of the 20-30s of the XX century. The main goal was to unite individual peasant farms into collective farms and state farms, transferring them under state administration in the name of public property. The article attempts to investigate the impact of the forced collectivization of agriculture on the socio-political processes in the Nakhchivan region, which is an integral part of Azerbaijan. At the beginning of the 20s of the 20th century, various measures were implemented in Nakhchivan in the direction of the abolition of individual peasant farms and the transition to the creation of collective farms.

Information about the significant documents contained in the 40th fund of the Central State Archive of the Nakhchivan Autonomous Republic, materials of the Land Commissariat on the state of agriculture (list 1, storage time1/608), minutes of the meeting of the Presidium of the Central Executive Committee of Transcaucasia (list.1 storage time 30/48, 77), protocols on the arrangement and distribution of land, documents, related to the rules on its registration (list.1, storage time 15/4) and a number of new materials have been studied in the article.

On the basis of new archival documents and facts, the article concludes that the principle of voluntariness was not respected here, and the individual peasant farm was forcibly involved in the collective farm.

***Key words:*** *Nakhchivan MSSR, cotton, animal husbandry, collectivization, agriculture, collective farm, land, technology*

**РЕЗЮМЕ**

**Яшар Рагимов**

**ВЛИЯНИЕ НАСИЛЬСТВЕННОЙ КОЛЛЕКТИВИЗАЦИИ НА СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В НАХЧЫВАНСКОЙ АССР (20-30-Е ГОДЫ ХХ ВЕКА)**

Одним из важнейших мероприятий социалистического переустройства 20-30-х годов XX века стала коллективизация. Основная цель заключалась в объединении отдельных крестьянских хозяйств в колхозы и совхозы, передаче их под государственное управление во имя общественной собственности. В статье сделана попытка изучить влияние насильственной коллективизации сельского хозяйства на социально-политические процессы в Нахчыванском регионе, являющемся неотъемлемой частью Азербайджана. В начале 20-х годов XX века в Нахчыване также были осуществлены различные меры по ликвидации индивидуальных крестьянских хозяйств и переходу к созданию коллективных хозяйств. Значительные документы, содержащиеся в 40-м фонде Центрального государственного архива Нахчыванской Автономной Республики, материалы земельного комиссариата о состоянии сельского хозяйства (список 1, CAX.v.1/608), протоколы заседания президиума ГИК Закавказья (сер.1 Сакс.v.30/48, 77), протоколы об устройстве и разделе земли, документы, относящиеся к положениям о ее регистрации (сер.1, Сакс.v.15/4)и др. новые материалы сыграли важную роль в разработке статьи. Статья была подготовлена на основе новых архивных документов и фактов, и был сделан вывод, что и здесь не соблюдался принцип добровольности, в коллективное хозяйство насильственными средствами привлекались отдельные крестьяне.

***Ключевые слова***: *Нахчыванская АССР, хлопок, животноводство, коллективизация, сельское хозяйство, колхоз, земля, техника.*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Allahverdi oğlu Hüseynov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 49-52
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 49-52
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 49-52

**AYTƏN TAHİRLİ**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*aytentahirli@gmail.com*

**UOT: 902**

# ANTİK DÖVRDƏ NAXÇIVANIN SOSİAL MÜNASİBƏTLƏRİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRİ

*Oğlanqala, II Qızqala, Meydantəpə, Xaraba Gilan, Sumbatan-Dizə kimi yaşayış yerlərində narınqalanın olması cəmiyyətdə sosial bərabərsizliyin olduğunu aydın şəkildə göstərir. Oğlanqalada sütunlu salonun mövcudluğu, həmçinin bu salonun inşasında düzgün yonulmuş daşlardan istifadə olunması burada hakim və idarəedici təbəqəyə məxsus insanların yerləşdiyini göstərir. Antik dövr abidələrindən aşkar edilən gümüş Roma və Yunan sikkələri, möhürlər və şüşə qablar Naxçıvanın müxtəlif ölkələrlə iqtisadi-mədəni əlaqələrinin olduğundan xəbər verir.*
***Açar sözlər:*** *Naxçıvan, Antik dövr, gümüş sikkə, şüşə qablar, möhürlər*

Məlum olduğu kimi, Naxçıvanda şəhər-dövlətlər hələ Orta Tunc dövründə formalaşmışdı. Arxeoloji tədqiqatlar və yazılı mənbələr bu dövrdə Naxçıvanda şəhərlər, qala-şəhərlər, qalalar və kənd tipli yaşayış məskənlərinin olduğunu göstərir. Bu isə Antik dövrdə Naxçıvanın ictimai həyatının müəyyən sosial-iqtisadi münasibətlərlə səciyyələndiyini deməyə imkan verir. Antik dövrdə Naxçıvanda məskunlaşan əhali içərisində ictimai bərabərsizlik daha da güclənmişdir. Oğlanqala, II Qızqala, Meydantəpə, Xaraba Gilan, Sumbatan-Dizə kimi yaşayış yerlərində narınqalanın olması cəmiyyətdə sosial bərabərsizliyin olduğunu aydın şəkildə göstərir. Oğlanqalada sütunlu salonun mövcudluğu, həmçinin bu salonun inşasında düzgün yonulmuş daşlardan istifadə olunması burada hakim və idarəedici təbəqəyə məxsus insanların yerləşdiyini təsdiq edir. Bu ictimai bina yalnız yerli hökmdarların yaşayışı üçün deyil, həmçinin diplomatik nümayəndələrin qəbulu üçün nəzərdə tutulmuşdur. Mərkəzi monumental binaya birləşik şəkildə inşa olunan kiçik həcmli dördkünc formalı otaqlar, ehtimal ki, saray xidmətçiləri üçün nəzərdə tutulmuşdur. Oğlanqala sütunlu salonunun qonşu ölkələrdəki bənzər salonlardan özanəməxsus xüsusiyyətləri ilə fərqlənməsi isə, həmçinin möhtəşəm inşaat işlərinin aparılması yerli hakimiyyətin həm böyük gücə sahib olduğunu və onun fərqlənmək istəklərini də aydın şəkildə göstərir.

Böyük bir ərazidə müdafiə istehkamlarının inşası, şübhəsiz ki, iqtisadiyyatın və təsərrüfatın təşkili üçün müəyyən idarə aparatının mövcud olmasından xəbər verir. Bu dövrə aid Oğlanqala, Meydantəpə, Sumbatan-Dizə yaşayış yerləri əhalinin böyük ərazidə inşaat işləri apardığını göstərir. Oğlanqalanın şimal qala bürcü bir neçə ton ağırlığı olan yonulmuş daşlardan inşa edilmişdi. Oğlanqala ilə Qızqalanı əhatə müdafiə divarları 487 hektarlıq ərazidə inşaat işlərinin aparıldığını göstərir (2, s.361). Araşdırmalar göstərir ki, bu divarlar Dəmir dövründə, Antik dövrdə və Erkən Orta əsrlərdə bərpa olunaraq istifadə olunmuşdur (2, s.362). Oğlanqala sitadelinin divarları 1-1,5 metr hündürlükdə salamat qalmışdır. Araşdırmalar göstərir ki, bu divarların üst qismi çiy kərpiclə tamamlanmışdır. İlkin hesablamalar qala divarının tikintisində minlərlə çiy kərpicdən istifadə olunduğunu deməyə imkan verir. Həm müdafiə divarlarının tikintisi, həm də onların mühafizəsi böyük insan ehtiyatı və güclü iqtisadiyyatın olmasını tələb edirdi.

Yaşayış yerlərinin tədqiqi cəmiyyətdə kəskin bərabərsizliyin olduğunu göstərir. Bu bərabərsizlik həmçinin qəbir abidələrinin tədqiqində özünü göstərir. Oğlanqala küp qəbirlərindən zəngin avadanlığın, xüsusilə Romada kəsilən gümüş sikkələrin aşkar olunması da cəmiyyətdə sosial bərabərsizliyin olduğunu göstərir. Naxçıvanın bütün regionlarını əhatə edən suvarma şəbəkəsi,

şübhəsiz ki, ictimai, yaxud məcburi əmək olmadan mümkün deyildi. Yuxarıdakı faktlara əsasən belə nəticəyə gəlmək olar ki, bu dövrdə Naxçıvanda sosial bərabərsizlik güclənmiş və yerli dövlət hakimiyyəti formalaşmışdı. Şübhəsiz ki, bu dövrdə müəyyən ərazini əhatə edən kiçik dövlətlər olmuşdur. Bu dövlətlərin vahid bir ittifaqda birləşməsinə aid yetərli dəlillər yoxdur. Arxeoloji qazıntılar hələlik mərkəzi Oğlanqala olan qədim dövlətin varlığını ortaya çıxarmağa imkan vermişdir. İlkin araşdırmalar bu dövlətin "Etiuni" konfederasiyası ilə ittifaqda olduğunu deməyə imkan verir.

Naxçıvanın Antik dövrə aid arxeoloji abidələrindən aşkar olunan maddi-mədəniyyət nümunələri sosial-iqtisadi münasibətlərin inkişafında qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin müəyyən rol oynadığını göstərir. Arxeoloji tapıntılar bu əlaqələrin şərqdə Çinə, qərbdə Misirə, Yunanıstana və Romaya, cənubda Mesopotomiyaya, şimalda Qara dəniz sahillərinə qədər uzandığını göstərir. Bu dövrdə Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr, mühüm əhəmiyyət daşımışdır (1, s.141-153). Antik dövrün erkən mərhələsində Naxçıvanın Yaxın Şərq ölkələri ilə, xüsusilə Əhəməni imperiyası ilə əlaqələri Oğlanqala sitadelindəki sütunlu salonun planlamasında özünü göstərir. Bu salonun plan quruluşu Azərbaycanda Əhəməni dövrünə aid Sarıtəpə, Qaracəmirli (8, s.17) və Gürcüstandakı Dedoplis Mindori (9, fig.4a) ilə yaxından bənzərdir. Bu isə Antik dövrün erkən mərhələsində Əhəməni mədəniyyətinin bütün Cənubi Qafqaz ölkələrinə təsir etdiyi kimi Naxçıvana da təsir etdiyini göstərir. Yuxarıda qeyd etdiyimiz kimi, Oğlanqalanın sütunlu salonu Əhəmənilərin Erebuni və Altıntəpədə inşa olunan salonları ilə də bənzərdir. Əhəməni mədəniyyətinin təsiri Naxçıvanın Antik dövrün erkən mərhələsinə aid keramika məmulatında da öz əksini tapmışdır. Erkən mərhələyə aid keramika məmulatı formaca Əhəməni dövlətinin mərkəzi əyalətlərindən aşkar olunan keramika məmulatını xatırladır. Bununla belə, keramika məmulatı tamamilə Əhəməni keramikasını təkrar etmir. Biz bunu Naxçıvanın Antik dövr memarlıq abidələrində də müşahidə edirik. Yuxarıda da qeyd etdiyimiz kimi Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da mədəniyyətin özünəməxsus yolla inkişaf etdiyini təsdiq edir. Belə hesab edirik ki, bu təsir Əhəməni imperiyasının dağılmasından sonra Naxçıvanın Atropatena dövlətinin tərkibinə qatılması ilə bağlı olmuşdur.

Naxçıvanda, Şərur rayonunun Axuraçay vadisində yerləşən abidələrində, Albantəpə yaşayış yeri və nekropollarında biz Qafqaz Albaniyasının mədəni təsirini aydın şəkildə hiss edirik. Yaşayış yerlərindən birinin indi də Albantəpə adlandırılması da maraqlı faktlardandır. Şübhəsiz ki, bu Naxçıvan ərazisinin müəyyən müddət ərzində Qafqaz Albaniyasının tərkibinə daxil olduğunu göstərir. Naxçıvanın, demək olar ki, bütün rayonlarında küp qəbirlər mədəniyyətinə məxsus abidələrə rast gəlinmişdir ki, bu da Qafqaz Albaniyasının mədəni təsiri sayıla bilər. Qeyd edək ki, Şahbuz rayonunda Şahbuzkəndə əhali arasında indi də yaşamaqda olan rəvayətlərdə bu bölgənin əhalisinin Alban knyazlarının nəsillərindən olması ilə bağlı məlumatlar var.

Naxçıvan nekropolunda küp qəbirlərdən birində aşkar olunan, Makedoniyalı İsgəndərin adından kəsilmiş gümüş draxma Naxçıvan şəhərinin Antik dövlətlərlə ticarət əlaqələrinin olduğunun göstəricisidir. Nekropoldan aşkar olunan digər tapıntılar da Naxçıvanın Ellin dünyası ilə əlaqələrinin olduğunu təsdiq edən faktlardandır. Bu tapıntılar arasında möhürlər və onların üzərindəki təsvirlər də əhəmiyyətlidir.

Naxçıvan nekropolundakı küp qəbirlərin birindən aşkar olunan çoxtilli şüşə möhürün araşdırılması e.ə. V-IV əsrlərdə Azərbaycanın Yaxın Şərq ölkələri ilə ticarət əlaqələrinin xeyli gücləndiyini göstərir. Araşdırmalar göstərir ki, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda çoxtilli şüşə möhürlərin yayılmasında Naxçıvandan keçən ticarət əlaqələri mühüm rol oynamışdır (3, s.83). Naxçıvandan aşkar olunan şüşə möhürün yaxın bənzəri Mingəçevirdən aşkar edilmişdir. Mingəçevir nümunələrinin ikisi isə tamamilə Gürcüstandan aşkar olunan nümunələri təkrar edir. Tədqiqatçı İ.Babayev bu tip möhürlərin Yunan incəsənətinin təsiri ilə yayıldığını qeyd etmişdir (5, s.133). Möhürlərin üzərində olan təsvirlər də, tədqiqtçıların fikrinə görə Yunan mifologiyasından götürülmüşdür. Belə hesab edirik ki, bu tip möhürlər Naxçıvana Cənubi Azərbaycandan daxil olmuşdur. Araşdırmalar göstərir ki, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Antik dünya ilə əlaqələri e.ə. I əsrin ortalarına qədər zəif olmuş, Pompeyin başçılığı ilə romalıların yürüşündən sonra isə bu əlaqələr artmışdır (7, c.225). Oğlanqalada aşkar olunan küp qəbirdən Yuli Sezara aid gümüş

sikkələrin də tapılması şübhəsiz ki, Roma ilə əlaqələrin artdığını göstərən faktlardandır. Oğlanqala küp qəbirlərindən və I Böyükdüz nekropolunun daş qutu qəbirlərindən aşkar olunan şüşə qablar da qonşu ölkələrlə əlaqələrin olduğunu göstərir. Oğlanqala küp qəbirlərinin materialları Roma ilə əlaqələrin mövcud olduğunu göstərirsə, I Böyükdüz nekropolunun materialları Şimali Qafqaz vasitəsilə Qara dəniz ölkələri ilə əlaqələrin olduğuna dəlalət edir. Belə ki, I Böyükdüz nekropolunda aşkar olunan şüşə flakonların Suriyalı ustalar tərəfindən hazırlandığı qeyd edilmişdir (4, c.178).

Yaxın Şərq ölkələri ilə iqtisad-mədəni əlaqələrin mövcud olduğunu göstərən maddi-mədəniyyət nümunələrindən biri də üzük-möhürlərdir. Möhürlər tuncdan tökmə üsulu ilə hazırlanmışdır. Oğlanqala möhürünün şüşə qaşındakı təsvirlər görünməz haldadır. Lakin Ağbulaqdan aşkar olunan tunç möhürün qaşı tuncdan rombşəkilli formada hazırlanmış və onun üzərində ox təsvir edilmişdir. Ağbulaqdan aşkar olunmuş şüşə möhürün üzərində şirlə vuruşan insan təsviri verilmişdir. Bu tip motivlərin Yunan-İran mənşəli olduğu tədqiqatçılar tərəfindən qeyd edilmişdir (6, c.38). Ağbulaq küp qəbirlərinin birindən Arşaki hökmdarı I Qotarza aid mis sikkənin tapılması da qədim Naxçıvan sakinlərinin İranla əlaqələrinin olduğunu sübut edən faktlardan biridir.

Yaxın Şərq ölkələri ilə əlaqələr I Böyükdüz nekropolundan aşkar olunan digər maddi-mədəniyyət nümunələrində də özünü göstərir. Bu baxımdan şüşədən hazırlanmış müxtəlif formalı muncuqlar, bilərziklər, həmçinin şüşə flakonlar Yaxın Şərq ölkələri ilə əlaqələri göstərir. Oğlanqala küp qəbirlərindən aşkar olunan arxeoloji materiallar, o cümlədən Yuli Sezarın gümüş sikkələri, şüşə flakonlar Roma ilə əlaqələrin varlığını göstərirsə, I Böyükdüz nekropolunun materialları isə Şimali Qafqazda məskunlaşan sarmat-alanlarla, həmçinin Qara dəniz sahillərinin xalqları ilə əlaqələrin də mövcudluğunu göstərir. Bu əlaqələr isə Naxçıvanda yaşayan əhalinin Şimali Qafqazdakı türk xalqları ilə də əlaqələr yaratmasına səbəb olmuşdur.

Qeyd edək ki, bəzi tədqiqatçılar I Böyükdüz nekropolunu tədqiq edərkən daş qutu tipli qəbirləri region üçün yeni hesab etmişlər (4, c.181). Ancaq qeyd etmək istəyirik ki, daş qutu tipli qəbirlər Naxçıvanda hələ Tunc dövründən mövcud olmuşdur. Buna görə də, yeni sayıla bilməz. Ancaq tədqiqatçıların qəbir avadanlığı ilə bağlı dedikləri fikirlər tamamilə doğrudur. Bu, xüsusilə, nekropoldan aşkar olunan dəmir silahlara aiddir. I Böyükdüz nekropolunda aşkar olunan dəmir qılınclar Şimali Qafqazdan Deyləmə qədər böyük ərazidə yayılmışdır (4, c.183). Üçpərli ox ucluqları sarmat-alan tayfaları üçün xarakterik hesab olunur və bu regionda yaşayan insanlar arasındakı əlaqələrin mövcudluğunu göstərir. Şübhəsiz ki, I Böyükdüz nekropolundan aşkar olunan silahlar sarmat-alan tayfaları ilə iqtisadi-mədəni əlaqələr nəticəsində gətirilə bilərdi. Çünki, yuxarıda da qeyd etdiyimiz kimi, daş qutu tipli qəbirlər sarmat-alanlar üçün xarakterik olmadığına görə bu abidələri onlara aid etmək olmaz. Qəbir abidələrində xəncərlərin öncədən sındırılması, boyaq qabları və altardan istifadə kimi adətlər bu qəbirlərin sahiblərinin sarmat-alanlarla müəyyən müddət bir arada yaşadığını göstərir. Arxeoloji araşdırmalar göstərir ki, qonşu tayfalar arasında salınan müəyyən koloniyalar tayfalararası iqtisadi-mədəni əlaqələrin formalaşmasında mühüm rol oynamışdır.

İqtisadi-mədəni əlaqələrin artmasında Antik dövrdə Naxçıvanda yaşayan əhalinin köçmə maldarlıqla məşğul olması da müəyyən şərait yaratmışdır. Yaylaq-qışlaq maldarlığı ilə məşğul olan əhalinin bir yerdən digərinə hərəkəti mal mübadiləsində, iqtisadi-mədəni əlaqələrin formalaşmasında mühüm rol oynamışdır. Naxçıvanın dağlıq bölgələri ilə aran bölgələr arasında məsafə az olduğundan qədim dövrdə insanların hərəkətinə nəinki mane olmamış, əksinə regionun müxtəlif bölgələri arasında əlaqə saxlamaq baxımından əlverişli olmuşdur.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvan Erkən Orta əsrlər dövründə / Naxçıvan tarixi I c., 2013, s. 141-153.
2. Baxşəliyev V.B., Hammer E., Ristvet L., Aşurov S.H. Oğlanqala ətrafinda arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar, 2012. Bakı: AFPoliqrAF, 2013, s. 358-366.
3. Əliyev V. Naxçıvan şəhərinin Antik dövrü küp qəbiri abidələri // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1976, № 1, s. 73-84.

4. Алиев И.Г., Алиев В.Г. О сармато-аланских памятниках на территории Нахчыванской АССР // Советская археология, 1976, № 1, с. 178-189.
5. Бабаев И.А. О трех многогранных печатях, найденных в Мингечауре. Археологические исследования в Азербайджане. Сборник статей. Баку, 1965, с. 128-133.
6. Максимова М.И. Античные разные камни Эрмитажа. Ленинград: Государственный Эрмитаж, 1926, 102 с.
7. Максимова М. И. Геммы из некрополя Мцхета. Самтавро (раскопки 1938/39 гг.) // Вестник Госуд. музея Грузии им. акад. С. Н. Джанашиа», XVI-B, Тбилиси, 1950, с. 225-260.
8. Knauss F. Ancient Persia and Caucasuü // Iranica Antiquua, 2006, vol. XLI, p. 79-118.
9. Kipiani G. Ahamenian Heritage n Ancient Georgian Architecture // ANES, 2004, 41, p. 167-192.

## SUMMARY

**Ayten Tahirli**

## SOCIAL RELATIONS AND CULTURAL RELATIONSHIPS OF NAKHCHIVAN IN THE ANTIQUE PERIOD

The citadels found at the settlements of Oglangala, Kızgala, Meydantepe, Kharaba Gilan and Sumbatan Dize clearly show that inequality existed in society. The existence of a columned hall at the Oglangala settlement, as well as the use of hewn stones in the construction of this hall, testifies that privileged people are inhabited here. Silver coins of Roma and Greece, as well as glass items and seals testify to the economic and cultural relations of Nakhchivan with different countries.

***Key words:*** *Nakhchivan, Classical period, silver coin, glass vessels, seals.*

## РЕЗЮМЕ

**Айтен Тахирли**

## СОЦИАЛЬНЫЕ ОТНОШЕНИЯ И КУЛЬТУРНЫЕ СВЯЗИ НАХЧЫВАНА В АНТИЧНОМ ПЕРИОДЕ

Цитадели, выявленные на поселениях Оглангала, Кызгала, Мейдантепе, Хараба Гилян и Сумбатан Дизе ясно показывают, что в общество существовало неравенство. Существование колонного зала на поселении Оглангала, а также использование тесанных камней в строительстве этого зала свидетельствует, что здесь заселены привилегированные люди. Серебрянные монеты Ромы и Греции, а также стеклянные изделия и печати свидетельствуют об экономических и культурных отношениях Нахчывана с разными странами.

***Ключевые слова***: *Нахчыван, античный период, серебряная монета, стеклянные сосуды, печати.*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 53-60
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 53-60
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 53-60

**KÜBRA VƏLİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*kubra.valiyeva@yahoo.com*

**UOT: 61(091)**

# DÜNYA TİBB ELMİNİN TƏŞƏKKÜL VƏ İNKİŞAFINDA ƏRƏB ALİMLƏRİNİN ROLU

*Ərəblərin tibbi çox zəngin və qədimdir. Ərəb həkimlər Şərqdə, Avropada və eləcə də dünyada tibb emlinin inkişafında müstəsna rol oynamışlar. Onların həm əsərləri, həm də tibbi kəşfləri bütün dünyada şöhrət qazanmışdır. Belə ki, onların yazdığı əsərlər Şərq və Qərbdə təhsil müəssələrində XVI əsrə kimi universitet və digər təhsil müəssisələrində dərslik kitabı olmuşdur. Onların tibbi kəşfləri isə hələ də müasir tibdə və farmakalogiyada öyrənilib tətbiq edilməkdədir.*

*Ərəblərin yunan, Bizans, fars və hind təbabəti və dərmanşünaslığından bəhərlənərək eyni zamanda öz dəyərli kəşflərini də bu sahəyə əlavə eləməklə müasir tibb elminə böyük köməkləri omuşdur.*

*Haris bin Kələdə, İbn Zəkəriyyə ər-Razi, Cəbrail bin Ubeydullah, İbn Tufeyl, İbnul-Mitran, Cəmaləddin Qıfti, İbn Baytar, İbn Əbi Useybə, İbn Quff, İbn Nəfis və adları çəkilməyən çoxlu məşhur ərəb tibb xadimlərinin əsərləri, kəşfləri Şərqdə, eləcə də bütün dünyada müasir tibb emlinin inkişafına böyük təsir göstərmişdir. Bu alimlərin əsərləri hələ də müassir elmdə tədqiq olunmaqdadır. Bu dəyərli əsərlər tibb elmi üçün əhəmmiyyətli olmaqla bərabər, həm də ərəb mədiyyətinin və elminin zənginliyini və qədimliyini nümayiş etdirməkdədir.*

***Açar sözlər:*** *tibb tarixi, ərəb həkimlər, cahiliyyə dövrü tibbi, Əməvilər dövrü tibbi, Abbasilər dövrü tibbi.*

Sami qövmü qədim dövrlərdən Ərəbistan yarımadasında məskən salmışdır. Ərəblər bu qövmün ən qədim millətlərindən biridir. Ərəblərdə tibbin tarixi çox qədim və zəngindir.

Ərəblər yunan tibbini Bağdadda yerləşən "Beytul-hikmət"in tikilməsi ilə burada mövcud olan kitabların ərəb dilinə tərcüməsi nəticəsində öyrənmişlər. Xüsusilə ərəb alimləri yunan mənbələrindən nəzəri tibbi öyrənirdilər. İslam dininin ilk dövrlərində isə ərəblər Misir, süryani və fars tibbini tanımış və onlardan praktiki tibbi öyrənmişlər. Bundan başqa "Qurani-Kərim"də mövcud olan sağlamlığa və təmizliyə aid tövsiyə və əmrlər, həmçinin Hz. Peyğəmbərə məxsus "Tibbun-Nəbəvi"də sağlamlığın qayğısına qalınması və xəstəliklərin müalicəsi ilə bağlı məsləhətlər həm ərəblərdə, həm də müsəlman aləmində çox əhəmiyyətli olmuşdur. Ərəblərin tibb tarixinin zənginliyi dövrlərə görə bir birindən fərqlənir.

**Cahiliyyə dövrü tibb tarixi**

"Lisənul-arab"da doğuş zamanı ana bətnində qalan körpənin çıxarılması ilə bağlı məlumata da rast gəlinir. Belə ki, ana rəhmindəki ölü uşağın (الحَشِيش) çıxarılması "السطو" adı ilə bilinirdi. Lakin işin icra olunma forması bir o qədər də aydın olmamaqla bərabər düzgünlüyü də tam deyildir. Çünki sadəcə olaraq lüğətlərdə bu prossesin adı çəkilir. "Lisənul-arab"da خشع söz sırasında "الخشْعة"– "hamilənin bətnindən cəninin yarılaraq çıxarılması əməliyyatı" olaraq qeyd edilir. Müasir dövrdə isə bu əməliyyatın adı "Post-Mortem Caesarean Section"–"Ölümdən sonra qeysəriyyə əməliyyatı" adı ilə tanınmaqdadır. Müasir araşdırmalara əsasən demək olar ki, o dövr ərəbləri bu əməliyyatları çobanlar tərəfindən tələf olan davarlar üzərində icra etmişlər. Cahiliyyə dövrü ərəb tibbində həmçinin diş çıxarmaq və bəzi gözəllik əməliyyatları da mövcud olmuşdur. Bu dövr ərəb tibbində yerli mənbələr olmuşdur. Ərəblər səhralarda yaşadığına görə onların bu dövr tibbinə əcnəbi metod və

üsullar daxil olmamışdır. Cahiliyyə dövrü adət-ənənələrinə məxsus tibbi biliklər islamın zühuruna kimi davam etmişdir.

Cahiliyyə dövrü ərəb tibbi haqqında indiki dövrə kimi gəlib çatan elə bir qaynaq, mənbə yoxdur. Cahiliyyə dövrü ərəblərin tibbi bilikləri haqqında məlumatları onlar haqqda yazılan şeirlər, atalar sözləri və zərb məsələlərdən əldə etmək olur. "Bu dövr ərəb tibbində dərman vasitəsi kimi tilsim, xam maddələr, ot dəmləmələri, səhra bitkiləri, səhra heyvanlarının ağız suyu, dəvə sidiyi, yanmış kül, qurban qanı, mum, bal və s. istifadə olunurdu" (5, s.199).

Ərəblər bir neçə müsəlman ölkəsini işğal edən zaman bu yerlərdə yunan elm və tibbi qabaqcadan artıq inkişaf etmişdi. Hələ İslamdan əvvəl Misirdə İskəndəriyyə mədrəsəsində yunan təbabəti dərindən öyrənilirdi. Həmçinin İskəndəriyyə kitabxanasında ərəb-islam həkimləri burada olan tibbi ədəbiyyatdan istifadə edərək yunan təbabəti ilə yaxından tanış olmuşlar.

Bu dövrdə Ərəbistan yarımadasında həkimlərin milliyyətcə çoxluğunu ərəblər təşkil etsə də, fars və romalı həkimlər də az deyildi. Cahiliyyə dövründən əməvilər dövrünə kimi uzanan müddətdə bəzi məşhur həkimlərə misal olaraq İbn Əbi Ramsa Təmimi, İbn Hizm, Şəfa bintu Abdullah Qureyşiyyə, Rafidə əl-Silmiyyə, Diməd bin Səalib əl-Əzədi, Haris bin Kəab, Ummu Atiyyə əl-Ənsariyyə, Zuheyr bin Cənab Kəlbi, Şəməradəl bin Qubəbil əl-Kəadi, Haris bin Kələdə Səqafi kimi həkimləri göstərmək olar.

IV-VII əsrlərdə coğrafiyası və tarixi cəhətdən inkişaf edən Ərəbistan yarımadası və Aralıq dənizinin şərqində yerləşən ərəb ölkələrində məşhur yerli və əcnəbi həkimlər yaşayıb yaratmışlar. Xüsusən daha çox inkişaf etmiş Raha və Dəməşq şəhərlərində ərəb tibbi böyük bir intişar tapmışdı. Əməvilər sülaləsinin hökmranlığından sonra buralarda ərəb tibbinin inkişafını daha çox görmək mümkündür. Monqolların Bağdada yürüşündən sonra çoxlu həkim Dəməşqə qaçmışdır.

Bundan başqa orta əsrlərdə elm və mədəniyyəti ilə məşhur olan Şam diyarında (indiki Suriya və onun ətrafında bir neçə ərəb məmləkəti) iyirmidən çox məşhur həkim və əczaçı fəaliyyət göstərmişdir. Bunlara misal olaraq Məhzəbəddin İbn Nəqqaş, Muvəffəqəddin bin Mətran, Rəziəddin Rahbi, Rəşidəddin bin Əli bin Xəlifə bin Əbi Useybə, Möhzəbəddin Əhməd bin Hacib və başqa yaşamış həkimləri göstərmək olar.

İslamın zühuru və Rəşidilər dövləti dövründə yaşamış bəzi həkimlər haqqında məlumatı ərəb şairlərinin beytlərindən əldə etmək olur. Bu dövr həkimlərindən Haris bin Kələdə əs-Səqafi, ən-Nədr bin Haris bin Kələdə və Əsir bin Əmir Səkutinin adını çəkmək olar. "Əsir bin Əmir Səkuti Xəlifə Əli bin Əbi Talibin qətl zərbəsinin müalicəsində iştirak etmişdir" (5, s.244).

**Əməvilər dövrü tibb tarixi**

Rəşidilər xilafəti dövründən sonra 91 il hakimiyyət sürən əməvilər dövlətinin hakimiyyəti başlanmışdır. Əməvilər dövlətində dünyəvi elmlərlə yanaşı tibbin öyrənilməsində də dövlət və toplu səviyyədə böyük bir diqqət olmuşdur. İskəndəriyyə, Antakya və Cundişapur tibb, elm və mədəniyyət mərkəzlərinə çevrilmişdi.

Bu dövrdə yaşamış həkimlər sağlamlığın qorunması, xəstəliklərdən qorunma, sünnət, diş çıxarma, həcamat, dağlama və s. kimi bəzi tibbi biliklərə sahib idilər.

Əməvilər dövründə ən əhəmiyyətli hadisələrdən biri də bəzi kitabların yunan dilindən ərəb dilinə tərcüməsi olmuşdur. Bu dövrdə Dəməşq həkimləri tibb sənətini birbaşa Bizans həkimlərinin kitablarını oxumaqla öyrənmişlər.

Əməvilər dövründə tibbin çeşidli sahələrində müxtəlif dinlərə (xristian və müsəlman, iudaizm) və millətlərə (ərəb, bizanslı, yəhudi, fars) malik məşhur ərəb həkimləri yaşayıb fəaliyyət göstərmişlər. Bunlara misal olaraq *Xalid bin Yəzid bin Məaviyyə, Əbul Hakəm Dəməşqi, İbn Hakəm Dəməşqi, İsa bin Hakəm Dəməşqi* ("Kitabun fi mənafiil-hayvan", "əl-Risalətul-kafiyyətul-həruniyyətu", "Risalətun fil-əaşəb va aqaqir", "əl-Kunnəşul-yəqut"), *İbn Əsal* və başqa həkimləri qeyd etmək olar. Bundan başqa tibbə dair məsləhətləri, dəyərli fikirlərlə zəngin bizans əsilli *Tiyəzuq* ("Kitəbun ibdalil-ədviyyə va keyfiyyətu daqqihə va əzəbətihə", "Qasiydətun fi hıfzil sıhha", "əl-Fusul fi tıbb"), *Furat bin Şəhanətə, Məsurci Basari* ("Kitəbun əbdalil-ədviyyə"), *Abdul Məlik bin Əbcar Kinani, Zeynəb Bəni Əvad* (tibbi işləri cərrahiyyə və göz xəstəlikləri sahəsində olub) və başqalarını misal göstərmək

olar. Əməvilər dövründə Dəməşqdə tikilən "Bimaristan Valid bin Abdul Məlik", "Bimaristan zuqaqul-qənədil" və s. məşhur xəstəxanalar da fəaliyyət göstərmişdir.

***VII əsr*** ərəb tibb tarixinin görkəmli həkim-alimləri *Haris bin Kəldə* ("Kitəbul-muhavərə fit-tibb beynəhu va beynə kisra (əl-Əsilətul-əl-harisiyyə)) və *Yəhya ən-Nəhvi* olmuşdur. *Cabir bin Hayyan* ("ət-Tibbun-nəbəvi alə rayi əhli-beyt") ***VIII əsr*** ərəb tibbinin parlaq nümayəndəsi sayılır.

Ərəblərdə tibbi biliklərin köklü inkişafı Abbasilər dövlətinin yaranması ilə əldə olunmuşdur. Ərəbistan yarımadasında yüksək səviyyəyə malik tibbi bilikli şəxslər Fars və Bizans imperiyaları ilə qonşu olan Hira, Bəsrə kimi şəhərlərin sakinləri olmuşdur. Hətta bir qrup insan tibb sənətini öyrənmək üçün Yəmən və Fars ölkəsinə gedirmiş.

**Abbasilər dövrü tibb tarixi**

Abbasilər xilafəti zamanı ərəblərdə, eləcə də islam aləmində tibb elmi yüksək səviyyədə inkişaf etmişdir. Abbasilər xilafətində də ərəb, nəsrani, hind, fars və s. mənşəli məşhur həkimlər yaşayıb fəaliyyət göstəmişdir. Fars əsilli həkimlərdən *Əbu Bəkr ər-Razi, Əhməd bin Əbi Əşaat* ("Kitəbul-ədviyyətul-mufradət", "Kitəbul-hayvan", "Kitəbun fil-məlinxuliyə", "Kitəbun fil-sirsəm val-birsəm va mudəvatuhumə", "Kitəbun fil-qulənc va əsnəfuhu va mudəvatuhumə", "Kitəbun fi tərkibil-ədviyyə", "Kitəbu əmradil-məidəti va mudəvatuhə", "Kitəbu zuhurid-dəm", "Şərhu kitəbi Cəlinus fi mizəcil-muxtəlif", "Şərhu kitəbil-humməyəti licəlinus"), *Əhməd bin Məhmməd Təbəri* ("Əl-mualəcətu Əbuqratiyyə", "İləcul-ətfal, "Risalətun fi zikril-qərura" və "Məqalətun fi tıbbil-ayn"adlı əsərlərin müəllifidir. "Əl-mualəcətu Əbuqratiyyə"), *Əli bin Abbas Məcusi* ("Kəmilul-sinaatit-tıbbiyyə", "Kitəbul-məmluki", "Risalətun fi fəsd"), *Həsən bin Sivar* ("Məqalətun fi imtihanil-ətibbə", "Kitəbun fi xəlqil-insan", "Kitəbun tədbirul-məşaix", "Məqalətun fi maradil-məarufi bil-kəhini əy sarai"), Süryani həkimlərdən *Cəbrayıl bin Bəxtişu, Əbul-Fərəc bin Tayyib* ("Təfsiru kitəbil-mizac", "Təfsiru kitəbil-nabdil-sağir", "Kitəbul-əxlat", "Kitəbu tıbbiyyətil-insan", "Şərhu siməri məsail Huneyn bin İshaq", "Təaliq fil-ayn"), *İbn Batlan Bağdadi* ("Kitəbu təqvimul-sıhha", "Məqalətun fi şərbil-dəvail-mushil", "Kitəbul-mədxəl iləl-tıbb", "Risalətun dəavətul-ətibba"), *İbn Cizlə Bağdadi* ("Kitəbu mənhəcil bəyan fiymə yəstəamələhul-insən", "Kitəbu təqvimil-əbdan fi tədbiril-insən"), *Əli bin İsa Kəhhal* ("Kitəbu təzkirətul-kəhhaliyn", "kitəbul-kəfi" əsərlərinin müəllifidir. "Təzkirətul-kəhhaliyn" kitabı göz tibbinə (oftamalogiya) dair ərəbcə yazılan kitabların ilkidir). *İbn Tilmiz Bağdadi* ("Şərhu əbdəlil-ədviyyə li Cəlinus", "Şərhu məsəil Huneyn bin İshaq", "Əqrabəzin mucəzul bimaristəni", "Kunnəş tıbbi", "Xəlqul-insan", "Zubdətun fi ilmil-tıbb"), *Əbu Nəsr bin Məsihi* və məşhur yəhudi əsilli həkimlərdən isə *Əbul-Bərəkət bin Məlkə Bələdi* ("İxtisarul-təşrih", "Kunnəş fi tıbb", "Həvaşi alə qanun İbn Sina", "Əqrabəzin", "Kitəbul-mutəbər fil-hikmə") zəngin tibbi fikirlərə sahib olaraq bu sahədə məşhur əsərlərin müəllifləridirlər.

Bundan əlavə *Sabit bin Qurra Harrani* ("Kitəbun fil-nəbd", "Kitəbun fi tədbiril-sıhha", "Risalətun fil-cudəri va hasbə", "Kitəbun təşrihil rahm" və s.), *Sinan bin Sabit bin Qurra, Sabit bin Sinan, Əbul-Həsən Harrani, İbn Vasif Sabi, Əbu İshaq İbrahim Harrani* və başqa həkimlər Harran şəhərindən olub Bağdadda yaşayıb fəaliyyət göstərmişlər.

Bağdad Akademiyasının ərəb tibb elminin, həmçinin təbabətinin inkişafında xidmətləri böyükdür. Xəlifə Rəşid və Məmunun dövründə Bağdadda yerləşən "Beytul-hikmət" də çoxlu yunan dilində tibb və fəlsəfə kitabları ərəb dilinə tərcümə edilmişdi. Həmçinin ərəb dilindən də yunan və digər dillərə tərcümələr olunmuşdur. "Beytul-hikmət" xilafətində tərcümə və elmi işlərdə əhəmiyyətli mövqe tuturdu. "Qızıl ev" adlandırılan bu məkanda Yunan elmi, Platon və Ariatotelin elmi öyrənilirdi.

***IX-X əsrlərdə*** yaşamış məşhur həkimlərdən *Corciyus bin Cəbrayıl bin Bəxtişu, Arib bin Səid* ("Uyunul-ədviyyə", "kitəbun xəlqil cənin va tədbirul hibəli va məvludeyn", "kitəbun fi əl-ənva") və *İbn Culcəl Əndəlusini* ("Tabəqatul-ətibba-val-hukəmə", "Kitəbun təfsiri əsmə əl-ədviyyə mufradəti", "Məqalə fi zikril-ədviyyə", "Risalətu təbəyyin") göstərmək olar.

İkinci Abbasi xəlifəsi Əbu Cəafər Mənsurun şəxsi həkimi, İranda Cinduşapur bimaristanında (xəstəxanasında) çalışan Nəsrani həkim *Corciyus bin Cəbrayıl bin Bəxtişunun* ("Kitəbul-əxlat", "Kunnəşul-məşhur") şöhrəti daha çox yayılmışdı. Həkim Bəxtişunun Bağdada gəlişi ilə yunan

tibbinin ərəblərə çatmasının başlanğıcı kimi götürülür. Yunan bilikləri ərəblərə müxtəlif dövrlərdə və çeşidli yollarla çatmışdır. Cündişapur yunan tibb elmlərinin Bağdadda ərəblərə çatmasında hərəkət nöqtəsi olmuşdur. Suryani dilində yazılan "Kunnəşul-məşhur" əsərini Huneyn bin İshaq ərəb dilinə tərcümə etmişdir. Bəxtişu Xəlifə Mənsura yunan və süryani dillərindən tərcümələr etmişdir. Məşhur həkim Zəkəriyyə ər-Razi Bəxtişunun əsərlərinə istinad etmişdir.

Bəxtişu ailəsi Bağdadda, eləcə də Xilafətdə həkim ailəsi olaraq məşhur olmuşdur. Belə ki, Bəxtişu ailəsinə mənsub *Corciyus bin Cəbrayıl bin Bəxtişu* (IX əsr), tələbəsi *İsa bin Şəhələtə, Bəxtişu bin Corciyus* (Bəxtişunun oğlu), *Cəbrayıl bin Bəxtişu* (Bəxtişunun nəvəsi) ("Kitəbul-bəh", "Risalətun fit-təam va şərab", "Kunnəş fit-tıbb", "Kitəbun fi sinəatil-buxur", "Risalətun muxtəsaratun fi tıbb", "Varamul-xasa", "Məqalətun fil-ayn" və s.), *Bəxtişu bin Cəbrayıl* (Bəxtişunun nəvəsi) ("Nubzatun fit-tıbb", "Risalətun fihə nikətun min təhfiyətil-rumuzi fit-tıbb", "Muxtəsarun bihasəbil-əmkən fi ilmil-zəmən val-əbdən", "nəsaihul-ruhbən fil-ədviyyətil-murakkəbəti", "kitəbun fil-hicəmət alə tariqil-məsəələtil val-cəvabi" və s.), bundan başqa Bəxtişu ailəsinə məxsus həkimlərindən *Ubeydullah bin Bəxtişu, Cəbrayıl bin Ubeydullah* ("əl-Kunnəşul-sağir", "Kitəbun fi asabil-ayn", "Məqalətun fi aləmil-diməğ" və s. ), *Ubeydullah bin Cəbrayıl* ("Kitəbun mənqibil-ətibba", "Kitəbul-ravdatul-tıbbiyyə", "Kitəbul-təvasul fi hifzil-tənasul", "Məqalətun fi hərəkətil-nəfəs", "Kitəbun nəvadirul-məsail", "Risalətun fil-tıbb val-əhdəsil-nəfsaniyyəti" və s.), *Yuhanna bin Bəxtişu* ("Fimə yəhtəcu ileyhit-tabib min ilmin-nucum", "Kitəbu təqvimil-ədviyyə fimə istixərun min əaşəb val-əğziyyə") və *Bəxtişu bin Yuhannanı* göstərmək olar.

*Əbu Bəkr bin Zəkəriyyə ər-Razi* (865-925) ərəb tibb tarixinin, həm X əsr, həm də bütün əsrləri üzrə ən görkəmli nümayəndəsi sayılır. Məşhur göz həkimi İbn Əbi Useybənin təbiri ilə desək o, ərəblərin Qaleni idi. Şöhrəti aləmə yayılmış alim idi. Misilsiz təcrübəyə malik Razinin tibdə uğurlu işləri və şöhrəti davam etməkdədir. O elmi təcrübələrini insan və heyvanlar üzərində aparmışdır.

Deyilənə görə "Zəkəriyyə Ər-Razi Bağdad şəhərinin hansı yerində yeni xəstəxana binası tikmək daha məsləhətdir soruşduqda, o demişdir ki, şəhərin müxtəlif ərazilərində bir şaqqa ət asın. Harda o ət hamısından gec xarab olarsa, xəstəxananı da orda tikin" (1, s.49) kimi dəyərli elmi fikrlərə sahib idi.

Araşdırmalara əsasən göstərilir ki, "pambığı sarğıda (tibdə) istifadə eləməyi Razi təklif etmişdir, Spirtin kəşf edilməsi və mikrob əleyhinə işlədilməsi də onun tərəfindən irəli sürülmüşdür" (1, s.56). Razi həmçinin "Çiçək, qızılca və qızdırma xəstəliklərini kəşf etmiş və bu mövzuda ilk əsəri də məhz o yazmışdır. Bu əsərlər əvvəlcə latınca, 4 əsr müddətinə isə müxtəlif Avropa dillərinə tərcümə edilmişdir" (3, s.345).

Razinin "əl-Havi" kitabında başlıca qaynaq qeyd olunan Corciyus bin Cəbrayıl bin Bəxtişunun "əl-Kunnəş" kitabı olmuşdur. Belə ki, Razi "əl-Havi" kitabında Corciyusun fikirlərinə toxunmuşdur. Razi "Kitəbul-əxlət" əsərində bazu sümüyünün yan tərəfindəki damarın (القيفال) kəsilməsi və ishalın müalicəsində bu əsərdən istifadə etmişdir. "Razi civənin orqanizmə təsirini öyrənmiş, pambığın tibbdə istifadəsi, qırtlaqdan yad cisimləri çıxarmaq üçün alətin kəşfi də ona məxsusdur" (2, s.77).

Zəkəriyyə Razi çeşitli biliklərə malik 230 əsər yazmışdır. Onların 56-sı tibb elminə məxsusdur. Onun müəllifi olduğu "Məqalətu fin-nikris", "Kitəbul-cədəri val hasbəh", "Kitəbul-fəxri", "Kitəbul-mənsuri" (Əsər "Künnəşul-mənsuri", "Kifəyətul-mənsuri", "Əl-Mənsuri fit-tıbb" adları ilə də çəkilməkdədir), "Kitəbun taqsimul-iləl", "Əkrabəzin", "Ət-tibbur-ruhani", "Mihnətut-tabib", "Əl-mədxəlus-sağir ilə ilmit-tıbb", "Kitəbu cərabul-mucərrabət va xizənətul-ətibba", "Kitəbu sırru sınaatit-tıbb", "Kitəbul-mədxəl ilə ət-tibb", "Kitəbul-murşid", "əl-Hasal mutəvallidə fil qilə val-məsanə", "Kitəbul-iksir va yucədu", "İsbatul-tıbb", "Saydələ", "Risalə təcaribul-bimaristan", "Kitəbun mənafiul-əğziyyə va dəfu mədarihə", "Qısas val-hikayə tətil-mərda", "Mən lə yəxduruhu tabib", "Əl-cudəri val-hasbə", "Əxləqut-tabib sittu rəsail minət-turasil arabiyyil-islami", "Əl-cəmiul kəbir" və ya "əl-Havi fi tıbb" və s. əsərləri öz dəyəri ilə seçilir.

Bundan başqa *Əli bin Abbas əl-Məcusi* ("Kamilus-sinaah") və *İbn Culcul əl-Əndəlusi* ("Məqalə fi ədviyyətit-tiryəq", "Məqalə fi zikril-ədviyyətil-ləti ləm yəzkuruhə Diskuridis fi kitəbihi", "Risalətut-təbyin fi mə qalata fihi bədəl mutətabbibin", "Təfsiru əsmail ədviyyətil-mufradə min kitəbi

Diskuridis”, “Tabəqatul-ətibba” və ya “Əxbərul-ətibba”) ***X əsrin*** məşhur həkimlərdəndir.

***XI əsrdə*** yaşayıb fəaliyyət göstərən həkim və alimlərindən *Cəbrail bin Ubeydullah* (“Əl-kunnəşus-sağir”, “Fi asabil-ayn”, “Məqalə fi ənnə əfdalə ustuq satil-bədən huvad-dəm”, “Əl-kunnəşul-kəbir” və ya “əl-Kafi”, “Məqalə fi ələmid-dimağ bi muşərakətil midə va hicəbil-fasıl beynə alətil ğizə va alətin-nəfəs əl-musəmmə diyafrağma”), *Hamməd əl-Cəvhəri* (“Əs-sihah təcul-luğati va sihahul-arabiyyə”), *Cəbrail bin Ubeydullah* (“Kitəbut-təsrif li mən acizə anit-təlif”), *Əbulqasim Xələf bin Abbas Zəhravi* (“Təfsirul-əl-əkyəl va əl-Əvzan”, “Ət-təsrifu limən acz anil-təlif”, “Məqalətun fi aməlil-yəd”, “Risalətun an əmradul-nisə”), *Əli bin İsa əl-Kəhhal* (“Təzkiratul-kəhhal fil ayn va əmradihə”), *Ubeydullah bin Cəbrail* (“Vucubun-nazar alət-tabib fil-əhdəsin-nəfsəniyyə va fi kəvnil-işki məradan”, “Təzkirətul-hadir va zədul-musafir”, “əl-Ravdatul-tıbbiyyə”, “Kitəbu təbəiil-hayəvan va havassıhha va mənafii ədaihə”, “Mənəqibul-ətibba”, “ət-Təvasul ilə hifzit-tənasul”, “Nəvadirul-məsail”), *İbn Hazm Əli bin Əhməd əz-Zahiri əl-Əndəlusi (*“Risalə fit-tıbbın-nəbəvi”), *Əli bin Rıdvan* (“Kitəbul-kifayə fit-tıbb” (Kifayətut-tabib fimə sahhalədeyh minət-təcarib), “Məqalə fit-tətarruk bit-tıbb iləs-səadə”, “Kitəbi dəfi mədarril əbdan bi ardil Mısr”, “Məqalə fi şərəfit-tıbb”, “Kitəbun-nəfi fi keyfiyyəti təalimi sınəatit-tıbb”, “Fil quvvatit-tabıiyyə”, “Kitəbul-usul fit-tıbb”), *Əbul Alə Zəhr bin Abdul Məlik* (“Kitəbun həllu şukuki Razi alə kətəbə Cəlinus”, “kitəbun fi ədviyətil-mufrədəti”, “kitəbul-idah bişəvahidil-iftidah”, “Kitəbun fi raddi alə İbn Sina”, “Kitəbul-təzkirati”, “Risalətun fi əmradil kulən”, “Cəmiu əsraril tıbb” və s.), *Said bin əl-Həsən Əbul-Əla* (“Ət-təşfiqut-tıbbi”), *Əbu Bəkr əl-Hatib əl-Bağdadi* (“Kitəbun fit-tıbb”), *Əbu Mərvan Abdul Məlik bin Zəhrini* (“Kitəbul-iqtisad fi istilahil-ənfəs val-əcsəd”, “Kitəbul-əğziyə”, “Məqalətun fi iləlil-kulən”, “Risalətun fi burs”, “kitəbul-zinə”, “Kitəbu halli sukurur-Radi alə kutubi Calinus”, “Məqalə fir-rəd alə Əbi Əli bin Sina”, “Məqalə fi bəstihi li risaləti Yaqub bin İshaq əl-Kindi fi tərkibil-ədviyyətil-mufrədə”, “Nəchun-nəcah”) nümunə göstərmək olar.

*Əbulqasım Zəhravi* (?-1106) Əndəlüs dövlətinin  və eləcə də Xilafətinən məşhur cərrahı olmuşdur. Onun ərəb dilində yazdığı otuz cildlik “Kitabut-təsrif” əsərinin “Cərrahiyyə və alətlər” adlı otuzuncu cildi, məqaləsi cərrahiyyə və cərrahiyyədə işlədilən alətlərdən  bəhs edir. Həmin cərrahiyyə alətlərinin rəsmləri olan dəyərli əsər müasir dövrədək gəlib çatmışdır və hazırda cərrahiyyədə istifadə olunmaqdadır. Zəhravi cərrahiyyə işini çox mükəmməl bilirdi. Öz şəxsi təcrübələri ilə tibb elminə bir sıra yeniliklər gətirən alim Hippokrat və Qalenin əsərlərini ətraflı öyrənmişdi. “Kitabüt-təsrif” əsərində Zəhravinin kəşf etdiyi çox dəyərli tibbi və cərrahi məlumatlararast gəlinir. “Zəhravi Çemberlendən beş əsr əvvəl “doğuş maşası”nı kəşf etmişdir” (4, s.164).

Bundan başqa o, cərrahi əməliyyatlarda tikişlər üçün keçi və qoyun bağırsağından hazırlanan və öz-özünə əriyən “ketqut” sapının istifadəsi, kiçik çanaqda cərrahi əməliyyatın uzanmış formada icrası, əməliyyat zamanı ikiuclu qarmaq və iki iynə ilə tikiş, 200-dən çox tibbi və cərrahi alətin kəşfi, həmçinin qadın xəstəlikləri və doğum sahəsində istifadə olunan metod və alətlər, daxili orqanlarda olan yad cismlərin və daşların parçalanaraq çıxarılması və s. böyük tibbi kəşflərin müəllifidir. Hətta Zəhravini müasir cərrahiyyənin atası adlandırırlar.

Abbasilər dövləti ərzində *Bəxtişulardan* əlavə *Bəni Teyfuri ailəsi* (Abdullah Teyfuri, Zəkəriyyə bin Abdullah Teyfuri və İsrail bin Zəkəriyya Teyfuri), *Məsəviyyə ailəsi və s.* (Məsəviyyə Xuzi, Yuhanna bin Məsəviyyə (“Kitəbul-ayn”, “Kitəbul-humməyət”, “Kitəbun fil-əğziyyə”, “Kitəbun fil-cuzəm” və s.), Mixail bin Məsəviyyə və b.) Bağdadda yaşayıb fəaliyyət göstən məşhur həkim ailələrindəndir.

Xəlifələrin tələbi ilə Bağdada çoxlu hindli həkim gələrək burada yaşayıb yaratmışdır. Onlardan Bəzikar, Sindibad, Qulbərqul, Sancəhal, Bəri, Dəhşənuk, Saleh bin Bəhlə, Kunkə Hindi, Minkuh Hindini göstərmək olar. Saleh bin Bəhlə, Kunkə Hindi, Minkuh Hindi Xəlifə Harun ər-Rəşidin ən yaxın həkimləri olmuşlar.

Sonra bu dövrdə həndəsə, astronomiya, fəlsəfə ilə yanaşı tibb sahəsində də məşhur islam filosofları mükəmməl əsərlər yazmışlar. *Bunlardan Əli bin Səhl Rabban ət-Təbəri* (“Kitəbu firdevsul-hikmətu fit-tıbb”, “Kitəbu hifzil-sıhhati”, “Kitəbul-hicəmə” və s.), *Yəqub əl-Kindi* (“Kitəbul-bah”, “Risalətun fil-ətiməti”, Risalətun fil-lusğa”, “Mahiyyətul-nəvm va ruyə”, “Risalətun fi keyfiyyətil-

dimağ", "Kitəbul-tıbb ruhani" və s.), *Qısta bin Luqa əl-Bəaləbəkkini* ("Kitəbun fil-vazn val-keyl", "Kitəbun fin-nəvm va ruyə", "Kitəbun fil-bəh", "Risalətun fil-daras", "Məqalətun fil-dəm", "Məqalətun fil-vəba", "Risalətun fil-əğziyə", "Məqalətun fil-nəbd", "Kitəbun fil-suda", "Kitəbun fil-Xidab" və s.) göstərmək olar. Qısta bin Luqa fəlsəfə, astronomiya, riyaziyyat, tarix və tibb elmlərinə dair çoxlu kitabların yunan dilindən ərəb dilinə tərcümələri ilə tanınan filosof olmuşdur. O tibbə dair 60-a yaxın əsərin müəllifidir.

*Əhməd bin İshaq əl-İsfəhani* ("Məvsuatit-tıbbin nəbəvi", "Kitəbul-ədviyətil-mufrədə", "Risalə fil-humməyat val-əvram", "Risalə fi dəfil-məzarril-kulliyyə lil-əbdanil-insaniyyə"), *İbnut-tilmiz əl-Bağdadi* ("Əl-Akrabazin"), *İbn Tufeyl* ("Urcuzə fit-tıbb"), *İbnul-Mitran* ("Əl-Məqalətun-nasiriyyə fi hifzil-umuris-sıhhiyyə", "Ədəbu tibbil-muluk", "Əl-ədviyyətul-mufrədə", "Bustanul-ətibba va ravdatul-əlibba", "Əl-məqalətun-nəcmiyyə fit-tədabiris-sıhhiyyə"), Avropada "Averos" adı ilə tanınan Əhməd bin Məhəmməd *İbn Rüşd* ("Kitəbul-kulliyyət", "Şərhu kitəbil-heyvan li Əristu", "Təlxisu kitəbil-mizaci li Cəlinus", "Təlxisu kitəbil-təarifi li Cəlinus", "Təlxisu əvvali kitəbil-ədviyyəti li Cəlinus", "Məqalətun fit-tiryəq" və s.), *Əbul-Həsən əl-Əndəlusi* ("Kitəbut-təcribəteyn") ***XII əsrdə*** yaşamış məşhur ustad həkimlər olmuşlar.

*Əbul-Fərəc Əbdürrəhman bin Əli bin Məhəmməd əl-Cəvzi* ("Ət-Tıbbır-Ruhani", "Laktul-mənafi", "Kitəbu tıbbil-əşyah" və s.), *Əbu İmran Musa bin Meymun (*"Kitəbul-fusul", "Kitəbu tədbirus-sıhhah", "Əl-muxtəsarat", "Əs-sumum vat-təharruz minəl-ədviyyətil-kattələ", "Risalə fil-Bəvasir", "Fil-cima", "Məqalə fir-rəbv", "Şərhu əsmail-uqqar" və s.), *Muvaffəquddin Əbdüllətif bin Yusif əl-Bağdadi* ("Əl-ərbəun fit-tıbbin-nəbəvi", "Ət-tıbb minəl-kitəb vas-sunnə"), *Əbu Abdullah Ziyəuddin Məhəmməd bin Əbdülvahid əl-Hanbəli əd-Diməşqi əl-Məkdisi* ("ət-Tıbbun-nəbəvi", "Kitəbul-əmrad val-kəffərat vat-tıbbır-rukyat"), *Cəmaləddin Qıfti (*"Kitəbu ihbərul-uləma bi əxbəril-hukəma", "Kitəbul-muntəxəbət val-multəkətat min kitəbi tarixil-hukəma"), *Diyəuddin Əbu Məhəmməd ibn Baytar* ("Kitəbul-muğni fil-ədviyyətil-mufrədə"), *Əbul-Abbas Şəhabəddin Əhməd bin Yusif ət-Tifaşi* ("əş-Şifa fit-tıbbil-musnəd an Seyyidi Mustafa", "Rucu-uş-şeyx iləs-sibah fil-quvvati aləl-bah"), *Davud bin Əbun-Nasr* ("Akrabazin minhacud-dukkan va dusturul-əayan lil-ədviyyətin-nəfiə lil-əbdan"), *İbn Əbi Useybə* ("Uyunul-ənbə fi tabaqatil-ətba", "kitəbul-təcarib va fəvaid", "kitəbu hekəyəti ətibba fi iləcil-ədva" və s.), *İbn Quff* ("Kitəbul-umdəh fi sinəatil-cirahah". Əsər cərrahlıq sənəti haqqında əsas kitabdır. İbn Quffİbn Nəfisin tələbəsi olmuşdur), *Ələuddin İbn Nəfis* ("Ər-risalətul-kamiliyyə fis-siratin-nəbəviyyə", "Şərhul-əsbəb", "əl-Muxtəsar fi ilmi usulil-hadisin-nəbəvi", "əl-Muxtər minəl-əğziyə", "əş-Şamil fis-sınəatit-tıbbiyyə", "Şərhul-qanun", "Buğyətut-talibin va nuzhətul-mutətabbibin", "Şərhu əbizimya li Əbukrat", "Şərhu təbiatil-insan li bukrat", "Şərhu təqdimətil-məarifə", "Şərhu məsaili Huneyn", "Şərh təşrihil-qanun", "əl-Kitəbu mucizul-qanun", "əş-Şamil fis-sinəat", "əl-Muhəzzəb fil-kuhlil-mucərrab", "Şərhu fusuli Əbukrat", "Risalətul-ədai") ***XIII əsrdə*** yaşamış məşhur ərəb həkimləridir.

*İbn Baytar* (?-1248) dövrünün ənəzəmətli botanik və əczaçı alim olmuşdur. Onun "Kitəbul-muğni fil-ədviyyətil-mufrədə" adlı əsərindəbitki, heyvan və mineral məhsullardan ibarət 1400 dərmanın siyahısı verilmişdir. Əndəlüs dövrünə məxsus kitab XVI əsrə kimi dərmanşünaslıq (Əqrabəzin) elmində əsas mənbə olmuşdur.

*İbn Nəfis* (1210-1288) tibbdə ilk dəfə kiçik qan dövranını kəşf edərək, bu prossesi geniş şəkildə şərh etmişdir. Ərəb dilində yazdığı "əl-Kitəbu mucizul-qanun" adı şərhində qeyd edir ki "qan ürəyin sağ mədəciyindən ağ ciyərlərə gedir, orada hava ilə zənginləşir, sonra ürəyə, sol qulaqcığa və oradan da sol mədəciyə qayıdır, burada isə ruh formalaşır" (3, s.177).

***XIV əsrdə*** yaşamış məşhur ərəb həkimlərdən *İbn Qayyim əl-Cəvziyyə* ("ət-Tıbbin-Nəbəvi", "Kitəbud-dəu vad-dəva", "Şərhu tıbbin-nəbəvi", "əl-Cəvabul-kafi limən səələ an dəvaiş-şafi", "Tıbbul-qulub"), *İbn Fərəc əl-Qırbilyəni əl-Əndəlusini* ("əl-kitəbul-istiqsa val-ibram fi iləcil-cirahat val-əvram"), ***XV əsrdə*** isə *Mehdi bin Əli bin İbrahim əl-Yəməni* ("ər-Rahmə fit-tıbb val-hikmə"), *Əhməd bin Əli əl-Kalkaşəndini* ("Subhul-aşə fi sinəatil-inşa"), *Əbul-Abbas əl-Hasani* ("Kitəbul-ətibba") və b. həkim-filosofların fəaliyyəti daha çox diqqəti cəlb edir. Onların əsərlərində tibbin nəzəri və təcrübi məsələləri, xəstəliklər və xəstəliklərin müalicəsi və s. tibbi biliklər haqqında ətraflı

məlumatlar öz əksini tapmışdır. ***XVI əsrdə*** *Cəlaləddun Əbdürrəhman bin Əbi Bəkr əs-Suyuti* ("əl-Mənhəcus-Səvi val-mənhəlur-ravi fit-tıbbin-nəbəvi", "ər-Rahmə fit-tıbb val-hikmə", "Məqamətus-Suyuti əl-ədəbiyyətil-tıbbiyyə"), *Şihabuddin Əhməd bin Məhəmməd əl-Kastallani* ("əl-Məvahibul-ləduniyyə"), ***XVII-XVIII əsrlərdə*** isə *Əhməd Məhəmməd əl-Maqqari* ("Nəfhut-tıbb"), *Əbul-Abbas Şihabuddin Əhməd bin Səlamə əl-Qalyubi* ("əl-Məsahibus-Səniyyə fi tıbbi xeyril-bəriyyə"), *Əbdürrəzzaq əl-Cəzayiri* ("Kitəbu kəşfur-rumuz") kimi həkim filosof və alimlər öz dövründə bir çox tibbi əsərləri ilə məşhur olmuşlar.

Çox qədim zamanlara gedib çıxan ərəb təbabət və dərmanşünaslıq elmi tarixi qədimliyi və zənginliyi ilə dünya tibb elmində xüsusi yerə malikdir. Ərəblər qədim yunan elmi və mədəniyyəti ilə yaxından tanış olaraq təbabət, dərmanşünaslıq və tibb elmlərinin inkişafına böyük təsir göstərmişlər.

Dərmnşünaslıq və aptekçilik işinin təşkili, xəstəxanaların (bimaristan) yaradılması, cərrahiyyənin xüsusi səviyyədə inkişafı, məşhur tibb xadimləri və onların ərsəyə gətirdikləri kitablar ərəblərdə tibb elminin səviyyəsinin əsas göstəriciləridir.

Ərəb tibb xadimlərinin və islam həkimlərin tibbi kəşfləri Şərqdə və eləcə də dünyada elmin təkamül və inkişafına böyük kömək olmuşdur. Bu alimlərin elmi kəşfləri və yazdıqları əsərlər nəzəri və praktiki tibbin öyrənilməsinə şərait yaradaraq müasir tibbin inkişafı üçün böyük bir elmi zəmindir.

## ƏDƏBİYYAT


1. Axundov İ.A. Tibbin tarix və fəlsəfə ilə əlaqəsi. Bakı: Mütərcim, 2014, 100 s.
2. Kiçibəyov B.S, İbrahimli H.İ. Tibb tarixi. Bakı: Azərbaycan Beynəlxalq Universitetinin Tibb korpusu, 2004, 180 s.
3. Vəliyeva M., Bəndəliyeva A. (2013). Əczaçılığın tarixi (dərs vəsaiti). Bakı: Elm və təhsil, 440 s.
4. الدكتور كمال السامرائى. مختصر تاريخ الطب العربي-الجزء الأول: دار النضال، 1984، 637 ص
5. الدكتور كمال السامرائى. مختصر تاريخ الطب العربي-الجزء الثاني: دار النضال، 1985، 595 ص


## SUMMARY

**Kubra Valiyeva**

### THE ROLE OF ARABIC LANGUAGE IN THE FORMATION AND DEVELOPMENT OF WORLD MEDICAL SCIENCE


Arabic medicine is very rich and ancient. Arab doctors played an exceptional role in the development of medicine in the East, Europe and the world. Both their works and medical discoveries have gained worldwide fame. Thus, the works written by them were used as textbooks in universities and other educational institutions in the East and West until the XVI century. Their medical discoveries are still being studied and applied in modern medicine and pharmacology.

The Arabs were inspired by greek, byzantine, persian, indian medicine and pharmacology, adding their valuable discoveries to this field and made great contributions to modern medical science. The works and discoveries of Haris bin Kalada, Ibn Zakariya Ar-Razi, Jabrail bin Ubaydullah, Ibn Tufeyl, Ibnul-Mitran, Jamaladdin Gifti, Ibn Baytar, Ibn Abi Useyba, Ibn Guff, Ibn Nafis and many famous Arab medical figures, whose names are not mentioned, had a great influence on the development of modern medicine in the East, as well as around the world. The works of these scientists are still being studied in modern science. These valuable works are not only important for medical science, but also demonstrate the richness and antiquity of Arab culture and science.


***Key words:*** *history of medicine, Arab doctors, medicine in the age of ignorance, medicine during the Umayyads era, medicine during the Abbasids era.*

## РЕЗЮМЕ

**Кубра Велиева**

## РОЛЬ АРАБСКИХ УЧЕНЫХ В СТАНОВЛЕНИИ И РАЗВИТИИ МИРОВОЙ МЕДИЦИНСКОЙ НАУКИ

Медицина арабов очень богатая и древняя. Арабские врачи сыграли исключительную роль в развитии медицинской науки на Востоке, в Европе, а также во всем мире. Их труды и медицинские открытия получили известность во всем мире. Таким образом, их трудами пользовались в университетах и других учебных заведениях Востока и Запада как учебными пособиями вплоть до XVI века. Их медицинские открытия до сих пор изучаются и применяются в современной медицине и фармакологии. Арабы получили пользу из греческой, византийской, персидской и индийской медицины и фармакологии, но также внесли большой вклад в современную медицину, добавив свои ценные открытия в эту область.

Труды и открытия Хариса бин Каледы, Ибн Закарииар-Рази, Джабраила бин Убейдуллаха, Ибн Туфейла, Ибн аль-Митрана, Джамаладдина Гифти, Ибн Байтара, Ибн АбиУсейба, Ибн Гуффа, Ибн Нафиса и многих других известных арабских медицинских деятелей оказали большое влияние на развитие современной медицины на Востоке, а также во всем мире. Труды этих ученых до сих пор изучаются в современной науке. Эти ценные работы не только важны для медицинской науки, но и демонстрируют богатство и древность арабской медицины и науки.



***Ключевые слова:*** *История медицины, арабские врачи, медицина эпохи невежества, медицина эпохи омейядов, медицина эпохи Аббасидов.*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 61-66
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 61-66
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 61-66

**ДОБРОДУМ ОЛЬГА ВИКТОРОВНА**
*Государственный торгово-экономический университет*
*г.Киев, Украина,*
**МАРТЫНЮК ЭДУАРД ИВАНОВИЧ,**
**НИКИТЧЕНКО ЕЛЕНА ЭДУАРДОВНА,**
*Национальный университет «Одесская политехника»,*
*г.Одесса, Украина*

**УДК: 297.**

# ОБРАЗ СОВРЕМЕННОЙ ВОЙНЫ: РЕЛИГИОВЕДЧЕСКИЙ АСПЕКТ

*Данная статья посвящена религиозному осмыслению образа российско-украинской войны. Сложно переоценить влияние военно-политической тематики на современную религиозную реальность - тематика конференций практически по всем наукам оказалась связана с войной и военным положением, осмыслением вызовов войны, вопросами религиозной жизни в военное время, волонтерством и гуманитарная помощь, сотрудничество религиозных организаций. Как известно, война имеет как религиоведческий, так и социально-антропологический, социально-психологический, историко-культурный, политический и цивилизационный аспекты. Некоторые аспекты философии войны пересекаются с философией истории, политической философией, международными отношениями и философией права. В знак солидарности мировые интеллектуалы и философы пишут колонки в поддержку Украины – свою позицию уже высказали многие известные философы современности.*

***Ключевые слова:*** *современная война, Украина, образ, философия войны, религиозно-политические отношения*

Рассматривая проблематику образа современной войны, следует отметить, что она имеет как религиоведческий, так и социально-антропологический, социально-психологический, исторический и культурологический, политологический и цивилизационный аспект. Ее актуальность не вызывает сомнений: прежде всего, важно отметить, что агрессия исторически присуща человеческому обществу. Да и человеческая история – это преимущественно военная история. «Ученые швейцарского статистического центра опубликовали такие подсчеты: за 5000 лет человеческой истории только 292 года на Земле не было войн, а 15 513 больших и малых войн унесли 3 миллиарда 640 миллионов жизней» [1].

На очередном витке истории войны, которая может превратиться в третью мировую, крайне важно анализировать способы, с помощью которых человеческая культура в состоянии сдерживать агрессию, имманентную человечеству как виду. В настоящее время, начиная с 24 февраля 2022 года, неожиданно актуализировалась военно-политическая тематика, стали широко обсуждаться вопросы первопричин войн и теорий справедливой войны, отношений между человеческой природой и войной, политической теологии и этики войны. Весьма очевидно, что некоторые аспекты философии войны сопересекаются с философией истории, политической философией, международными отношениями и философией права. Украинские интеллектуалы запустили инициативу Philosophers ForUkraine - механизм академической дипломатии, позволяющий рассказать миру о событиях в нашей стране. В знак солидарности мировые интеллектуалы и философы пишут колонки в поддержку Украины - свою позицию уже высказали многие известные философы современности.

Как известно, многие конфликты на протяжении всей истории велись по религиозным причинам и с участием различных религий. Например, по отношению к христианству можно

привести крестовые походы и религиозные войны, тридцатилетнюю войну, восстание тайпинов и беспорядки в Северной Ирландии и пр. Христианство, безусловно, являлось фактором во многих конфликтах на протяжении своей 2000-летней истории. В исламе мы видим понятие джихада или «священной войны», атаки 11 сентября 2001 года на Соединенные Штаты рассматривались как джихад против «великой сатанинской» Америки, которая в глазах многих мусульман является почти синонимом христианства. Относительно иудаизма, то в Ветхом Завете (в частности, в книге Иисуса Навина) описаны войны, санкционированные Богом для захвата Земли обетованной.

Очевидно, религия сыграла определенную роль в большей части войн в истории человечества, хотя религия практически никогда не являлась основной причиной войны. Социальная история в принципе обусловлена взаимодействием религиозного и политического компонентов социальной жизни, понимавшемся как союз Алтаря и Трона, Креста и Короны, Царства Бога и Кесаря, Града Божьего и Града Земного, мира горнего и мира дольнего, сакрального и профанного, небесного и земного, сверхъестественного и естественного, божественного и мирского, духовной и светской культур, клириков и мирян и т.п.

Спектр взаимоотношений религии и политики (будь то доктрины «двух властей», «двух мечей» или «двух сфер», концепты «цезарепапизма» и «папоцезаризма», модели имперских, политических и гражданских религий) являлся предметом рефлексий многих философов, теологов, религиозных и политических деятелей, в том числе и в Украине. Так, Фома Аквинский утверждал, что солдат, ведущий войну за правое дело, все равно, что святой, а Фидель Кастро подчеркивал, что революционеров и христианских святых сближает их глубокая вера в правоту дела, способность к самопожертвованию. Николаю Бердяеву принадлежит афоризм: «Государство существует не для того, чтобы превращать земную жизнь в рай, а для того, чтобы помешать ей окончательно превратиться в ад» (2).

Священники давно перестали удивляться просьбам прихожан подсказать, кому надо молиться в тех или иных обстоятельствах – между тем, некоторые богословы такое потребительское отношение к святым считают рудиментом язычества. Еще по благословению Патриарха Московского и всея Руси Алексия II силовики, чиновники и бизнесмены взяли в покровители святых: налоговая полиция (апостол Матфей), ФСБ (благоверный князь Александр Невский), МВД (святой равноапостольный князь Владимир), Военно-морской флот (апостол Андрей Первозванный), Воздушно-десантные войска (Пророк Илья), Сухопутные войска (великомученик Георгий Победоносец), Инженерные войска (святой благоверный князь Даниил Московский), Пограничная служба (преподобный Илья Муромец Киево-Печерский), дальняя авиация ВВС (святой праведный воин Феодор Ушаков), ракетные войска стратегического назначения (святая великомученица Варвара – ее Московская Патриархия делает ответственной также за все, что происходит в горнодобывающей отрасли). Олимпийской сборной «достается» Георгий Победоносец, Международному фестивалю СМИ «Вера и Слово» на небесах оказывает поддержку Пророк Иона, покровительницей женщин-политиков становится святая равноапостольная великая княгиня Ольга, добровольное общество содействия армии, авиации и флоту (ДОСААФ) избирает небесным покровителем святого благоверного князя Александра Невского (3).

В религии многое амбивалетно: Апостол Павел – *нет ни Еллина, ни Иудея, ни* обрезания, *ни* необрезания, варвара, Скифа, *раба, свободного, но все* и во *всем Христос (Кол. 3:11). Нет* уже *Иудея, ни* язычника; *нет раба, ни свободного*; *нет* мужеского пола, *ни* женского: ибо *все* вы одно во *Христе* Иисусе (Гал. 3:28). С другой стороны, можно вспомнить то, к чему призывал апостол Петр: «*Каждый оставайся в том звании, в котором призван*» (1 Кор. 7:20), «*Рабы, повинуйтесь господам своим* по плоти со страхом и трепетом, в простоте сердца вашего, как Христу..." (Еф.6:5).

На протяжении всей истории люди воевали друг с другом, и неудивительно, что проблема войны попала в предметное поле философии еще в самом начале ее развития. С древности мыслители задавались вопросами о том, что такое справедливая война, кого можно назвать врагом и какие меры наказания к нему применимы. Сегодня критика военных конфликтов широко распространена среди людей, однако человечество проделало длинный

путь, чтобы осознать деструктивное влияние войны.

Различные философы и религиоведы, политические деятели и деятели искусства нередко диаметрально различны в своих подходах к осмыслению сути войны - одни из них восхваляли войну, другие осудили (к примеру, Платон, Мишель де Монтень, Блез Паскаль, Жан-Жак Руссо, Иммануил Кант, Альфонс де Ламартин, Виктор Гюго, Ричард Кобден, Джон Брайт, Махатма Ганди и др.) Вопрос философского осмысления войны, как одного из неотъемлемых качеств человеческого общества, имеет достаточно древнюю историю, поскольку вопрос войны в своих работах затрагивали многие философы. Во многом, в отличии к примеру от философии права или философии познания, военные действия за своим изменчивым внешним выражением, которое определяется прогрессом, буквально скрывают онтологические основы самой войны, которую можно рассматривать и сквозь призму этики и сквозь призму философской антропологии.

Ни одна система понимания социального устройства не смогла сдержать человечество от той бездны, в какую оно упало в период Первой и Второй Мировых войн. От кризиса этой революции не смогла предупредить ни одна система, будь то коммунизм, христианство, марксизм, фашизм, либерализм, не сдержавшие человечество от Второй мировой войны и оказавшиеся неспособными предотвратить войну между Россией и Украиной, которую мы уже сейчас можем рассматривать как начало Третьей Мировой войны. Несмотря на то, что огромные материальные ресурсы уже вовлечены в конфликт, сейчас никто не в силах обосновать примерные сроки окончания этой войны – от двух недель до десяти-двадцати лет. Поскольку здесь есть место политической случайности.

Современное научное знание дает картину будущего, учитывая все возможные варианты развития будущего от трансгуманизма до любой коммунистической теории, от либеральных и консервативных, левых и правых, вплоть до сценария абсолютного идеализма и феноменологии духа по Георгу Вильгельму Фридриху Гегелю и одиннадцатилетних циклов по Александру Чижевскому, сценария конца истории по Френсису Фукуяме и сценария по Юнону Харари с представлением о новой религии – датаизме), оккультных и неовизантийских сценариев по Александру Дугину и т.п,

Наука предлагает различать прогнозы развития общества, учитывая главный порок всех предсказаний на будущее в том, что они строятся на тех тенденциях, которые наблюдаются в современном им обществе (пролонгирование). Так, учитывая тематику религии в киберпространстве, можно представить себе разные алгоритмы развития событий: сам компьютер становится религией либо религия становится приложением к компьютеру. Можно отметить, что существует также своего рода роборелигия – поклонение роботу, согласно Станиславу Левандовскому. Новое поколение информационных войн и прессинг высокотехнологической пропаганды свидетельствуют о том, что XXI в. является мультимедийным веком. Происходит как бы пролонгирование Холодной войны, но уже технологическими средствами, в частности, в виде международной гонки электронных вооружений, сетецентрического оружия, хакерских, информационных, спутниковых и онлайн-войн, киберэкстремизма и е-терроризма.

Война не может быть справедливой или несправедливой, справедливым может быть только мир - такое мнение выразил Патриарх УГКЦ Святослав (Шевчук). «В средние века в богословии существовало понятие справедливой и несправедливой войны. Сегодня в католическом богословии о таком уже не говорят. «Грады» убивают всех, независимо от того, во что верит та или иная жертва и в какую Церковь ходит. Я думаю, пришло время говорить не о справедливой войне, а о справедливом мире», – сказал он (4).

В настоящее происходит глобализация, эсхатологизация, кристаллизация конфликтов, все больше стран включаются в военные процессы и определяются со стороной конфликта, можно констатировать также их американизацию в связи с усилением роли США в современном мире. Религиозные организации, как, например, Римо-католическая церковь, традиционно выступает за диалог между воюющими странами. Все мы знаем, что происходит во время войны, когда привычные и обыденные вещи принимают ужасные, гротескные формы: лишение звания народного артиста, борьба с памятниками, с русской культурой и с

русским языком. Образ противника подвергается дегуманизации и демонизации, оглуплению и многочисленным фейкам (по словам Александра Невзорова, люди превращаются в дебилов), расчеловечению (феномен мародерства с обеих сторон, суды линча) и обесчеловечению (когда граждане берут на себя оценку происходящему). В определенном смысле можно предположить, что в Украине нынче повторяется средневековье, когда большая часть страны пребывает в состоянии осады без света, воды и отопления зимой, без мобильной связи и Интернета, и масштабы злодеяний экспоненциально возрастают, когда граждан последовательно и планомерно стараются лишить информации.

Гибридная война переросла во всестороннюю войну, несмотря на первоначальные латентные ее интенции в значительной степени по причине конфронтации психологических культур. Современная война, модифицировавшаяся из гибридной в полномасштабную, на наш взгляд, отчетливо иллюстрирует и характеризует такие конвергентные процессы современной социальной жизни, как ее эсхатологизация и сакрализация, дегуманизация и демонизация, американизация (американское понимание войны преобладает) и диалог (к которому призывают и пытаются содействовать светские и религиозные деятели разных континентов). Остаются пока неразрешенными проблемы национальных и культурных, религиозных и психологических, экономических и политических, юридических и философских процессов.

Религиозно-политические отношения в Украине очевидно модифицируются благодаря пандемии COVID-19 и русско-украинской войны, и из-за перечисленных причин религия в Украине стала иной. Значительным образом переход религиозных отношений в Украине в онлайн осуществился еще до войны, в пандемичный период – важно констатировать, что эти сформировавшиеся онлайновые формы существования религиозных организаций очевидно актуализировались во время войны. Война значительным образом повлияла на религиоведение, бросив его из огня да в полымя, поскольку вызов сначала ковида, а потом войны в значительной степени мультиплицировал бифуркационные вызовы украинского общества в целом и религиоведческой науки в частности (5).

Соответственно, чем больше политические цели приобретали значение, тем больше «политизированным» становилось и само ведение войны: возрастала роль информации в ведении войны. Современная информационная эпоха (условно говоря, эпоха постмодерна), также имеет свою теоретическую концепцию войны, которую вполне уместно назвать философией войны. Эта новая концепция ведения войны получила название в популярной литературе «сетецентричная война» - соответственно, информационная война полностью интегрируется в методы и средства ведения военных операций. Война в Украине – это один из величайших вызовов международному порядку, основанному на Уставе ООН. Кроме того, она вызвала мировой кризис: из-за скачков цен на продукты питания, энергию и удобрения пострадали 74 развивающиеся страны с общей численностью населения 1,2 миллиарда человек. Об этом заявил глава ООН на заседании Совета Безопасности по Украине (6).

Во время войны представители украинского религиоведения, как и ученые других научных специальностей, продолжая свои гуманитарные изыскания, естественно уделяют много времени и внимания изучению проблем, вызванных активной фазой российской агрессии, активно включаясь в изучение вопросов и констатацию разрушительных акций относительно культовых зданий. По информации Государственной службы Украины по этнополитике и свободе совести, с 24 февраля по 20 сентября 2022 года по меньшей мере 270 религиозных сооружений в 14 областях Украины были полностью разрушены или подверглись разрушениям разной степени в результате вооруженного нападения России. Среди них: церкви и мечети, синагоги и молитвенные дома, семинарии и Залы Царства, образовательные и административные здания религиозных общин Украины (7).

Следует отметить актуализацию теоретических вопросов военно-политического характера среди современных украинских религиоведов и богословов о сути справедливой войны. Симптоматично, что украинские религиоведы нередко ощущают свою деятельность как миссию Украины во время войны, подразумевая донесение правды о религиозной жизни, анализ ее в условиях военного времени. Среди важных и требующих особенно пристального теоретического

рассмотрения – вопрос деятельности украинского религиоведения во время войны. Можно отметить спектр вопросов в данном контексте, задаваемых теологами всех времен, от Пап Римских до украинских богословов – что такое справедливая война? Религиоведческое сообщество рассуждает о возможностях помощи военным в военное время, как и о переходе общин из УПЦ в ПЦУ во время войны. Особенности религиозной жизни страны, связанные с COVID-19, нами уже обсуждались (8), поэтому хотелось бы отметить только особенности религиозной жизни в Украине во время активных военных действий со стороны России (9). Украинские религиоведы в целом твердо заявили свою позицию, осуждающую агрессию – в том числе, отделение религиоведения Института философии Национальной академии наук Украины.

В качестве заключения можно было бы отметить, что судьба религии значительным образом идет во след войны и победа украинской свободы совести зависит от победы в войне. Важно акцентировать на том, что россияне везде, где появляются, прекращают свободное отправление религиозных ритуалов (у них запрещены деятельность ряда религиозных организаций, среди которых: Свидетели Иеговы, пятидесятники, сайентологи и пр.). Где появляется РФ, прекращается свобода совести – так, в Крыму были закрыты храмы ПЦУ. Если взять пример других вероисповеданий, как известно, мусульмане Украины довольно компактно проживали в Крыму и Донецкой области – как можно догадаться, свобода вероисповедания на оккупированной территории в значительной степени нарушена, то же относится и к представителям других конфессий и религий – от католиков и протестантов до буддистов и иудеев. Многие религиозные сооружения Украины значительным образом пострадали от российского вторжения в Украину. Можно сформулировать следующее предположение: с продолжением военных действий будет увеличиваться количество верующих, стремящихся порвать общение с РПЦвУ и УПЦ МП.

Сложно переоценить влияние военно-политической тематики на современную религиозную действительность. Следует обратить внимание, какие темы актуализировались во время самой войны – темы конференций едва ли не по всем наукам оказались связаны с войной и военным положением, осмыслением вызовов войны, проблематикой религиозной жизни военного времени, волонтерской и гуманитарной помощью, сотрудничеством религиозных организаций. Религиоведы, религиозные деятели, религиозные общины логично стали сосредоточивать свое особенное внимание на религиозно-политической тематике как в теоретическом аспекте, так и в сугубо практическом. Так, некоторые из них пошли на войну, подписав контракт с вооруженными силами Украины, оказывают помощь военным, занимаются всевозможной филантропической, волонтерской деятельностью и социальной работой.

Изучая положение религиозных организаций на оккупированных территориях, проблемы свободы совести в Украине, движение перехода общин из УПЦ в ПЦУ, гуманитарную деятельность религиозных организаций, некоторые члены Украинской ассоциации религиоведов принимают непосредственное участие на фронте в боевых действиях, ведут активную просветительскую работу в СМИ. Проводятся конференции, совместные мероприятия как с членами Украинской ассоциации религиоведов, так и с представителями религиозных организаций - можно вспомнить, как до войны осуществлялся цикл встреч с главами религиозных организаций. Как и все украинцы, религиоведы Украины желают скорейшей победы нашим войскам, стойко переносят трудности, продолжают преподавание в академических учреждениях, в том числе, в условиях воздушных тревог.

## ЛИТЕРАТУРА


1. *Лихтенштейн Е.* Слово о науке. - М.: «Знание», 1976. - С.117
2. Философы. Бердяев Николай Александрович http://intencia.ru/Filosof-view-1.html
3. Силовики, чиновники и бизнесмены все чаще берут в покровители святых https://www.newsru.com/religy/06apr2007/newiz.html
4. Прийшов час говорити не про справедливу війну, про справедливий мир, - Глава УГКЦ https://risu.ua/priyshov-chas-govoriti-ne-pro-spravedlivu-viynu-pro-spravedliviy-mir-glava-ugkc_n78470

5. Война в Украине и религия https://www.golosameriki.com/a/religion-and-war/6776957.html
6. Global impact of the war in Ukraine: Billions of people face the greatest cost-of-living crisis in a generation https://news.un.org/pages/wp-content/uploads/2022/06/GCRG_2nd-Brief_Jun8_2022_FINAL.pdf
7. Россияне с начала вторжения разрушили и повредили в Украине 270 религиозных сооружений https://www.ukrinform.ru/rubric-society/3577212-rossiane-s-nacala-vtorzenia-razrusili-i-povredili-v-ukraine-270-religioznyh-sooruzenij.html
8. Добродум О.В., Мартинюк Е.І., Никитченко О.Е. Релігійні організації та політика в Україні в період пандемії Covid-19 // Вісник Львівського університету. Серія філос.-політолог. студії. 2022. -Випуск 40. – С.58-64
9. Добродум О.В., Мартинюк Е.І., Никитченко О.Е. УПЦ (МП) в умовах воєнного часу // Перспективи. Соціально-політичний журнал. - 2022.– № 2. - С.115-122


## XÜLASƏ


**Dobrodum O.V., Martınyuk E.İ.,**
**Nikitçenko Y.E.**


## ÇAĞDAŞ MÜHARİBƏNİN OBRAZI: DİNŞÜNASLIQ ASPEKTİ


Bu məqalə Rusiya-Ukrayna müharibəsinin dini baxımdan mənalandırılmasına həsr olunmuşdur. Hərbi-siyasi mövzunun müasir dini gerçəkliyə təsirini dəyərləndirmək çətindir; prakitiki olaraq bütün elmlər üzrə konfransların mövzusu müharibə və hərbi vəziyyət, müharibənin yaratdıqlarının dərk olunması, hərb dövründə dini həyat məsələləri, könüllülük və humanitar yardım, dini təşkilatların əməkdaşlığı ilə bağlıdır. Məlumdur ki, müharibənin dini aspekti olduğu kimi, sosial-antropoloji, sosial-psixoloji, tarixi-mədəni, siyasi və siviliziasiya aspektləri də vardır. Müharibə fəlsəfəsinin bir sıra aspektləri fəlsəfə tarixi, siyasi fəlsəfə, beynəlxalq münasibətlər və hüquq fəlsəfəsi ilə kəsişir. Dünya intellektualları və filosofları həmrəylik əlaməti olaraq Ukraynaya dəstək məqalələri yazırlar: müasir dünyanın bir çox məşhur filosofları öz mövqelərini artıq bildirmişlər.



***Açar sözlər:*** *çağdaş müharibə, Ukrayna, obraz, müharibə fəlsəfəsi, dini siyasi münasibətlər*


## SUMMARY


**Dobrodum O.V., Martinyuk E.I.,**
**Nikitchenki Y.E.**


## THE IMAGE OF MODERN WARFARE: THE RELIGIOUS ASPECT


This article deals with to the religious perception of the Russian-Ukrainian war. It is difficult to overestimate the influence of military-political topics on modern religious reality - the topics of conferences in almost all sciences turned out to be related to war and martial law, understanding the challenges of war, issues of religious life in wartime, volunteering and humanitarian assistance, cooperation of religious organizations. It is apparent that as well as religious aspects wars also have socio-anthropological, socio-psychological, historical, cultural, political and civilizational aspects. Some aspects of the philosophy of war intersect with the philosophy of history, political philosophy, international relations and the philosophy of law. As a sign of solidarity, world intellectuals and philosophers write columns in support of Ukraine - many famous philosophers of our time have already expressed their position.



***Key words:*** *modern war, Ukraine, image, philosophy of war, religious and political relations*

---

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 67-71
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 67-71
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 67-71

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**ELMAN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*abasov_elman@mail.ru*
**RƏŞAD ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*allahverdiyevrasad@gmail.com*

**UOT. 342.**

## HADİSƏ YERİNİN MÜAYİNƏSİ ZAMANI AŞKAR EDİLMİŞ MİKROOBYEKTLƏRİN GÖTÜRÜLMƏSİNİN TEXNİKİ-TAKTİKİ ÜSULLARI

*Cinayətin və cinayətkarın izlərinin tapılması həm kriminalistik texnikanın, həm də istintaq taktikasının vəzifəsidir. Məqalədə hadisə yerinin müayinəsi zamanı aşkar edilmiş mikroobyektlərin götürülməsinin texniki-taktiki üsulları araşdırılmışdır. Təcrübədən əldə olunan biliklər hadisə yerinin mühafizəsində, müayinəsində və təqdiqat obyektlərinin əldə olunmasında qanunvericiliyin tələblərinə uyğun olaraq ətraflı öyrənilmişdir.*

*Həmçinin dünya təcrübəsində aparılan araşdırmalar, keçirilən eksperimentlər və gəlinən nəticələr öyrənilməklə yanaşı həm də nümunələr göstərilmişdir.*

***Açar sözlər:** mikroobyekt, taktiki üsul, hadisə yeri, kriminalistik mikrologiya, kriminalistik texniki vasitələr*

Məlum olduğu kimi, cinayətin və cinayətkarın izlərinin tapılması həm kriminalistik texnikanın, həm də istintaq taktikasının vəzifəsidir. Bunlar arasındakı fərq bu məsələnin həllinə yönəlmiş üsul və vasitələrin müxtəlifliyindədir. Əgər kriminalistika texnikası qarşılıqlı təsir obyektlərinin və izlərinin tapılmasında istifadə olunan metodların və texniki vasitələrin xüsusiyyətlərinə əsaslanırsa, istintaq taktikası cinayətkarın fəaliyyətinin modelləşdirilməsinə əsaslanır. Cinayət hadisəsi ilə əlaqədar əmələ gələn, istintaq üçün əhəmiyyət kəsb edən və sübut vasitəsi kimi istifadə olunan izlərin tapılması, qeyd edilməsi və götürülməsi üçün hər şeydən əvvəl hadisə yerinə baxış keçirilməlidir.

Aydındır ki, hadisə yerinə baxış prosessual hərəkət olub, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 236.1-ci maddəsində nəzərdə tutulmuşdur (1, s.247). Cinayət izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyəti olan digər halların müəyyən edilməsi məqsədi ilə müstəntiq hadisə yerinin, binaların, sənədlərin, əşyaların, insan meyidinin və heyvan cəsədinin baxışını aparır.

Cinayətin bu və ya digər yerdə baş verməsindən asılı olmayaraq cinayətin əlamətləri və izləri tapılan yer hadisə yeri adlanır. Cinayətin izləri təkcə hadisə yerində deyil, başqa yerdə də tapıla bilər. Bu mənada hadisə yeri ilə cinayət yeri üst-üstə düşməyə bilər. Məsələn, cinayət hadisəsi küçədə, cinayət aləti isə təqsirləndirilən şəxsin mənzilində ola bilər və s.

R.S.Belkin hadisə yerinin müayinəsinə aşağıdakı kimi dolğun tərif verib: “Hadisə yerinin müayinəsi başqa sübutların məcmusu ilə birlikdə, istintaqı aparılan hadisənin mexanizmi və digər halları haqqında nəticə çıxarmağa imkan verən, hadisə yerinin vəziyyətinin, cinayətin və cinayətkarın izlərinin və digər faktiki məlumatların müəyyən edilməsinə, qeyd olunmasına və tədqiq olunmasına yönəlmiş təxirəsalınmaz istintaq hərəkətidir” (2, s. 42).

Hadisə yerinə baxışın, maddi sübutların tapılmasının və götürülməsinin effekti seçilən taktiki üsullardan, texniki vasitələrdən, müstəntiqin ümumi peşə və təşkilati-texniki hazırlığından asılıdır. Hadisə yerində qalan maddi sübutları, o cümlədən kriminalistik informasiya daşıyıcısı olan mikroobyektləri və mikrohissəcikləri axtarıb tapmaq və götürmək müstəntiqdən, işə cəlb edilən mütəxəssisdən dərin bilik, bacarıq və peşə təcrübəsi tələb edir. Hadisə yerində izləri axtaran müstəntiq və ya mütəxəssis kriminalistikanın işləyib hazırladığı və tövsiyə etdiyi taktiki üsulları və texniki vasitələri tam, düzgün tətbiq etməli, prosessual normanın tələblərinə ciddi riayət etməlidir. Müstəntiq yaxud mütəxəssis ən çətin şəraitdə belə, məsələn, yağışda, küləkdə, qarda, qaranlıqda və s. psixoloji cəhətdən hazır olmalı, öz iş qabiliyyətini qoruyub saxlamalı, diqqətli olmalı, həqiqətin müəyyən edilməsi üçün əhəmiyyəti olan halları və faktları nəzərdən qaçırmamağa çalışmalıdır.

Mikroobyektlər və mikrohissəciklər hadisə yerində müxtəlif predmetlərin, cinayət obyektinin üzərində, cinayətkarın və cinayətin qurbanının paltarında və s. yerdə qala bilər. Mikroobyektlər və mikrohissəciklər təkcə hadisə yerinə baxış zamanı deyil, həm də digər istintaq hərəkətləri, məsələn, axtarış və götürmə zamanı, həmçinin, obyektlərin kriminalistik ekspertizası keçirilən zaman ekspert tərəfindən tapıla bilər.

Hadisə yerində qalan mikroobyektlər, mikrohissəciklər görünmə dərəcələrindən asılı olaraq görünən, zəif görünən və görünməyən obyektlərə bölünürlər. Görünmə dərəcələrindən, mikroobyektin və mikrohissəciyin maddəsinin fiziki xüsusiyyətlərindən, onlar qalan obyektin səthinin rəngindən, quruluşundan, yaranmasından keçən müddətdən asılı olaraq onların tapılmasının və ya aşkar edilməsinin üsul və vasitələri, həmçinin metodları ilə seçilir. Əgər görünən mikroobyektlər və mikrohissəciklər üçün görmə orqanı olan gözlə adi müşahidə kifayətdirsə, görünməyən, zəif görünən mikroobyektlər və mikrohissəciklər üçün isə optiki və digər texniki vasitələrin, metodların tətbiqi lazım gəlir (3, s.145).

İ.F.Krılov mikroobyektlərin və mikrohissəciklərin tədqiqat metodlarından bəhs edərkən aşkaretmə metodlarına vizual metodu da əlavə edir (4, s.67). Lakin onun bu fikri ilə razılaşmaq olmaz. Çünki “vizual” termini görmə orqanı olan gözün iştirakı ilə keçirilən müşahidə metodunu ehtiva edir. Vizual metod bütün hallarda mikrohissəciklərin hansı metodla tapılmasından və ya aşkar edilməsindən asılı olmayaraq müşahidəyə aiddir.

Mikrohissəciklərin tapılması əsasən hadisə yerinə baxış keçirilməsi ilə əlaqədar olub, müstəntiq yaxud, mütəxəssis tərəfindən həyata keçirilir. Bu mərhələ mikrohissəciklərin istintaq mərhələsi adlanır.

Mikrohissəciklərin istintaq tədqiqatı aşağıdakılardan ibarətdir:

1) tapılma metodları;

2) qeyd edilmə metodları;

3) götürülmə metodları.

Obyektiv həqiqətin dərketmə metodu olan müşahidə metodunun mahiyyəti kriminalistik ədəbiyyatlarda digər alimlər kimi R.S.Belkin tərəfindən də izah edilmişdir (5, s.29).

Burada müşahidənin vacib elementlərindən biri diqqətdir. Müstəntiq və ya mütəxəssis baş verən cinayət hadisəsini onun xarakterindən asılı olaraq nəyi, harada və necə axtarmaq lazım gəldiyini bilməli, hər bir obyekti diqqətlə müşahidə etməlidir. Görünən mikrohissəciklərin tapılması üçün sadə müşahidə, yəni vizual müşahidə kifayət edildiyi halda, görünməyən mikrohissəciklərin tapılması üçün texniki üsul və vasitələrin tətbiqi lazım gəlir. Ədəbiyyatlarda elmi-texniki üsul və vasitələrin köməyi ilə keçirilən müşahidəni ixtisaslaşmış və ya mürəkkəb müşahidə adlandırırlar.

Mikroobyektləri tapmaq üçün lupadan, mikroskopdan, zəif görünən mikrohissəciklərin aydın görünməsi məqsədilə yanakı işıqlandırmadan, rəngarəng səthlər üzərində olan mikrohissəcikləri aşkar etmək və ya onun seçilməsi fondan və iz maddəsinin rəngindən asılı olaraq işıq süzgəcindən ultrabənövşəyi, infraqırmızı şüalanmadan və s. istifadə edilməsi məqsədəmüvafiqdir [3, s.143].

Baxış keçirilən zaman tapılan bütün mikrohissəciklər baxış protokolunda qeyd edilir. Baxış protokolu təsvir və ölçmə metoduna müvafiq olaraq tərtib edilir. Baxış protokolu sonradan sübutetmə vasitəsi kimi çıxış edən mikrohissəciklər haqqında informasiyanı bütünlüklə özündə əks etdirməlidir

(3, s.146). Bunun üçün hadisə yerinə baxış protokolunda mikrohissəcik qalan yerin, predmetin yerləşmə yeri, ölçüləri, səthinin xarakteri və quruluşu, tapılan mikrohissəciklərin sayı və növü, qaldığı obyekt üzərində və hadisə yerindəki digər obyektlərə nisbətən yerləşmə vəziyyəti, mikrohissəciyin forması, ölçüsü, səthinin quruluşu və s. qeyd edilməlidir. Baxış protokoluna mikrohissəciklər, onların tapıldığı yer və mikrohissəciklərin qarşılıqlı yerləşmə vəziyyətini özündə əks etdirən xüsusi plan və çertyojlar da əlavə oluna bilər.

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 236.6 və 236.8-ci maddələrinə müvafiq olaraq mikrohissəciklərin qeyd edilməsinin başqa bir üsulu onların fotoşəklinin çəkilməsidir. Mikroobyektdə olan informasiyaların fotoşəkildə kifayət qədər tam əks olunması üçün aşağıda qeyd olunan bir sıra şərtlərə əməl edilməlidir:

- sındırılmış maneənin, onun ayrı-ayrı hissə və detallarının qeyd edilməsi məqsədi ilə fotoşəkil çəkmənin xüsusi üsullarının panoram, icmal, istiqamətləndirici, müfəssəl fotoşəkilçəkmə və s. seçilməsinin, tətbiq edilməsinin zəruriliyi və məqsədəuyğunluğu haqqında məsələnin həll edilməsi;
- mikroobyektlərin yanında ölçü masştablarının yerləşdirilməsi;
- fotoşəkildə aydın görünmə ehtimalı olan kiçik ölçülü izlərin xüsusi işarələrlə - oxlarla və digər köməkçi vasitələrlə göstərilməsi;
- izin qaldığı obyektlə götürülməsi mümkün olmayan mikrohissəciyin masştabla müfəssəl fotoşəklinin çəkilməsi (1, s. 248-249).

Mikroobyektlərin və mikrohissəciklərin tədqiqi, tədqiqatın subyektinə görə istintaq tədqiqatına və ekspert tədqiqatına bölünür. İstintaq tədqiqatı ilkin tədqiqat olub, tədqiqatın əsas subyekti isə müstəntiqdir.

Cinayət hadisəsi yerində mikroobyektlərin aşkar olunduğu andan kriminalistik istintaq tədqiqatı başlanır. İlkin kriminalistik tədqiqatın əsas vəzifəsi cinayət hadisəsi yerindəki mikroobyektlərin tapılması, qeyd edilməsi, götürülməsi, qablaşdırılması, mikrohissəciklərin və onların hadisə yerindəki vəziyyətinin öyrənilməsindən ibarətdir. Hadisə yerinə baxış zamanı mikrohissəciklərin ilkin tədqiqatı həm cinayətin açılması üçün operativ məlumatlar almaq, həm də tapılan mikrohissəciklərin bilavasitə cinayət hadisəsinə aidiyyatı olub-olmadığını və eyniləşdirmə üçün yararlı olub-olmaması məsələlərini həll etmək məqsədi ilə keçirilir. Mikroobyektlərin və mikrohissəciklərin ilkin tədqiqatını keçirmək üçün müstəntiqlər və ekspert kriminalistlər üçün nəzərdə tutulan xüsusi elmi-texniki vasitələr dəstinə daxil olan aparatlardan, qurğulardan, alətlərdən və s. istifadə etmək olar.

Qeyd edək ki, izlərin ilkin tədqiqatının müvəffəqiyyəti elmi-texniki vasitələrin düzgün seçilməsi və düzgün tətbiqi ilə bilavasitə əlaqədardır. İlkin tədqiqatda obyektlərin korlanması və məhv edilməsi ilə əlaqədar olmayan tədqiqat metodundan fiziki metoddan, habelə empirik metodlar olan müşahidə, ölçmə, təsvir və müqayisədən istifadə olunmalıdır. Mikroobyektlərin və mikrohissəciklərin ilkin tədqiqatının müvəffəqiyyətinin başqa bir şərti müstəntiqlə mütəxəssisin fəaliyyətinin qarşılıqlı olmasıdır. Bu cür qarşılıqlı əlaqə tapılan mikrohissəciklərin və bütövlükdə hadisə yerinin düzgün qiymətləndirilməsinə, düzgün tədqiqat metodları seçməyə kömək edir. Həmçinin müstəntiqin və mütəxəssisin qarşılıqlı fəaliyyəti cinayətin mexanizmi və cinayətkarın şəxsiyyəti haqqında fərziyələr qurmağa və onu yoxlamağa kömək edir.

Mikrohissəciklərin ilkin tədqiqatı, yəni onların tapılması, qeyd edilməsi, götürülməsi, qablaşdırılması və s. ilə əlaqədar müstəntiqin qarşısında duran vəzifələri aşağıdakı qaydada müəyyən etmək olar:

- hadisə yerinə baxışdan qabaq elmi-texniki və təşkilati hazırlıq işlərinin görülməsi;
- hadisə yerinə və maddi sübutlara baxış metodlarının seçilməsi;
- aşkar olunan mikroobyektlərin və mikrohissəciklərin adı, növü, forması, tapıldığı yerin, ölçülərinin müəyyən edilməsi;
- mikrohissəciyin qaldığı obyekt üzərində və digər obyektlərə münasibətdə yerləşmə vəziyyətinin müəyyən edilməsi;
- mikrohissəciklərin sayı və onların eyniləşdirmə tədqiqatı üçün yararlı olub-olmamasının aydınlaşdırılması;

- üzərində mikrohissəcik qalan obyektin materialı və onun səthinin quruluşunun öyrənilməsi;
- mikrohissəciyin qeyd edilməsi (baxış protokolunda, fotoşəkilçəkməklə və s.) üçün texniki hazırlığın aparılması;
- mikroobyektin və mikrohissəciyin götürülmə üsulunun müəyyən edilməsi;
- ekspertiza tədqiqatına göndərilməli olan maddi sübutların qablaşdırılma qaydalarının müəyyənləşdirilməsi.

Predmetlərin üzündən toxunma lifləri götürmək üçün bir sıra alətlərdən o cümlədən, yapışqanlı plyonka materiallardan istifadə olunur. Alət kimi pinset, neştər, iynə lansetdən istifadə olunur. Liflərin itirilməsinə yol verməmək üçün alətlərin işlədilən ucları su ilə və ya su qliserin qarışığı ilə isladıldıqdan sonra bütün bunlar barədə protokolda lazımi qeydlər aparılır. Toxunma lifləri götürmək üçün ən effektlisi adgezion plyonka materialıdır. Onların tətbiqinin üstünlüyü ondadır ki, bu vaxt liflərlə birlikdə onlara təsadüf edilən mikroobyektlər də götürülür. Götürülmüş liflər bilavasitə plyonkanın üstündə ilkin olaraq mikroskopik tədqiqatdan keçirilə bilər. Nəzərə almaq lazımdır ki, hər hansı yapışqanlı plyonka liflərin götürülməsi və fiksasiyası üçün istifadə oluna bilməz, çünki o qoyulan tələblərə cavab verməlidir. Məsələn, üzərində liflər olan predmetlərin səthinə yapışmalıdır; liflərin tam götürülməsini təmin etməlidir; liflərin və onların boyalarının xüsusiyyətlərinə təsir etməməlidir. Elə optiki xüsusiyyətlərə malik olmalıdırlar ki, liflərin bilavasitə plyonkanın üzərində mikroskopik tədqiqini təmin etsinlər. Bunlardan əlavə liflər ehtiyatla, zədələnmədən plyonkanın yapışqanlı üzündən ayırmalıdırlar. Bütün bu tələblərə Almaniyada istehsal olunmuş yapışqanlı “PREPA” markalı lent və təkrarlı mühafizə olunan xüsusi qatlı yapışqanlı plyonkalar cavab verirlər. (6, s.248). Gündən-günə inkişaf edən kriminalistik texnika sayəsində ola bilsin ki, gələcəkdə daha da səmərəli texniki-kriminalistik alət və vasitələrdən istifadə olunacaq.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: Hqquq Yayın Evi, 2022, 640 s.
2. Белкин Р.С. Репортаж из мастерской следователя. М.: 1998.
3. Kriminalitika, dərslik. (B.Əliyevin məsul redaktorluğu ilə). Bakı: Qanun, 2010, 752 s.
4. Крылов И.Ф. В мире криминалистики. Л., 1980.
5. Белкин Р.С. Эксперимент в следственной, судебной и экспертной практике. М.: 1964.
6. Аверьянова Т.В., Белкин Р.С, Корухов Ю.Г. Криминалистика. Учебник. М: Инфра-М, Норма, 2017. 928 с.


## SUMMARY

**Elman Abbasov, Rashad Allahverdiyev**

## TECHNICAL AND TACTICAL METHODS FOR REMOVING MICRO-OBJECTS DETECTED DURING INSPECTION OF THE INCIDENT SCENE

The search for traces of a crime and a criminal is the task of both forensic technology and investigative tactics. The article explores the technical and tactical methods of removing micro-objects detected during the inspection of the scene. The knowledge gained from the experience was studied in detail in accordance with the requirements of the legislation in the field of security of the scene, inspection and seizure of objects of investigation.

In the article, in addition to the studies of world experience, the experiments carried out in this field and the study of the results obtained, examples are also given.

***Key words:*** *micro-object, tactical technique, scene of incident, forensic micrology, forensic technical means.*

**РЕЗЮМЕ**

**Abbasov Elman, Аллахвердиев Рашад**

**ТЕХНИКО-ТАКТИЧЕСКИЕ МЕТОДЫ УДАЛЕНИЯ МИКРООБЪЕКТОВ, ОБНАРУЖЕННЫХ ПРИ ОСМОТРЕ МЕСТА ПРОИСШЕСТВИЯ**

Поиск следов преступления и преступника является задачей как криминалистической техники, так и следственной тактики. В статье исследованы технико-тактические приемы удаления микрообъектов, обнаруженных при осмотре места происшествия. Знания, полученные на опыте, были подробно изучены в соответствии с требованиями законодательства в области охраны места происшествия, осмотра и изъятия объектов расследования.

Помимо изучения проведенных исследований в мировом опыте, также были показаны примеры, проведенных опытов и результатов.



***Ключевые слова:*** *микрообъект, тактический метод, место пракществия, криминалистическая микрология, криминалистические технические средства.*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 72-77
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 72-77
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 72-77

**QƏHRƏMAN BEHBUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*gahramanbehbudov5@gmail.com*

**UOT: 342.7.**

# HÜRUFİLİK İDEYALARININ AZƏRBAYCANDAN KƏNARDA YAYILMASI VƏ MÜXTƏLİF FİKİR CƏRƏYANLARI İLƏ QARŞILIQLI ƏLAQƏSİ

*Məqalədə hürufilik hərəkatının öz ictimai-siyasi mahiyyətinə görə çox həqiqət yönümlü, pozitiv ilahi bir ideologiya olmasından danışılır. Onlar bu inancın əsasında zülmkarlığın və qəddarlığın əleyhinə mübarizə aparırdılar. Hürufilik insani dəyərlərə görə ədalətli yaşayışı və bərabərliyi həm maddi və həm də mənəvi cəhətdən ictimai-iqtisadi hayatda ali dərəcədə tələb edir. Onlar həmişə haqq və həqiqət yolunda əzabkeş olublar va ictimai həyatda ədalətin bərqərar olmasına çalışmışlar. Hürufilik ideologiyasında mövcud fikir va baxışların tarixi təhlili, bu nöqteyi nəzəri sübut edir ki, hürufiyanə inanc va təfəkkür neçə yüz illiklər öncədan və çox pərakəndə surətdə alimlər, ariflər, filosoflar, millətlər və xalqlar arasında qeyri müəyyən halda yayılmış və mövcud olmuşdur. Hürufilik hərəkatının rəhbərləri və ideoloqları birinci dini-etiqadi təşkilat olaraq bu təfəkkürü, pərakəndəlikdən qurtararaq, onu çox əhatəli və davamlı şəkildə, bir hürufi-fəlsəfi və dəyərli ideoloji formaya gətirmiş, onu ümumbəşəri səviyyədə ictimaiyyətə, millətlərə, bəşəriyyətə müqəddəs bir ideologiya kimi təqdim etmişdilər.*

***Açar sözlər:*** *hürufi, hürufilik hərəkatı, Azərbaycan, insan, cərəyan, ideologiya, arif, Nəimi, Nəsimi*

XIII-XIV yüzilliklərdə Azərbaycanda dünyəvi elmlərin, mədəniyyətin inkişafı və bununla əlaqədar dünya müsəlman ölkələri ilə yanaşı Qərbi Avropa dövlətlərinin də Azərbaycana çoxtərəfli marağının artması hürufiliyin yaranmasının, inkişafının əsas zəminlərindən biri olmuşdur. Hürufilik mühüm fikir və yüksək ideya-inanc cərəyanı olmaq etibarı ilə bir siyasi-hüquqi ideologiya kimi meydana gəlmiş, az müddət keçmədən Azərbaycanın hüdudlarını aşaraq Yaxın və Orta Şərq, Qərb ölkələrində yayılmaqla geniş vüsət almışdır.

Fəzlullah Nəiminin qətlindən sonra, hürufilər çox sərt təqiblərə məruz qalırlar. Onlar alimin vəsiyyətinə görə ətraf ölkələrə dağılır. Gizli şəkildə Fəzlin ideyalarını və hürufiliyi yaymağa başlayırlar. Çoxlu mənbələrdə Nəiminin şəhadətindən sonra onun xəlifələrinin sayının bəzən yeddi və ya səkkiz, bəzi mənbələrdə doqquz və hətta on beş nəfər də qeydə alınıbdır. Amma belə nəzərə gəlir ki, bütün mənbələrdə dörd nəfərin xəlifə olması barədə fikir birliyi vardır. Bu xəlifələrdən biri Əli əl-Əla adı ilə məşhur olan Şeyx Əbülhəsən İsfahanidir. O, Fəzlullahın kürəkəni idi. Alimin şəhadətindən sonra Orta Şərqə gedir və orada hürufilik ayininin təbliğatı ilə məşğul olur. “İsti vanama” kitabının xətti nüsxəsində bu fak təsdiqini tapır. Əli əl-Əla Orta Şərqdə (Türkiyədə) qətl edilir. Alimdən çoxlu hürufilik əsərləri qalmışdır (2, s.185). Fəzlullahın digər xəlifəsi İmadəddin Nəsimidir. O ilk öncə Anadoluya və sonra isə Hələb şəhərinə köçür. Nəsimi 1417-ci ildə Hələb şəhərinin ruhanilərinin saxta məhkəməsinin hökmü ilə faciəli şəhadətə qovuşur və dünyanı heyran qoyur. Kələmulla və onun sonuncu xəlifəsi Mövla Yusuf Fəzlin qızı ilə birlikdə 45 il alimin ölümündən sonra Təbrizdə yaranmış hürufilik hərəkatında 500 nəfər başqa hürufi ilə birlikdə tutulur, edam olunduqdan sonra cənazələrinə od vurub yandırılır (2, s.543).

Hürufiliyin qaldırdığı siyasi-hüquqi ideya, təşkilatlar ilə qarşılıqlı əlaqələri icmalca müxtəlif coğrafi sərhədlərdən ibarətdir.

Fəzlullah Nəiminin edamından sonra Əmir Teymura və onun sülaləsinə qarşı hürufilər tərəfindən üsyanlarla nəticələnir. İlk qiyam 1405-ildə Xorasanda başlandı ki, Əmir Teymurun oğlu Şahrux Mirzə tərəfindən yatırıldı. Bir il ondan sonra Mazandaranda üsyanlar başlayır, bu istiqamətdə Xorasanda hürufilərin rəhbəri Seyid əl-Sədat Əmir al-İshaq fəaliyyətini şiddətləndirir. Onun Fəzlullahın kürəkəni, Məhərrəmnamənin müəllifi, ən mötəbər xəlifələrdən biri kimi adı çəkilir. Tarixçi alim Ş.Səxavi yazır: "Onun müridləri o qədar çox idi və saymağa gəlməz idi. Onlar öz ağ keçədən geyimləri ilə seçilirdilər. Onların fəsadı (siyasi-etiqadi təbliğatları) Heratda və sair vilayətlərdə o qədər artır ki, Xaqan Möinəddin Şahrux onların şəhərdən çıxarılıb qovulmalarına fərman verir. O, xalqı onların əleyhinə qaldırır (3, s.325). Bundan sonra, hürufilik ideologiyasının güclü siyasi-hüquqi təsirinə qarşı bir siyasi reaksiya olaraq Sultan Şahrux bir sıra islahata əl atır. Bu islahat birbaşa – kütlələrin istək, arzuları və tələbatı əsasında idi. Şübhəsiz ki, hürufilik hərəkatı əhali arasında ictimai ədalət ideyasını irəli sürmüşdür. Bununla əlaqədar olaraq, Sultan Şahrux çarəsizlikdən ölkədə işlərinin görülməsi haqqında fərman verdi. Tam ölkədə xeyir və bərəkət rəvan oldu. Dövlət başçılarını məcbur etdi ki, bütün şəhərlərdə və vilayətlərdə yoxsulları yazılı siyahıya alsınlar və hamısının haqqında xeyriyyə tədbirləri görsünlər. Həmçinin sultanın başqa bir fərmanı ilə də ölkə ərazisində varlı və dövlətli adamlara fərman verdi ki, məzlum yoxsulları arayıb-axtarsınlar və onların işlərini səhmana salsınlar (3, s.81). O bütün baş əmirlərə və dövlət orqanlarına təklif etdi ki onlar da, "fağır-miskinlərin dadına çatsın və hətta bir lahzada ehmal etməsinlər" (2, s.81). Amma bununla sona çatmadı, bu tədbirlər heç bir fayda vermədi. Çox keçmədən hürufilər İsfahanda və başqa yerlərdə baş qaldırıb yenə də üsyanlar etdilər. İsfahan Fəzlullahın ilk səfər etdiyi şəhər idi. O, 1358 və 1377-ci illərdə İsfahana səfər etdi. Hər dəfə bir neçə ay o şəhərdə Töqçi məhəlləsində sakin olurdu. O, bu şəhərdə çoxlu müridlər və ardıcıllar özünə cəlb etdi. O öz canişini və birinci xəlifəsi olan Şeyx Əbül Həsən İsfəhanini ilə bu şəhərdə tanış oldu. O ömrünün sonuna qədər alimin qaldırdığı ideyaların yayılmasına var gücü ilə səy göstərir, nahayət Orta Asiyada öz canını bu dəyərli yolda fəda edir. O dövrdə İsfahanın sünni olan yerli əhalisi ilə məskunlaşmış köçəri şiələr arasında həmrəylik hökm sürürdü.

Hürufilər 1434-ci ildə İsfahanda qiyam edirlər və bu qiyama rəhbərliyi Hacı Sörx edir. O, Fəzlullah Nəiminin İsfahandakı ardıcıllarının başçısı idi. Hacı Sörx 1434-çü ildə bir sıra hürufi ardıcılları ilə birikdə bu şəhərdə qiyam edir. Onlar Əmir Əbdülsəmədin Sultan Şahruxun əmirlərindən birinin iki oğlunu öldürürlər. "Əhsənül təvarix"də yazılmışdır: "Qalanın (İsfahanın) əhalisi, onlar ilə müharibəyə girişdilər. Onları tutdular və Hacı Sörxün dərisini soydular" (8, s.202). Çox keçmədən bu hərəkatın davamı Təbrizdə baş qaldırdı.

Sovet şərqşünasları bu hərəkatı dövrün hakim feodal iqtisadiyyatının sosial-iqtisadi va siyasi-hüquqi qeyri-bərabərliyi adlandırırlar. Qaraqoyunlu tayfalarından olan Qara Yusif Miranşahın oğlu Əbubəkir ilə apardığı müharibələrdə Əbubəkir məğlub olur və qaçır, Miranşah bu müharibədə öldürülür. Paytaxtı Təbriz olan Qaraqoyunlu dövləti yaranır. Bunlardan əlavə Qaraqoyunlu hökmdarı sultan Cahan şahın zəfərli yürüşləri onun Heratda əldə etdiyi nailiyyəti bir tərəfdən Cahanşahın feodal ruhanilərin və əyanların ictimai ədalati bərqərar olma təhlükəsi ucbatından hakimiyyətlə hesablaşmağa məcburetmə siyasəti, digər tərəfdən isə hürufilərin sultan Cahan Şaha meylləri artdı.

Kitabi "Mazarati Təbriz"də qeyd olunur: "O övliyaların qəbirləri Təbriz şəhərinin içində qüyulanıb"([9, s.432). O, dövrdə Sorxab dağında bir məczüb (zahid) var idi ki, şəhərə gəlməzdi. Elə bu yaranmış şəraitdə, onun şəhərə gəlməsi təəcübli idi. O şəhərə gəldi və Təbriz üləmalarının içində hörmət sahibi olan Mövlana Nəcməddinin evinə getdi. O çox qəzəbli bir halda dedi ki, həzrəti rəsalətpənah bu gecə mənim yuxuma gəldi və buyurdu ki, get o Nəcməddinə de ki, bu camaatın qətlinin ehkamın versin. Bunlar dini bərbad edənlərdilər. Mövlana Nəcməddin Üskü bu sözü eşidəndən sonra çox ağladı və onların qətlinin ehkamın verdi. Beş yüzə yaxın hürufi öldürüldü və yandırıldı (8, s.363). Beləliklə, sultan Cahanşahın yeganə təsdiq etdiyi mərcəsi və zamanın ən böyük aliminin fətvası ilə hürufilərin qətlinə fərman verildi. O vaxt qətlə yetişən insanlardan biri də Fəzlullahın qızı idi. O, Tabriz hürufilərinin başçısı idi.

Azərbaycan dövlətinin XIV əsrdəki hakimiyyət dairəsinin cənub hissəsində yerləşən Luristan vilayətində Fəzlullah Nəiminin qətlindən sonra bu hərəkatın ideya meydanında yaratdığı ən dərin sosial-iqtisadi və siyasi-hüquqi ideyaların inkişafi, tarixin qaranlıq səhifələrində itib-batmadan sona çatmadı. Çünki, dünya səviyyəli ictimai hərəkat bir şəxsin iqtidarından asılı olmayaraq, bütün insanların sosial-ictimai hərəkatın və xalq kütlələrinin, istismar və istibdad əleyhinə apardıqları qüdrətli qurtuluş müharibələrinin inkar olunmaz təcəllisidir. Belə ki, bu hərəkatın rəhbərlərinin ölümündə güclü ictimai dalğalar dayanır və onunla da tarixi hərəkatlar yaranır.

Bu ali dərəcəli hürufi etiqadına malik olan Luristan vilayətinin hürufiləri də bəzən, zaman kəsiyində qəflətən öz siyasi-ictimai məsləhətləri əsasında çox sərt zahiri dəyişikliklərə məruz qalırdılar. Bu dəyişikliklərin ən mahiyyətlisi səfəvilər hakimiyyətində əmələ gəlmişdi. O dövr hürufilər, səfəvi padşahlarının qəddar işgəncələrinin xofundan çox məharətlə öz inanc və etiqadlarında gözlənilməz və zahiri dəyişikliklər əsasında Əliyə arxalanıb özlərini siyasi-idioloji cəhətdən qorumuşdular. Onlar öz etiqadi üsullarında, üzdən keçmə və aldadıcı bir dəyişikliklər etmişdilər.

Bu yeni salınmış yolda Fəzlullah və yaxud digər hürufi rəhbərlərinin ilahiyyətinə istinad etməkdən əlavə, Əli İbn Əbutalibin cövhəri zatin, xaliqi mütəalin məşiyyət etdiyi iqtidarın əsasın görürdülər. Onlar Şah Fəzlin məqamın unutmadılar. Amma onu Əlidən sonrakı zati haqqın əsası bilib və elan etdilər. Onlar kor mütəəssiblərin əzab-əziyyətinin qarşısın almaq üçün deyirdilər ki, bu Fəzlin yolu, qeyr-əz Fəzlullah-i Nəimidir" (4, s.249).

Ə.M.Saki Luristani yazır: "Hürufilik və nöqtəviliyin əsasını, on alim və ziyalı kişilər qoydular. Amma onu əhli haqq məsləkinə çevirəndə, bir əsrarəngiz halət tapıbdır. Bu yeni məzhəbin rəhbərlərinin tapşırıqları əsasında öz dini etiqadlarının danılmasına nəhayət səy göstərilibdir. Hələ indi də əhli haqqın məzhəbi risaləsi hamıya əlçatan deyil. Yalnız S.Tofiqin "Sərəncam" məqaləsinin bir hissəsində qeyd olunubdur. Əgər, əhli haqq bu məsləkin banisinin Sultan Sühak olduğunu təqdim edir. Amma onlar özləri Şah Fəzli və Şah Xəşini zaman nəzərindən ondan ilkin bilirlər. Onlar deyirlər ki, Şah Fəzl və Şah Cəlaləddin əhli haqqın rəhbərləridir. Ərafət əl-Aşiqinin yazdığına görə Şah Fəzlin süvarilərinin içində Seyid Cəlaladdin Borucerdi onun yeddi və ya səkkiz xəlifəsindən biridir. Əhli haqqın yazdıqları il hürufilərin ideyaları ilə üst-üstə düşür" (1, s.240). İmadəddin Nəsimi də əhli haqqın Şahnamə əsərində zikr olunubdur. Əlbəttə, bir gizli sirr kimi səy edilibdir ki, Nəsiminin-İmadəddin Nəsimi (Seyid Əli) Azərbaycanın böyük hürufi şairi ilə heç nə əlaqəsi yoxdur. Amma Şah Xəşin, Fəzlullahdan sonra həqiqətən rəhbərdir. O elə Luristanda zühür edibdir. Yəqin ki, o, Seyid Məhəmməd Müşəşəi Xüzistaninin övladı idi. İndi də əhli haqq firqələrinin biri özünü Müşəşəi adlandırır (3, s.432). Hürufilik məzhəbinin, əhli haqq şəklinə düşməsi özünü doğrultdu. Bunun idrakı çox böyük zəka tələb edir. Əhli haqq məzhəbinin xürafat cəhətləri hürufiliyin təqdirəlayiq dünyagörüşündən, özünü daha da çox gözə çəkir. Amma hürufiliyin keçmişdən qalmış cürbəcür inamları elə əsrarangiz şübhələr içində qalıblar" (4, s.241). Bir məzhəb bu qədər canından keçən ardıcılları varkən birdən-birə yoxa çıxa bilməz, əksinə o öz gizli dəyişkənliyi ilə özünün qalmasını təmin edibdir.

Fəzlullah Nəiminin ölümündən sonra, onun vəsiyyətinə əsasən, ardıcılları Azərbaycanın dörd bir tərəfinə, xüsusi ilə Bakıya, Şirvana, Təbrizə dağılışdılar ki, öz ideya və inanclarını başqa ölkələrdə də təbliğ edib yaysınlar. O dövr onlara ən yaxın və təhlükəsiz ölkə Osmanlı dövləti idi. Bununla, dini və siyasi ziddiyyətlərlə dolu olan Qaraqoyunlu və Teymuri hakimiyyətinin yaratdığı dəhşətli vəziyyətlərdən çətində qalmaları, Osmanlı ölkəsindəki nisbətən açıq siyasi-məzhəbi atmosferin maraqlılığı, saysız və hesabsız sosial-ictimai, xüsusən mədəni oxşarlıqların mövcud olması, mədəni-siyasi əlaqələrin ağırlığı, Osmanlı ölkəsində müştərək olan firqələr ilə hürufilərin etiqadı-dünyagörüşü və apardıqları müştərək mübarizələrin birliyi və s. üçün hürufilər Osmanlı dövlətinə getməyi üstün tutdular.

Sultan Osman Osmanlı hakimiyyətinin əsasını 1297-ci ildə qoydu. Onlar daim öz hakimiyyətlərinin iqtidarında idilər. Belə ki, 1400-cü ilədək öz hakimiyyətini Konstantinapol (İstanbul) şəhərinə qədər genişləndirdilər. Amma həmin il Əmir Teymurun hücumu, Sultan Bəyazid

və onun oğlunun əsir düşməsi islam dünyasına ağır zərbə vurdu, Konstantinopol şəhərinin fəthini düz əlli üç il geri saldı. Yaranmış vəziyyətdə, islam dünyası təfriqəyə düçar oldu.

Bu gərgin zamanda və Fəzlullah Nəiminin qətlindan əvvəlki dövrdə, iğtişaşlar feodalizmə qarşı hərəkatlar ilə eyni vaxtda Osmanlı ərazisində iki əsas kütləvi hərəkatın yaranmasına şərait yaratdı. Onların birincisi Babilər hərəkatı idi. Babilər hərəkatı ictimai ədalət uğrunda, zülmün, qeyri-bərabərliyin əleyhinə olan və mənəviyyatı təbliğ edən şiə məramlı bir hərəkat idi. Onların əsas məqsədi, sünni etiqadında olan və islam dünyasının düşmənlərini dəhşətə salan səlcuq əşrəflərinin hakimiyyəti əleyhinə qaldırdıqları bir qiyam idi. Baba İlyasın xanəgahında iqtidar tapan Baba İshaq və onun müridləri bu fikirdə idilər ki, Həzrəti Məhəmmad və Həzrəti Əli ruhu ona keçibdir (3, s.107).

Bu hərəkat Sultan Qiyasəddin Səlcuqun fərmanı ilə əzildi. Onun müridləri pərakəndə halda, bəziləri Şeyx Bədrəddin hərəkatına qoşuldu, bəziləri də Hacı Bektaş Vəlinin müridləri sırasına daxil oldular.

Digər qeyd olunan hərəkat Şeyx Bədrəddin Səmavəninin hərəkatı idi. Bu hərəkat dövrün başqa hərəkatları kimi eyni mahiyyətdə yaranmışdı. Bununla əlaqədar olaraq Dr.M.Kamil al-Şeybi yazır ki, naçar deməliyik ki, Babilər hərəkatı öz danışməndiyyə hərəkatının davamı idi (1, s.368).

Hürufilik ideyası və Seyid Fəzlullah Nəiminin təlimi XV əsrin ortalarından başlayaraq çox sürətlə Anadolu ərazisində yayıldı. Özünə ardıcıllar topladı, çoxlu təriqətlərə, o cümlədən Bektaşiyə güclü təsir bağışladı. Bu hərəkata hürufiliyin görkəmli nümayəndələrindən və Fəzlin xəlifələrindən olan İ.Nəsimi və Əli əl-Əlanın çox təsiri olmuşdur. Əli əl-Əla bir rəvayəta görə Fəzlin kürəkəni idi. O, "Kürsinamə" əsərini Anadolunun ərazisində yaymış və hürufilik təfəkkürünün bu ölkədə yayılmasına başlayan ilk şəxs idi (3, s.113). Amma Fəzlullahın digər xəlifəsi İ.Nəsimi ilk əvvəl Anadolunun əksər vilayətlərini gəzmişdir. Çoxlu xəlifələr tərbiyə etmişdi. Böyük şair Rafii onun tərbiyə etdiyi xəlifələrdən biridir. O da öz ustadı (Nəsimi) kimi qətlə yetirilmişdi. Nəsiminin təsiri Anadoluda hürufiliyin yayılmasında digər hürufilərdən daha çox idi. Hətta bu gündə Türkiyə dövlətinin Bektaşiyyələri Nəsimini özlərinin öncülü sayırlar. Ələvilər içərisində də Nəsimi böyük məqam və mövqe sahibidir. Nəsimi Anadoludan Şama və nəhayət Hələb şəhərinə gedərək orada məskunlaşmışdır. O, öz hürufi fikirlərinin təbliğatı nəticəsində, ilk öncə diri-diri dərisi soyuldu və sonra dara asılıb edam edildi.

"Tarixi Osmani"də yazılmışdır: "Hacı Bektaş ilk əvvəl öz qəbiləsində bir başçı idi. Hürufilik firqəsi onu mənimsədi. Onlar bütün hürufilik etiqadını, onun (Hacı Bəktaşi Vəlinin) adından onun şagirdlərinə qəbul etdirirdilər" (9, s.155). Həmçinin Dr. K.Əl-Şeybi yazır: "Hacı Bektaşın ölümündən sonra, onun təriqətinin üsulları ilkin mühacirətindən sonra onlarla qovuşdu və bu günə qədər də davam edir" (2, s.359). Hürufilər Anadolu ərazisində və Bektaşiyyə xanəgahlarında Fəzlin Cavidanı Kabirin öz istəkləri əsasında təbliğ və tədris edirdilər. Onlar keçmişdəki kimi səy göstərirdilər ki, Sultan Mahmud Fatehin sarayına nüfuz etsinlər. Lakin onlar da Anadolu ərazisində elə həmin Heratda, İsfahanda və Təbrizdə olduğu kimi bir taleyə düçar oldular" (9, s.117).

Zahiri surətdə Bəktaşi görünən hürufilər mütləq öz canlarını qorumaq üçün Hacı Bektaşın adını dillərinə gətirirdilər. Çünki, onların nəzərində həm pir və həm də piri yaradan Fəzlullahdır. O, sahibi tavil (yozum) və bəyandır. Hürufilik etiqadına istinadən mərhum Gölpınarlı yazır: "Bir albaniyalı Bektaşidən eşitdim ki, Bektaşilərin içindəki müstəti (varlı) şəxslər, ehram paltarların geyirlər. Bir ilkin həcc meydanında (bəktaşilərin dini ayinlərini icra etdikləri məkan) iki şamın arasında yeddi dəfə gəlib-getməsi ilə hürufi ayininə daxil olurdular" (3, s.36). Sultan Mahmud xanın dövründə hürufilər də, Bektaşilər də Osmanlı dövlətinin qəzəbinə düçar oldular. Onların çoxu bu hadisədə öldürüldülər və xanəgahları viran oldu, əmvalları Nəqşbəndiyyə firqəsinə təhvil verildi. Onların şeyxlərindən və müridlərindan çoxu canını qurtardı. Qaçanlar Nəqibandiyyə, Qadiriyyə, Rəfaiyyə və Sədiyyə dərvişlərinin silkinə daxil oldular (1, s.456). Eduard Braunun nəzərincə, bir bu qədər təzyiqatın nəticəsində zahirən hürufilər və Bektaş şiələr məhv olub getdilərmi? "Bununla belə, şübhəsiz bu ehtimalların və etiqadların çoxu indi də bu ölkələrdə ariflərin içində mövcuddur. Həmçinin hürufiliyin başqa cərəyanlara təsiri hər şeydən çox, mütləq hürufiliyi özünü dərindən tanıyıb dəqiq bilməsindən keçir. Hürufilik və müasir dövrün mövcud şəraitində xəlq olunmuş bu inanc, öz pozulmaz əksini

hürufilikdə, nöqtəvilikdə, səfəvilikdə, babilikdə, heydərilikdə, bəktaşilikdə, qələndərilikdə, xəlvətilikdə və sair əhli haqq firqələrində göstərir. Bununla dərviş Xosrov-Nöqtəviyyə hərəkatının rəhbəri, şah Abbasın dövründə çalışdı ki, onun himayəsini qəbul etsin. Amma Şah Abbas onun və ardıcıllarının qətlinə fərman verdi. Həmçinin Qacarlar hakimiyyəti dövründə Seyid Əli Məhəmməd Bab öz təfsirinin Yusuf surəsini Qəyyüm Əl-asma adlandırdı. Onun 18 nəfər öz müridi Seyid Baba üz tutmuşdu. Bunların hamısı hürufi təfəkkürünün çox əhatəli təsirindən xəbər verən bir faktdır (6, s.209). Bu gün də bu ocağın ideoloji əsaslarla davam etməsinə canlı şahidik.

Hürufi alim va ariflərindən əlavə, hürufi yaxud hürufi meylli sultanlar da az olmayıblar. Bir örnək olaraq Şah İsmayıl Xətainin mövcud şeirləri hürufi təşbihləri, kinayətləri ilə doludur. Hətta bu şair-şahın dünyagörüşü başqa hürufi rəhbərlərinin dini-ideoloji görüşlərindən çox fərqlənmir. Çünki, elə qızılbaş hərəkatı özü hürufilik hərakatının barışmaz bir davamıdır.

Əgər hürufiliyin istinadı hərflərdirsə, nöqtaviliyin əsas rəmzi nöqtəyə aiddir. Bu ideoloji oxşarlıqlar ucbatından, nöqtəvilər də elə hürufilər kimi tapdalanıb və kütləvi qırğınlara məruz qalmışdır. Bəlkə bu ali dərəcəli inanc və etiqadın möminləri Səfəvi hakimiyyətinin siyasi cəhətdən yaratdığı çox sərt təzyiqləri və onların İmam Əliyə çox şiddətli əlaqələrinə görə, bütün hürufilər zahirən ona hörmət edir, amma batində öz inanc və etiqadının əsas üsullarını hifz edərək, öz sosial-ictimai və etiqadi həyatına ləngimədən davam etdirmişlər (7, s.329). Bu iddianı əsas tutaraq, bu qədər hürufi ariflərin qətlinə baxmayaraq, bu təfəkkürün tərəfdarları bütün xalqların və millətlərin içində bu günə qədər də saysız və hesabsızdır.

Hürufilərin böyük əksəriyyəti Azərbaycanda, Türkiyədə Şərqdə və Qərbdə pərakəndə şəkildə öz gizli inanc, etiqadlarını həyata keçirir.

Hürufiliyin ictimai, siyasi-hüquqi cəhətdən zəngin ideya ənənələri xalqların ədəbi inkişafına insan kamalı, insan gözəlliyi haqqında ahəngdar bədii nümunələr gətirmiş, ədəbi inkişafa yeni istiqamət vermişdir. Hürufilik ideologiyasının ölməz irsi Azərbaycan xalqının milli-mənəvi varlığının və böyük ideallarının, duyğu və düşüncəsinin zəngin və tükənməz xəzinəsidir. Azərbaycan xalqı möhkəm milli-mənəvi dayaqlar və davamlı böyük ənənələr əsasında zaman-zaman formalaşma və dirçəliş mərhələləri keçirərək indiki yüksək inkişaf səviyyəsinə gəlib çatmışdır.

## ƏDƏBİYYAT

1. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Bakı: 2007, 132 s.
2. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər (arayış kitabı). Bakı: Azərnəşr, 1997.
3. Cəlilov E. Azərbaycanın dövlət və hüququ (XIII-XIV) yüzillər. Bakı: 1995, 417 s.
4. Eyvazov İ. Siyasi hüquqi təlimlər tarixi. Bakı: 2011, 351 s.
5. Quliyev A. Azərbaycanın siyasi-hüquqi fikrində dövləti idarəetməyə dair ideyalar. Bakı: 2011, 279 s.
6. Məlikova M., E.Bayramov. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerklər). Bakı: 1984,186 s.
7. Nəsimi İ. Seçilmiş əsərləri (tərtib edəni: Araslı H.). Bakı: Azərnəşr, 1963.
8. Şəbüstəri M. Gülşəni-raz (fars dilindən filoloji tərcümə, ön söz və izahlar M.Nağısoylunundur). Bakı: Nurlan, 2005.
9. Gölpınarlı Abdulbaki. Hürufilik metnleri kataloqu. Ankara: 1973.

**SUMMARY**

**Gahraman Behbudov**

**DISSEMINATION OF HURUFISM IDEAS OUTSIDE OF AZERBAIJAN AND THEIR INTERACTION WITH VARIOUS CURRENTS OF THOUGHT**

In the article, the movement of Hurifism has been regarded as reality-oriented, positive divine ideology due to its socio-political nature. It has been noted that on the basis of this faith they fought against tyranny and cruelty. Hurufism requires fair living and equality for human values to a higher degree in socio-economic life, both material and moral. They have always been sufferers on the path of truth and have sought to establish justice in public life. Historical analysis of existing ideas and views in the ideology of hurufism proves that hurufistic belief and thinking spread and existed indefinitely several hundred years ago among scholars, sages, philosophers, nations and peoples. As the first religious organization, the leaders and ideologists of the Hurufism movement reformulated this thinking in a very comprehensive and stable way into a hurufi-philosophical and value-based ideological form, presented it at the universal level as a sacred ideology for the public, peoples, humanity.

***Key words:*** *hurufi, hurufism movement Azerbaijan, human, trend, idea, deology, Naimi, Nasimi.*

**РЕЗЮМЕ**

**Кахраман Бейбутов**

**РАСПРОСТРАНЕНИЕ ХУРУФИЛЬНЫХ ИДЕЙ ЗА ПРЕДЕЛАМИ АЗЕРБАЙДЖАНА И ЕГО СВЯЗЬ С РАЗЛИЧНЫМИ ТЕЧЕНИЯМИ МЫСЛИ**

В статье говорится о том, что движение хуруфизма является очень правдивой, позитивной божественной идеологией в силу своей социально-политической природы. На основе этой веры они боролись против угнетения и жестокости. Хуруфизм в высокой степени.требует справедливой жизни и равенства в соответствии с человеческими ценностями, как в материальном, так и в моральном плане, в социально-экономической жизни. Они всегда страдали на пути справедливости и истины и пытались установить справедливость в общественной жизни. Исторический анализ существующих представлений и взглядов в идеологии хуруфизма, эта точка зрение, которое теоретически доказывает, что вера и мышление хуруфизма распространились и существовали в неопределенном состоянии среди ученых, мудрецов, философов, наций и народов несколько сотен лет назад и в очень неопределённой форме. Руководители и идеологи хуруфического движения, как первой религиозной организации, освободили это мышление от его индивидуальности, придали ему весьма комплексно и устойчиво, в хуруфийско-философскую и ценностно-идеологическую форму и представили его как священное идеологии обществу, народам и человечеству на универсальном уровне.

***Ключевые слова*:** *хуруфи, хуруфистское движение Азербайджан, личность, движение, идея, идеология, ученый, Наими, Насими.*

***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 78-87
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 78-87
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 78-87

**RASİM MƏCİDOV**
*Bakı Dövlət Universiteti*
*mecidov.68@mail.ru*

**UOT: 316**

# İSLAM MİLLƏTÇİLİK İDEYALARININ MÜSƏLMAN "STRATEJİ MƏDƏNİYYƏT" KONSEPSİYASINA TƏSİRİ

*Müxtəlif müsəlman ölkələrində unikal dünya dini sayılan islam dininin, onun fəlsəfəsinin meydana gəlməsini, bəşəriyyət haqqında və universal-ümumbəşəri dəyərlər, ideyalar haqqında təsəvvürləri formalaşdırdığını, bütün bunların islam dininin tərkibində meydana çıxan "strateji davranış" qaydalarını oxucunun diqqətinə çatdırır.*

*Məqalədə milli ideyaların nəzəri doktrinaları, fəlsəfi konsepsiyaların teologiyaya yaxınlaşması, milli identiklik və milli mənsubiyyətin müsəlman ölkələrində inkişaf perspektivləri tədqiq edilmişdi. İslam millətçiliyinin inkişaf etməsində "strateji mədəniyyıt" konsepsiyasının aparıcı mövqeyə çıxması, onun unikal və universal prinsipləri və dini-milli ideyalarının qarşılıqlı münasibətlərinin metodoloji yanaşma prinsipləri bu məqalədə fəlsəfi aspektdən təhlil edilmişdir.*

***Açar sözlər:*** *islam mədəniyyəti, unikallıq, universallıq, strateji mədəniyyət, millətçilik, mədəni müxtəliflik, şəriət, tolerantlıq, teokratiya, qlobal transformasiya*

## Giriş

Yaxın və Orta Şərq müsəlman ölkələrinin müasir inkişaf mərhələlərində xüsusi konsepsiyaların meydana çıxması və onların tədqiqat obyektinə çevrilməsi olduqca aktualdır. İslam dininin unikallığı yalnız onun təkrarsız, fərqli, nadir, özünəməxsus xüsusiyyətlərini əks etdirmir, o həm də bütövlükdə müxtəlif xalqları vahid ideya altında birləşdirən və onların mədəni müxtəlifliyinin tərkib hissəsi olan bir fenomendir. Məqalədə XXI əsrin əvvəllərində Yaxın və Orta Şərq bölgəsində müsəlman dövlətlərində baş verən sosial-siyasi və mənəvi-mədəni proseslərin islam dininin xüsusi mədəniyyət konsepsiyalarının təsiri altında formalaşması prosesi araşdırılan problemin mahiyyətini təşkil edir. Təbii ki, burada həm də sosial-siyasi proseslərin mühüm nəticəsi olan "strateji mədəniyyət" konsepsiyası və onun mahiyyəti, yaranma şərtləri (o cümlədən dinlə bağlı), inkişaf xüsusiyyətləri təhlil olunacaqdır.

İslam və milli ideyalar problemi haqqında bilgilər xalqlararası münasibətlər sistemində bizə bir çox konsepsiyalarla tanış olmaq və Yaxın və Orta Şərq bölgəsində olan dövlətlərin ictimai həyatında dəqiq məlumatlara malik olmaq imkanı verəcəkdir. Son dövrdə bu bölgədə baş verən hadisələr göstərir ki, islam dini bu konsepsiya vasitəsilə mədəniyyət – sivilizasiya sistemindən çıxarılır və çox təhlükəli olan siyasi-ideoloji müstəviyə keçirilir.

Bu kontekstdə Azərbaycan dilində bir çox alim və tədqiqatçıların, o cümlədən R.N.Aslanovanın, İ.R.Məmədzadənin, Ə.Abbasovun, Ə.Abbasovun, S.L.Ağayevin, G.Baxşəliyevanın, K.Bünyadzadənin, A.Əhədovun, R.Əliyevin, A.Əlizadənin, H.Hüseynovun, H.R.İmanovun, A.R.İsazadənin, Ə.R.İzzətbəyoviçin, A.Məmmədovun, V.K.Mustafayevin, R.Mürsəlovun, A.Paşazadənin, H.Orucovun, E.Səmədovun, S.Xəlilovun yaradıcılığı diqqəti cəlb edir. Araşdırılan məsələlər sırasında islamın mənəvi və tarixi əsasları, islam və mədəni müxtəliflik, islam fundamentalizminin mahiyyəti, onun əsas prinsipləri və təzahür formaları, islam təfəkkürünün təsiri xüsusiyyətləri, islamın fəlsəfi, hüquqi və tarixi aspektləri, islam və mənəvi dəyərlər və s. problemlər tədqiq edilmişdir.

Müsəlman dünyasında islam dəyərlər sisteminin yaradılması və inkişafında milli mənsubiyyətindən, dilindən, dinindən və mentalitetindən asılı olmayaraq bir çox etnoslar iştirak

edirlər. Bu mənada dünyanın unikal mədəniyyətinə malik olan islam dininin tərkibində yaranan “strateji mədəniyyət” konsepsiyasının öyrənilməsi müsəlman ideoloqlarına yeni bir sistemin, yeni bir düşüncənin ortaya çıxmasına şərait yaradacaqdır.

Millətçi ideyaların nəzəri doktrinaları, fəlsəfi konsepsiyaları teologiyaya yaxınlaşdıqca milli identiklik və milli mənsubiyyət haqqında islam ölkələrinin əksəriyyətində müxtəlif səpkidə mübahisələr yaranırdı. Bu mübahisələr əksər hallarda “xüsusi mədəniyyət” kontekstində təzahür edir və bütün hallarda islam mədəniyyəti haqqında mübaliğəli diskussiyalara yol açırdı. Lakin xüsusi olaraq qeyd etmək lazımdır ki, bu mədəniyyətin srategiyası və konsepsiyası haqqında çox az məlumat verilmiş, verilən məlumatlarda birtərəfli, bəzi hallarda isə qərəzli xarakter daşımışdır. “Strateji mədəniyyət” konsepsiyası elmi ədəbiyyatlarda daha çox “xalq nəzəriyyəsi” adı ilə formalaşır və bu səbəbdən onun kütlə psixologiyasına potensial təsir vasitələri əhəmiyyətli dərəcədə genişlənirdi. Belə ki, bu mədəniyyət insanların strateji davranış qaydalarının mərkəzində determinant rolunu oynayır və onlarda xüsusilik prinsiplərini apoleqetik səviyyəyə qaldırırdı. Bu nəzəriyyə istənilən müsəlman ölkəsinin daxilində özünə institutlaşdırılmış şərait yaradaraq strateji inkişaf paradiqması ilə hərəkət etmə gücünə malikdir. Digər tərəfdən isə bir çox islam ölkələrində, ilk növbədə Malaziyada, Türkiyədə, İndoneziya və əksər ərəb ölkələrində islamın milliləşdirilməsi “milli” islamın müxtəlifliyinə şərait yaratmış, nəticədə yuxarıda göstərilən konsepsiyanı darmadağın edərək parçalamışdır.

Müasir dövrdə islamçıların daha çox modernləşməyə və sekulyarizmə meyillənməsi islamda mülayimləşmə impulslarının oyanmasından xəbər verirdi. Bu oyanışlar İslam dünyasını yeni identiklik və konseptual vətəndaş cəmiyyətinə doğru aparır və yeni cəmiyyət məhfumlarını meydana çıxarırdı. Bu cəmiyyətlərin İranda – Jamee Madəni, Türkiyədə - Sivil Toplum adlandırılması islam ölkələrinin ziyalı-islahatçı təbəqəsi tərəfindən ciddi müzakirə olunurdu. Lakin əksər islam islahatçıları yeni yaranan vətəndaş cəmiyyətlərini və bu cəmiyyətlərin təməlini təşkil edən mədəniyyət strategiyalarını tamamilə Qərbə bağlamaq istəmir və bunun olduqca təhlükəli olduğunu qeyd edirlər: ”Qərb mədəniyyətini kor-korənə imitasiyası ilə məşğul olanlara etiraz səsləri Qərb mədəniyyətini dərindən bilmək prinsipləri ilə üst-üstə düşür: “özününkünü” yaxşı bilmək üçün “özgəninkini” yaxşı başa düşmək lazımdır. Kim ki, xarici dili bilir o, öz ana dilində düz danışır. Başqa ölkələrin mədəniyyətini bilən insan öz mədəniyyətini, dinini və tarixini daha yaxşı başa düşür” (10, s.100).

İrəli sürülən bu cür konsepsiyalar milli ideyaların formalaşması prosesində, belə desək əksər hallarda müqayisəli mədəniyyət prinsiplərinə nəzər salmaq tələbini ortaya qoyur. Tədqiqat işinin marağındadır ki, İran, Suriya, Pakistan və Türkiyə nümunələrində bu məsələlərin motivasiyası və metodologiyasına qısa da olsa nəzər salınsın. İslam və qərb mədəniyyətləri arasında olan fərq həmin cəmiyyətlərdə yaranan millətçi ideyalarda da özünü göstərmiş və yuxarıda göstərilən müqayisəli mədəniyyət prinsiplərini meydana çıxarmışdır. Biz bu prinsipləri bir neçə kateqoriyaya ayıra bilərik:

• Müxtəlif mədəniyyət elementləri sinkretik ənənələr vasitəsilə islam kosmopolitizminə təsir edir, nəticədə ərəb, fars, türk mədəniyyətlərinin parametrlərində strateji mədəni xüsusiyyətlər yaranır;

• İslam etikası öz istinadını fərdi məsuliyyətə və sosial ədalətə etməklə bütün milli sistemli və millətçi ideyaların mövcud olduğu ölkələrdə islam demokratiyasının ilkin rüşeymlərini yaradır;

• İslam müəyyən olunmuş demokratik elementlərə malikdir və parlament proseduralarında plürealistik demokratiyaya üstünlük verir; (8)

• İslam dini ərəb, fars, türk, hind, mərkəzi və kiçik Asiya mədəniyyət sistemlərinə incəsənətin və ədəbiyyatın geniş mədəni arxitekturasını yaratmaq imkanlarını verir və çoxşaxəli, zəngin mədəniyyət sistemini gerçəkləşdirir;

• İslam mədəniyyəti konsensus əsasında milli həmrəylik yaradaraq müxtəlif mədəniyyətlərin plürealistik cəmiyyətini quraraq onların birgə fəaliyyətinə şərait yaradır. Nümunə kimi 1998-2007 illərdə İranda gənclərin bu kontekstdə “vətəndaş cəmiyyəti” yaradaraq islam strukturlarına yerləşdirməsi cəhdləri və bu cəhdlərin 2004-cü ildə mühafizəkarların hakimiyyətə gəlməsi ilə dayandırılması prosesi qeyd oluna bilər;

• İslam identikliyi öz daxilində Qərbin liberal dəyərlər konsepsiyalarından fərqli olaraq insan hüquqlarının xüsusi universal parametrlərini yaratmış, sosial ədalət, insan ləyaqətinin və irqlər, xalqlar bərabərliyinin təminatçısına çevrilmişdir;

• İslam düşüncəsi iqtisadi hüquq, sosial ədalət və mədəni legitimli konsepsiyalarını insan təffəküründə balanslaşdırır, hərəkət etdiyi mühitə uyğun mədəniyyət reallıqları ilə əlaqələndirmə prinsiplərinə ciddi riayət edir.

Bu prinsiplərin hər biri ayrı-ayrılıqda islam millətçiliyi ideyalarının formalaşmasına və milli ideya mədəniyyətinin yaranmasına xidmət edir. Lakin sual oluna bilər ki, ümumilikdə mədəni davranış qaydaları, milli ideyalar və milli dövlətin strategiyası millətçi ideyaların formalaşması prosesində öz predmetini hansı dəyərlərə əsaslandırır. Əlbəttə ki, bu konsepsiyalar əsrlər boyu formalaşan milli ədəbiyyat, milli dil və milli identiklik prinsiplərinə söykənir və xalqın strateji mədəniyyətini müəyyən edir. 1970-ci illərdən başlayaraq bir çox nəzəriyyəçilər mədəniyyətin ideya köklərinin müəyyən olunması prosesində fəlsəfi, sosioloji və psixoloji nəzəriyyələrin əsas rol oynamasını qeyd edirdilər. İrəli sürülən konsepsiyalar əsasən antropoloji, sosioloji və psixoloji sahələri əhatə edir və tarixi-fəlsəfi paradiqmaları simvollaşdıraraq insanların yaddaşında milli-mədəni aspektlərlə həkk edilirdi. Bu məqamda ayrı-ayrı sahələr olmasına baxmayaraq antropologiya ilə politologiya elmi əsasən üst-üstə düşür və bu əsasda millətçi ideyalarda təkamül proseslərinə ilkin təkan verilir. Bu səbəbdən antropoloji ideyalarla zənginləşən millətçilik ideyaları islam dininin kosmoloji ideyaları ilə çox asanlıqla “dil tapır”. Nəticədə milli və dini mədəniyyət nəzəriyyələri öz diqqətini konkret olaraq geniş, çətin və məsaməli mədəniyyət konsepsiyaları üzərində cəmləşdirir. Digər tərəfdən mədəniyyət anlayışı öz təhlükəsizliyini təmin etmək naminə özünü strateji mövqeyə çıxarır və tarixi-milli və fəlsəfi təcrübələrə istinadən milli dövlət konsepsiyalarına ali xarakter vermək gücünü qazanır (3, s.152).

Beləliklə, dövlətin koqnitiv yadasalma, öyrənmə, yaradıcılıq, təşkiletmə, əsaslandırma, iradə, inam və s. keyfiyyətlərinə əsaslanan strateji mədəniyyət konsepsiyaları fəlsəfi, sosial-siyasi ideyaların təsiri altında xüsusi idarəetmə prinsiplərini yaradır və bu prinsiplərə əsaslanan yeni elita formalaşdırır. Lakin əksər hallarda strateji mədəniyyət konsepsiyası cəmiyyətdə mövcud olan daxili qüvvələrin mübarizəsi, elitalararası rəqabət və elita – cəmiyyət münasibətlərinin üfüqi mübarizə qövsünü yaradır. Bu kontekstdə Pakistan dövlətinin strateji mədəniyyətinə nəzər saldıqda aydın olur ki, milli identiklik böhranı ilə üzləşən bu dövlət özünü eyni millətli müsəlman dövləti və yaxud islam dövləti saya bilmir.

Qərarlaşan reallıq son altmış ildə bu dövlətin inkişaf strategiyasında müxtəlif istiqamətlər yaratmışdır. Ən məqbul sayılan istiqamət müsəlman millətçiliyi hesab olunmuş və Pakistan dövlətinin yaradıcısı Məhəmməd Əli Cinnənin (1876-1948) adı ilə bağlanmışdır. 1940-cı ildə Müsəlman Liqası partiyasını yaradan Cinnə Pakistanı müsəlman dövləti kimi görmək arzusunda olmuş və islam strateji mədəniyyət konsepsiyalarından geniş istifadə edərək 14 avqust 1947 ildə buna nail olmuşdur (15). Pakistanda müsəlman millətçiliyi nəzəri cəhətdən konkret olaraq sosial-siyasi faktorlara söykənməklə islam doktrinalarının təkamül xarakterli inkişaf proseslərindən kənarda qalmışdır. Bu nəzəriyyələr ölkənin müstəqilliyi uğrunda aparılan mübarizə anında milliləşmiş, sonrakı mərhələlərdə isə islamı ideoloji cəhətdən maksimalizmə qədər yüksəltmişdir. Nəticədə “islam və millətçilik” problemlərində kompromis variantlar hesab edilən Əl-Əfqani ideyaları arxa plana keçməklə, fanatizm və maksimalizmə müəyyən mənada üstünlük verilmişdir.

Bu nəzər-nöqtəsində islam millətçiliyinin əsasını təşkil edən strateji mədəniyyət konsepsiyasında şaxələnmə baş verir və nəticədə bu parçalanma Pakistanda kommunalizm prinsiplərinə yol açmışdır. Bu ideyalara ilk olaraq prinsipial mövqe nümayiş etdirmiş Pakistanın dövlət ideologiyasının yaradıcısı Məhəmməd İqbalı nümunə kimi göstərmək olar. O, Qərb mədəniyyəti, millətçilik şüarları əsasında yaranan vətənpərvərlik və millətçilik ideyalarına saxta damğası vuraraq onları şovinizmlə əlaqələndirərək qeyd edirdi: “Millətçiliyin vətənə olan məhəbbəti və onun şərəfi uğrunda belə canından keçmə prinsipi müsəlman dininin, mədəniyyətinin əsas hissəsi olub islamla yalnız siyasi konsepsiyalara çevrilmə prosesində münaqişəyə girir və nəticədə insanlar üçün həmrəylik rolunu oynayır, eyni zamanda dini şəxsi inam kimi arxa plana keçirməklə milli həyatın əsas elementi sayılan həyat faktorundan uzaqlaşdırmaq məqsədini daşıyır” (11, s.326).

Bu prinsiplərə əsaslanan M.İqbal hesab edirdi ki, milli birlikləri siyasi çərçivələrə yerləşdirmək yalnız bir halda - dini icmaları özünü təcridetmə prinsiplərindən uzaqlaşdırmaq yolu ilə mümkündür. Bir sözlə ölkə daxilində müsəlman millətçiliyi ideyalarının inkişafını və dinin vahid mədəni strateji konsepsiyasının əsas elementini kommunalizmlə birləşdirən İqbal müstəqil müsəlman millətçilyi ideyasını vəhdətləşdirmişdir. Bu sintez nəticəsində öz ərazisinə, öz spesifikasına və öz strateji

mədəniyyətinə malik olan müsəlman milli dövlətlərinin yaranmasını İslam dünyası üçün həyat əhəmiyyətli sayan İqbal sonrakı mərhələlərdə bu identikliyi islam mədəniyyətinin strategiyası ilə birləşdirməyə çalışaraq yazırdı: "İslam dini öz xarakterinə görə ərazi statusu daşımır və bəşəri ideyaları qəti surətdə birləşdirmək modelini bir məqsəd kimi təqdim etməklə öz tərəfdarları arasında rəqabəti rədd edir və nəticədə müstəqil düşüncə sahibi olan insanları nəhəng, atomlaşdırılmış bir qurğuda birləşdirir" (2, s.114).

Bu mülahizələri irəli sürməklə İqbal hesab edirdi ki, dinamik inkişaf edən islam dini insan düşüncəsinin bütün nailiyyətlərini, demokratiyanın bütün formalarını və bəşəriyyətin əsas inteqrasiya vasitələrini özündə birləşdirir. Bu sistemin qurulması və dinamik fəaliyyəti yalnız islamın strateji mədəniyyət konsepsiyası ilə əlaqələndirilir, bir sözlə müəllif islam cəmiyyətlərinin siyasi kontekstdə dirçəldilməsinin vacibliyini qeyd edirdi. Bu formada təkamülə məruz qalan cəmiyyətlər daxili və xarici eyniyyətlərini birləşdirməklə öz sistemdaxili identikliyini qoruyub saxlayır, eyni zamanda sistemdən kənar qüvvələrə qarşı özünümüdafiə instinktini gücləndirir.

Pakistandan fərqli olaraq bu proselər İran dövlətində fərqli inkişaf mərhələləri ilə müşayiət olunmuşdur. İranın strateji mədəniyyət konsepsiyasını dərindən öyrənmək, inzibati strukturlar arası prinsiplərini müəyyən etmək və mədəni identiklik sistemində qeyri-adi standartlara üstünlük verilməsini başa düşmək üçün cəmiyyətdə dinin rolunu və qədim fars nüfuzunu müasir İran kontekstində tədqiq etmək lazımdır. Bu heç də asan məsələ deyildir. Belə ki, şiə islamının və islam inqilabının təsiri altında formalaşan fars mədəniyyəti və islam müstəsnalığı ölkədə yaşayan insanlar arasında qırılmaz tellər yaradır və İranda yaşayan əhali arasında milli-dini müstəsnalıq əhval-ruhuyyəsini formalaşdırır.

İranın daxilində və xaricində yaranan ilkin şərtlər, coğrafi, etnik və mədəni xüsusiyyətlər və qədim sivilizasiya ənənələrinin islam inqilabı ideyaları ilə sintezi Yaxın Şərqdə güclü "islam mədəniyyəti strategiyası" konsepsiyasının yaranmasına səbəb olmuşdur. İranda islam mədəniyyətinin srateji aspektlərini başa düşmək üçün islam mədəniyyəti strategiyasını bir neçə kateqoriyaya ayırmaq olar: 1) millətçilik - ənənəvi dəyərlər sisteminin qorunması; 2) populizm – məzlumların müdafiəsi və ədalət; 3) monoteizm – bütpərəstliyə qarşı mübarizə; 4) teokratiya – siyasi hakimiyyətin ruhanilərin əlində olması, bir sözlə vilayəti-fiqh prinsiplərinin aliliyi; 5) puritanizm - əxlaq məsələlərində ciddilik və nizam-intizam; 6) siyasi və iqtisadi müstəqillik və Qərb imperializminə qarşı mübarizə. Bu kateqoriyaların hər biri ayrı-ayrılıqda şəraitə uyğun inkişaf etmə qabiliyyətinə malik olaraq islam mədəniyyətinin başa düşülməsində plüralizmə geniş meydan açır və İran cəmiyyətinin inkişafı üçün idealizm və dinamizm prinsiplərini aktuallaşdırır.

İranda 70-inci illərin əvvəllərindən başlayaraq bir çox ziyalılar şah tərəfindən aparılan islahatlara öz etirazlarını bildirməklə ölkə tarixinin yenidən " iransayağı" yazılmasını tələb edirdilər. "S.H.Həsr, E. Narağı və başqaları İran milli ruhu və İran mədəniyyətinin xüsusiliyi haqqında müxtəlif ideyalar irəli sürürdülər. İranı Qərb mədəniyyətinin təsirindən qorumaq, elmlə dini razılaşdırmaq şüarı altında keçirilən ilk fəlsəfi konqress də məhz S.H.Nəsrin sədrliyi altında baş tutmuşdur" (10, s.95).

İranda tarixi-fəlsəfi şəraitin özünəməxsus formalaşması prosesi sosial-iqtisadi və mədəni islahatları həmin dövrdə hakimiyyətdə olan monarxiya sisteminə icraetmə funksiyasını vermişdir. Hakim dairələrin başladığı islahatlar geniş təbliğ edilərək rəsmi mətbu orqanlarında "ağ inqilab" və ya "şah və xalqın inqilabı" adı altında göstərilirdi. Lakin bir tərəfdən dünyada sürətlə inkişaf edən liberal dəyərlər sistemi, o biri tərəfdən öz genezisi və strukturuna görə təkamül yolu ilə inkişaf edən ənənəvi cəmiyyətlərin bir-biri ilə uyğunlaşmaması, durğunluğu avtoritarizm və bürokratizmi gücləndirərək İran cəmiyyətini irəli aparmaq əvəzinə geri sürükləyirdi. Hakim dairələrin ruhaniyyətin fəaliyyətinə ciddi müdaxiləsi şiə ideoloqlarının dövlətin tabeçilik siyasətinə alternativ yollardan istifadə etməsinə səbəb oldu. 1960-cı ilin əvəllərində Tehran universitetinin nəzdində fəaliyyət göstərən mədrəsədə ilahiyyatdan dərs deyən ayətulla M.Motəhhəri tərəfindən islam dini cəmiyyəti – Əncuman - e dini yaradıldı. Burada oxunan mühazirələr özünə geniş auditoriya qazanmaqla ayətulla Beheşti, Taleqani, molla Qafari və Mehdi Bəzərqan kimi alim-ilahiyyatçılar arasında geniş disputlara yol açmışdır. İranda həmin dövrün ruhanilərini ideloji anlayışlarına görə üç qrupa: ənənəçilər, təməlçilər və modernistlərə ayırmaq olar. Maraqlı cəhət ondan ibarətdir ki, dövlətin gələcək taleyi

haqqında olan məsuliyyəti hər bir qruplaşma "dərin dövlət prinsipləri" kontekstində başa düşür və bu problemi konsensus əsasında öz aralarında həll etməyə çalışırdılar:

• Ənənəvi hərəkatın nümayəndələri dünyəvi prinsiplər əsasında islahatlara və İranda sekulyar baxışların yayılmasına qarşı çıxır, islamın ilkin formalarının dirçəldilməsini tələb edirdilər.

• Təməlçilər isə öz doktrinalarını dini cəhətdən daha çox sosial-siyasi və iqtisadi məsələlərlə bağlayaraq şiəliyin başlıca prinsipini ümmənin idarə olunması və xəlifəlik üsul-idarəsinin qurulması ilə müəyyən edirdi. Bu nəzəriyyənin kökləri orta əsrdə yaşayıb-yaratmış sünnü və şiə alimlərinin ardıcıllığa uyğun xəlifət-imamət ideyalarına söykənirdi.

• Modernizm tərəfdarları din və siyasi hakimiyyət arasında olan münasibətlərin sağlamlaşdırılması və bu kontekstdə islamın dirçəldilmə prosesini hakimiyyət institutları ilə dini institutlar arasında ciddi sərhədin olması ilə əlaqələndirirdilər. Dövlət inistitutlarının dünyada baş verən elmi-texniki inkişafın nailiyyətlərindən islam etikası çərçivəsində istifadəsi tələbi modern inkişafın əsasını təşkil edirdi.

İlk baxışdan bu hərəkat və cərəyanlar ümumilikdə mövcud olan dəyərlər sisteminin dəyişdirilməsində birgə hərəkət təəssüratı yaratsa da, əslində onların fəlsəfi-nəzəri və sosial-siyasi dünyagörüşlərində ciddi fərqlər mövcud idi. Əsas problem istehsal münasibətlərinin mövcud olduğu sosial mühitin islam etikasına tabe olunması və elm fenomeninin sosial təbəqələr arasında dinlə razılaşdırılmasında yaranırdı. İranda bu problemin aradan qaldırılmasının yeganə yolu "islam mədəni inqilabı" konsepsiyasının işlənib hazırlanması hesab olunurdu.

"İslam mədəni inqilab" konsepsiyasının nəzəri aspektləri İranın aparıcı şiə ilahiyyatçıları tərəfindən, xüsusən 1979-cu il fevral inqilabına qədər ayətulla Motəhhəri tərəfindən işlənib hazırlanmışdır. Rəsmi olaraq "mədəni inqilab" dekreti 1980-ci il 19 aprel tarixində elan olunaraq yeni mənəvi dəyərlər sisteminin təsdiqini təsbit etdi. Bu ideyaları həyata keçirmək üçün "mədəni inqilab qərargahı" adı altında xüsusi orqan yaradılaraq mətbuatda, radio, televiziya və mətbəələrdə nəzarəti gücləndirməklə islam etikasının qorunması üçün senzura tətbiq edildi. Tezliklə bu orqan İranın mədəni həyatında "islamlaşdırma" kampaniyasını çox böyük müvəffəqiyyətlə həyata keçirməyə başladı. Bu proseslər də öz növbəsində şiə ilahiyyatçıları arasında ciddi parçalanmaya yol açdı. Müasir dövrdə İran şiə ilahiyyatçıları iki cərəyana ayrılırdılar.

• Ənənəvi ruhaniyyət sisteminə – müctəhidlər, fiqhlər və ayətullaları - Ayətulla əl-uzma Hüseyn Əli Montazeri (1922-2009), Yusif Saanei (1937), Məhəmməd Cənnəti (1949) və başqalarının daxil olmasını nümunə kimi göstərmək olar.

• Dini intellektuallar sisteminə – universitetlərin alim və tələbələrinə söykənən təbəqə başda Əbdülkərim Soroşi olmaqla, Möhsin Kadivar (1959), Məhəmməd Müctəhid Şəbistari (1954) və başqalarının daxil olmasını nümunə kimi göstərmək olar.

Hər iki cərəyanın nümayəndələri demək olar ki, eyni problemlərə toxunur, lakin problemin fərqli müstəvidə həll etmək yolunu göstərirdilər. Bu prinsipial məsələlər İslam respublikası qurulandan sonra daha da aktuallaşdı, belə ki, İslam respublikasını yaradanların planına əsasən hər bir məsələnin həllində dini hüquq normalara, yəni fiqh və şəriətə istinad edilməli və dini elmin həqiqiliyi göstərilməlidi. Bu konsepsiya daha çox Ə.Soroşinin "dinin sıxılması və genişlənməsi" nəzəriyyəsində göstərilmişdir; bu nəzəriyyə dinin özünü dini elmdən ayrmaqla sistemləşdirilmişdir. Yaradılan sistem dinin mahiyyətinin əbədi və ilahi olduğunu sübut edir (1).

Sonrakı sistem isə dini elmin səmimi və autentik olduğunu göstərir Belə ki, bu elm digər elmlər kimi insana aid olduğu üçün dəyişkən və inkişaf edəndir. Soroşinin irəli sürdüyü bu sistemin birincisi bütövlükdə Cəmaləddin Ruminin mistisiziminə, ikincisi isə ilkin islam məktəbi sayılan müütəzillərin rasionalizminə söykənir. Soroşidən fərqli olaraq M.Kadivar və M.Şəbistari din elminin inkişafında plüralizmə üstünlük verir, zaman və məkan faktorunu ikinci plana keçirməklə dini ideyaların başa düşülməsində insan faktorunu əhəmiyyətli səviyyəyə qaldırır (1). Bu kontekstdə insan orada "xüsusi bənd" tapa bilmədikdə onu natamam sayır. Bu halda elmi, texnikanı və insan mühakiməsini əvəzləyə biləcək mükəmməl din məhfumu insan təfəkküründə yoxa çıxır. Dini intelektuallar "xüsusi bənd" terminologiyasına aid olan sualları mədəniyyətin nüfuz və təsir dairəsinə salmaqla prosesi tədricən subyektivlikdən çıxarmağa çalışmış və strateji mədəniyyət sistemini "qapalı sistemə" çevirmişlər. Lakin dünya təcrübəsi göstərir ki: "ümumiyyətlə strateji mədəniyyət konsepsiyasına şərti olaraq maye halda baxılmalı, analiz edilərək öyrənilməlidir. London Kral kollecindən doktor Teo Kevin Farrel

təsdiq edir ki, strateji mədəniyyət anlayışı mədəni inkişafın ardıcıllığı pozulmaması şərti ilə həmişə "açıq sistem" kimi öyrənilməli və inkişaf etdirilməlidir. O, etiraf edir ki, "daxili və xarici silkələnmələrin təsiri altında güclü sarsıntılara məruz qalan bu mədəniyyət daimi qaydalara çevrilərək oturaqlaşır və tədricən sistemləşir" (5).

Bu mövzu ruhaniyyət sistemində fəaliyyət göstərən ilahiyyatçılarda islam mədəniyyətində dinamizm və plüralizm meyillənmələrini inkişaf etdirmələri ilə diqqəti çəkirdi. Nümunə kimi bu parametrləri biz R.Homeyninin ən yaxın tələbəsi sayılan Ayətolla Yusif Sanaeyidə olduğunu göstərə bilərik. Onun verdiyi dini fətvalar (qadın və kişilərin, müsəlman və qeyri-müsəlmanların bərabərliyi, atom silahının qadağan olunması və ən çox cənnətə düşməyin yolu insanın hansı dindən olması ilə yox, yalnız onun əməlləri ilə müəyyən edilməsi haqqında) əhali arasında çox populyar olmuşdur. Digər ilahiyyatçı, Homeyninin xələfi sayılan, sonrakı mərhələlərdə ona müxalifə çevrilən ayətolla Hüseyn Əli Montazeri insan haqlarının və demokratik dəyərlər sisteminin İslama autentik olduğunu sübuta yetirmiş, "insan insandır" prinsipini irəli sürməklə dinindən, cinsindən və milliyətindən asılı olmayaraq bütün insanların eyni hüquqa malik olduğunu göstərmişdir. Montazerinin irəli sürdüyü bu konsepsiya mövcud mədəniyyəti strateji mövqeyə yüksəldir və inkişaf edən bir sistemə çevrir (9 s.46).

Proseslərin bu istiqamətə yönəlməsinin əsas səbəbini biz İranda 1979-cu ildə baş verən İslam inqilabının nümunəsində göstərsək, yanılmarıq. Dini qanunların praktik olaraq həyata keçirilməsində yaranan çətinliklər, islamın siyasətdə olan rolu və dinin yeni kontekstdə başa düşülməsi prosesini İran cəmiyyəti üçün son otuz ildə baş verən hadisələr kontekstində müxtəlifləşdirmişdir. Bu şaxələnmə islam mədəniyyətini müasir demokratik prinsiplərlə uyğulaşdırmaq tələbini ortaya qoymuşdur.

İlk əvvəl mövzunu davam etdirmək üçün bu prinsiplərin terminologiyasını müəyyənləşdirməklə demokratiya və milli identiklik arasında olan dil dinamikasına aydınlıq gətirmək lazımdır. İran cəmiyyətində demokratiya sözü fars dilində hüviyyət-i milli kimi işlənsə də, əksər hallarda Qərbdə olan demokratiya təsəvvürlərini yaradırdı. Bu anlaşılmazlığı aradan qaldırmaq üçün İran siyasi elitasının islahatçılar qanadı "mardumsalari" (ali səviyyədə olan insanlar: R.M.) abreviaturasından istifadə etməklə islam demokratiyasını ifadə etməyə çalışmışlar. İslam demokratiyasını islam strateji mədəniyyət konsepsiyasının tərkib hissəsi sayan islam demokratları bu strategiyanı dörd mühüm hissəyə ayırmışlar.

Onlar təsdiq edirdilər ki, islamın siyasiləşməsi mövcud olan siyasi sistemin daxilində aparılan islahatları, xüsusən də demokratik prinsipləri islamlaşdırır. Beləliklə uzun müddət aparılan İran-islam diskursu islam - İran diskursuna çevrilərək milli identiklik təməlində qurulan ifrat millətçiliyi arxa plana keçirir və islama prioritet verir.

İkinci mərhələdə islamlaşdırılmış demokratik prinsiplər - ifrat millətçi ideyalardan təmizlənmiş milli identiklik ideyalar - dövlət quruculuğunda əsas elementə çevrilərək mədəni-milli strategiyanın formalaşmasına şərait yaradır.

Üçüncü mərhələdə islam demokratiyası tamamilə Qərb demokratiyasından ayrılır və öz anlayışına görə əks-neoimperializm, əks-müstəmləkəçilik xarakteri daşıyır. Bu ideyalar heç də boşluqdan yaranmayıb, XIX əsrin axırlarından başlayaraq müsəlman alimlərinin irəli sürdüyü nəzəriyyələrə söykənirdi. "Mənəvi və siyasi hakimiyyətin ayrılmaz olduğu haqda nəzəriyyənin yaradıcılarından olan, görkəmli müctəhid və müsəlman ilahiyyatçısı, panislamizm hərəkatının əsasını qoyan Cəmaləddin əl-Əfqani (1839-1897) müsəlman xalqlarını müstəmləkəçiliyə və imperiyaların siyasətlərinə qarşı mübarizəyə səsləmişdir" (6, s.133)

Dordüncü mərhələ bütövlükdə yuxarıda göstərilən prinsipləri toplum halına gətirərək islamda olan demokratik ənənələri prinsip etibarı ilə formalaşdırır və islam-İran diskursunun mühüm elementinə çevrilir.

Göründüyü kimi, İranda xüsusi mədəniyyət strategiyası əsas etibarı ilə islam və demokratiya prinsiplərinin uyğunlaşması diskursu ətrafında aparılır, milli identiklik prinsipləri bu diskurs nəticəsində öz yerini vətəndaşlıq prinsiplərinə verir. İslam demokratiyasının bu konsepsiya əsasında dekonstruksiya olunması ümumi demokratiya prinsiplərini yeni kontekstdə - müqayisəli demokratiya prinsipləri müstəvisində yeni mərhələyə çıxarır. Bu prinsiplər mahiyyət etibarı ilə heç də yeni bir şey deyildir və islam fəlsəfəsini Qərb fəlsəfəsi ilə müqayisə edən İran filosofu S.H.Nəsr ideyalarını buna nümunə kimi göstərmək olar.

Bu proses "bütün müsəlmanlara Rumi ilə Ekhartın, Şührəvərdi ilə Rocer Bekonun və Molla Sədrlə Kembric platoniklərlərinin müqayisə əhəmiyyətini daha yaxşı başa salacaq və bu gün çox geniş yayılmış, eyni zamanda yanlış olan Rumi ilə Nitşe, Şühravərdi ilə Berqson və müasir "intuisiyaçılar", Molla Sədr ilə ekzistensialistlərin müqayisə olunmasına son qoyacaqdır. Bu müqayisə müsəlman alimlərinə Qərb mədəniyyətini başa düşmək üçün açar rolunu oynayacaq, ibrətamiz təlimlərə, o cümlədən Kilsə Atalar başlanğıcı, şərq kilsəsinin apolegetik ilahiyyatçıları, Şartre məktəbi, orta əsr intelektualları və İntibah dövrünün xristian mistikləri, xüsusən Ekhard məktəbi və Angelius Silezius, Qərb əlkimyası, hermetizmi və alman naturfəlsəfə məktəbinin ideyaları kontekstində müqayisəli fəlsəfə müzakirələrini aparmağa, konseptual islam fəlsəfəsini Qərb düşüncə tərzi ilə uyğunlaşdırmağa kömək edəcəkdir" (12).

Bu konsepsiya bizə tam əsas verir ki, yuxarıda göstərilən sxolastik məktəbləri, dini fəlsəfi ideyalarla formalaşan cərəyanları Qərbin uzun illər ərzində özü üçün formalaşdırdığı demokratik prinsiplərin təməli sayaq və islamın demokratik fəlsəfəsini müqayisəli demokratiya prinsipləri əsasında strukturlaşdırılmasına istiqamətləndirək. Belə prinsiplərə istinad edən İran ilahiyyatçısı, alimi və dinlərarası dialoq insitutunun direktoru, 2001-2004-cü illərdə İran respublikasının vitse-prezidenti olmuş Məhəmməd-Əli Əbtahini göstərmək olar. "Majma`e Roühaniyoon-e Mobarez" siyasi qruplaşmasının fəal üzvü, indiki siyasi rejimə ən qatı müxaliflərdən biri olan Əbtahi təsdiq edirdi ki, "mardumsalarinin (demokratiyanın: R.M.) əsas sütunu azadlıq, bərabərlik və hüquq prinsipləridir ki, bu vasitə ilə insanlar vətəndaş və siyasi hüquqlarından tam istifadə edə bilərlər. Bundan başqa "demokratiya insanlara öz liderini seçmə hüququnu verir, lakin həmin lider yalnız xalq tərəfindən seçildikdə öz legitimliyini qazanır" (7).

Bu mövqedən çıxış edən Əbtahi "Xalq üzərində hakimiyyət" prinsipi əvəzinə "Xalq üçün hakimiyyət" konsepsiyasını irəli sürür və bu konsepsiyanı idarəetmə sistemində ən mükəmməl sistem hesab edirdi. İslam ilə demokratiyanın uyğunlaşması prosesi xalq hakimiyyəti prinsiplərini insanlara hüquq bərabərliyi çərçivəsində göstərirdi. Bu o deməkdir ki, hökumət insanlar qarşısında vəzifə borcu daşıyır, insanlar isə hökumətin legitim olmasında borcludurlar. Qeyd etmək lazımdır ki, islam demokratiyasına olan bu növ çağrışlar islam teokratiyasına güclü müqavimət göstərir, vilayəti-fiqh (islam hüquq normaları: R.M.) və sekulyarizm arasında olan prinsipial fərqlərə aydınlıq gətirməklə xalqın suveren hüquqlarını islam hüquq normaları ilə uyğunlaşdırırdı.

Beləliklə bu mülahizələr bir daha sübut edir ki, islam dini insan hüquqlarına heç bir məhdudiyyət qoymur, yalnız dini diskursları dini identiklik diskurslarına çevirərək milli identiklik və vətəndaşıq prinsiplərinin tarixi-fəlsəfi aspektlərini müəyyən edir. Həqiqətən İran çoxkonfessional və çoxmillətli dövlət olduğu üçün bu prinsiplər millətin vətəndaşlıq identikliyinin başa düşülməsi üçün mühüm əhəmiyyət daşıyır. Bu prinsiplər elə qurulmalıdır ki, "İraniyyət" və "İslamiyyət" arasında olan autentiklik və qanunilik pozulmasın, eyni zamanda milli identikliyin konstruksiyası dövlət sisteminin formalaşmasına xidmət etsin.

Ümumiyyətlə təklif edilən sistemlər və bu sistemlərin həyat-yaşama funksiyalarının metodologiyası digər dövlətlərin inkişaf dinamikası ilə uyğunlaşsa da, milli identiklik anlayışlarında fərqli mövqeylərdə dururdu. Belə ki, bu anlayışlara strateji mədəniyyət konsepsiyaları güclü təsir edir və millət ümumi dəyərlər, ümumi irs prinsipləri əsasında siyasi vahidə çevrilirdi. İranın strateji mədəniyyət konsepsiyasına qədim İran tarixindən mühüm elementlərin daxil edilməsi özünü XX əsr İran millətçiliyində göstərmişdir. Nümunə olaraq Məhəmməd Rza Pəhləvinin "İraniyyat və iran identikliyi" konsepsiyası çərçivəsində pozitiv millətçiliyi, M.Hatəminin prezidentliyi dövründə "İslamiyyət" konsepsiyasını və siyasi islamı arxa plana keçirilməklə "İraniyyat" konsepsiyasına məqsədyönlü prioritet verilməsini və ayətulla Homeynin yaratdığı islam hökuməti başda Əli Həməneyi olmaqla bu konsepsiyaların əksdiskurs prinsiplərinin vasitəsilə dekonstruksiya olunmasını göstərmək olar. Bu prosesi, yəni islamiyyət diskursunun arqumentasiyasını biz üç mühüm faktorla əlaqələndirə bilərik.

Birinci faktoru biz İran İslam Respublikası haqqında formalaşan təsəvvürlər və bu təsəvvürlərin milli identikliyə dini kontekstdən təsir etməsi nəticəsində həqiqilik diskursunun meydana çıxması ilə əlaqələndirə bilərik.

İkinci faktoru biz müstəqillik anlayışı ətrafında formalaşan təsəvvürlər və bu təsəvvürlərin milli identikliyə vətənpərvərlik kontekstində və Qərb hegemonluğuna qarşı mübarizə elementlərinin təsiri nəticəsində bəraət diskursunun meydana çıxması ilə əlaqləndirə bilərik.

Üçüncü, sonuncu faktoru biz populizmlə əlaqələndiririk; bu faktor təsir vasitələrinə görə yuxarıda göstərilən hər iki faktor üçün legitimlik diskursunu meydana çıxarır.

Bu faktorlar bir daha göstərir ki, strateji mədəniyyət konsepsiyası islam kontekstində bu diskurslar əsasında qurulur və İran milli identikliyinin daxili və xarici münasibətlərini Şərq-Qərb sivilizasiyalarının real münasibətləri kontekstində müəyyən edir. Müqavimət siyasətini aparanların anlayışına görə, İran milli identikliyinin strateji mədəniyyət konsepsiyası bir neçə təməl üzərində qurula bilər.

Birinci faktoru biz İran-islam mədəniyyəti kontekstində formalaşan ideyalarla əlaqələndirir və təbii ki, bu proses ilkin faktor sayılan iraniyyat diskursunu meydana çıxarır. Lakin xüsusi qeyd etmək lazımdır ki, bu diskursun daxilində hegemon və əkshegemon qüvvələrin identiklik mübarizəsi, Qərb hegemonluğuna qarşı dözümlülük və Məhəmməd Rza şahın "pozitiv millətçilk" ideyalarının kompleksləşməsi baş verir.

İkinci faktor bütövlükdə kosmopolitizm diskursunu əhatə edir və müasir İran identikliyini çox çətin, amma cəlbedici aspektlərdə qurur. Bu aspektlər İraniyyat, İslamiyyət və Qərb modernizmini sintez etməklə müasir İran identikliyini yaradır və üçüncü təməl sayılan milli vətəndaşlıq diskursuna milli identiklik statusunu cilalandırır.

Ümumiyyətlə hər iki istiqamətin apardığı ideoloji mübarizə ikincilərin – müqavimətçi-islahatçı qüvvələrin daha çox sekulyar, daha çox modernləşmə tələbləri ilə, birincilərin isə müqavimətçi-mühafizəkar qüvvələrin əks sekulyar, əks modern tələbləri ilə müşaiyət olunurdu. Təbii ki, hər iki cərəyanın nümayəndələri özlərini İran strateji mədəniyyət konsepsiyasının daşıyıcıları hesab edirdi.

Bu proseslərə İran cəmiyyətinin münasibəti heç də birmənalı deyildi. Belə ki, İran siyasi sistemi və bu sistemə daxil olan yeni elita inqilab olan ilk günlərdən transformasiya prosesinə məruz qalmış və yeni müsəlman identikliyi, müxtəlif ideyalar və müxtəlif konstruksiyaların eksperimental təsirlərinə məruz qalmaqla "yeni idaretmə sistemini" yaratmaq arzusunda olmuşdur: "İran cəmiyyəti dini dəyərlər sistemini qoruyub saxlamaqla dini konservatizmdən demokratik dəyərlər sisteminə keçmək cəhdlərində çox böyük çətinliklərlə üzləşir. İran Yaxın Şərqdə və ümumiyyətlə islam dünyasında çox mühüm dövlətdir".

**Nəticə**

Bir çox tədqiqatçılar islam mədəniyyətinin strateji konsepsiyasının İran nümunəsində iflasa uğraması barədə müxtəlif mülahizələr söyləsələr də, bu fikirlər heç də İran dövlətində mövcud olan islam sisteminin fəlsəfəsinin tam başa düşülməsinə imkan vermir. Əslində isə inqiabi elitanın tədricən islam mədəniyyəti strategiyasına və buna uyğun sistemə inteqrasiya olması bürokratik təbəqənin dövlət elitasına çevrilməsi ilə müşaiyət olunurdu. Digər adi siyasi elitaların dövlət sistemində rolunun məhdudlaşdırılması öz növbəsində radikal alternativlərin meydana çıxmasına şərait yaradaraq islam mədəniyyətində, daha dəqiq desək, islam strateji mədəniyyətinin inkişafında müəyyən əngəlləri meydana çıxarırdı.

"Strateji mədəniyyət" konsepsiyası elmi ədəbiyyatlarda daha çox "xalq nəzəriyyəsi" adı ilə formalaşır və bu səbəbdən onun kütlə psixologiyasına potensial təsir vasitələri əhəmiyyətli dərəcədə genişlənirdi. Əksər islam islahatçıları yeni yaranan vətəndaş cəmiyyətlərini və bu cəmiyyətlərin təməlini təşkil edən mədəniyyət strategiyalarını tamamilə Qərbə bağlamaq istəmir və bunun olduqca təhlükəli olduğunu qeyd edirlər.

Məqalədə irəli sürülən konsepsiyalar milli ideyaların formalaşması prosesində və demək olar ki, bütün hallarda müqayisəli mədəniyyət prinsiplərinə nəzər salmaq tələbini ortaya qoyur:

1.Müxtəlif mədəniyyət elementləri sinkretik ənənələr vasitəsilə islam kosmopolitizminə təsir edir, nəticədə ərəb, fars, türk mədəniyyətlərinin parametrlərində strateji mədəni xüsusiyyətlər yaranır.

2.İslam etikası öz istinadını fərdi məsuliyyətə və sosial ədalətə etməklə bütün milli sistemli və millətçi ideyaların mövcud olduğu ölkələrdə islam demokratiyasının ilkin rüşeymlərini yaradır.

3. İslam müəyyən olunmuş demokratik elementlərə malikdir və parlament prosedurlarında plüralistik demokratiyaya üstünlük verir.

4. İslam dini ərəb, fars, türk, hind, mərkəzi və kiçik Asiya mədəniyyət sistemlərinə incəsənətin və ədəbiyyatın geniş mədəni arxitekturasını yaratmaq imkanlarını verir və çoxşaxəli, zəngin mədəniyyət sistemini gerçəkləşdirir.

Bu nöqteyi-nəzərdən məqalədə konkret olaraq İran nümunəsinin tədqiq edilməsi bizə bu proses haqqında aydın təsəvvürlər yaradacaq, eyni zamanda bütün islam dünyasında baş verən sosial-siyasi, dini-mənəvi və ən əsası tarixi-fəlsəfi paradiqmaların daha aydın başa düşülməsinə şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Abdol, K. S. (2016). Thougt on Contraction and Expansion in Religious Knowladge. URL: https://pdfs.semanticscholar.org/
2. Allama, M. I. (1962). The Reconstruction of Religious in Islam. / Allama Mohammad Iqbal. – Reprinted Lahore, 1954, 1959, 1964, Ilm al-Iqtisad, Lahore, 1903. – Rep. Karachi
3. Bammat H. (1994). Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı: Elm,
4. Bulent, A. (2001). Transformation of the Iranian Political System: Towards A New Model? By. MERIA Middle East Review of International Affairs. Journal Volume 5, No.3. // URL: http://www.sssup.it
5. Comparative Strategic Culture. Monterey, California, September 21-22, 2005. p.13. URL: Comparative Strategic Cultures Workshop-Phase I - Federation of
6. Дорошенко, Е.А. (1968). Эволюция исламских концепций в официальной идеологии Ирана. Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока. Moskva.
7. Discourses and Counter-discourses of Iranian National Identity during Khatami’s Presidency (1997-2005) // Submitted by Shabnam Jane Holliday to the University of Exeter as a thesis for the Degree of Doctor of Philosophy, November 2007. // URL: https://eric.exeter.ac.uk
8. Hefner, Robert W. (2001). “Public Islam and Problem of Democratization”, Sosiology of Religion // URL: https://edocs.uis.edu/f
9. Eisenstadt, M. (2001). Nuclear Fatwa – Religion and Politics in Iran’s Proliferation Strategy / Michael Eisenstadt, Mehdi Khalaji. – The Washington Institute for Near East Polisy, – Polisy Focus #115
10. Молушков, В.Г. (1991). Поиски путей реформации в исламе: опыт Ирана. / К.А. Хромова. В.Г. Молушков. – Moskva.
11. Гордон-Полонская, Л.Р. (1963). Мусульманские течения в общественной мысли Индии и Пакистана: (критика ... Азия: Индия, Пакистан, Тибет, Цейлон (Шри-Ланка) ... Moskva: Изд. восточной литературы
12. The Significance of Comparative Philosophy for the Study of Islamic Philosophy by Seyyid Hossein Nasr. Studies in Comparative Religion, vol 7, No 4 (Autum 1973) © World Wizdom, Inc. // URL: http://www.studiesincomparativereligion.com
13. The Iranian Revolution in the New Era. Said Amir Arjomand (2010). // URL:
14. http://www.hudson.org/research/9871-the-iranian-re…
15. Jawad, S.Pakistani model of diversity Rediscovering Jinnah s Vision. Jawad Sayed / – Lahor
16. University of Managment Sciences 12 September 2006. // URL www.emeraldinsight.com/0144-333X.htm

**SUMMARY**

**Rasim Majidov**

**THE IMPACT OF ISLAMIC NATIONALISTIC IDEAS ON THE MUSLIM CONCEPT OF "STRATEGIC CULTURE"**

The article deals with the emergence of the Islamic religion and its philosophy, which is considered a unique world religion in various Muslim countries, the formation of ideas about humanity, universal values and ideas, and the rules of "strategic behavior" that appear within the Islamic religion.

The theoretical doctrines of national ideas, the approach of philosophical concepts to theology, the development prospects of national identity and national affiliation in Muslim countries are also studied in this article. In the development of Islamic nationalism, the leading position of the concept of "strategic culture", its unique and universal principles, and the principles of the methodological approach of the mutual relations of religious and national ideas are analyzed in this article from a philosophical point of view.

***Key words:*** *Islamic culture, uniqueness, universality, strategic culture, nationalism, cultural diversity, Sharia, tolerance, theocracy, global transformation.*

**РЕЗЮМЕ**

**Расим Меджидов**

**ВЛИЯНИЕ ИСЛАМСКИХ НАЦИОНАЛИСТИЧЕСКИХ ИДЕЙ НА МУСУЛЬМАНСКУЮ КОНЦЕПЦИЮ «СТРАТЕГИЧЕСКОЙ КУЛЬТУРЫ»**

Обращает на себя внимание читателя возникновение исламской религии и ее философии, считающейся уникальной мировой религией в различных мусульманских странах, формирование представлений о человечестве и общечеловеческих ценностях и идеях, а также правила «стратегического поведения». которые появляются в исламской религии.

В статье были изучены теоретические учения о национальных идеях, подход философских концепций к богословию, перспективы развития национального самосознания и национальной принадлежности в мусульманских странах. В статье с философской точки зрения анализируются лидирующее положение понятия «стратегическая культура», его уникальные и универсальные принципы, принципы методологического подхода к взаимоотношению религиозной и национальной идей в развитии исламского национализма. Зрения.

***Ключевые слова:*** *исламская культура, уникальность, универсальность, стратегическая культура, национализм, культурное разнообразие, шариат, толерантность, теократия, глобальная трансформация.*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr  2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 88-93
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 88-93
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 88-93

**OĞUZHAN UZAR**
*Naxçıvan Dövlət Universiteti*
*oguzhanuzar@hotmail.com*
**ATİLLA ÖZTÜRK**
*Naxçıvan Dövlət Univertsiteti*
*Atillahakan593@gmail.com*

**UOT: 342.**

# MÜSTƏQİLLİK DÖVR HÜQUQUN FORMALAŞMASI İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR

*“Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdır. Konstitusiya Aktında Hakimiyyətin və bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri də rəsmən elan edilmişdi. 1991-ci il 18 oktyabrda Azərbaycanın müstəqilliyini elan etməsinə baxmayaraq, respublikanın müstəqilliyi deklarativ xarakter daşıyırdı. Dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər də məhz müstəqilliyin bu səciyyəvi cəhəti üzündən meydana çıxmışdı. De-yure müstəqilliyini bəyan etmiş Azərbaycanın de-fakto müstəqil dövlət kimi yaşamasında və müstəqil siyasət yeritməsində ciddi problemlər mövcud idi.*

***Açar sözlər:*** *Azərbaycan, hüquq, dövlət, vəkil, qanun*

Ölkədə real imkanlar, xalqın mentaliteti nəzərə alınmaqla demokratiya, qanunçuluq, plüralizm münasib yollar və vasitələrlə inkişaf edirdi. Bu proses 90-cı illərin ikinci yarısında xüsusən intensivləşmişdi. "1995-ci ilin ortalarında Azərbaycan bütün qeyri-qanuni silahlı qüvvələrdən xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi".

1995-ci il iyun ayının 2-də Milli Məclisin qərarına əsasən Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası təşkil edildi. Respublikanın görkəmli hüquqşünasları, qanunverici, icra və məhkəmə hakimiyyəti nümayəndələri cəlb olunmuş bu mötəbər komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı. Layihə 1995-ci il oktyabr ayının 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə böyük maraqla müzakirə olundu. Bəzi məsələlər, anlayışlar, məsələn, dövlət dilinin adı ilə bağlı geniş diskussiyalar keçirildi. Komissiyaya vətəndaşlardan və təşkilatlardan 2450 təklif, düzəliş və əlavə daxil olmuşdu. Cəmiyyətin rəyi nəzərə alınmaqla layihəyə düzəliş və əlavələr edildi. Yeni variant - o, əvvəlki kimi 199 deyil, 158 maddədən ibarət idi -noyabrın 8-də mətbuatda dərc edildi. "Azərbaycan Respublikasının Konstitusiyası" - müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabr ayının 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi (6).

Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, qanuni əsasları qoyuldu. Konstitusiya bəyan etdi: Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri Azərbaycan

dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdir.

Azərbaycan Respublikası Konstitusiyası maddələrinin üçdə bir hissəsi (158 maddədən 48-i) insan hüquqlarına və onların təminatlarına həsr edilmişdi.

Hakimiyyət bölgüsü konsepsiyasına uyğun olaraq Konstitusiya təsbit etdi ki, icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinə mənsubdur, qanunverici hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər. Azərbaycan Respublikası Prezidenti təsisatının ikili hüquqi təbiəti vardır, Ali icra hakimiyyətinin ona mənsub olması ilə yanaşı, o, birinci növbədə, Azərbaycan dövlətinin başçısıdır, Azərbaycan xalqını bütövlükdə təmsil edir və xalqın vahidliyinin rəmzidir.

Konstitusiyada məhkəmələrin müstəqilliyini təmin edən əsas prinsiplər müəyyən edilmişdi: Hakimlər müstəqildir, onlar yalnız Konstitusiyaya və qanunlara tabedirlər, səlahiyyətləri müddətində dəyişməzdirlər.

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan MR-ə Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhədinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin - parlamentin sədri Muxtar Respublikanın ali vəzifəli şəxsidir. İcra Hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Naxçıvan MR-in Ali Məclisi, məhkəmələri qanunla və Prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində müstəqildirlər. 1998-ci il aprelin 28-də Naxçıvan MR-in Azərbaycan Respublikası Konstitusiyası əsasında hazırlanmış yeni Konstitusiyası Muxtar Respublikanın Ali Məclisində qəbul edildi və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olundu (2).

Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik dövlət və iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı.

Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə 2000-ci il 3 may iclasında qeyd olunduğu kimi, Azərbaycanın Avropa standartlarına çatması üçün ölkənin rəhbərliyi "son dərəcə böyük səylər göstərir. Bu ölkədə rəhbərliyin və xalqın azad, çiçəklənən cəmiyyət qurmaq əzmi heyranlıq doğurur. 70 illik sərt rejimdən sonra Azərbaycan keçmişin irsindən əl çəkə bilmişdir və suveren, hüquqi dövlət qurur".

Konstitusiyanı daha da demokratikləşdirmək üçün Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqust ayının 24-də referendum vasitəsilə ona 39 mühüm dəyişiklik edildi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritar (100 deputat) və proporsional (25 deputat) sistemlə ilk seçkilər keçirildi. 125 deputat yerinə 600, o cümlədən birmandatlı dairələrdə 100 deputat yerinə 400 namizəd qeydə alındı. Cəmiyyətdə daha çox sosial dəstəyi olan səkkiz siyasi partiya deputat mandatları uğrunda mübarizəyə qoşuldu. Seçkilərin gedişinə nəzarət üçün 214 beynəlxalq müşahidəçi dəvət olunmuşdu. Noyabrın 12-də Naxçıvan MR parlamentinə də demokratik seçkilər keçirildi. Azərbaycan parlamenti geniş qanunvericilik fəaliyyətinə başladı. Parlamentdə insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və b. sahələr üzrə daimi komissiyalar təşkil olundu.

Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələri qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Parlamentin nümayəndələri Avropa Şurası sessiyalarında dəfələrlə iştirak etdilər. Bütün bunlar respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişaf etməsinə münasib imkanlar açırdı. Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi (1).

2000-ci ilin noyabrında yeni parlament seçkiləri təşkil olundu. Mərkəzi Seçki Komissiyasında (MSK) 17 siyasi partiya və bir seçki bloku qeydiyyatdan keçdi. Demokratik konqresə üzv partiyaların, demək olar ki, hamısı seçkilərdə iştirak etdi. 13 partiya həm çoxmandatlı, həm də təkmandatlı seçki dairələri üzrə imza vərəqəsi aldı. Respublika Prezidenti parlamentdə iri partiyalara öz nümayəndələrini MSK-ya göndərmələrini xahiş etdi. Altı iqtidaryönümlü, altı müxalif partiya və dörd bitərəf nümayəndələrindən ibarət MSK yaradıldı. Prezident Heydər Əliyev 2000-ci il sentyabrın 3-də seçkilərdə avtomatlaşdırmanın tətbiqi haqqında" Fərman verdi.

Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də keçirilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı.

2002-ci il avqustun 24-də referendumla Konstitusiyaya edilmiş dəyişikliyə görə Milli Məclisə seçkilər daha da demokratikləşdirildi, "mojaritar və proporsional" seçki sistemi ləğv edildi, ümumi "mojaritar" seçki sistemi müəyyən olundu.

Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təsisatlarının tələblərinə uyğun hazırlanması üçün Azərbaycan Respublikası Prezidenti yanında 1996-cı ilin fevral ayında xüsusi "Hüquqi İslahatlar Komissiyası" yaradılmışdı. Siyasi və iqtisadi islahatlarla əlaqədar hazırlanan hüquqi aktların insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına uyğunluğu baxımından Avropa Şurasında ekspertiza olunması respublikada demokratik cəmiyyət qurulmasına təsirli kömək idi.

Azərbaycan Avropa Şurasının "Qanun vasitəsilə demokratiyaya doğru" Venesiya Komissiyasına assosiativ üzv qəbul olundu (5).

1998-ci ilin dekabr ayında Prezident Heydər Əliyev dövlət idarəetmə sistemində islahatlar üçün proqram hazırlanması haqqında fərman verdi. Xüsusi komissiya yaradıldı, dünya təcrübəsindən istifadə olunmaqla belə bir proqram hazırlandı və həyata keçirilməyə başlandı.

1998-ci ilin fevral ayında Azərbaycan Prezidenti Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman verdi. İnsan hüquqlarının təmin olunmasının hüquqi mexanizmi yaradılmağa başlandı. "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və digər qanunlar qəbul edildi. 1998-ci ilin oktyabr ayında "Vətəndaşlıq haqqında" yeni Qanun qəbul olundu.

1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edildi, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu yaradıldı, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssis kadrlar hazırlanması üçün əməli addımlar atıldı.

Azərbaycan Respublikası insan hüquqları ilə bağlı 29 beynəlxalq konvensiyaya qoşuldu. 1998-ci il avqustun 18-də Azərbaycan hökuməti ilə BMT "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi və müdafiəsi sahəsində birgə bağlı layihə haqqında memorandum" imzaladılar. BMT bu sahədə Azərbaycana fəal köməklik göstərməyə başladı.

2001-ci ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı və onun 1, 4, 6 və 7 saylı protokollarını təsdiq etmək barədə Qanun və "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu qəbul etdi (7).

"İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını təsdiq etmək haqqında Qanun qəbul edildi. 2002-ci ildə respublikada Ombudsman İnstitutu yaradıldı. İyulun 2-də Milli Məclis Elmira Süleymanovanı bu vəzifəyə seçdi. 2002-ci ilin avqustunda referendum vasitəsilə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklə əlaqədar hətta fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi ilə bağlı insana qarşı silah işlədilməsinə yol verilmirdi.

1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident Fərmanı ilə hələ 1992-ci il aprelin 12-də

Y.Məmmədov və 1993-cü il aprelin 15-də Ə.Elçibəy iqtidarları dövründə sərbəst informasiya fəaliyyətinə qoyulmuş məhdudiyyətlər aradan qaldırıldı, mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini qoruyan idarə, senzura ləğv edildi. Prezident Heydər Əliyev qeyd edirdi ki, "fikir azadlığı, söz azadlığı bizim həyatımızın əsasını təşkil etməlidir. Kim nə cür düşünür, o cür düşünsün. Heç kəsi məcbur etmək olmaz. Sadəcə biz çalışmalıyıq ki, öz fikirlərimizin daha doğru, düzgün olduğunu sübut edək və insanları bu fikirlərə şüurlu inandıraq" (3).

2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. 2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı. Demokratiyanın, plüralizmin inkişaf etdirilməsi sahəsində "Söz Azadlığı Komitəsi", "Azərbaycan İnsan Hüquqları və Demokratiya Komitəsi", "Azərbaycan Demokratiya Fondu", "RUH" jurnalistləri müdafiə fondu və başqa ictimai təşkilatlar da müəyyən iş aparırdılar.

Azərbaycan Respublikası Şərqdə ölüm cəzasını ləğv etmiş ilk ölkə oldu. 1993-cü ildən burada ölüm cəzasına faktiki moratorium qoyuldu. 1996-cı ildə Prezident Heydər Əliyev Cinayət Məcəlləsində 21-ci maddənin sanksiyasından ölüm cəzasını götürmək təşəbbüsünü irəli sürdü. Qadınlara və 65 yaşından yuxarı kişilərə ölüm cəzası qadağan edildi. 1998-ci ilin fevral ayında Prezidentin təşəbbüsü ilə respublikada ölüm hökmü tamamilə ləğv olundu.

1995-ci ilin may ayından respublikada Əfvetmə İnstitutu fəaliyyətə başladı. 1995-ci ildən 2003-cü ilin əvvəllərinədək Azərbaycan Prezidenti Heydər Əliyev 30 əfv fərmanı imzaladı. 2900-dən çox məhbus azadlığa buraxıldı. Prezidentin təşəbbüsü ilə Milli Məclis amnistiya haqqında 6 akt qəbul etdi. Bu aktlar 63477 məhbusa tətbiq edildi. Onlar arasında dövlətə qarşı cinayət işlətmiş şəxslər də vardı

Dövlətçiliyin təmin olunmasının mühüm vasitələrindən biri də hüquq-mühafizə orqanlarının inkişaf etdirilməsi və möhkəmləndirilməsi idi.

1997-ci ilin oktyabr ayında "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci ildə Konstitusiya Məhkəməsi təşkil olundu. "Vəkillik və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" qanunlar, cinayət, cinayət prosessual, mülki, mülki prosessual, inzibati xətalar, əmək, ailə, vergi məcəllələri qəbul edildi. 2002-ci ilin aprel ayından respublikada hakimlərin, 2002-ci ildən isə prokurorluq orqanları işçilərinin imtahandan keçməsi institutu tətbiq olunmağa başlandı. 2002-ci ilin avqustunda Konstitusiyaya edilmiş dəyişikliklərə görə hər bir şəxs Konstitusiya Məhkəməsinə müraciət edə bilərdi.

2002-ci ilin sentyabr ayından Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdı. Yeni, ikinci instansiya - apellyasiya məhkəməsi yarandı (4).

Respublikanın daxili işlər və milli təhlükəsizlik nazirlikləri, onların yerli təşkilatları, silahlı hissələri təsadüfi, cinayətkar, xain və satqın ünsürlərdən əsasən təmizləndi. Əvvəlki iqtidarlar dövründə işdən uzaqlaşdırılmış mütəxəssislər yenidən öz yerlərinə qaytarıldı. Polisin şəxsi heyəti azaldıldı, lakin məsuliyyət artırıldı. Prezidentin 1994-cü il 9 avqust tarixli Fərmanının müvəffəqiyyətlə həyata keçirilməsi mövcud cinayətkar qrup və dəstələrin, şəxslərin zərərsizləşdirilməsində, gizli cəbbəxanaların, əllərdə olan silahların, hərbi texnikanın və döyüş ləvazimatlarının aşkar edilib götürülməsində, cəmiyyətdə əmin-amanlıq, sabitlik yaranmasında əhəmiyyətli rol oynadı. 1995-2001-ci illərdə 6904 cinayətkar qrup zərərsizləşdirildi. 14.899 odlu silah yığıldı.

Hakimiyyətə qeyri-qanuni, zorakı yollarla gəlmək kimi zərərli ənənə, dövlət çevrilişi cəhdləri aradan qaldırıldı.

Bu illərdə dünya narkomafiyasının Azərbaycanı tranzit yola çevirmək cəhdlərinə qarşı ciddi mübarizə aparıldı. 1996-cı ilin avqust ayında Azərbaycan Prezidenti "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Fərman verdi. Narkomanlıqla və narkobizneslə mübarizə üzrə komissiya yaradıldı, dövlət proqramı hazırlandı və həyata keçirilməyə

başlandı. 2001-ci il iyunun 29-da "Narkoloji xidmət və nəzarət haqqında" Qanun Prezident tərəfindən təsdiq edildi.

Respublikada kriminogen vəziyyət aradan qalxdıqca Daxili İşlər Nazirliyi sistemində ştatlar ixtisar olunurdu. 1999-cu ilin əvvəllərində burada 600 ştat ixtisar edilmiş, külli miqdarda dövlət vəsaitinə qənaət olunmuşdu.

Yeni Konstitusiyanın tələbinə görə, ölkədə demokratik cəmiyyətin mühüm elementi kimi yerli özünüidarə - seçkili bələdiyyələr sistemi qurulmağa başlanmışdı. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" Qanun qəbul edilmişdi. 1999-cu il dekabr ayının 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi. Bələdiyyələr vətəndaşların yerli özünüidarə təşkilatları kimi dövlətdən ayrı, müstəqil fəaliyyət göstərirdilər. Azərbaycan "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulmuşdu. Bütün bunlar Azərbaycan Respublikasında dünyəvi, demokratik dövlət quruculuğu prosesinin mərhələləri idi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı: “Qanun” nəşriyyatı, 2014.
2. Azərbaycan Tarixi 7 cilddə, 7 cild, AMEA, A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: Elm, 2008.
3. “Azərbaycan” qəzeti, 1 may 2013-cü il, N-92.
4. “Azərbaycan” qəzeti, 18 okyabr 2013-cü il, N-229.
5. Əsgərov Ziyafət. “Konstitusiya hüququ”. Bakı: 2011.
6. İsmayılov X.C. Azərbaycan dövlət və hüquq tarixi. Bakı: 2006.
7. Nəsirov Elşad. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları. Bakı: 2005.

## SUMMARY

**Oguzhan Uzar, Atilla Ozturk**

## STEPS TAKEN TOWARDS THE FORMATION OF LAW IN THE INDEPENDENCE PERIOD

Article 12 of the "Constitutional Act on the State Independence of the Republic of Azerbaijan" reflected the idea that the people of Azerbaijan should take the path of creating an independent, secular, democratic, legal and unitary state. In the Constitutional Act, the public ownership of power and all natural resources, the equality of all forms of property, the guarantee of citizens' right to vote, the multi-party system, as well as the general principles of human and civil rights and freedoms were officially announced. Although Azerbaijan declared its independence on October 18, 1991, the independence of the republic was declarative in nature. Many socio-moral problems that undermined the economic, political, legal and ideological foundations of statehood appeared precisely because of this characteristic aspect of independence. Azerbaijan, which declared its de jure independence, had serious problems in living as a de facto independent state and implementing an independent policy.

***Key words:*** *Azerbaijan, law, state, lawyer, law*

## РЕЗЮМЕ

**Огузан Узар, Атилла Озтурк**

## ШАГИ ПО ФОРМИРОВАНИЮ ПРАВА В ПЕРИОД НЕЗАВИСИМОСТИ

В статье 12 «Конституционного акта о государственной независимости Азербайджанской Республики» отражена идея о том, что народ Азербайджана должен стать на путь создания независимого, светского, демократического, правового и унитарного государства. В Конституционном акте закреплены общественная собственность на власть и все природные ресурсы, равенство всех форм собственности, гарантия избирательного права граждан, многопартийность, а также общие принципы прав человека и гражданина и были официально объявлены свободы. Хотя Азербайджан провозгласил свою независимость 18 октября 1991 года, независимость республики носила декларативный характер. Многие социально-нравственные проблемы, подрывавшие экономические, политические, правовые и идеологические основы государственности, возникли именно из-за этого характерного аспекта независимости. Азербайджан, объявивший о своей де-юре независимости, имел серьезные проблемы с существованием как де-факто независимого государства и проведением независимой политики.


***Ключевые слова***: *Азербайджан, право, государство, адвокат, право*

---

***Məqaləni çapa təqdim etdi:*** *hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr  2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 94-102
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 94-102
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 94-102

# İQTİSADİYYAT

**CEYHUN MAHMUDOV**
*ceyhun.ilhamoglu@gmail.com*
**NİHAD MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.24**

## BİZNESİN RƏQABƏT QABİLİYYƏTLİLİYİNİ TƏMİN ETMƏK ÜÇÜN İNNOVASİYA FƏALLIĞININ ARTIRILMASI ŞƏRTLƏRİ

***Tədqiqatın məqsədi.*** *Hazırda Azərbaycan iqtisadiyyatında təsərrüfat subyektlərinin innovativ fəaliyyət səviyyəsinin artırılması və onun böyüməsini məhdudlaşdıran amillərin idarə edilməsi vəzifəsi xüsusi əhəmiyyət kəsb edir ki, bu da milli iqtisadiyyatın xammal asılılığını aradan qaldırmaq və biznes strukturlarının geniş spektrinin innovativ potensialının səfərbər edilməsi əsasında səmərəli iqtisadi inkişafa keçid vəzifəsi ilə bağlıdır. Məhz bu baxımdan məqalədə tədqiqatımızın başlıca məqsədi bazar münasibətləri şəraitində biznes strukturlarının rəqabət qabiliyyətliliyinə nail olmaq üçün biznesdə innovasiyaların təkrar istehsalının idarə edilməsinin təşkilati mexanizminin formalaşmasına elmi cəhətdən yanaşmanın əsaslandırılmasıdır.*

***Tədqiqatın metodu*** *– məntiqi, iqtisadi-riyazi, empirik metodların kombinasiyasından, habelə müqayisəli və situasiya təhlili metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri.*** *Elmi yeniliyə malik, tədqiq olunan sahə üzrə elmi biliklərin artımını ehtiva edən ən mühüm elmi nəticələr aşağıdakılardır:*

*- biznes strukturlarının innovativ potensialını artırmaqla biznesin rəqabətqabiliyyətlilik səviyyəsinin artırılmasına kömək etmək üçün onların texnoloji imkanlarının profilinin təkmilləşdirilməsi istiqamətində təklif olunan elmi və praktiki tövsiyələr;*

*- rəqabətli bazarda biznes strukturlarının innovativ inkişafını təmin edən davamlı proses kimi innovasiyaların təkrar istehsalı anlayışı açıqlanır və onun innovasiya nəzəriyyəsi və elmi idarəetmənin əsas kateqoriyaları ilə əlaqəsi göstərilir.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– innovasiyaların təkrar istehsalı sahəsində nəzəri müddəaların işlənib hazırlanması əsasında biznes strukturlarının innovativ fəallığının artırılmasına yönəlmiş elmi-metodiki tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Əldə edilmiş elmi nəticələr biznes strukturlarında innovasiyaların təkrar istehsalının idarə edilməsinin təşkilati mexanizmini formalaşdırmaq məqsədi daşıyır ki, bu da onların innovativ fəallığının yüksəlməsini və bazar şəraitində rəqabət qabiliyyətinin artırılmasını təmin edir.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– biznes strukturlarının rəqabət qabiliyyətliliyinin təmin edilməsi məqsədilə bu strukturlarda innovasiyaların təkrar istehsalının idarə edilməsi mexanizminin formalaşdırılması üçün elmi-metodoloji müddəaların və tövsiyələrin işlənib hazırlanmasındadır.*

***Açar sözlər:*** *biznes, biznes subyektləri, innovasiya fəaliyyəti, innovasiya prosesi, rəqabət qabiliyyətlilik*

Əgər ötən yüzillikdə dövlətin qüdrətini qızıl ehtiyatları, torpağın münbitliyi, mineral xammal ehtiyatları, ordunun sayı müəyyən edirdisə, müasir şəraitdə ölkələrin mövqeyi əsasən onların innovativ fəaliyyət səviyyəsi, iqtisadiyyat sahələrinin elmi-texniki inkişaf səviyyəsi, əhalinin təhsil səviyyəsi və mobilliyi, iqtisadi və sosial infrastrukturun inkişafı ilə müəyyən edilir. Dünyanın müxtəlif ölkələrinin inkişafı ilə bağlı çoxsaylı nümunələr göstərir ki, yaxın gələcəkdə və

uzunmüddətli perspektivdə ölkənin dünya miqyasında lider mövqeyini təmin etmək üçün əsas səylər konkret olaraq innovativ fəallığın artmasına yönəldilməlidir.

Azərbaycan Respublikasının gələcək inkişafının mümkün istiqamətləri arasında - ekstensiv (xammal), intensiv (investisiya) və innovativ (həm ölkə daxilində, həm də dünya bazarında intellektual fəaliyyətin kommersiyalaşdırılması həcminin artması səbəbindən) - istiqamətlərdən sonuncusu daha üstündür. Çünki ilk iki istiqamətə əməl etmək əslində dünya bazarının konyunkturundan və dünya iqtisadiyyatının ümumi vəziyyətindən asılılığın artması deməkdir. Yalnız innovasiyalar böhran vəziyyətini aradan qaldırmaq üçün etibarlı vasitədir.

Azərbaycan iqtisadiyyatının iqtisadi ehtiyaclarını və dünya bazarında məhsulların rəqabət qabiliyyətini ödəməyə qadir olan yeganə seqment innovasiya nəzəriyyəsinə görə istehsal məsrəflərindən asılı olmayaraq real rəqiblərin olmadığı və yüksək tələbatla yüksək gəlir əldə etməyə imkan verən "effektiv inhisar" adlanan innovativ fəaliyyətdir. İqtisadiyyatın innovativ sektorlarında yüksək gəlirlilik, eyni zamanda, həm yerli sahibkarların qlobal bazarlarda aparıcı mövqelərini, həm də ölkənin dünya miqyasında siyasi mövqeyinin möhkəmlənməsini təmin edir.

Bu zaman nəzərə almaq lazımdır ki, sosial-iqtisadi inkişafın indiki mərhələsində innovasiya anlayışı keyfiyyətcə dəyişir. Bu ilk növbədə, yığılmış ümumi daxili məhsul (ÜDM) kimi milli sərvətin ənənəvi strukturunun dəyişdirilməsi ilə bağlıdır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə hal-hazırda ÜDM-nin əsas payını (95%-ə qədər) xidmətlər və qeyri-maddi məhsullar təşkil edir. Bununla yanaşı yaxın keçmişdə ölkənin dünya siyasi xəritəsində gücünü tam səciyyələndirən ənənəvi iqtisadiyyat sahələri strateji əhəmiyyətini itirməkdədir.

Bununla belə innovativ inkişaf yoluna diqqət yetirərkən Azərbaycan Respublikasının perspektiv inkişaf strategiyasını bəşər sivilizasiyasının innovativ inkişafının ümumi qanunları ilə əlaqələndirmək lazımdır. Müasir geosiyasi və makroiqtisadi proseslər qloballaşma və dünya iqtisadiyyatının inteqrasiyası tendensiyalarının artması, informasiya texnologiyalarının geniş tətbiqi, XXI əsrdə yeni iqtisadiyyat tipinin - "bilik iqtisadiyyatı"nın və ya innovativ iqtisadiyyatın formalaşması, elmi-tədqiqat və yüksək texnologiya istehsalının beynəlmiləlləşməsi, dünya investisiya, elm tutumlu mal və xidmətlər bazarlarında qlobal rəqabətin kəskinləşməsi ilə xarakterizə olunur (1, s.82).

Məhz bu baxımdan Azərbaycanın strateji inkişafı iqtisadiyyatın "intellektual" seqmentlərinin inkişafına yönəldilməlidir ki, bunun üçün təkcə innovasiyaların idarə edilməsinə deyil, eyni zamanda, əlaqəli elm, təhsil və mədəniyyət sahələrinə diqqət yetirilməlidir.

İnnovasiya fəaliyyəti ölkənin iqtisadi inkişafını və biznes strukturlarının rəqabət qabiliyyətliliyini təmin edən ən əsas amillərdən biridir. İnnovasiya fəaliyyəti – "təşkilatın innovativ fəaliyyətinin kompleks xarakteristikası, o cümlədən görülən tədbirlərin intensivliyi və onların vaxtında həyata keçirilməsi, potensialı lazımi kəmiyyət və keyfiyyətdə səfərbər etmək bacarığı, onun gizli tərəfləri də daxil olmaqla, istifadə olunan metodların əsaslılığını, mütərəqqiliyini, tərkibinə və əməliyyatların ardıcıllığına görə istehsal prosesinin texnologiyasının rasionallığını təmin etmək bacarığıdır" (6, s.28).

Hal-hazırda Azərbaycan iqtisadiyyatının innovativ fəallığının səviyyəsinin, onun artmasına kömək edən və artımını məhdudlaşdıran amillərin öyrənilməsi məsələləri xüsusi əhəmiyyət kəsb edir ki, bu da milli iqtisadiyyatın xammal asılılığının aradan qaldırılması və bütün sahibkarlıq subyektlərinin innovativ potensialının səfərbər edilməsi əsasında dayanıqlı və səmərəli iqtisadi artıma keçidin təmin edilməsi vəzifəsi ilə bağlıdır.

Bazar iqtisadiyyatının inkişafının hazırki şəraitində Azərbaycan iqtisadiyyatında innovasiyaların inkişaf etdirilməsi və həyata keçirilməsini ləngidən və mane olan bir sıra iqtisadi və institusional şərtlər formalaşmışdır (sxem 1).

Dövlətin iqtisadi strategiyasındakı ziddiyyətlər innovasiya fəallığı səviyyəsinə mənfi təsir göstərir. Son 20 ildə hər 2-3 ildən bir hökumət iqtisadi inkişaf strategiyasına yenidən baxır, iqtisadi inkişaf konsepsiyasını dəyişdirir, prioritet texnologiyaların siyahısını və elmi tədqiqat sahələrini yenidən təşkil edir. İnnovasiya sahəsinin inkişafı üzrə sabit dövlət proqramının olmaması ümumi

iqtisadi və sosial yeniləşmə prosesində biznesmenlərə öz rolunu və vəzifələrini müəyyənləşdirməkdə çətinlik törədir.

**Sxem 1. İnnovativ fəaliyyətin artımını məhdudlaşdıran əsas amillər**




Azərbaycan iqtisadiyyatında hüquqi qeyri-müəyyənlik onunla bağlıdır ki, innovasiyalar sahəsində çoxlu hüquqi aktlar var, hətta səthi təhlili onların uyğunsuzluğunu aşkar edir. İqtisadi inkişaf istiqamətlərində hüquqi qeyri-müəyyənlik sənaye sekrotundakı biznes strukturlarının strateji inkişaf imkanlarını məhdudlaşdırır və onların fəaliyyətinin gedişində qısamüddətli məqsəd və layihələrin üstünlük təşkil etməsinə səbəb olur. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafı strategiyasının qəbulu iqtisadi inkişaf şərtlərinin qeyri-müəyyənliyini xeyli dərəcədə azaldacaqdır. Lakin bu qərar innovasiya fəaliyyəti proseslərini tənzimləyən adekvat hüquqi aktlarla dəstəklənməlidir.

Azərbaycan iqtisadiyyatı üçün xarakterik olan yüksək risklər innovasiya fəaliyyətini məhdudlaşdırır. İnnovasiya prosesi iqtisadiyyatın qeyri-dayanıqlılığı və cəmiyyətin qeyri-sabitliyi ilə məhdudlaşır. İnnovasiyaya sərmayə qoyuluşu uzunmüddətli inkişaf strategiyasının bir aspektidir. Əgər bazar şəraiti daim əhəmiyyətli dalğalanmalara məruz qalırsa, innovasiyaya sərmayə qoyuluşu riskli və çətin olur. Xarici mühitin dinamikliyi kreditləşmə və investisiya şərtləri üçün məhdudlaşdırıcı rol oynayır və iqtisadi şəraitin qeyri-sabitliyi kapitalın cəlb edilməsi xərclərinin artmasına səbəb olur. Nəticə etibarilə, biznes strukturları istehsalın təkmilləşdirilməsi üçün istifadə oluna biləcək "uzunmüddətli borc pulları"nın çatışmazlığını hiss edirlər (2, s.42).

Azərbaycanda biznes subyektlərinin qısamüddətli investisiyalara yönəlməsi innovasiya sahəsinin investisiya cəlbediciliyinin azalmasına səbəb olur. Neft və qaz ixracından izafi gəlir əldə edən Azərbaycan hökumətinin innovativ prosesləri inkişaf etdirməkdə kifayət qədər marağı yoxdur.

Azərbaycan maliyyə bazarında spekulyativ əməliyyatların nisbətən aşağı risklə kifayət qədər yüksək gəlir gətirməsi investisiya və maliyyə sektorunda fəaliyyət göstərən yerli biznesmenlərin qısamüddətli əməliyyatlara diqqət yetirməsinə səbəb olmuşdur. Parantez açaraq qeyd edək ki, innovasiyalar kifayət qədər uzun müddət ərzində həyata keçirilir və əhəmiyyətli dərəcədə daha böyük risklərə malikdir. Bu da innovasiya sahəsinin investisiya cəlbediciliyinin azalmasına səbəb olur.

Maliyyə sabitləşməsi bazar dəyişkənliyinin əhəmiyyətli dərəcədə azalmasına kömək edir və spekulyativ əməliyyatların gəlirliliyinin azalmasına səbəb olur. Bununla da innovasiya sahəsinin investisiya cəlbediciliyini artırmaq üçün ilkin şərtlər yaranır.

Qanunun icra mexanizminin zəifliyi və zəif gücü innovasiya fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. İnnovasiyaların inkişafı strategiyasının həyata keçirilməsinə təkcə hüquqi qeyri-müəyyənlik deyil, həm də biznesin müdafiəsinin zəif səviyyəsi, mülkiyyətin real mühafizəsinin olmaması, məhkəmə iclaslarının və arbitraj proseslərinin uzun və səmərəsizliyi, biznes fəaliyyətinin həyata keçirilməsi üçün məhkəmə qərarlarının və inzibati tədbirlərin icrasını təmin edən real mexanizmlərin inkişaf etdirilməməsi mane olur. Bu vəziyyət intellektual sahəni onun üçün mühüm

investisiyalardan məhrum edir və innovativ ideyalar bazarının formalaşmasını çətinləşdirir (4, s.6).

Qeyri-effektiv dövlət idarəçiliyi innovasiya proseslərinin həyata keçirilməsini ləngidir və innovasiyaların başlanmasını məhdudlaşdırır. Respublikamızda dövlət idarəçiliyi sahəsində ixtisaslı mütəxəssislərin çatışmazlığı açıq şəkildə hiss olunur. Dövlət idarəçiliyində düşünülməmiş ödəniş və əməyin həvəsləndirilməsi sistemi istedadlı menecerlərin axınına şərait yaratmır və dövlət idarəetmə sistemində korrupsiyaya zəmin formalaşdırır. Bu biznes subyektləri ilə münasibətləri xeyli çətinləşdirir, Azərbaycan iqtisadiyyatının səmərəli artımını ləngidir, innovasiyaların tətbiqi imkanlarını məhdudlaşdırır.

Mənfi amillərlə yanaşı, milli təsərrüfat kompleksinin innovativ potensialının güclənməsinə töhfə verən amilləri də fərqləndirmək lazımdır (sxem 2).

**Sxem 2. İnnovasiya fəaliyyətinin artırılması üçün əsas iqtisadi və institusional şərtlər**




Daxili bazarda rəqabət yeni texnologiyaların tətbiqinə ehtiyacın genişlənməsinə kömək edir. İnnovasiya fəaliyyətinin təhlili göstərir ki, innovasiya bazarında rəqabət mexanizmi aşağıdakı qanunauyğunluqlara uyğun fəaliyyət göstərir:

1. Bazarda rəqiblərlə qarşılaşan biznes subyektlərinin öz təşkilatlarının bazardakı mövqeyini necə və hansı vasitələrlə qoruyub saxlaya biləcəkləri və ya gücləndirə biləcəkləri ilə bağlı həll yolları tapmağa çalışması;
2. Biznes strukturlarının rəqabət qabiliyyətliliyinin saxlanılması və ya yaxşılaşdırılmasının universal vasitəsi kimi yeni texnologiyaların və idarəetmə üsullarının tətbiqi ilə təmin edilən səmərəliliyin artırılması;
3. Qəbul edilmiş qərarlar nəticəsində biznes strukturlarının innovativ fəaliyyəti aşağıdakı üç istiqamətdən birində inkişaf edir:
   a) keyfiyyətin yüksəldilməsi;
   b) istehlak xassələrinin yaxşılaşdırılması;
   c) istehsal xərclərinin aşağı salınması;
4. Biznes strukturunun innovativ fəaliyyət istiqamətinin seçilməsi əsasında həyata keçirilən innovasiyalara təşkilati və marketinq dəstəyinin formalaşdırılması;
5. Biznes strukturlarında innovasiyaların tətbiqi və innovasiya prosesinin monitorinqi mexanizminin yaradılması.

İnnovativ fəallığın artmasına töhfə verən və rəqabətlə əlaqəli olan nisbətən yeni amillərdən biri Azərbaycan iqtisadi mühitində formalaşmış “biznes ruhudur”. Bu tendensiyanın daşıyıcıları – Azərbaycanın biznes strukturlarının innovasiya proseslərini intensivləşdirməli, onları həm ayrı-ayrı biznes strukturları, həm də bütövlükdə iqtisadiyyat üçün uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsinə çevirməli olduğunu dərk edən müasir biznes subyektləridir.

Dünya bazarının konyukturası da innovativ fəallığın artmasına təkan verir. Bildiyimiz kimi, respublikamız dünya bazarının böyük tələbi olduğu neft və qaz ehtiyatlarına malikdir. Karbohidrogen ehtiyatlarının ixracından əldə edilən gəlirlər innovasiyanın, onun subyektlərinin – elm, sənaye, kənd təsərrüfatı və digər sahələrin inkişafına, habelə ixtisaslı kadrların hazırlanmasına yönəldilməlidir (5, s.57).

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı xammal ixracından asılı olaraq qalır. Azərbaycan iqtisadiyyatının ixrac strukturunda yüksək texnologiyalı məhsulların ixrac payı olduqca azdır. Bu, əsasən, Azərbaycanın biznes strukturlarının istehsal-texniki imkanları ilə elmi potensial arasında aradan qaldırıla bilməyən uçurumla bağlıdır. Bu qeyd etdiyimiz fakt müasir sənaye komplekslərinin yenidən qurulması, texniki baxımdan yenidən təchiz edilməsi və istismara verilməsi kimi innovativ proseslərin aktivləşdirilməsini şərtləndirir.

Azərbaycan elminin hal-hazırki vəziyyəti ölkədəki innovasiya fəaliyyətinin səviyyəsini müəyyən edir. Hazırda elmin iqtisadi inkişafda müsbət və zəruri amil kimi rolu biznes və hökumət nümayəndələri tərəfindən etiraf olunmağa başlanmışdır. Məhz bu baxımdan biznes və hökumət nümayəndələri belə nəticəyə gəlmişlər ki, inkişaf etmiş elm olmadan innovasiya prosesinə başlamaq olmaz və o, sistemli şəkildə həyata keçirilən, sistemli innovasiya fəaliyyəti xarakterini qazana bilməz. Rəqabət qabiliyyətini təmin etməyə çalışan biznes strukturları yeni texnologiyalara ehtiyac duyurlar. Texnoloji innovasiyaya ehtiyac təkcə yüksək texnologiyalı sənaye sahələrində deyil, eyni zamanda, neft və qaz hasilatı və s. sahələrində də duyulur. Odur ki, elmin bütün sahələrində elmi tədqiqat işlərinə tələbat artır. Bu zaman aparıcı elmi məktəblərin qorunub saxlanmış elmi potensialı innovativ fəallığın artmasında həlledici amillərdən biri kimi çıxış edir.

İnfrastrukturun inkişafı əsasən innovasiyaların sürətini və miqyasını müəyyən edir. Xarici təcrübənin təhlili göstərir ki, innovasiya prosesi texnoparkların, biznes inkubatorlarının və texnoloji innovasiya zonalarının inkişafı hesabına geniş vüsət alır (7). Azərbaycanda bu cür institusional fəaliyyət formalarının formalaşması prosesi çətinliklərlə müşayiət olunur. Belə ki, innovasiyaların yaradılmasının texnoparkların başlıca işgüzar vəzifəsi olduğu bir şəraitdə onların hamısı rəqabət mübarizəsində ayaqda qala bilmir. Kəskin rəqabət şəraitində kifayət qədər kadr və intellektual ehtiyata malik olan strukturların yaşamaq şansı böyükdür.

Təhsil sisteminin vəziyyəti əsasən biznesin innovasiya fəaliyyətinin səviyyəsini müəyyən edir. Qeyd edək ki, aparılan islahatlar nəticəsində son illər respublikamızda formalaşmış təhsil sistemi sayəsində Azərbaycan cəmiyyəti intellektual əməyə olan həvəsini itirməmiş və ixtisaslı kadrlar yetişdirmək qabiliyyətini saxlamışdır. Lakin bütün bunlara baxmayaraq qeyd edək ki, haliyədə Azərbaycan təhsil sisteminin cəmiyyəti və iqtisadiyyatı yeniləmək qabiliyyəti yetərli səviyyədə deyildir. Təhsil ekspertləri və mütəxəssislərinin fikrincə, məzunları dövlət diplomu ilə təmin edən ali məktəblərin sayı artsa da, təhsilin keyfiyyəti aşağı düşmüş və ixtisaslı kadrların hazırlanmasında maraqlı olmayan bir sıra təhsil müəssisələri fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanın sənaye sektorunda fəaliyyət göstərən biznes strukturları üçün ixtisaslı işçilər hazırlayan bir çox peşə məktəbinin bağlanması təhsil sisteminin strukturunun mənfi yöndə dəyişməsinə səbəb olmuşdur. İxtisaslı işçi heyəti çatışmazlığı respublikamızın əmək bazarında qeyri-mütənasibliyin yaranması, bu səbəbdən yerli biznes strukturlarının innovativ prosesləri həyata keçirə bilməməsi ilə müşahidə olunur.

İnnovasiya sahəsində idarəetmə üzrə kadrların hazırlanması məsələsi müasir dövrümüzün ən mühüm problemlərindən biridir. Respublikamızda Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Respublikası prezidenti yanında Ali İdarəetmə Akademiyası, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil ocaqları innovasiya üzrə mütəxəssislərin hazırlanması prosesini gücləndiriblər. Eyni zamanda innovasiya fəaliyyətinin, innovasiya infrastrukturunun inkişafı və kadr hazırlığı məsələləri müxtəlif icra hakimiyyəti orqanları tərəfindən regionların innovativ inkişafı proqramlarının həyata keçirilməsi üçün kadrlara olan real ehtiyacları öyrənmədən və öz fəaliyyətlərini öz aralarında əlaqələndirmədən həll edilir. Buna görə də bu fəaliyyət sistemli xarakter daşımır və bir qayda olaraq sahənin dar insan qrupunun təşəbbüskar hərəkətləri ilə əlaqələndirilir.

Bu sahədə Azərbaycan iqtisadiyyatının innovativ fəaliyyətini məhdudlaşdıran mənfi şərt və amillər formalaşmışdır:

- innovasiyalar sahəsində idarəetmə üzrə mütəxəssislərin davamlı hazırlığı sisteminin inkişafı strategiyasını hazırlayan, onun həyata keçirilməsini təşkil edən, bu sahədə monitorinq aparan və işin nəticələrinə görə məsuliyyət daşıyan vahid mərkəz və müvafiq regional strukturların mövcud

olmaması;

- innovasiyalar sahəsində idarəetmə üzrə mütəxəssislərin davamlı hazırlanması prosesinin hüquqi və normativ-metodiki təminatında əhəmiyyətli boşluqların olması;
- regionlarda innovasiya fəaliyyətini idarə etmək üçün kadrlara olan tələbatın qiymətləndirilməsi istiqamətində işlərin aparılmaması;
- innovasiya fəaliyyəti üzrə təhsil infrastrukturu qurumları ilə kadr istehlakçıları (işəgötürənlər) arasında əlaqənin yoxluğu;
- innovasiya üzrə mütəxəssislərin hazırlığının keyfiyyətini idarə etmək məqsədilə onların sertifikatlaşdırılması (attestasiyası) sisteminin yaradılması üçün heç bir yanaşmanın hazırlanmaması.

Ümumiyyətlə, təhsil sistemində düşünülmüş islahat, xüsusən də innovasiyaların idarə edilməsi üzrə mütəxəssislərin hazırlanması ölkə iqtisadiyyatının innovativ fəallığını əhəmiyyətli dərəcədə artıra bilər.

Bu şəraitdə ölkə sənayesinin biznes strukturlarında innovasiya fəaliyyəti elə qurulmalıdır ki, biznes subyektləri kənar dəstək almadan öz innovasiya potensialının genişlənməsinə maksimum diqqət yetirsin. Bu problemi həll etmək üçün xarici mühitin mənfi amillərini kompensasiya etməli və Azərbaycan iqtisadiyyatının xarici imkanlarından maksimum istifadə etməli olan biznes strukturlarında innovasiyaların təkrar istehsalının idarə edilməsinin təşkilati mexanizmini hazırlamaq, həmçinin təkmilləşdirmək lazımdır.

İnnovasiyanın mahiyyəti və mexanizmini başa düşmək Azərbaycanın biznes strukturlarının innovasiyaların tətbiqi prosesində həll etməli olduğu vəzifələrin əhatə dairəsini müəyyənləşdirir. İnnovasiyanın mahiyyətinin düzgün başa düşülməməsi, innovasiya zəncirində təşkilati amillərin lazımi səviyyədə qiymətləndirilməməsi innovasiya proseslərinin gedişinə və nəticələrinə mənfi təsir göstərən və onların riskliliyini artıran amillərdir. Saxlanılan intellektual potensiala baxmayaraq Azərbaycan yüksək texnologiyalı məhsullar bazarında lider mövqe tutmur. Bu da kommersiya təşviqinin aşağı səviyyəsi, ölkəmizdəki "texnoloji işləmələrin" yetkinlik səviyyəsinə qədər inkişaf etməməsi və daxili bazarda inkişaf etmiş daxili ödəmə qabiliyyətli tələbin olmaması ilə əlaqələndirilir. Hazırda elm sahəsində elmi biliklərin kommersiyalaşdırılması mexanizmləri praktiki olaraq mövcud deyil və təhlil biznes strukturlarının innovasiya prosesində hansı çətinliklərlə üzləşə biləcəyini göstərir. İnnovasiya fəaliyyətinin maliyyələşdirilməsi məsələlərinə yalnız subsidiyalar və subvensiyalarla bağlı praktik fəaliyyətdə innovasiyalardan istifadə nəticəsində əldə edilən kommersiya gəlirlərinə diqqət yetirilmədən toxunulur.

Biznes strukturlarında innovasiyaların təkrar istehsalının idarə edilməsinin təşkilati mexanizmi formalaşdırılarkən innovasiya fəaliyyətini çətinləşdirən və onun qarşısını alan amillər nəzərə alınmalıdır. Hazırda dövlət strategiyasının mövcud uyğunsuzluğu daha çox innovasiya proseslərinin idarə olunması mexanizminin formalaşdırılması nəzəriyyəsinin olmaması ilə bağlıdır. İnnovasiya sahəsində Azərbaycan iqtisadiyyatına xas olan riskləri iki qrupa bölmək olar:

1. innovasiyaların təhlili və idarə edilməsi üçün heç bir metodologiya və məlumat olmayan tam qeyri-müəyyənliklə əlaqəli risklər;
2. bazar iqtisadiyyatı şəraitində xarici mühitin dinamikasının gözlənilməzliyi ilə bağlı risklər (3).

Birincini innovasiyanın həyata keçirilməsi prosesinin təşkilati təminatının formalaşması və inkişafına elmi yanaşmalar hazırlamaqla aradan qaldırmaq olar. İkinci isə biznes strukturlarında innovasiyaların idarə edilməsinin təşkilati üsullarının tərkib hissəsi olaraq qalır. Bunlar birlikdə biznes strukturlarında innovasiyaların təkrar istehsalının idarə edilməsinin təşkilati mexanizmini təşkil edir.

Tərəfimizdən aparılan araşdırmalar göstərir ki, Azərbaycanın əksər elmi mərkəzləri və texniki universitetləri kommersiyalaşmanı yalnız büdcə vəsaitlərinin cəlb edilməsi imkanları kimi başa düşür, elmi işlərdən kommersiya gəlirləri əldə etmək isə onların maraq dairəsindən kənardadır. Azərbaycan iqtisadiyyatında innovasiya fəaliyyətinin infrastrukturu yenicə formalaşmağa başlayır. Buna görə də innovasiya infrastrukturu müəssisələrinin fəaliyyətinin təşkilində kifayət qədər effektiv tövsiyələr və praktiki təcrübə hələ də yoxdur. İnnovasiya fəaliyyətinin metod və alətlərinin işlənib hazırlanması üçün konseptual aparatın formalaşması və sistemləşdirilməsi olan innovasiya

proseslərinin mahiyyətindən çıxış etmək lazımdır. İnnovasiya sferasında təhsil sisteminin təkmilləşdirilməsinə yanaşmanın əsasını təşkil edən elmi-nəzəri bazanın üstünlüyüdür. Burada innovasiya fəaliyyətinin idarə edilməsində mütəxəssislərin səriştəsi idarəetmə obyekti kimi çıxış edən innovasiya proseslərinin mahiyyətindən və məzmunundan irəli gəlməlidir. Buna görə də elmi tədqiqatın əsas vəzifəsi innovasiya fəaliyyətinin kompleks nəzəri modelinin formalaşdırılmasıdır.

İnnovativ fəaliyyətin təşkilinə mövcud yanaşmalar fərdi innovasiyaların həyata keçirilməsi ilə əlaqədar onun diskretliyinə əsaslanır. Bu modellər, ilk növbədə, Azərbaycanda və xaricdə ən çox istifadə olunan layihə yanaşmasını əhatə edir. Bununla belə innovasiya fəaliyyətinin amillərinin, onun həyata keçirilməsi şərtlərinin təhlili yuxarıda göstərildiyi kimi bu modelin əsas çatışmazlığını - innovasiyanın işə salınması mexanizminin olmadığını nümayiş etdirir. İnnovasiya fəaliyyətinin layihə modelini həyata keçirmək üçün məcburedici amil - innovasiya prosesinə təşəbbüs göstərən idarəetmə subyektinin təsiri lazımdır. Bu subyektiv amil olmadıqda, biznes strukturunun innovativ fəaliyyəti azalır, innovativ proseslər dayanır. Bu baxımdan idarəetmə subyektindən asılı olmayan alternativ innovativ fəaliyyət modelinin tapılması vəzifəsi qarşıya çıxır. İqtisadiyyatda innovasiya prosesinin davamlılığını və bərpasını təmin edən model reproduktiv model adlanır. Buradan belə bir qənaətə gələ bilərik ki, innovasiyaların idarə edilməsi nəzəriyyəsi və praktikasının əsas vəzifəsi biznes strukturlarında innovasiyaların təkrar istehsalının idarə edilməsi mexanizminin formalaşdırılmasıdır.

Son olaraq qeyd edə bilərik ki, innovasiyaların təkrar istehsalının idarə edilməsinin təşkilati mexanizminin formalaşdırılmasına yanaşmanın elmi-nəzəri əsaslandırılmasının işlənib hazırlanması bütün təsərrüfat subyektlərinin və bütövlükdə xalq təsərrüfatının innovativ fəaliyyətinin artımının stimullaşdırılmasının əsas vəzifəsidir. Azərbaycanın iqtisadi siyasətinin əsas vəzifəsini həll etmək üçün şərt kimi xidmət edən faktor – “bilik iqtisadiyyatı” və ya “innovasiya iqtisadiyyatı”nın formalaşmasıdır.

## ƏDƏBİYYAT


1. Гунин В.Н., Киселев Б.Н., Ляпина С.Ю. Теория инноваций и практика инновационной деятельности: проблемы и направления развития. Сборник «Инновации в науке, образовании и производстве: Труды СПбГТУ», №492, СПб., СПбГПУ, 2004, стр. 79-89.
2. Ляпина С.Ю. Методология управления рисками стратегического развития промышленных организаций в условиях рынка. Монография. ч.1, М., Паруса, 2003, 148 стр.
3. Ляпина С.Ю. Методология управления рисками стратегического развития промышленных организаций в условиях рынка: Монография. ч.2, М., Паруса, 2006, 200 стр.
4. Мамедов А.Ю. Экономика гражданского мира. Экономический вестник Ростовского государственного университета, Том 5, № 2, 2007, стр. 5-7.
5. Соколова Л.В. Регулирование инновационного процесса. Учебное пособие для вузов. М., ЗАО «Финстатинформ», 2019, 157 стр.
6. Управление организацией: Энциклопедический словарь. М., ИНФРА-М, 2001, 822 стр.
7. Freeman C., Louca F. As Time Goes By: From Industrial Revolutions to Information Revolution, Oxford, Oxford University Press, 2002, 432 page.

## SUMMARY

**Jeyhun Mahmudov, Nihad Mahmudov**

**CONDITIONS FOR INCREASING INNOVATION ACTIVITY TO ENSURE BUSINESS COMPETITIVENESS**

**The purpose of the research .** Currently, the task of increasing the level of innovative activity of economic entities and managing the factors limiting its growth is of particular importance in the economy of Azerbaijan, which is related to the task of eliminating the dependence of the national economy on raw materials and transitioning to efficient economic development based on the mobilization of the innovative potential of a wide range of business structures. Thus, the main goal of our research in the article is to substantiate the scientific approach to the formation of the organizational mechanism of managing the reproduction of innovations in business in order to achieve the competitiveness of business structures in the conditions of market relations.

**The methods of the research.** a combination of logical, economic-mathematical, empirical methods, as well as comparative and situational analysis methods have been used.

**The results of the research**. The following are the most important scientific results that have scientific innovation and include the growth of scientific knowledge in the appropirate field:

- scientific and practical recommendations for improving the profile of their technological capabilities in order to help increase the level of business competitiveness by increasing the innovative potential of business structures;
- the concept of reproduction of innovations as a continuous process that ensures the innovative development of business structures in the competitive market is explained and its connection with the main categories of innovation theory and scientific management is shown.

**The practical significance of the research**. It consists in the development of scientific and methodological recommendations aimed at increasing the innovative activity of business structures based on the development of theoretical provisions in the field of reproduction of innovations.The obtained scientific results aim to form the organizational mechanism of innovation reproduction management in business structures, which ensures the rise of their innovative activity and increase of competitiveness in market conditions.

**Originality and scientific novelty of the research** is in the development of scientific-methodological provisions and recommendations for the formation of a management mechanism for the reproduction of innovations in these structures in order to ensure the competitiveness of business structures.

***Key words:*** *business, business entities, innovation activity, innovation*



## РЕЗЮМЕ

**Джейхун Махмудов, Нихад Махмудов**

**ДЛЯ ОБЕСПЕЧЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ БИЗНЕСА УСЛОВИЯ ПОВЫШЕНИЯ ИННОВАЦИОННОЙ АКТИВНОСТИ**

Цель исследования. В настоящее время задача повышения уровня инновационной активности хозяйствующих субъектов и управления факторами, ограничивающими ее рост, имеет особое значение в экономике Азербайджана, что связано с задачей ликвидации сырьевой зависимости национальной экономики и перехода к эффективному экономическому развитию на основе мобилизации инновационного потенциала широкого круга бизнес-структур. Именно с этой точки зрения основной целью нашего исследования в статье является обоснование научного подхода к формированию организационного механизма управления воспроизводством инноваций в бизнесе для достижения конкурентоспособности бизнес-

структур в условиях рыночных отношений.

Метод исследования заключается в использовании сочетания логических, экономико-математических, эмпирических методов, а также методов сравнительного и ситуационного анализа.Результаты исследования. Ниже приведены наиболее важные научные результаты, имеющие научную новизну и включающие в себя рост научных знаний в исследуемой области:

- предложены научно-практические рекомендации по совершенствованию профиля своих технологических возможностей в целях содействия повышению уровня конкурентоспособности бизнеса за счет повышения инновационного потенциала бизнес-структур;

- разъяснено понятие воспроизводства инноваций как непрерывного процесса, обеспечивающего инновационное развитие бизнес-структур в условиях конкурентного рынка и показана его связь с теорией инноваций и основными категориями научного менеджмента.

Практическая значимость исследования заключается в разработке научно-методических рекомендаций, направленных на повышение инновационной активности бизнес-структур на основе разработки теоретических положений в области воспроизводства инноваций. Полученные научные результаты направлены на формирование организационного механизма управления воспроизводством инноваций в бизнес-структурах, обеспечивающего повышение их инновационной активности и повышение конкурентоспособности в рыночных условиях.

Оригинальность и научная новизна исследования заключается в разработке научно-методических положений и рекомендаций по формированию механизма управления воспроизводством инноваций в этих структурах в целях обеспечения конкурентоспособности бизнес-структур.

***Ключевые слова:*** *бизнес, хозяйствующие субъекты, инновационная деятельность, инновационный процесс, конкурентоспособность*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr  2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 103-106
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 103-106
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 103-106

**CAVADXAN QASIMOV**
*cavadxan.yusifoglu@ndu.edu.az*
**SAMİR CƏFƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*samirceferov@mail.ru*

**UOT: 338**

# MİLLİ İQTİSADİ İNKİŞAFDA TANAP VƏ TAP LAYİHƏLƏRİNİN ƏHƏMİYYƏTİ

*Məqalədə Azərbaycan Respublikasının müstəqillik illərində neft və qeyri-neft sektorlarının davamlı inkişafı sahəsində həyata keçirdiyi layihələrdən söz açılmışdır. Göstərilmişdir ki, 1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması ilə birlikdə, həmçinin, neft və qeyri-neft bölməsinin əlaqəli inkişaf perspektivləri müəyyən olunmuşdur. Bütün bunlar, ölkənin neft və qaz yataqlarının konsorsium əsasında işlənməsinin olduqca mühüm tərəflərini ifadə etməkdədir. "Əsrin Müqaviləsi"ndən keçən zaman ərzində onun strateji layihələrindən hesab olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk, Bakı-Supsa neft boru kəmərlərinin çəkilməsi və həmin proseslərin ardıcıllığında isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi ölkəmizin yeni iqtisadi inkişafı mərhələsinin güclü dayaqlarını yaratmışdır. Artıq bu dövrdən sonra, ölkəmizin müəllifi olduğu layihələr, dünyanın yeni enerji xəritəsinin təşəkkül tapmasına zəmin yaratmışdır. Təbii olaraq, bunlar, Azərbaycan qazının Avropa bazarlarına çatdırılmasını hədəf olaraq götürmüş olan TANAP və TAP layihələrinin həyata keçirilməsindən ibarət olmaqla reallaşmış oldu.*

***Açar sözlər*: *"Əsrin Müqaviləsi", Trans Anadolu Boru Kəməri, Trans Adriatik Boru Kəməri, neft boru kəmərləri, dünya bazarı, təbii resurslar***

Azərbaycan Respublikası müasir bazar iqtisadi münasibətlərinə keçidin olduqca məhsuldar mərhələlərini yaşamaqdadır. Çoxistiqamətli hüquqi tənzimləmələr əsasında təşəkkül tapan bu mərhələlər, təbii ehtiyatların qiymətləndirilməsi, onlardan istifadə meyarlarının müəyyən olunması və makroiqtisadi inkişafın təmin olunmasında onun səmərəli nəticələrinin ortaya qoyulması aktuallığına görə seçilmiş oldu. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi müdrikliyi nəticəsində ötən yüzilliyin 90-ci illərinin ortalarında imzalanan "Əsrin Müqaviləsi" bu sahədə etibarlı başlanğıc rolunu oynamış oldu. Qərbin neft şirkətləri və Xəzər dənizinin Azərbaycan soktorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşmiş olan hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında saziş imzalandı. Qeyd etmək olar ki, hər üç yatağın neft ehtiyatları 511 milyon ton qiymətləndirilir ki, onun da 253 milyon tonu Azərbaycan Respublikasına çatmalıdır (2, s.144).

Məhz həmin tarixdən başlayaraq, Azərbaycan öz təbii resurslarını dünya iqtisadiyyatının da humanizm dəyərlər əsasında inkişaf etməsi üçün təklif etmiş oldu. 1994-cü il 20 sentyabr tarixində "Gülüstan" Sarayında imzalanmış olan "Əsrin Müqaviləsi"nin siyasi və hüquqi mahiyyəti ilə yanaşı, eyni zamanda, beynəlxalq səviyyəli nəticələrini də qeyd etmək yerinə düşər. Hər şeydən əvvəl, bu, Azərbaycan dövlətinin qısa müddət ərzində:

- ictimai və siyasi sabitliyinin təmin olunmasının gerçək ifadəsini özündə əks etdirməkdə idi;
- milli iqtisadiyyatının çoxşaxəliliyinə etibarlı təminat demək idi;
- həmin dövr üçün atəşkəsin yenicə bərqərar olunduğu mərhələdə dövlət müstəqilliyimizə və ərazi bütövlüyümüzə dünya ölkələrinin dəstək mesajı idi;
- neft sektorunun inkişaf perspektivlərinin müəyyən olunması ilə, daha müqavimətli iqtisadiyyata doğru etibarlı bir addım idi;
- iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında başlanıc mərhələnin əsaslarının yaradılması idi;
- bütün tərəfləri ilə milli iqtisadiyyatın uzunmüddətli hədəf və prioritetlərinin əlçatan olmasında zəruri addımların atılması idi;

- sadalanan məsələlərin başlanması və reallaşmasından ibarət olan tədbirlərin müəllifi olaraq milli liderin müdrikliyini bir daha bəyan edirdi.

Dəyəri 14 milyard dollar olan (1, s.320) "Əsrin Müqaviləsi"nin imzalanmasından keçən müddətlər ərzində nəinki Azərbaycan Respublikası Cənubi Qafqazda, hətta bütövlükdə, dünya iqtisadiyyatı miqyasında enerji layihələrinin həyata keçirilməsinə öz töhfələrini verdi və ümumilikdə, dünyanın yeni enerji xəritəsinin yaranmasına təminat yaratmış oldu. Həmin dövrdən başlayaraq ölkəmizin həyata keçirilmiş olan əsas ixrac boru kəmərlərini belə qeyd etmək olar.

- Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri. 2006-cı il tarixində istismara verilmişdir. Ümumi uzunluğu 1768 kilometr olan BTC-nin 443 kilometri Azərbaycan, 249 kilometeri Gürcüstan və 1076 kilometri isə Türkiyə ərazisindən keçməkdədir.

- Bakı-Novorossiysk neft boru kəmərinin uzunluğu 1347 kilometr təşkil etməkdədir. Həmin göstəricinin 231 kilometri Azərbaycan Respublikasının, 1116 kilometri isə Rusiya Federasiyasının ərazisindən keçməkdədir.

- Bakı-Supsa neft boru kəməri. Həmin boru kəmərinin istismara verilməsi, 1999-cu ilin aprelində mümkün olub. Onun ümumi uzunluğu 833 kilometr olmaqla, onun 456 kilometri Azərbaycanın ərazisindən keçməkdədir (6).

Azərbaycan neftinin bəhs olunan boru kəmərləri vasitəsilə dünya bazarına nəqlinin təmin olunması ilə yanaşı, onun qaz ehtiyatlarının da dəyərləndirilməsi və bu sahə üzrə marşrutların çəkilməsini də aktual məsələ olaraq diqqətdə saxlayan ölkəmiz 1999-cı ildə bu sahədə də mühüm mərhələnin əsaslarını qoymuş oldu. Belə ki, həmin tarixdə "Şahdəniz" qaz-kondensat yatağının tapılmasından sonra həmin layihə əsasında təbii qaz resurslarından istifadə perspektivləri ələ alındı. Onun Bakı-Tbilisi-Ərzurum (BTƏ) xətti ilə qardaş Türkiyə Cümhuriyyətinin bazarına çatdırılması məqsədilə yeni magistral qaz kəmərinin tikilməsinə dair "Şahdəniz" Konsorsiumunda təmsil olunan tərəflər vasitəsilə müvafiq qərar da qəbul olunur. Bu marşrut əsasında magistral boru xəttinin inşa olunması proseslərinin təmin olunması və düzgün yönləndirilməsi üçün "Şahdəniz" Konsorsiumu vasitəsilə 2003-cü il tarixdə "Cənubi Qafqaz Boru Kəməri" (CQBK) layihəsi təsis olunur və həmin ad altında da şirkət fəaliyyətə başlamış olur (7).

CQBK BTC neft boru xətti istiqamətinə paralel olaraq inşa olunub. Həmin layihənin başlanması 2006-cı ildən etibarən mümkün olmuşdur və "Şahdəniz" layihəsinin I hissəsi əsasında ilk ixrac qazı boru xəttinə 2007-ci ilin birinci rübü ərzində vurulmuşdur. CQBK-nin ümumi uzunluğu 980 kilometr olub, 443 kilometri Azərbaycan Respublikasının, 248 kilometri Gürcüstan Respublikasının və 289 kilometri isə qardaş Türkiyə Cümhuriyyətinin ərazisindən keçməkdədir (5).

Göründüyü kimi, ölkəmiz regional və milli iqtisadi inkişafla bağlı olan tədbirlərin məqsədyönlü və düşünülmüş həyata keçirilməsi istiqamətində zəruri təsisatların yaradılmasına nail olmuşdur. Bu istiqamətdə təbii ehtiyatların dəyərləndirilməsi və ondan uzunmüddətli makroiqtisadi inkişaf üçün düzgün istifadə olunması məsələlərinə sistemli yanaşılması qarşıya qoyulan hədəflərin daha da əlçatan olmasına istiqamətlənmiş və bu sahədə, dayanıqlı təbii və iqtisadi baza formalaşdırılmışdır. Məhz bu əsasda da respublikanın neft və qeyri-neft sektorlarının inkişaf perspektivləri təmin olunmuşdur. Təbii olaraq, bütün bunlar isə, öz-özlüyündə sosial dayanıqlılıq göstəricilərinin artan dinamikada təşəkkülünə əsaslı zəmin yaratmaqdadır. Bu isə mahiyyət etibarı ilə üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan və s.) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayış olaraq dövlətin sosial siyasətinin çox mühüm meyarlarından birini ifadə etməkdədir (3, s.76).

Milli iqtisadiyyatın neft sektorunun müəyyən perspektivlərə malik olması sonrakı mərhələlərdə dünya bazarında Azərbaycan təbii sərvətlərinin yerini və əhəmiyyətini daha da artırırdı. Bu istiqamətlərdə Trans Anadolu Boru Kəməri (TANAP) və Trans Adriatik Boru Kəməri (TAP) layihələrinin olduqca mühüm əhəmiyyətini qeyd etmək yerinə düşər. Hər iki layihə mahiyyət etibarı ilə, Azərbaycan qazının Avropa bazarlarına nəql olunmasına təminat yaradan beynəlxalq iqtisadi layihələrdir. Bütün bunlar cəmiyyətin artmaqda olan təlabatının ifadə oluna bildiyi, insanların təhsilinin, sağlamlığının, dünyagörüşünün, mədəni keyfiyyətlərinin təmin olunduğu, ölkənin elmi-texniki inkişafı ilə müşayiət olunan iqtisadiyyatın səmərəlilik göstəricisi olaraq sosiallaşan iqtisadiyyatın mühüm tərəflərini özündə əks etdirməkdədir (4, s.31).

Azərbaycan qazının nəql olunmasını nəzərdə tutan meqaiqtisadi layihənin TANAP və TAP olmaqla, iki mərhələdən ibarət olduğunu görməkdəyik. TANAP layihəsinin istismara verilməsində əsas məqsəd Azərbaycan qazının Gürcüstan vasitəsi ilə Türkiyə-Yunanıstan sərhəddinə qədər aparılmasını nəzərdə tutur. Onun ümumi uzunluğu 1850 kilometr təşkil etməkdədir. TANAP, 30 iyun 2018-ci il tarixində istismara verilmişdir. Dövlət başçımız cənab İlham Əliyevin iştirakı ilə, 2019-cu ilin ikinci yarımilində, xüsusilə də, 30 noyabr tarixində həmin layihənin Avropaya inteqrasiya olunacağı bölməsinin açılışı gerçək olmuşdur. TANAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir və ilkin nəql etmə gücü il ərzində 10 milyard $m^3$ təşkil etmişdir (5). Bu sahədəki, məqsədyönlülük və tərəflərin qətiyyətli mövqeyi nəticəsində Azərbaycan qazının dolğun olaraq TANAP vasitəsilə, Avropa bazarlarına nəql olunması 31 dekabr 2020-ci il tarixində reallaşmış oldu.

Nəzərdə tutulduğu kimi, TANAP layihəsi, Türkiyə-Yunanıstan sərhədində Trans Adriatik Boru Kəmərinə (TAP) qoşulmuşdur. TANAP-ın istismara verilməsini təmin etmək məqsədilə Azərbaycan və Türkiyə dövlətləri üzrə Anlaşma Memorandumu imzalanmışdır. 2011-ci ilin 24 dekabr tarixində reallaşmış olan həmin razılaşma ölkələrimiz arasında növbəti strateji əməkdaşlığın mühüm nəticəsini ifadə etməkdədir. Dünya miqyaslı bu strateji layihənin hüquqi əsaslarının möhkəmləndirilməsi və daha da səmərəli nəticələrinin tənzimlənməsi məqsədilə, TANAP projesi üzrə Türkiyə Cümhuriyyəti ilə istər, TANAP şirkəti, istərsə də, Azərbaycan Respublikası arasında da razılaşma əldə olunmuşdur. Birinci razılaşma, "Tranzit Ərazisinə Malik Ölkənin Hökuməti ilə Saziş"dən ibarət olmaqla, növbəti anlaşma isə "Hökümətlərarası Saziş"lə davamlı xarakterə malik oldu. Bu əməkdaşlıq sənədi 26 iyun 2012-ci il tarixində rəsmiləşdi və ölkələrimiz üzrə müvafiq hüquqi strukturlar tərəfindən ratifikasiya olundu.

Ölkəmizin milli iqtisadiyyatının uzunmüddətli perspektivlərinin müəyyən olunması davamlı islahatların səmərəliliyinin artırılmasına xidmət etmiş, neft sektoru ilə yanaşı, eyni zamanda, qeyri-neft sektorunun da inkişaf istiqamətlərinin dəqiqləşdirilməsinə təminat vermişdir ki, bu da nəticə etibarı ilə makroiqtisadi şaxələndirmənin etibarlılığını daha da gücləndirmişdir. Məhz bu sahədə TANAP və TAP layihələrinin milli və beynəlxalq əhəmiyyətinin daha da yüksəldilməsini təmin etmişdir.

Qeyd etdiyimiz kimi, TANAP Türkiyə-Yunanıstan sərhədində birbaşa olaraq, ümumi uzunluğu 878 kilometr olan TAP-a qoşulmaqdadır. TAP-ın təməlqoyma tədbiri isə 17 may 2016-cı il tarixində mümkün olmuşdur. Qeyd etmək olar ki, hər iki projenin ümumi dəyəri 12 milyard dollar bərabər olmaqdadır (5).

Azərbaycan Respublikası bu layihələrin tam əsaslarla həyata keçirilməsindəki qətiyyətli tutumu ilə regionda və dünyada humanist dəyərlərə sadiq qaldığını, etibarlı qonşuluq və tərəfdaşlıq siyasətinin çox zəruri tərəfdaşı olduğunu bir daha bəyan etməkdədir. Dövlət başçımızın tarixi səfərləri və sülh mesajlarının verilməsi məhz bu layihələrin reallaşması ilə bir daha özünü təsdiq etmiş olur. Cari ilin 29 yanvar tarixində Macarıstana rəsmi səfəri zamanı bütün istiqamətlərlə yanaşı, enerji sahəsində də aktual nəticələrə söykənmiş olan razılaşmalar əldə olundu. Ölkəmizin Macarıstanla enerji sahəsindəki münasibətləri davamlı inkişaf perspektivlərinə sahib olmaqdadır. Xüsusilə, Cənub Qaz Dəhlizinin axırıncı bölməsi olan TAP xəttilə Avropaya nəql olunan qazın həcminin dəstəklənməsində Macarıstan strateji tutumuna və mövqeyinə görə fərqlənməkdədir. Həmin məsələlərdə Macarıstanın interkonnektorlar (birləşdiricilər) yolu ilə həmin dəhlizə inteqrasiya olunmasına ümid bəsləyirlər.

Bir qayda olaraq, Macarıstan həmin layihədə olmaqda maraqlıdır. Avropanın dörd ölkəsi, o cümlədən Slovakiya, Rumuniya, Bolqarıstan və Macarıstan Azərbaycan təbii qazının Avropaya nəqli üçün infrastrukturun inkişafına vəsait ayrılması xahişi ilə Avropa Komissiyasına müraciət etmişdir. Eyni zamanda, TAP-ın əhatəsinin genişlənməsi, bunun isə interkonnektorlar vasitəsilə təmin olunması məsələləri nəzərdə tutulmuşdur.

## ƏDƏBİYYAT


1. Alıyev İ. H., İbadov S. A. Azərbaycan iqtisadiyyati. Bakı: Ağrıdağ, 1999, 400 s.
2. Bəhərçi T. Neft müqavilələri və Azərbaycanın sosial-iqtisadi inkişafı. / "Azərbaycan XXI əsrin astanasında" mövzusunda elmi –praktik konfransın materialları. Bakı: 1998, s. 144-148.
3. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.
4. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2017, 184 s.

5. https://aqreqator.az/az/iqtisadiyyat/1232422
6. https://minenergy.gov.az/az/neft/baki-novorossiysk-neft-kemeri
7. https://www.socarmidstream.az/az/project/tap/#overview

## SUMMARY

**Javadkhan Gasımov, Samır Jafarov**

## IMPORTANCE OF TANAP AND TAP PROJECTS IN NATIONAL ECONOMIC DEVELOPMENT

In the article, the projects carried out in the field of sustainable development of the oil and non-oil sectors of the Republic of Azerbaijan in the modern years of independence are discussed. It has been shown that with the signing of the "Agreement of the Century" in 1994, the related development perspectives of the oil and non-oil sector were also determined. All these indicate the very important aspects of the development of the country's oil and gas fields on the basis of a consortium. The construction of the Baku-Tbilisi-Ceyhan, Baku-Novorossiysk, Baku-Supsa oil pipelines, which are among its strategic projects, and the commissioning of the Baku-Tbilisi-Erzurum gas pipeline in the sequence of those processes, are the powerful new stage of the economic development of our country. has created its foundations. Already after this period, the projects authored by our country created the foundation for the formation of a new energy map of the world. Naturally, these were realized by the implementation of the TANAP and TAP projects, which aimed to deliver Azerbaijani gas to the European markets.

***Key words:*** *"Deal of the Century", Trans Anatolian Pipeline, Trans Adriatic Pipeline, oil pipelines, world market, natural resources, etc.*

## РЕЗЮМЕ

**Джавадхан Гасимов, Самир Джафаров**

## ЗНАЧЕНИЕ ПРОЕКТОВ TANAP И TAP В НАЦИОНАЛЬНОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

В статье обсуждаются проекты, осуществленные в области устойчивого развития нефтяного и ненефтяного секторов Азербайджанской Республики в современные годы независимости. Показано, что с подписанием «Соглашения века» в 1994 г. определились и родственные перспективы развития нефтяного и ненефтяного секторов. Все это указывает на очень важные аспекты разработки нефтегазовых месторождений страны на основе консорциума. Строительство нефтепроводов Баку-Тбилиси-Джейхан, Баку-Новороссийск, Баку-Супса, входящих в число ее стратегических проектов, и ввод в эксплуатацию газопровода Баку-Тбилиси-Эрзурум в последовательности этих процессов, являются мощными новыми Этап экономического развития нашей страны создал его основы. Уже после этого периода авторские проекты нашей страны создали основу для формирования новой энергетической карты мира. Естественно, они были реализованы за счет реализации проектов TANAP и TAP, направленных на поставку азербайджанского газа на европейские рынки.

***Ключевые слова****: «Сделка века», Трансанатолийский трубопровод, Трансадриатический трубопровод, нефтепроводы, мировой рынок, природные ресурсы и др.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr  2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 107-112
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 107-112
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 107-112

**MƏHƏRRƏM BABAYEV**
*Gəncə Dövlət Universiteti*
*mahar.babayev.91@gmail.com*

**UOT: 338.**

# REGİONAL TƏNZİMLƏMƏNİN İQTİSADİ İNKİŞAFA TƏSİRİ

*Son illərdən Azərbaycanın əsaslandırılmış regional siyasət aparılması, regional iqtisadi siyasət aparılması, dövlətin iqtisadiyyatı tənzimləməsində regional iqtisadiyyatın idarə olunmasının əhəmiyyəti həm nəzəri metodoloji baxımdan, həm də təcrübəvi baxımdan xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Bütün bunlar heç də təsadüfi olmayıb, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, demokratik cəmiyyət quruculuğunun inkişafına da təkan vermişdir. Dünya iqtisadiyyatına inteqerasiyanın bu cür təsiri demokratik dövlətlərin təcrübəsində çoxdan sübut olunmuşdur.*

*Cəmiyyət iqtisadi inkişafa nail olduqca, ölkələr arasında inteqrasiya prosesləri, qarşılıqlı əlaqə və asılılıq artıqca dövlətin regional iqtisadiyyatın tənzimləmə mexanizmləri də genişlənir və inkişaf edir. Bu müdaxilə həm sahə, həm də ərazi miqyasında müxtəlif metodlardan (iqtisadi, siyasi, inzibati, mənəvi-psixoloji və i.a.) istifadə etməklə həyata keçirilir. Müasir dövrdə iqtisadiyyatın inkişafında, dövlətlərarası münasibətlərin nizama salınmasında, ölkənin ərazi tənzimləməsində regionların rolu daha da artmışdır. Bu səbəbdən demokratik dövlətlərdə ərazi miqyasında iqtisadiyyatın dövlət tənzimləməsinin mühüm istiqamətlərindən biri olmaqla, regional siyasət, iqtisadiyyatın tənzim və idarə olunması məsələləri getdikcə artaraq əhəmiyyət kəsb etmişdir. Göründüyü kimi beynəlxalq təcrübənin təhlili də göstərir ki, dayanıqlı iqtisadi inkişafın təmin edilməsində regionların rolu danılmaz faktdır. Məqaləmizdə bu davamlılığın təmin edilməsində regionların əhəmiyyəti təhlil edilmiş və regional tənzimləmənin iqtisadi inkişafa təsirinin əhəmiyyəti öz əksini tapmışdır.*

***Açar sözlər:*** *region, tənzimləmə, iqtisadiyyat, inkişaf, dövlət, regional, siyasət, mexanzim*

Azərbaycan Respublikasının davamlı və dinamik iqtisadi inkişafını təmin edən ən vacib amillərdən biri regionların balanslı və proporsional sosial iqtisadi inkişafına nail olunmasıdır. Tək Azərbaycanda deyil beynəlxalq təcrübədə də, hər bir ölkənin sistematik, davamlı və balanslı şəkildə inkişaf etməsini müəyyən edən ən vacib göstəricilərdən biri ölkə regionların iqtisadi və sosial inkişaf səviyyəsi hesab edilir. Regionların davamlı iqtisadi inkişafının təmin edilməsi birbaşa dövlətin yerinə yetirdiyi milli iqtisadi mexanizmlərin tərkib hissəsi kimi çıxış edən regional iqtisadi mexanizmlərdən əhəmiyyətli dərəcədə asılıdır. Hal-hazırda beynəlxalq təcrübədə dövlətin regional siyasəti dövlətlə ölkə regionları və regionların öz aralarında iqtisadi əlaqələrini göstərməklə ümumilikdə ölkə miqyasında və regional miqyasda ölkənin iqtisadi və sosial inkişafının idarə edilməsi fəaliyyəti kimi qəbul olunur. Bunlardan başqa, dövlətin ümumi həyata keçirdiyi iqtisadi siyasətlə regional iqtisadi siyasət bir-biri ilə qarşılıqlı şəkildə tamamlanmalıdır. Dövlətin iqtisadi siyasəti iqtisadi və sosial inkişafın əsas məqsədlərinə çatmaq yolunda meydana gələn problemlərin həll edilməsinə, respublikanın və onun hər hansı bir regionunun rifahının təmin edilməsinə istiqamətlənirsə, dövlətin regional siyasəti ölkə regionlarının iqtisadi və sosial inkişafının səmərəli idarə edilməsinə dəstək verməlidir. Beynəlxalq təcrübədən də məlumdur ki, regionların iqtisadi inkişafını təmin etmədən ölkə iqtisadiyyatında iqtisadi inkişafa nail olmaq, həmçinin məhsuldar qüvvələri inkişaf etdirmək mümkün deyildir. Müasir bazar iqtisadi sistemində dövlətin regional siyasətinin reallaşdırılması və regional iqtisadi inkişafın dayaqlarının formalaşdırılması ölkə iqtisadiyyatının müsbət və balanslaşdırılmış iqtisadi inkişafını təmin etməyin əsas istiqamətlərindən biridir.

Müxtəlif səpkili ədəbiyyatlarda “region” məfhumuna verilmiş çox müxtəlif təriflərə rast gəlmək mümkündür. Buna misal olaraq, E.B.Alayevin verdiyi tərifə əsasən region səmərəli ixtisaslaşmaya sahib ərazi-istehsal kompleksidir. N.N.Nekrasovun fikrincə isə region dedikdə ölkə ərazisinin hər hansı bir təbii iqlimə və təbii ehtiyatlar kompleksi əsasında birləşmiş istehsal güclərinin məxsusi istiqamətinə müvafiq olaraq mövcud və perspektiv maddi-texniki əsasa, istehsal və sosial infrastruktura sahib böyük bir hissəsi anlaşılır. P.Ceyms və C.Martin bu haqda yazırlar ki, “adətən region dedikdə əsasında ərazinin müəyyən bircinsliliyi ilə seçilən, ancaq dəqiq hüdudlara sahib olmayan bir hissəsi anlaşılır”. Şimali Karolina universitetinin professoru Vufter bu haqda qeyd edir ki: “Rayon – hüdudları içərisində təbii və iqtisadi faktorlar iqtisadi, sosial struktur homogenliyi formalaşdırmış olduğu ərazi hissəsidir”. Beynəlxalq miqyasda regionlarla əlaqədar N.M.Mejeviç vurğulayır ki, hər hansı bir ittifaqda təmsil olunan dövlətlərin region adlandırılması üçün aşağıda verilən amillərin və ya bu amillərin bir qisminin mövcud olması gərəkdir (1, s.35).

Ölkə regionlarının dayanıqlı, rəqabətqabiliyyətli və diversifikasiya olunmuş şəkildə inkişafı dövlətin regional siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə və ayrı-ayrı regionlarda makroiqtisadi stabillik və davamlı iqtisadi inkişaf üçün uyğun şərait formalaşdırmışdır. Bunun nəticəsində geniş sahibkarlar təbəqəsi yaranmış, regionların iqtisadi və sosial inkişafında özəl sektorun rolu bir qədər də yüksəlmiş və ölkənin beynəlxalq iqtisadi sistemə inteqrasiyası sahəsində əhəmiyyətli nailiyyətlər qazanılmışdır. Reallaşdırılan iqtisadi islahatlar konteksində regional siyasət beynəlxalq iqtisadi çağırışlara uyğun olaraq müasir konseptual yanaşmalarla daha da inkişaf etdirilmiş, iqtisadi prioritetlərə uyğun azad bazar münasibətlərinin və əlavə dəyər yaratmaq qabiliyyətinə malik olan sosialyönümlü, şaxələndirilmiş milli iqtisadiyyatın inkişaf etdirilməsi təmin olunmuşdur. Aparılan iqtisadi siyasət tədbirləri nəticəsində makroiqtisadi vəziyyət yaxşılaşmış, qeyri-neft sektorunun və ümumilikdə regionların kompleks inkişafı möhkəmlənmiş, strateji valyuta ehtiyatlarından optimal istifadə mexanizmi təmin edilmiş, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi intensivləşdirilmiş, səmərəli investisiya mühiti yaranmış, əhalinin sosial durumu dinamik şəkildə yaxşılaşmışdır (2).

Qeyd edilənlərdən də göründüyü kimi ölkə iqtisadiyyatının sürətli inkişafında regional iqtisadi siyasətin rolu danılmaz faktdır. Belə ki, regional iqtisadi siyasət dedikdə region iqtisadiyyatının səmərəli idarə edilməsi kimi məslələr nəzərdə tutulur. Regional iqtisadiyyatın idarə edilməsi ölkə iqtisadiyyatının optimal idarə edilməsinin əsas tərkib hissələrindəndir və müstəqil sahə kimi 3 obyektiv prosesin qarşılıqlı təsiri nəticəsində formalaşır. Bu prosesləri aşağıdakı kimi ifadə etmək olar:

- ərazi əmək bölgüsünün inkişafı və regional iqtisadiyyatın formalaşması;
- istehsalın idarə olunmasının insan fəaliyyətinin müstəqil sahəsinə çevrilməsi;
- idarəetmənin ümumi sisteminin sahə və ərazi yarımsistemlərinə bölünməsi (3, s.16).

Ümumiyyətlə, regionun mahiyyəti, formalaşması xüsusiyyətlərini müəyyən etmək üçün, regional ərazinin mahiyyətini, cəmiyyətin yaşamasını və təsərrüfat fəaliyyətində rolunu müəyyən etmək vacibdir. Regional tənzimləmənin məzmun və funksiyalarının dərk edilməsi üçün ərazinin insan cəmiyyətinin iqtisadi münasibətləri inkişafında oynadığı rolunu araşdırmaq, eyni zamanda öyrənmək lazımdır.

Müasir bazar iqtisadiyyatında dövlət tənzimləməsi həm sahə, həm də region miqyasında həyata keçirilir. Belə ki, regional iqtisadiyyatın tənzimlənməsi regionlarda iqtisadi proseslərə və iqtisadi obyektlərə məqsədyönülü təsirdir. Hansı ki, bu təsir nəticəsində dövlətin iqtisadi inkişafa nail olmaq üçün müəyyən qrup iqtisadi tənzimləmə mexanizmlərindən istifadə olunur. Qeyd edilənlərdən də göründüyü kimi regional iqtisadiyyatın tənzimlənməsi iqtisadiyyatın əsas mühüm tərkib hissələrindən biridir. Xüsusən də bazar iqtisadiyyatına yeni qədəm qoymuş ölkələrdə regional iqtisadi inkişafın dövlət tənzimlənməsi məsələlərinin həllinə diqqətlə yanaşılmalıdır.

Son dövrdə müstəqillik əldə edən ölkələrdən biri kimi Azərbaycanda da ümumi iqtisadi inkişafa nail olunmasında regional iqtisadiyyatın tənzimlənməsi məsələsi vacib amilərdəndir. Tarixən ölkəmizdə ərazi tənzim və idarə edilməsinin 3 pilləli (üç səviyyəli) geniş şəbəkəsi formalaşmışdır ki,

bunlar aşağıdakılardır:

1. bütövlükdə ölkə üzrə təsərrüfat kompleksinin ərazi idarə olunması;
2. ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin ərazi idarə olunması;
3. ölkənin regionlar üzrə təsərrüfat kompleksinin idarə olunması. (3, s.45)

Regionların iqtisadi inkişafının müəyyən edilməsində müvafiq meyarlar və bu meyarları ölçən göstəricilər sistemi qurulur. Bu meyyarlar müəyyən edilərkən ölkələrin və regionların müxtəlif olmasına baxmayaraq beynəlxalq təşkilatlar arasında bəzi universal inteqral göstəricilər qiymtələndirilir. Bu universal göstəricilərin əsas nümunələrindən biri də BMT-nin inkişaf proqramı çərçivəsində işlənib hazırlanmış "insan inkişafı" indeksidir. İnsan inkişafı indeksindən başqa digər analoji göstəricilərdən də istifadə olunur. Eyni zamanda regional iqtisadi inkişafa təsir göstərən müxtəlif istisna göstəricilərdən də istifadə olunur ki, bunalara daxildir:

a) əhalinin hər nəfərə düşən milli gəliri;
b) müxtəlif maddi nemətlərin istehlak səviyyəsi;
c) gəlirlərin differensillaşması dərəcəsi;
d) yaşama müddəti;
e) təhsil səviyyəsi;
f) əhalinin xoşbəxtlik dərəcəsi;
g) xidmət sferasının inkişafı;
h) region əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi (1, s.11).

Regionların iqtisadi inkişaf məsələsi iqtisadi ədəbiyyatlara daxil olan dövrdən indiyədək regionların kompleks şəkildə inkişaf etdirilməsi və onun tənzimlənməsi ilə əlaqədar müxtəlif yanaşmalar meydana çıxmışdır. Bu müxtəliflik əsasən regional fərqliliklər, onların səbəbləri və həll edilməsi istiqamətləri ilə əlaqədar olmuşdur. Regionlararası inkişaf disproporsionallığına müxtəlif yanaşmalarda, əsasən aşağıdakı üç istiqaməti göstərmək olar:

1. Birinci istiqamətə görə regionlararası inkişaf disproporsionallığı müəyyən vaxt ərzində azalacaqdır, ona görə ki, sosial-iqtsadi inkişaf ölkənin bütün regionlarına bərabər şəkildə yayılacaq və geridə qalmış regionlar da inkişaf edəcəkdir;

2. İkinci yanaşmaya görə hesab edilir ki, bu fərqlilik iqtisadi inkişafın zəif olduğu ölkələrdə yavaş-yavaş artacaq, inkişaf etmiş ölkələrdə isə getdikcə azalacaqdır;

3. Üçüncü yanaşmaya əsasən hesab olunur ki, regionlararası inkişaf disproporsianallığı dövlət tənzimlənməsinin məhdud olduğu ölkələrdə daha da artacaqdır.

Ancaq göstərmək lazımdır ki, regionlararası kəskin disproporsionallıq zərərli xarici və daxili miqrasiya, urbanizasiya, hədsiz səviyyədə infrastruktur yüklənməsi, ekoloji çirklilik, hətta regional ayrımçılıq kimi problemlərlə sonlanır ki, bunun da ümumilikdə ölkə üçün fəsadları çox böyük olur. Qeyd edilənlərlə bərabər, ən vacib məsələ ondan ibarətdir ki, ölkələrin hazırki hüquq müxanizmləri 13 ölkənin bütün vətəndaşlarının hüquq bərabərliyini təmin etməyə çalışdığı halda, regional bərabərsizliklər iki vacib istiqamətdə bu prinsipi pozur (4, s.11).

İnkişaf dinamikasını qiymətləndirmək üçün regionda iqtisadi artım sürətini qiymətləndirən: hər nəfərə düşən gəlirin artım sürətləri, əmək məhsuldarlığı, habelə istehsalın və cəmiyyətin struktur transformasiyasının sürətləri kimi göstəricilərdən istifadə etmək məqsədəuyğundur. ÜDM, hər nəfərə gəlir, əmək məhsuldarlığı və onların artım sürəti kimi təmiz iqtisadi göstəricilər regionun sosial-iqtisadi inkişafını tam şəkildə qiymətləndirə bilməz. Ömür müddəti, əhalinin sağalamlıq səviyyəsi, onun təhsil və ixtisas səviyyəsi, habelə istehsalda və cəmiyyətdə struktur dəyişiklikləri göstəriciləri də əhəmiyyət kəsb etmir. Bir sıra ölkələrin və regionların iqtisadi inkişafı ictimai istehsalın strukturunda dəyişikliklər, xüsusilə də sənayesi inkişaf etmiş cəmiyyətin sənayeləşməyə başlayanla əvəz edilməsi müşahidə edilir. Məşğul olanların çox hissəsi qeyri-maddi istehsal bölməsində, az hissəsi isə bilavasitə sənayedə və kənd təsərrüfatında işləyir.

Qeyri-maddi istehsal iqtisadi inkişafın paradiqması olur və ölkə və regionların sərvətlərinin yenidən qiymətləndirilməsini tələb edir. Ənənəvi olaraq ölkələr və regionlar sərvət nöqteyi-nəzərdən meşələrə, faydalı qazıntılara, torpağa, təbii şəraitə, əsas fondlara, coğrafi vəziyyətə görə qiymətləndirilir. Dəyərin çox hissəsini yaradan qeyri-maddi istehsal sferasına dair yeni təsəvvür ölkə

və regionların sərvətinin qiymətləndirilməsi meyarlarını dəyişdirir. İxtisaslı işçi qüvvəsinin, idarəetmə texnologiyaların, bazar infrastrukturunun, biznes şəbəkəsinin, təşkilat mədəniyyətinin mövcudluğu birinci yerə irəli sürülür. İqtisadi inkişafın yeni mənbələri və amillərinə dair yeni baxışlara, yəni bütövlükdə ölkənin iqtisadi inkişafının istiqamətlərinə və sürətlərinə həlledici təsir göstərən təhsilə, elmə, tibbə, telekommunikasiyalara, menecmentin şərtlərinə yenidən baxmağı tələb edir.

Beləliklə, region səviyyəsində aşağıdakı meyyaraları və onlara müvafiq sosial-iqtisadi inkişaf göstəricilərini gözdən keçirmək olar:

- ✓ ÜMM və ya ÜDM (mütləq həcmi və əhalinin hər nəfərinə) və bu göstəricilərin artım surəti;
- ✓ əhalinin gəlirlərinin orta səviyyəsi və onların diferensiallaşması dərəcəsi;
- ✓ ömür müddəti, insanların fiziki və psixoloji sağamlıq səviyyəsi;
- ✓ təhsil səviyyəsi;
- ✓ maddi nemətlərin və xidmətlərin istehlak səviyyəsi, ev təsərrüfatlarının uzun müddət istifadə olunan mallarla təmin olunması;
- ✓ sağlamlıq səviyyəsi;
- ✓ ətraf mühitin vəziyyəti;
- ✓ insanların mədəni səviyyəsinin zənginləşdirilməsi.

Regionun iqtisadi inkişafının qiymtələndirilməsinin standart üsulu istehsal səviyyəsinin qiymtələndirilməsidir. Belə qiymətləndirmə bu gün birtərəflidir və kifayət deyildir. Ölkələrin iqtisadi inkişafının qiymətləndirilməsinə beynəlxalq təçkilatların işləyib hazırladıqları yanaşmalar regionun inkişaf səviyyəsinin qiymətləndirilməsində yalnız istehsalın həcminə yox, həmçinin də təhsil, səhiyyə, ətraf mühitin vəziyyəti, iqtisadi sferada imkanların bərabərliyi, şəxsi azadlıq və həyat mədəniyyəti kimi istiqamətlərini də nəzərə alamağa məcbur edir. Tamamilə yerinə düşür ki, regionun inkişafının inteqral göstəricisi kimi müxtəlif ölkələrin inkişafını qiymətləndirmək üçün BMT-nin İnkişaf Proqramında tətbiq olunan İnkişaf indekslərindən istifadə etmək olar (1, s.13).

Regionun sosial-iqtisadi inkişafı anlayışına həmçinin əhalinin həyat mədəniyyəti kimi çətin ölçülə bilən substansiyalar da daxildir. Regionun iqtisadi inkişafının müsbət dinamikası yalnız həmin regionun əhalisinin həyatının, mədəniyyətinin zənginləşdirilməsi şəraitində mümkündür. Regionun sosial –iqtisadi inkişafının müsbət dinamikası o halda ola bilər ki, bütün digər bərabər şərtlər daxilində hər bir vətəndaşın şəxsi azadlığı, o cümlədən iqtisadiyyat sahəsində azadlığı genişlənir. Bu da kiçik və orta biznesin səmərəli yardımı ilə antihisar tədbirləri, istehlakçıların hüquqlarının müdafiəsi, mənzil bazarının inkişafı hesabına təmin olunan irəliləyişə real azadlıq təmin edilir.

Regionun həyatının hər bir sferasında böhran aradan qaldırılması birbaşa iqtisadi aktivlik səviyyəsi ilə əlaqədardır. Soial inkişa nisbi müstəqilliyə malik olmasına baxmayaraq, müəyyən qədər iqtisadi inkişaf səviyyəsindən asılı olan resurs imkanlarına görə də müəyyən edilir. Buna görə də yalnız iqtisadi aktivliyi inkişaf etdirməklə yerli cəmiyyətin həyatında bu və ya digər irəliləyişləri həyata keçirmək və əhalinin həyat səviyyəsini qaldırmaq olar. Bu da son nəticədə bu və ya digər sosial-iqtisadi siyəsətin müvəffəqiyyətini müəyyən edir.

İqtisadi inkişafın gedişində regional idarənin bütün mümkün metodlarını aşağıdakı kimi dürüst ifadə etmək olar:

- İşgüzar aktivliyi inkişaf etdirmək üçün regionda əlverişli ümumi şərait yaratmaq;
- İşgüzar aktivliyi tənzimləmək;
- Region idarəsi ilə biznesin birbaşa kooperasiyası;
- Regional inkişafın idarə edilməsinin bu metodlarına baxaq.

Bu şərtlərə bazar infrastrukturunun, torpağın və iqtisadi aktivliyin yeni növlərini inkişaf etdirmək üçün onun hüquqi əsaslarının olması, yaxşı inkişaf etmiş nəqliyyat, rabitə, ofis təsərrüfatı və s. daxil etmək olar (1, s.15).

İşgüzar aktivliyin tənzimlənməsi. İdarə həmin regionun inkişafına dair qərarların qəbul edilməsində sahibkarlarda həvəsləndirici dəlilləri formalaşdırır. Buna istiqrazlar, subsidiyalar, təminatlar və hətta birbaşa alınmalar kimi alətlərin köməyilə yerli vergilərin azaldılması, yaxud ucuz kapital verməklə nail olunur.

Sahibkarlara təsirin bu metodları arabir tutarlı tənqidə məruz qalır. Xüsusilə sübut edirlər ki, bu cür tədbirlər birbaşa regionların və şəhərlərin resurs itkilərinə aparır və sonda yeni növlərdə biznesin yerləşdirilməsinə təsir göstərmir. İş ondadır ki, yerli vergitutma şərtlərindəki fərqlər bir qayda olaraq biznesin başqa şərtlərinə (yaxud tədarükçülərin mövcudluğu, yerləşmə, satış bazarlarına yaxınlıq və b.) nisbətən müqayisə edilməz qədər öz fərqini verir.

İdarə və biznesin birbaşa kooperasiyası. Şəhərin inkişafının iri layihələrini reallaşdıran zaman idarə ilə xüsusi təşkilatların məqsədyönlü əməkdaşlığı məqsədəuyğundur. Bütövlükdə şəhərin inkişafını təmin edən irimiqyaslı uzunmüddətli layihələr xüsusi təşkilatlar və şəhərin idarəsinin birgə gücü ilə həyata keçirilir. Bir sıra hallarda bir layihə çərçivəsində fəaliyyəti əlaqləndirmək üçün qarışıq kompensasiyalar yaradılır. Lakin qarışıq kompensasiyalarda həmişə xüsusi və ictimai sektorlarda mənafeyi, münaqişələri müşahidə olunur. Şəhərin inkişafı mənafelərini mənfəət əldə etməklə bağlı konkret mənafelərlə axıra qədər uyğunlaşdırmaq həmişə mürəkkəb olmuşdur (1, s.16).

Yuxarıda qeyd edilənlərdən də göründüyü kimi müasir bazar iqtisadi sistemində bazar mexanizmlərinin yaranması məhz dövlət tənzimlənməsinin dəstəyi ilə yerinə yetirilir. Bu tənzimləmənin əsas tərkib hissələrindən biri də regional tənzimləmədir. İqtisadiyyatın tənzimlənməsi iqtisadi inkişafın uzunmüddətli və daimi amilidir. Bu səbəbdən də bazar iqtisadi münasibətlərinin davamlı inkişafı və iqtisadi sistemin gələcək prirotetləri nöqteyi-nəzərindən dövlətin tənzimləyici rolu mühüm əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi müasir şəraitdə tənzimlənmə sisteminin əsas istiqamətlərindən biri də milli bazarın xarici amillərdən müdafiə edilməsidir. Bu müdafiənin əsas sütununda regional iqtisadi tənzimləmə durur. Müxtəlif ölkələrdə regional tənzimlənmə sisteminin mühitdən asılı olaraq məqsəd və hədəfləri müxtəlif olsa da, ümumi şəkildə, bazar iqtisadi sistemində ölkəmiz üçün regional tənzimlənmə sisteminin ümumi məqsədləri kimi aşağıdakıları qeyd etmək məqsədəuyğundur:

- Region resurslarından səmərəli istifadə edərək məhsul bolluğuna nail olmaqla ədalətli rəqabət mühitinin formalaşdırılması və bununla da qiymət sabitliyinə nail olunması;
- Regional iqtisadi inkişafa nail olmaqla stabil iqtisadi artımın və davamlı iqtisadi inkişafın təmin olunması;
- Regionlarda əməkqabiliyyətli insanların məşğulluğunun tam və səmərəli həll edilməsi;
- Regionlarda istehsal sferalarını inkişaf etdirməklə idxaldan asılılığı minimuma endirmək və ixracyönümlü sektorların inkişafını stimullaşdırmaq;
- Büdcə gəlirlərinin məqsədli, ədalətli və balanslaşdırılmış bölgüsünü təmin etməklə zəif inkişaf etmiş sektor və regionların iqtisadi inkişafının sürətləndirilməsi.

## ƏDƏBİYYAT

1. Mahmudov M, Mahmudova İ. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: 2011.
2. Hüseynova X. “Azərbaycanda regional inkişafın idarə olunması problemləri” iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Gəncə, 2011.
3. Nuriyev Ə.“Regional siyasət və idarəetmə. Bakı: 2004.
4. Stılwell J. B. Bölgesel İktisat Politikası. İstanbul: Akbank Kültür Yayınları, 1980.

## SUMMARY

**Maharram Babayev**

## THE IMPACT OF REGIONAL REGULATION ON ECONOMIC DEVELOPMENT

In recent years, the importance of pursuing a justified regional economic policy in Azerbaijanthe and managing the regional economy in regulating the state's economy has acquired particular importance both from a theoretical-methodological and practical point of view. All this is not accidental, the integration of our country into the world economy has also given impetus to the development of building a demographic society. Such an impact of integration into the world

economy has long been proven in the practice of demographic states. As society reaches economic development, integration processes, interaction and dependence between the countries, the regulatory mechanisms of the regional economy of the state are expanding and developing. This intervention is carried out using various methods (economic, political, administrative, moral-psychological, etc.), both on a sectoral and territorial scale. In modern times, the role of regions in the development of the economy, management of interstate relations, territorial regulation of the country has constantly increased. Therefore, in democratic states, regional policy has become one of the important areas of state regulation of the economy on a territorial scale, and the importance of issues of regulation and management of the economy has become increasingly important. The analysis of international experience also shows that the role of regions in ensuring sustainable economic development is an indisputable fact. The article analyzes the importance of the regions in ensuring this continuity and reflects the importance of the influence of regional regulation on economic development.

***Key words:*** *region, regulation, economy, development, state, regional, policy, mechanism*

## РЕЗЮМЕ

**Магеррам Бабаев**

## ВЛИЯНИЕ РЕГИОНАЛЬНОГО РЕГУЛИРОВАНИЯ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

В последние годы значение проведения обоснованной региональной экономической политики, управления региональной экономикой в регулировании экономики государства приобрело особое значение как с теоретико-методологической, так и с экспериментальной точки зрения. Все это произошло не случайно, интеграция нашей страны в мировую экономику дала толчок к развитию демократического общества. Такое влияние интеграции на мировую экономику давно доказано опытом демократических государств. По мере достижения обществом экономического развития процессы интеграции, взаимодействия и зависимости между странами уже расширяются и развиваются. Это вмешательство осуществляется различными методами (экономическими, политическими, административными, морально-психологическими и др.) как в районном, так и в территориальном масштабе. В новое время еще более возросла роль регионов в развитии экономики, регулировании отношений между государствами, территориальном регулировании страны. По этой причине, являясь одним из важных направлений государственного регулирования экономики в территориальном масштабе в демократических государствах, все большее значение приобретают вопросы региональной политики, регулирования и управления экономикой. Как видно, анализ международного опыта также показывает, что роль регионов в обеспечении устойчивого экономического развития является неоспоримым фактом. В нашей статье проанализировано значение регионов в обеспечении этой преемственности и отражено значение влияния регионального регулирования на экономическое развитие.

***Ключевые слова:*** *регион, регулирование, экономика, развитие, государство, регион, политика, механизм.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *24 aprel 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *1 may 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 113-118
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 113-118
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 113-118

**CAVADXAN QASIMOV**
*cavadxan.yusifoglu@ndu.edu.az*
**MURAD CƏFƏROV**
*muradceferov@mail.r*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.**

# ƏHALİNİN MƏŞĞULLUQ MƏSƏLƏSİNİN TƏNZİMLƏNMƏSİ PROSESLƏRİ

*Məqalədə Azərbaycan Respublikasında əhalinin məşğulluq siyasətinin tənzimlənməsi istiqamətində həyata keçirilmiş olan tədbirlərin elmi-nəzəri mahiyyəti barəsində qeyd olunmuşdur. Göstərilmişdir ki, məşğulluq ölkələrin milli iqtisadiyyatları qarşısında aktuallığını artırmış olan zəruri məsələdir. Ölkəmizdə məşğulluq sahəsində həyata keçirilən tənzimləmələr müasir müstəqillik illəri əsasında 2001-ci ildən etibarən öz başlanğıcını götürmüşdür.*

*Sonrakı mərhələlərdə də ölkəmizin sosial və iqtisadi inkişaf göstəricilərinə və müasir dünya iqtisadiyyatı üzrə məşğulluq sahəsi əsasında çağırışlarına müvafiq olaraq, yeni tənzimləmələr nəzərdə tutulmuşdur. Bunlar müxtəlif illərdə olmaqla, davamlı iqtisadi islahatlara müvafiq olaraq təşəkkül tapmışdır.*

*Məşğulluq sahəsində həyata keçirilən tənzimləmələr, xüsusilə, qanunlar, konsepsiyalar, strategiyalar və digər hüquqi mexanimzlərdən ibarət olmaqdadır. Həmin hüquqi və iqtisadi aktlarda ifadə olunur ki, Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan və vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən fəaliyyətidir.*

***Açar sözlər***: *məşğulluq siyasəti, əmək ehtiyatları, məşğulluq tənzimlənməsi, hüquqi aktlar, milli iqtisadi inkişaf*

Azərbaycan Respublikasında əhalinin məşğulluq təminatının əsasları yeni iqtisadi şəraitin başlanğıcından etibarən xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən uzaqgörənliklə müəyyən olunmuşdur. Yeni bazar münasibətlərinə xas olan qanunlar əsasında tənzimlənmiş olan təsərrüfatçılıq fəaliyyətinin çoxistiqamətliliyi, onun davamlılığı və səmərəliliyinin təmin olunması məsələləri aktuallığı ilə seçilməkdədir. Müasir iqtisadi şəraitin uzunmüddətli perspektivlərinin müəyyən olunması bütün tərəfləri ilə iqtisadi-istehsal münasibətlərinin hərəkətverici qüvvəsinə çevrilmiş oldu.

Artıq ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi proseslərinə diqqət edəndə aydın olur ki, burada iqtisadiyyatın sahə strukturunun təşkilatlanması, sosial dayanıqlılığın gücləndirilməsi, insanların maddi-rifah halının daha da yaxşılaşdırılması, xammal-emal-istehsal həlqəsində davamlılığın etibarlılığı, eyni zamanda, infrastruktur potensialının artırılması məsələlərində çeviklik mövcuddur və bu sahədə sosial-iqtisadi səmərəyə malik təcrübə vardır.

Təbii olaraq, bu sahə üzrə həyata keçirilən hüquqi-iqtisadi tənzimləmə tədbirləri muxtar respublikada istehsal (iqtisadi) münasibətlərinin də inkişafına zəmin yaratmaqdadır. Bu isə ictimai istehsalın davamlılığını təmin edə bilmiş, əmək potensialından dolğun istifadə olunması sahəsində perspektivləri artırmışdır. Bununla yanaşı, səmərəli məşğulluq üçün əlverişli zəmin yaratmışdır.

Mahiyyət etibarı ilə, əmək potensialı - maddi nemətlərin istehsalçısı kimi əhalini xarakterizə edən anlayışlardan biridir. Bura ehtiyatda olan əmək resursları, başqa sözlə desək, müvafiq əmək resurslarına onların kəmiyyət və keyfiyyət tərəflərinin vəhdətliyi başa düşülür (9, s.13).

Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan Muxtar Respublikası dövründə əsasları qoyulan müasir iqtisadi islahatlar özündə əgər bir tərəfdən iqtisadiyyatın yeni iqtisadi şərait üçün inkişaf istiqamətlərini müəyyənləşdirirdisə, digər tərəfdən də, burada əhalinin səmərəli fəaliyyəti üçün yeni imkanlar açmaqda idi. Təmin olunan sağlam iqtisadi mühit iqtisadiyyatın sahələri üzrə istehsal (iqtisadi) münasibətlərinin inkişafına əhəmiyyətli dərəcədə təkan oldu. Bu isə təbii ki, məşğulluq məsələsini diqqətə və gündəliyə gətirirdi.

Qeyd edək ki, keçmiş İttifaq dövründə olduğu kimi, müasir müstəqillik illərində də məşğulluq siyasətinin səmərəliliyinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər ulu öndər Heydər Əliyevin adı və siyasi fəaliyyəti ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 2 iyul 2001-ci il tarixdə təsdiq etdiyi "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda məşğulluq anlayışına belə tərif verilir: "Məşğulluq -Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan və vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən fəaliyyətidir" (2).

Düzdür, 27 iyun 1991-ci il tarixdə də Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Lakin, 2001-ci ildə təsdiq olunan eyni adlı qanunda dövlətimizin müəyyən etdiyi siyasət, məşğul şəxs adlandırılan insanlar, məşğulluq sahəsində insanların hüquqları, məşğulluğun tənzimlənməsi, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətləri və digər mühüm məsələlərə ətraflı olaraq aydınlıq gətirilmişdir. Bir sözlə, bu qanun tam mükəmməl və sanballı prosedurları özündə əks etdirməklə gələcək üçün çox güclü təminatdır. Qeyd edək ki, həmin dövlət sənədində yuxarıda göstərilənlər məşğulluğun tənzimlənməsi ilə bərabər, həm də orada təmsil olunan insanların bir-biri ilə münasibətlərinə də yenilik gətirir. Fikrimizcə, bunu yenilik kimi göstərməklə məşğulluq mədəniyyəti formasında ifadə etmək olar.

Bəhs olunanlar əsasında qeyd etmək olar ki, məşğulluq mədəniyyəti - dövlətin müvafiq qanunvericiliyilə müəyyən olunaraq, məşğul şəxs adlandırılan insanların əhatə olunmasını, onun hüquqlarının qorunmasını və tənzimlənməsini, təmin olunmasında həmkarlar ittifaqlarının iştirakını və işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətlərini ifadə edir (5, s. 60).

Qeyd edək ki, ölkəmizdə qətiyyətli və məqsədyönlü milli iqtisadi quruculuq proseslərinin təşəkkülü sosiallaşma proseslərinin də özünə kök salmasına imkan verir ki, bu da nəticə etibarı ilə etibarlı məşğulluq sahəsində mühüm göstəricidir. Digər tərəfdən, bu, məşğulluğun hüquqi tənzimlənməsi sahəsindəki potensialı daha da artırmış olur. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən 29 iyun 2018-ci il tarixdə (№1196-VQ) təsdiq olunan Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununda müasir dövrümüzlə daha yaxından səsləşən məsələlər öz əksini tapmışdır. Orada məşğulluq anlayışı daha da dəqiqləşdirilərək aşağıdakı kimi təsbit olunmuşdur:

Məşğulluq – Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra - şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyətidir (3).

Həmin qanunda məşğulluqla bağlı əsas anlayışlar ətrafı şəkildə əsaslandırılır.

Məşğulluğun hüquqi təminatında çox zəruri mexanizmləri özündə əks etdirən bu qanun 6 fəsil, 37 maddədən ibarətdir (3).

Yeni Məşğulluq Qanununun mahiyyəti bir çox amillərə görə yüksək dəyərləndirilə bilər. Bunlardan biri 11-ci maddədə təsbit olunan sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğu üçün əlavə təminatların nəzərdə tutulmasıdır. Həmin maddənin 11.1-ci bəndində göstərilir ki, dövlət sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə əlavə iş yerləri və sosial müəssisələr yaratmaq, onlar üçün uyğunlaşdırılmış təlim proqramları əsasında peşə hazırlığı kursları təşkil etmək, habelə kvota müəyyən etmək yolu ilə əlavə təminatlar verir (3).

**Şəkil 1**

**Məşğulluq haqqında qanunda təsbit olunan əsas müddəalar**




Bununla yanaşı, dövlət başçısı tərəfindən 30 oktyabr 2018-ci il tarixli imzalanan Sərəncamla "2019-2030-cu illərdə Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq olunmuş və 13 fevral 2020-ci il tarixdə "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün "Tədbirlər Planı"nın təsdiq olunması haqqında Sərəncam imzalanmışdır.

Təbii ki, burada əsas məqsəd məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltməkdən ibarətdir.

Əmək məhsuldarlığı – vahid vaxt ərzində istehsal olunmuş məhsulun həcmi ilə və ya vahid məhsul istehsalına sərf olunmuş iş vaxtının miqdarı ilə ölçülür (7, s. 22).

Bəhs olunan tənzimləmələr müəyyən olunmuş dövr ərzindən ölkədə məşğulluq proseslərinin çox səmərəli təşkili və idarə olunmasını nəzərdə tutur. Hansı ki, bunlar məşğulluğun uzunmüddətli dövlər üzrə səmərəliliyini hədəfləyir. Elə məhz 2019-2030-cu illər üzrə müvafiq strategiyanın əsas istiqamətlər üzrə həyata keçiriləməsi bu baxımdan çox önəmlidir. Bunu, şəkil 2-nin məlumatlarında (1) görmək olar.

**Şəkil 2**

**2019-2030-cu illər üzrə möşğulluq Strategiyasının əsas istiqamətlər üzrə həyata keçirilməsi**




Müasir bazar münasibətləri şəraitində ölkədə və onun regionlarında məşğulluq təminatı sahəsində ciddi hədəflər müəyyən olunmuşdur. Belə qənaətə gələ bilərik ki, bu, inkişafın gerçək

görüntüsü olmaqla, daha çox istehsalın əhatəsinin mərkəzdən regionlara doğru genişlənməsi, məşğulluğun isə sosial nailiyyət göstəricisi olmaq və müəyyən olunan hədəflərin reallaşması etibarı ilə regionlardan mərkəzə doğru irəliləməsinin gerçək təzahürüdür. Qeyd olunanların məntiqi davamı olaraq, iqtisadiyyatın regional və milli mahiyyətinin yüksəldilməsi və məşğulluğun bu əsasda təmin olunması reallaşdı. Məhz bu baxımdan, strategiyanın həyata keçirilməsi ilə bağlı nəzərdə tutulan hədəflər də müəyyən olunmuş, gözlənilən nəticələr verilmişdir (3). Bunu, şəkil 3-ün məlumatlarında görmək olar:




**Şəkil 3.**

**Məşğulluq strategiyasının təmin olunması ilə bağlı olaraq nəzərdə tutulan hədəflər**

Təbii ki, bunlar məşğulluq sahəsində hüquqi əsaslandırmalardan ibarət mexanizmlərdir. İqtisad elmində isə məşğulluq anlayışına iqtisadi kateqoriya kimi, real gerçəklikdə iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölünməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə olan ictimai iqtisadi münasibətləri əks etdirir (8, s.12).

Məşğulluq eyni zamanda, əhalinin işsizlikdən qorunmasının sosial-iqtisadi təminatı sahəsində dövlətin məqsədyönlü və qanunla müəyyən etdiyi, tənzimlədiyi proseslərin məcmusudur.

İşsizlik – burada elə bir sosial-iqtisadi hal başa düşülür ki, o zaman əmək qabiliyyətli əhalinin bir hissəsi işləmək istəyir və işə hazırdır, lakin müəyyən vaxtda və müəyyən ərazidə müvafiq ixtisas üzrə özünə iş tapa bilmir. Başqa sözlə, işsizlik halı-işçi qüvvəsinin təklifinin işçi qüvvəsinə olan tələbi üstələməsidir (4, s.246).

Qeyd edə bilərik ki, ölkəmizdə Yeni Məşğulluq Qanunun qəbul olunması bu sahədəki keyfiyyətcə yeni mərhələnin başlanmasının nəticəsi olub, bu sahə üzrə təminat göstəricilərinin qorunmasına təkan olacaq. Orada məşğulluq sahəsindəki proseslər müasir milli iqtisadi ishalatlar əsasında təşəkkül tapan dayanıqlı sosiallaşmaya xas olaraq öz əksini tapmışdır. Xüsusilə, davam edən islahatlar fonunda məşğulluğun etibarlılığı, davamlılığı və artan dinamikası, həmçinin, bu əsasda da işsizliyin minimum səviyyədə saxlanılması hədəflənməkdədir.

Yeni Qanunda işsiz şəxs anlayışı da ifadə olunur və göstərilir ki:

İşsiz şəxs – işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) işsiz kimi qeydiyyata alınan, əməkqabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir (3).

Ölkənin sosial sahələr üzrə qətiyyətli islahatları, iqtisadiyyatın sahə strukturu üzrə davamlı inkişaf prosesləri regionlarda etibarlı məşğulluq mühitinin güclü təsisatlarının yaradılmasına imkan yaratmışdır. Təbii ki, bütün bunların hüquqi təminatı regional inkişaf proqramları ilə daha mütərəqqi görünməkdə və nəticə etibarı ilə özünüməşğulluq üzrə perspektivlərin güclənməsinə səbəb olmaqdadır. Yeni Məşğulluq Qanununda həmçinin bu anlayış çərçivəsində əmək fəaliyyətinin tənzimlənməsi nəzərdə tutulur. Qeyd etmək olar ki, özünüməşğulluq, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir (3).

Daha çox dövlət tərəfindən icra olunan proqram və layihələrin reallaşdırılması nəticəsində cəlb olunan vətəndaşların sərbəst şəkildə özünü işlə təmin edə bilmək gücü və bacarığı kimi ifadə olunan özünüməşğulluq hazırkı iqtisadi şəraitin sosialyönümlülüyünün ən gerçək ifadəsi olaraq dəyərləndirilə bilər. Özünüməşğulluq anlayışını müvafiq əsaslandırmalarla da ifadə edə bilərik. Şəkil 4-ün məlumatlarında bunu görmək olar:

**Şəkil 4**

**Özünüməşğulluq anlayışının əsaslandırılması**

- Hər şeydən əvvəl hər kəsin ayrı-ayrılıqda özünə iş qura bilmə qabiliyyətidir
- Məşğulluğun səmərəlilik göstəricisi olub, əmək qabiliyyətli insanların hər birinin işə cəlb olunmasıdır
- Dövlətin hüquqi tənzimləməsi fonunda vətəndaşların sağlam fəaliyyət mühitini yarada bilməsidir
- Hər bir vətəndaşın istehsal vasitəsinə malik olmasının və müvafiq sahə üzrə dolğun təcrübəyə sahibliyinin, bu əsasda isə əməyinin səmərəliliyinin ifadəsidir
- Regionlarda təsərrüfat fəaliyyətinin yetkin təşkili sahəsində səmərəli və məhsuldar fəaliyyətin zəruri formasıdır

İstehsal vasitələri – maddi ünsürlər, əşya ünsürləri (binalar, qurğular, avadanlıqlar, maşınlar) və əmək predmetləridir (6, s.60).

## ƏDƏBİYYAT

1. “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nin təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2018-ci il tarixli Sərəncamı;
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral 2014-cü il tarixdə ölkə başçısı tərəfindən təsdiq olunub.
3. Azərbaycan Respublikasının Məşğulluq Qanunu. 29 iyun 2018-ci ildə qəbul olunub.
4. Azərbaycan Respublikasının dövlət statistika komitəsi. Əsas iqtisadi-statistik göstəricilərə dair metodoloji izahatlar. ikinci nəşr. Baki: Səda, 2004, 138 s.
5. İbadov S. A. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: Şərq-Qərb, 2009, 414 s.
6. Libman Q.i., Filatov O.K. Qısa iqtisadi lüğət. Bakı: ASE, 1989, 359 s.
7. Qasımov C.Y. İqtisadi terminologiya: aqrar sektor, məşğulluq, sosial sfera. Naxçıvan: Əcəmi, 2017, 104 s.
8. Qəribov A.H. Beynəlxalq iqtisadi münasibətlər və gömrük işi (terminlərin qısa izahlı lüğəti). Bakı: Səda, 2007, 112 s.
9. Yaşayış Minimumu Haqqında Azərbaycan Respublikasının Qanunu. 5 oktyabr 2004-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunub.

## SUMMARY

**Javadkhan Gasimov, Murad Jafarov**

## EMPLOYMENT REGULATION PROCESSES

In the article, the scientific-theoretical essence of the measures implemented in the direction of regulating the employment policy of the population in the Republic of Azerbaijan was mentioned. It has been shown that employment is a necessary issue that has increased its relevance to the national economies of countries. The regulations implemented in the field of employment in our country began in 2001, based on the years of modern independence.

In the subsequent stages, new regulations were planned in accordance with the indicators of social and economic development of our country and challenges based on the field of employment in the modern world economy. These were formed in different years, according to continuous economic reforms.

Regulations implemented in the field of employment, in particular, consist of laws, concepts, strategies and other legal mechanisms. Those legal and economic acts state that it is the activity of citizens of the Republic of Azerbaijan, stateless persons permanently living in the Republic of Azerbaijan, and foreigners (hereafter citizens) that do not contradict the legislation of the Republic of Azerbaijan and, as a rule, bring them profit (income).

***Key words**: employment policy, labor resources, employment regulation, legal acts, national economic development, etc.*



## РЕЗЮМЕ

**Джавадхан Гасимов, Мурад Джафаров**

## ПРОЦЕССЫ РЕГУЛИРОВАНИЯ ЗАНЯТОСТИ

В статье упоминается научно-теоретическая сущность мер, осуществляемых в направлении регулирования политики занятости населения в Азербайджанской Республике. Было показано, что занятость является необходимым вопросом, который повысил свою актуальность для национальной экономики стран. Внедрение нормативных актов в сфере занятости в нашей стране началось в 2001 году, исходя из годов современной независимости. На последующих этапах планировались новые нормативные акты в соответствии с показателями социально-экономического развития нашей страны и вызовами, исходя из сферы занятости в современном мировом хозяйстве. Они формировались в разные годы в результате непрерывных экономических реформ. Регулирование, реализуемое в сфере занятости, в частности, состоит из законов, концепций, стратегий и других правовых механизмов. В этих нормативно-правовых актах указывается, что деятельность граждан Азербайджанской Республики, лиц без гражданства, постоянно проживающих в Азербайджанской Республике, и иностранцев (далее граждане) не противоречит законодательству Азербайджанской Республики и, как правило, приносить им прибыль (доход).

***Ключевые слова:** политика занятости, трудовые ресурсы, регулирование занятости, правовые акты, развитие народного хозяйства и др.*


---


***Məqaləni çapa təqdim etdi:** iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:** 20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:** 25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 119-122
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 119-122
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 119-122

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

**UOT: 657.01**

# İNNOVASİYALI İQTİSADİYYAT

*Məqalədə innovatik iqtisadiyyatda innovasiyaların istehsalın əsas faktoru kimi əsas iqtisadi resursa yəni intellektual kapitala söykənməsi və varlığın, zənginliyin yaranma mənbəyi texnoloji, intellektual və informasiya rentasından irəli gəlməsi geniş şərh edilmişdir. Həmçinin innovasiyalı inkişafın qiymətləndirilməsi və bu əsasda müqayisələrin aparılması və innovasiyalı şəraitdə yaranan səbəblərin müəyyən edilməsi aktual məsələlərdən biri kimi göstərilmişdir. Belə ki, aparılan təhlillər nəticəsində iqtisadi inkişafı şərtləndirən, iqtisadi artımı müəyyənləşdirən innovasiyalı iqtisadiyyatda əlavə mənfəət gətirən texnoloji, intellektual və informasiyalı rentanın əldə edilməsi faktları izah edilmişdir.*

***Açar sözlər**: informasiya, iqtisadi artım, intellektual, kreativ, yenilik, texnoloji*

İnnovasiya deyildikdə adətən yenilik və ya yeni texnologiyalardan istifadə başa düşülür. Əslində isə innovasiya daha geniş bir məna daşıyır. Belə ki, innovasiya qısaca olaraq yeni ideyaların məhsullara, istehsal prosesinə və ya istehsalçı firmanın bazar dəyərini artıracaq hər hansı bir fəaliyyətə tətbiqi kimi xarakterizə olunur.

Yəni burada innovasiya dedikdə prosesin iştirakçıları olaraq yeni ideyalar, istehsal olunan məhsul, istehsal prosesi və firmanın bazar dəyəri nəzərdə tutulur. Başqa sözlə, innovasiya üçün yeni ideyalar bir başlanğıcdır. Bu yeni ideyalar istehsal olunan məhsullara və ya istehsal prosesinə tətbiq olunduğu zaman innovasiya prosesi başa çatmış sayılır.

Bazar iqtisadiyyatı sistemində firmadaxili fəaliyyətlərin son hədəfi firmaların bazar dəyərini artırmaq olduğu üçün bu məqsədə xidmət edəcək istənilən yeni ideyanın tətbiqi də innovasiya sayılır. İnnovasiyanı tətbiqi və harada istifadə olunması baxımından iki növə ayırmaq olar: Məhsul (mal və ya xidmət) innovasiyası; Proses innovasiyası. Məhsul innovasiyası: yeni bir məhsulun bazara təqdim olunması və ya hər hansı köhnə məhsul üzərində ciddi keyfiyyət dəyişikliyi edilərək bazara yenidən çıxarılması deməkdir.

Adından da göründüyü kimi innovasiyanın bu növü əmtəə və xidmətlərlə əlaqədardır. Hər hansı yeni növ məhsulun istehsalı və bazara çıxarılaraq alıcılara təqdim olunması məhsul innovasiyasının ortaya çıxmasına səbəb olur.

Yeni bir prosesin istehsalatda tətbiq olunması deməkdir. Əlbəttə, ilk əvvəl bir məhsulun istehsal olunması üçün izlənilən prosesdə yeniliklərin tətbiqi innovasiyanın bu növünə aiddir. Məsələn, bir avtomobilin yığılması üçün əvvəllər əl əməyindən istifadə olunurdu ki, bu həm uzun zaman alır, həm də nöqsanların baş vermə ehtimalını artırırdı. Amma sonralar istehsal prosesində yeni növ avtomatlaşdırılmış texnologiyaların və ya robotların tətbiqi istehsal prosesini daha sürətli və keyfiyyətli hala gətirdi.

Bununla belə proses innovasiyası dedikdə ağıla sadəcə məhsulun istehsalat yerində yeni növ prosesin tətbiqi gəlməməlidir. Firmaların marketinq strategiyalarında izlənilən proses baxımından yeniliklərin tətbiqi və buna bənzər digər innovasiya əsaslı fəaliyyətlər də proses innovasiyasının tərkibinə aiddir.

İnformasiyalı iqtisadiyyat-informasiya nemətlərinin və İKT-nın iqtisadiyyatıdır. İnformasiyanın istehsalat faktorlarının çərçivəsində rolunun artması ilə xarakterizə olunur və informasiyanın iqtisadi fəaliyyətin resursu kimi etiraf edilməsindədir.

Zənginliyin mənbəyi –informasiya rentasıdır, yəni informasiya kapitalının sahibinin informasiya nemətlərinin tirajlanması və realizə edilməsi nəticəsində əldə etdiyi renta. Zənginliyin digər mənbəyi –intellektual rentadır.

İnnovasiyalı iqtisadiyyatda zənginliyin əsas mənbəyi –texnoloji rentadır. Bu renta yüksək effektivli ixtiraları və texnologiyaları ilk mənimsəmiş, bazis yaxud daha yenilənmiş innovasiyaları həyata keçirmiş, onlar əsasında yeni məhsul və ya xidməti bazara çıxarmış bilik sahiblərində yaranır. Təbii olaraq, əqli (intellektual) resurslara və innovasiyalı məhsullara olan müxtəlif növ mülkiyyətin iqtisadi realizəsindən yaranan intellektual renta da vacib rola malikdir.

Bunlarla yanaşı, istehsalatın intensivləşdirilməsində innovasiyalı məhsulun yaranmasından irəli gələn informasiya resurslarının istifadəsinin dəyərinin artımı informasiya rentasını da yaradır.

«İnnovasiyalı iqtisadiyyat» anlayışının identifikasiyası və «kreativ iqtisadiyyat», «informasiyalı iqtisadiyyat», «biliklər iqtisadiyyatı» anlayışları ilə müqayisəsi sinonimik, xüsusiyyətlərlə fərqlənir. Təhlil anlayışların genezisi, hansı istehsalat faktoruna söykənməsi, hansı əsas iqtisadi resursdan qaynaqlanması və zənginliyinin (varlığının) mənbəyinin müəyyən edilməsi.

Kreativ iqtisadiyyat intellektual fəaliyyətə əsaslanır və cəmiyyətdə yaradıcılığın və ona şərait yaradan şərtlərin inkişafı yolu ilə kreativ dəyərlərin artırılması ilə xarakterizə olunan bir anlayış başa düşülür.

Kreativ iqtisadiyyatın əsas faktoru–istehsalatın kreativ potensialıdır. Əsas iqtisadi resurs kreativ kapitaldır və zənginliyin mənbəyi –intellektual rentadır (intellektual əlavə mənfəət). Burada söhbət təkrarlanan və təbii resurslarla bağlı olmayan istehsalatın intellektual faktorlarının istifadəsindən gedir.

Biliklər iqtisadiyyatı –yüksək texnoloji əmtəə və xidmətlərin inkişafı, məşğulluğun yeni sektorlarının yaranması və inkişafı, İKT və ali təhsilin geniş əlçatımlığı ilə xarakterizə olunur. Biliklərin istehsalatın əsas faktorlarından birinə çevrilməsidir. Bilik informasiyalı məhsul kimi mübadilə zamanı öz dəyərini itirmir, istər satıcılara, istərsə də istehlakçılara məxsus qalır. Zənginlik mənbəyi –intellektual kapitaldan yaranan intellektual rentadır. Bununla yanaşı, intellektual kapitaldan fərqli olaraq, yalnız kompaniyaya məxsus kapitalın olması (qeyri-maddi aktivlər -əqli mülkiyyət, qudvill və s.) əlavə intellektual rentanı yaradır. Üstəlik, bilik informasiya məhsulu kimi informasiya rentasını irəli sürür. İnnovasiyalı iqtisadiyyat innovasiyaların (yeniliklərin) dəyişmiş mənası ilə bağlanır –innovasiya yalnız yeni məhsulun və xidmətlərin istehsalı deyil, üstəlik, yeniliyin tətbiqi, onun istehlakçılara çatdırılması ilə xarakterizə olunur.

İnnovasiyalı iqtisadiyyatda zənginliyin əsas mənbəyi texnoloji rentadır. Bu renta yüksək effektivli ixtiraları və texnologiyaları ilk mənimsəmiş, bazis yaxud daha yenilənmiş innovasiyaları həyata keçirmiş, onlar əsasında yeni məhsul və ya xidməti bazara çıxarmış bilik sahiblərində yaranır. Təbii olaraq, əqli (intellektual) resurslara və innovasiyalı məhsullara olan müxtəlif növ mülkiyyətin iqtisadi realizəsindən yaranan intellektual renta da vacib rola malikdir.

Bunlarla yanaşı, istehsalatın intensivləşdirilməsində innovasiyalı məhsulun yaranmasından irəli gələn informasiya resurslarının istifadəsinin dəyərinin artımı informasiya rentasını da yaradır.

**Aşağıdakı cədvəl araşdırmanın nəticələrini təsvir edir:**

| Amillər/növlər | Kreativ iqtisadiyyat (Florida) | İnformasiyalı iqtisadiyyat | Biliklər iqtisadiyyatı | İnnovasiyalı iqtisadiyyat |
|---|---|---|---|---|
| İstehsalatın əsas faktoru | Kreativ potensial | İnformasiya | Biliklər | İnnovasiyalar |
| Əsas iqtisadi resurs | Kreativ kapital | İnformasiyalı kapital | İntellektual kapital Struktur kapital | İntellektual kapital |
| Zənginliyin mənbəyi | İntellektual renta | İnformasiyalı, intellektual renta | İnformasiyalı, intellektual renta | Texnoloji, İntellektual, İnformasiyalı renta |

Araşdırmanın nəticələri:

- Göründüyü kimi, bütün «növ» iqtisadiyyatlar üçün ortaq və inkişafı, istifadəsi prioritet olan insan kapitalının etirafıdır.
- Bununla yanaşı, sadalanan iqtisadiyyatların hər bir «növü» müxtəlif iqtisadi resurslara əsaslanır;
- Sadalanan iqtisadiyyatların genezisi fərqlənsə də texnologiyaların, bazarların, ixtisasların və s. inkişafı həmin iqtisadiyyatların bir-biri ilə kəsişməsinə və zənginləşməsinə gətirir və innovasiyaların, biliklərin, informasiyanın və kreativ potensialın ayrılıqda inkişafının mümkünsüzlüyünü göstərməkdədir. Qeyd olunan innovasiyalı iqtisadiyyatda əldə edilən renta və ƏM-in qarşılıqlı təsiri aşağıdakı diaqramda verilir:

**Əqli mülkiyyətin və innovasiyalı iqtisadiyyatın qarşılıqlı təsiri**




## ƏDƏBİYYAT

1. Kamran İmanov" İnnovasiyalı iqtisadiyyat və iqtisadi islahatlar". Bakı-2019
2. https://innovation.uteca.edu.az/ İnnovasiyalı iqtisadiyyat və menecment
3. Altay İsmayılov., Xətai Alıyev "İnnovasiya əsaslı iqtisadi inkişaf və dövlət təşviqlərinin əhəmiyyəti"

## SUMMARY

**Nuriya Ibrahimova**

## INNOVATIVE ECONOMY

In the article, it is widely interpreted that innovations in the innovative economy rely on the main economic resource, i.e., intellectual capital, as the main factor of production, and that they arise from the technological, intellectual and informational rent, the source of existence and wealth. Also, evaluation of innovative development and making comparisons on this basis and determining the causes of innovative conditions are shown as one of the urgent issues. Thus, as a result of the conducted analysis, the facts of obtaining technological, intellectual and informational rent that bring additional profit in the innovative economy, which determine economic development and determine economic growth, have been explained.

***Key words:*** *information, economic growth, intellectual, creative, innovation, technological*

## РЕЗЮМЕ

**Нурия Ибрагимова**

## ИННОВАЦИОННАЯ ЭКОНОМИКА

В статье широко трактуется, что инновации в инновационной экономике опираются на главный экономический ресурс, т. и богатство. Также в качестве одного из актуальных вопросов показаны оценка инновационного развития и проведение на этой основе сравнений и определение причин инновационного состояния. Таким образом, в результате проведенного анализа объяснены факты получения технологической, интеллектуальной и информационной ренты, приносящие дополнительную прибыль в инновационной экономике, определяющие экономическое развитие и определяющие экономический рост.

***Ключевые слова:*** *информация, экономический рост, интеллектуальное, креативное, инновационное, технологическое.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 123-131
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 123-131
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 123-131

**RAUF ALLAHYAROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
**ŞƏFƏQ İSLAMOVA**
*AMEA İqtisadiyyat İnstitutu*

**UOT: 001:338**

# MÜƏSSİSƏNİN FƏALİYYƏTİNDƏ AUDİT METODİKASININ QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə müəssisə daxilində və kənarda auditin təşkili zamanı tətbiq olunan strategiyalar və metodlar araşdırılmışdır. Audit planlaşdırmasının effektiv və qeyri-effektiv tərəfləri müəyyən edilmiş, müəssisənin üzləşdiyi ümumi çətinliklər və problemlər təhlil edilmişdir. Həmçinin nəzəri və praktiki baxımdan müəssisələrin audit planı üzrə tətbiq etməli olduğu fərqli audit metodikalarına da diqqət yetirilmişdir.*

***Açar sözlər:*** *audit, maliyyə, müəssisə, mühasibat uçotu, planlaşdırma, qiymətləndirmə, effektivlik.*

## Giriş

Audit strategiyası yaxın perspektiv dövr ərzində audit xidmətinin necə aparılacağını müəyyən edir və auditin həcmini, vaxtını və istiqamətlərini təyin edə bilir. Müvafiq strategiya auditorun risk qiymətləndirməsinə ətraflı cavabları ehtiva edən audit planının hazırlanmasına rəhbərlik edir. Strategiya resursların idarə olunması, istiqamətləndirilməsi və nəzarət edilməsi, komanda brifinqi və brifinq görüşlərinin nə vaxt keçiriləcəyi, tapşırığa dair tərəfdaş və menecerin nəzərdən keçirilməsinin necə gözlənildiyi kimi məsələləri nəzərdən keçirilir.

Zəruri olan planlaşdırma fəaliyyətinin xarakteri və həcmi şirkətin ölçüsündən və mürəkkəbliyindən, auditorun şirkətlə əvvəlki təcrübəsindən və audit zamanı baş verən şəraitdə baş verən dəyişikliklərdən asılıdır. Bir çox kiçik şirkət daha az mürəkkəb əməliyyatlara malikdir. Bundan əlavə, bəzi daha böyük, mürəkkəb şirkətlərin daha az mürəkkəb bölmələri və ya prosesləri ola bilər. Daha az mürəkkəb əməliyyatları göstərə bilən amillərə aşağıdakılar daxildir: daha az biznes xətti; daha az mürəkkəb biznes prosesləri və maliyyə hesabat sistemləri; daha mərkəzləşdirilmiş uçot funksiyaları; yuxarı rəhbərliyin biznesin gündəlik fəaliyyətinə geniş şəkildə cəlb edilməsi; daha az idarəetmə səviyyələri, hər biri geniş nəzarət sahəsinə malikdir.

Bir neçə yerdə və ya biznes bölmələrində əməliyyatları olan şirkətin maliyyə hesabatlarının auditi zamanı auditor prosedurların seçilmiş yerlərdə və ya biznes bölmələrində hansı dərəcədə yerinə yetirilməli olduğunu müəyyən etməlidir ki, bu barədə ağlabatan əminlik əldə etmək üçün kifayət qədər müvafiq sübut əldə edilməlidir. Konsolidə edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhriflər yoxdur. Bura audit prosedurlarının yerinə yetiriləcəyi yerlərin və ya biznes bölmələrinin, habelə həmin ayrı-ayrı yerlərdə və ya biznes bölmələrində icra ediləcək prosedurların xarakteri, vaxtı və miqyasının müəyyən edilməsi daxildir. Auditor yerləşdiyi yer və ya biznes bölməsi ilə bağlı konsolidə edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini qiymətləndirməli, yer və ya biznes bölməsinə yönəldilmiş audit həcmini həmin yer və ya biznes bölməsi ilə bağlı əhəmiyyətli təhrif riskinin dərəcəsi ilə əlaqələndirməlidir.

Audit strategiyasının işlənib hazırlanmasının əsas məqsədlərindən biri audit qrupuna resursların səmərəli şəkildə bölüşdürülməsi, məsələn, auditin müəyyən sahələri üzrə mütəxəssislərin istifadəsi və ya potensial yüksək riskli audit tapşırığı üçün yüksək təcrübəli auditorlardan ibarət komandanın yaradılmasıdır.

**1. Audit strategiyasına əsasən auditin planlaşdırılması**

Auditin planlaşdırma mərhələsi başa çatdıqdan sonra audit strategiyası və audit planı müəyyən edilmir. Audit irəlilədikcə hər ikisinin yenilənməsi və zəruri hallarda dəyişdirilməsi vacibdir. Məsələn, gözlənilməz hadisələr və ya şərtlərin dəyişməsi nəticəsində auditor ümumi audit strategiyasını və audit planını və bununla da qiymətləndirilmiş auditin yenidən işlənmiş mülahizəsinə əsaslanaraq nəticədə gələcək audit prosedurlarının planlaşdırılmış xarakterini, vaxtı və həcmini dəyişdirməli ola bilər.

Bu, auditorun audit prosedurlarını planlaşdırdığı zaman mövcud olan məlumatdan əhəmiyyətli dərəcədə fərqlənən məlumatın auditorun diqqətinə çatdırıldığı zaman baş verə bilər. Məsələn, auditin planlaşdırılması ilkin başa çatdıqdan sonra fəaliyyətin fasiləsizliyinə şübhə yaradan hadisə baş verə bilər. Yaxud, planlaşdırılmış audit prosedurlarının yerinə yetirilməsi nəticəsində auditoru auditin hamısı və ya bir hissəsi üçün ilkin risk qiymətləndirməsinə və ya fəaliyyətin əhəmiyyətlilik səviyyəsinə düzəlişlər etməyə vadar edə biləcək əlavə məlumat ortaya çıxa bilər. Audit strategiyası auditin istiqamətini, vaxtını və əhatə dairəsini müəyyən edir. Strategiya daha sonra audit planı hazırlayarkən təlimat kimi istifadə olunur. Audit strategiyasını işləyib hazırlamaqla daha məqsədyönlü audit planı yaratmaq daha asandır və bununla da auditin planlaşdırma mərhələsində ümumilikdə daha az vaxt sərf olunur. Strategiya sənədi adətən auditin düzgün planlaşdırılması üçün lazım olan əsas qərarların bəyanatını ehtiva edir. Audit strategiyası aşağıdakı mülahizələrə əsaslanır:

- ✓ Nişanın əhatə dairəsi;
- ✓ Nişanlanmanın xüsusiyyətləri;
- ✓ Hesabat məqsədləri;
- ✓ Yoxlamanın vaxtı;
- ✓ Rabitə xarakteri;
- ✓ Tapşırıq qrupunun səylərini istiqamətləndirən mühüm amillər;
- ✓ İlkin tapşırıq fəaliyyətlərinin nəticələri;
- ✓ Digər tapşırıqlar üzrə əldə edilən biliklər;
- ✓ Tapşırıq üçün mövcud resursların xarakteri, vaxtı və həcmi (2, s.76).

Şərtlərdə və ya audit prosedurlarının nəticələrində gözlənilməz dəyişikliklər olarsa audit strategiyasını dəyişdirmək lazım gələ bilər. Dəyişiklik olarsa, dəyişikliklərin səbəbləri müşayiət olunan sənədlərdə göstərilməlidir.

Audit strategiyası ümumiyyətlə istifadə ediləcək audit yanaşmasının, resursların idarə edilməsi və bölüşdürülməsinin, auditin vaxtı və audit tapşırığının idarə olunması üsulunun birləşməsini ifadə edir. Audit tapşırığının vaxt çərçivəsini idarə etmək də audit strategiyasının bir hissəsidir. Düzgün audit strategiyası auditor risklərini minimuma endirməyə, auditin son tarixlərinə riayət etməyə və audit resurslarından səmərəli istifadə etməyə səbəb ola bilər. Auditor audit tapşırığının yalnız müştərinin tələb etdiyi vaxtda tamamlanmadığına əmin olmalıdır, həm də maksimum audit keyfiyyətinin saxlanmasını təmin etmək üçün kifayət qədər vaxtın olduğundan əmin olmalıdır.

Auditin planlaşdırılması tapşırığın ümumi audit strategiyasının müəyyən edilməsini və audit riskini məqbul aşağı səviyyəyə endirmək üçün audit planının hazırlanmasını əhatə edir. Auditor tapşırıq üzrə tərəfdaşın və komandanın digər əsas üzvlərinin təcrübəsindən və fikirlərindən faydalanmaq və planlaşdırma prosesinin effektivliyini və səmərəliliyini artırmaq üçün auditin planlaşdırılmasına tapşırıq qrupunun cəlb edilməsini nəzərdən keçirir.

Adekvat planlaşdırma auditin vacib sahələrinə lazımi diqqətin yönəldilməsinə, potensial problemlərin vaxtında aşkar edilməsinə və həllinə, effektiv şəkildə yerinə yetirilməsi üçün audit tapşırığının düzgün təşkilinə və idarə olunmasına kömək edir. Audit planı audit riskini məqbul dərəcədə aşağı səviyyəyə endirmək üçün kifayət qədər müvafiq audit sübutlarının əldə edilməsi məqsədilə tapşırıq qrupu üzvləri tərəfindən yerinə yetirilməli olan audit prosedurlarının xarakteri, vaxtı və həcminin təfərrüatlı planından ibarətdir (4, s.122).

***Cədvəl 1. Auditin planlaşdırılması prosesi***




*Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

Auditorun audit prosedurlarını planlaşdırdığı zaman mövcud olan məlumatdan əhəmiyyətli dərəcədə fərqlənən məlumat diqqətini çəkə bilər. Məsələn, auditor nəzarət vasitələrinin əməliyyat effektivliyinin yoxlanılması ilə bağlı əldə edilmiş audit sübutlarına zidd olan mahiyyəti üzrə prosedurların icrası vasitəsilə audit sübutları əldə edə bilər. Belə şəraitdə auditor əməliyyatların, hesab qalıqlarının və ya açıqlamaların bəzi sinifləri üçün təsdiqləmə səviyyəsində qiymətləndirilmiş risklərin yenidən nəzərdən keçirilməsinə əsaslanaraq planlaşdırılan audit prosedurlarını yenidən qiymətləndirir.

**2.Audit planlaşdırmasının effektiv və qeyri-effektiv tərəfləri**

Müəyyən edilmiş vaxt ərzində auditi effektiv şəkildə başa çatdırmaq üçün planlaşdırma tələb olunur. Auditin planlaşdırılması işin səmərəli və effektiv şəkildə başa çatdırılması üçün auditor tərəfindən nə edilməli, kimin etməli, necə və nə vaxt edilməli olduğuna əvvəlcədən qərar vermə prosesidir.

Auditin planlaşdırılması yalnız o zaman həyata keçirilə bilər ki, auditor müştərinin işi haqqında məlumatlı olsun. O, auditin məqsədlərinə çatmağa kömək edir və auditora əvvəlcədən müəyyən edilmiş vaxt çərçivəsində sistemli şəkildə audit işinin müxtəlif aspektlərini əhatə etməyə imkan verir (3, s.98). Audit işinin keyfiyyətini artırır. Audit planları müştərinin uçot sistemləri və siyasətləri, daxili nəzarət prosedurları və yerinə yetiriləcək işlərin əlaqələndirilməsi haqqında bilikləri əhatə etməlidir. Planlar çevik olmalıdır ki, auditor tərəfindən tələb olunduqda işlənib hazırlana və ya yenidən nəzərdən keçirilə bilsin. Effektiv audit planı aşağıdakı üstünlükləri təmin edir:

❖ *Məqsədlərin yerinə yetirilməsi:* Audit planı audit məqsədlərinə nail olmaq üçün düzgün vasitələrin təmin edilməsini əsas götürür. Bundan əlavə o, auditin vacib sahələrinə lazımi diqqətin ayrılmasını təmin edir.

❖ *Problemlərin müəyyən edilməsi*: Yaxşı tərtib edilmiş və müəyyən edilmiş audit planı potensial problemləri müəyyən etməyə kömək edir.

❖ *İşin vaxtında tamamlanması:* İşin müəyyən edilmiş müddətdə düzgün şəkildə tamamlanmasını və heç bir mühüm sahənin kənarda qalmamasını təmin edir. O, həmçinin idarəetmənin bütün mühüm sahələrinə diqqət yetirilməsini təmin edir.

❖ *Koordinasiyanı asanlaşdırır:* Auditorlar və digər ekspertlər tərəfindən görülən audit işinin

koordinasiyasını asanlaşdırır.

❖ *Daha keyfiyətli audit işi:* O, audit işinin keyfiyyətinin yüksəldilməsinə kömək edir və auditin icrasında operativliyi və mükəmməlliyi təmin edir (3, s.145).

Planlaşdırma, auditin həcmini, planlaşdırılan fəaliyyət növlərini və onların yerinə yetirilməsi müddətlərini, habelə nəticənin hazırlanması üçün zəruri olan audit prosedurlarının miqdarını, növlərini və ardıcıllığını müəyyən edən audit proqramının müəyyən edildiyi ümumi audit planının hazırlanmasından ibarətdir. Auditor auditin planlaşdırılmasını ümumi audit prinsiplərinə, habelə aşağıdakı xüsusi prinsiplərə uyğun həyata keçirməlidir:

a) Planlaşdırmanın mürəkkəbliyi;

b) Planlaşdırmanın təfərrüatı;

c) Planlaşdırmanın optimallığı (1, s.65).

Auditin planlaşdırılmasının mürəkkəbliyi prinsipi ilkin planlaşdırmadan və auditin ümumi planının və proqramının yaradılmasından sonra planlaşdırmanın bütün mərhələlərinin qarşılıqlı əlaqələndirilməsini təmin edir

Auditin təfərrüatlı planlaşdırılması prinsipi koordinasiya tapşırıqlarının auditor qrupuna verilməsində və təsərrüfat subyektləri üzrə planlaşdırma mərhələlərinin razılaşdırılmasında ifadə olunur.

Audit müddətini planlaşdırarkən auditor müəyyən edilmiş müddət ərzində təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətində baş verən dəyişiklikləri və aralıq audit yoxlamalarının nəticələrini nəzərə almaqla auditin planına və proqramına vaxtında dəyişikliklər etməlidir.

Auditin planlaşdırılmasının optimallığı prinsipi ondan ibarətdir ki, planlaşdırma prosesində auditor planlaşdırmanın alternativliyini təmin etməlidir ki, auditorun seçdiyi meyarlar əsasında auditin ümumi planının və proqramının optimal variantını seçmək mümkün olsun (1, s.115).

Auditorlardan müəssisə haqqında anlayış əldə etmək tələb olunur, lakin auditorun müəssisə haqqında hər şeyi başa düşməsinə ehtiyac yoxdur. Auditor diqqətini audit prosedurlarını tərtib etməyə və risk sahələrini müəyyən etməyə kömək edəcək məlumatların əldə edilməsinə yönəltməlidir. Əvvəlcədən tətbiq edilən əlavə vaxt və səy bütövlükdə audit üçün səmərəliliyə və effektivliyə çevrilir. Məsələn, istehsalçının auditini planlaşdırarkən, nümunə götürmə və ya sınaq prosedurlarını təyin etməzdən əvvəl şirkətin istehsal prosesi, əməliyyatların hərəkəti və hər hansı əlaqəli nəzarət vasitələri haqqında anlayışı inkişaf etdirmək vacibdir. Bu anlayış olmadan, planlaşdırılan nümunə götürmə və sınaq metodologiyası praktiki olmaya bilər və ya istənilən nəticələri təmin etməyə bilər.

Auditorlar həmçinin gizli və ya aşkar edilməmiş risklərin potensialından xəbərdar olmalıdırlar. Gizli riskə misal olaraq kredit müqaviləsinə əlavə edilmiş mürəkkəb törəmə aləti göstərmək olar ki, bu da kredit müqaviləsi sahə işi zamanı ilk dəfə oxunana qədər auditorun xəbəri yoxdur. Planlaşdırma mərhələsində törəmə alət haqqında məlumat tapşırığın komandasında müvafiq işçi heyətinin olmasına və müvafiq prosedurların audit planına daxil edilməsinə imkan verir.

**3. Auditin planlaşdırılmasında yaranan çətinliklər**

Auditləri həyata keçirərkən bütün səviyyələrdə olan auditorlar müxtəlif problemlərlə qarşılaşacaqlar. Bunlar prosesə xas olanlardan tutmuş audit obyektinin auditə qarşı olan işçi heyəti tərəfindən təqdim olunanlara qədər fərqli olacaq.

Müəssisə daxilində aparılan audit adətən kənar auditə nisbətən az problemə səbəb olur. Daxili Audit Planı Daxili Audit Fəaliyyətinin öz vizyonuna və missiyasına nail olmasına kömək edən strateji sənəddir. Daxili Audit şöbəsinin strukturu təşkilatın ölçüsündən asılı olaraq düz, piramida şəklində və ya hər ikisinin kombinasiyası ola bilər. Daxili audit üçün davam edən problem, bəzən fərqli ola bilən çoxsaylı maraqlı tərəflərin gözləntiləri ilə bağlıdır. Ümumiyyətlə hesab edilir ki, funksiyanın müstəqilliyini təmin etmək üçün daxili audit funksional olaraq İdarə Heyətinin Audit Komitəsinə hesabat verməlidir (6, s.90).

Bunun əsas səbəbi odur ki, xarici audit adətən hansısa kommersiya, biznes və ya texniki səbəblə həyata keçirilir. Həm də belə görünür ki, auditi aparan kənar orqan daxili orqandan daha hazır qəbul olunur.

Audit planının müvafiq olması üçün vaxtında olmalıdır. Planlaşdırılmış auditlərin cədvəli yüksək rəhbərliyə çıxışın olmaması və ya uyğunluqla bağlı narahatlıqlardan irəli gələn prioritet işlərin olmaması səbəbindən gecikə bilər.

İT texnikləri kimi qeyri-siyasi işləri yerinə yetirmək üçün daxili auditorlara ehtiyac duyularsa, planlaşdırılmış auditləri həyata keçirmək üçün kifayət qədər vaxt olmaya bilər. Tələb olunan audit sahəsində təcrübəli daxili audit işçilərinin olmaması səbəbindən audit layihələri gecikə bilər. Dövlət sektoru proqramları üçün nəticələr çox vaxt yaxşı müəyyən edilmir. Bir neçə proqram eyni müştəri qruplarını hədəfləyə bilər və xüsusi müdaxilələrə xüsusi nəticələri aid etmək çətin ola bilər. Digər hallarda, proqram nəticələrin asanlıqla müəyyən edilə bilməyəcəyi sahələrə diqqət yetirə bilər. Fəaliyyət haqqında məlumat olmadıqda, səmərəliliyi yoxlamaq çətindir.

Audit planı yenilənmədikdə, yeni təşəbbüslər nəzərdən qaçırıla və nəticədə audit üçün planlaşdırılmaya bilər. Əgər illik audit planı yenilənməyibsə, o zaman audit meneceri yeni ilə təşkilata artıq aidiyyatı olmayan planla başlaya bilər.

Səmərəliliyin auditi mövcud proseslərin və alternativlərin ətraflı başa düşülməsini tələb edir. Bəzi sahələrdə səmərəliliyi qiymətləndirmək və praktiki tövsiyələr vermək üçün tələb olunan biliklər çox ixtisaslaşmışdır. Bu cür hərtərəfli informasiya bazası bütün audit idarələrində olmaya bilər.

Dövlət sektoru auditorlarının, ümumiyyətlə, dövlət siyasətinin mahiyyətini şərh etmək səlahiyyəti yoxdur. Bununla belə, bəzi siyasətlər səmərəsizliyə səbəb ola bilər. Məsələn, xidmətlərin göstərilməsi üzrə ofislərin əhalinin az olduğu ərazilərdə yerləşdirilməsi və ya azalan xidmət tələbləri şəraitində iş yerlərinin saxlanılması ilə bağlı siyasi qərarlar hökumətin sosial-iqtisadi məqsədlərinə səmərəlilik hesabına cavab vermək üçün hazırlana bilər (8, s.34).

Planlaşdırma auditin diskret mərhələsi deyil, çox vaxt əvvəlki auditin başa çatmasından qısa müddət sonra (və ya onunla əlaqədar olaraq) başlayan və cari audit tapşırığının tamamlanmasına qədər davam edən davamlı və təkrarlanan prosesdir. Bununla belə, planlaşdırma sonrakı audit prosedurlarının yerinə yetirilməsindən əvvəl tamamlanmalı olan müəyyən fəaliyyətlərin və audit prosedurlarının vaxtının nəzərə alınmasını ehtiva edir. Məsələn, planlaşdırma, auditor tərəfindən əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsindən və qiymətləndirilməsindən əvvəl aşağıdakı kimi məsələlərin nəzərdən keçirilməsi zərurəti daxildir:

- Riskin qiymətləndirilməsi prosedurları kimi tətbiq ediləcək analitik prosedurlar;
- Hüquqi və tənzimləyici baza haqqında ümumi anlayış müəssisəyə tətbiq oluna bilən və təşkilatın bu çərçivəyə necə əməl etdiyi;
- Əhəmiyyətliliyin müəyyən edilməsi;
- Mütəxəssislərin cəlb edilməsi;
- Digər risklərin qiymətləndirilməsi prosedurlarının yerinə yetirilməsi (8, s.35).

**4.Audit planı üzrə tətbiq edilən metodlar**

Auditorların biznesin audit zamanı əldə etmək istədiyi faktları və cavabları təsdiqləmək üçün istifadə etdikləri beş əsas test üsulu vardır. Bu test üsullarının təbiəti araşdırma suallarından tutmuş sənədlərin yoxlanılmasına və hesablamaların yenidən aparılmasına qədər hər şeyə diqqət yetirir.

Hər bir test üsulu auditora sübuta əsaslanan yaxşı məlumatlı rəy verməyə kömək edir. Bundan əlavə, o, auditoru biznesin optimal şəkildə fəaliyyət göstərib-keçməməsi və riskləri düzgün idarə edib-etməməsi ilə bağlı ixtisaslı nəticələr çıxarmaq üçün lazım olan məlumatları təqdim edir (5, s.17).

*Cədvəl 2. Auditin 5 mərhələli test üsulu*




*Mənbə: (10).*

Sorğu kifayət qədər sadə test üsuludur, burada auditorlar bəzi müvafiq məlumatları müəyyən etmək üçün təşkilatın menecerlərinə, mühasiblərinə və hər hansı digər əsas heyətə suallar verirlər. Auditor şirkətin risklərdən qaçmaq üçün mümkün olan hər şeyi etdiyinə əmin olmaq üçün biznes prosesləri və maliyyə əməliyyatlarının müvafiq qeydi barədə soruşa bilər.

Digər sadə, əsas və effektiv test üsulu auditorun tapşırıqları, prosedurları və şərtləri müşahidə etməsini əhatə edir. Rəhbərlik müəyyən qeyd edilmiş qeydlərin bağlı bölmələrdə müvafiq şəkildə qorunduğunu bəyan edəcək. Sonra, müəyyən qeyd edilmiş qeydlərin kilidli şkaflarda etibarlı şəkildə saxlandığını yoxlamaq üçün auditor normal gündəlik fəaliyyətlər zamanı işçinin göstərilən bağlı bölmənin kilidini açmasına baxacaq və qeydləri aşkar edəcək. Bu sınaq metodu ən çox nəzarətin işləməsinə dair heç bir sənəd olmadıqda istifadə olunur (7, s.23).

Sınaq metodu auditorlara əl nəzarətlərinin ardıcıl olaraq yerinə yetirildiyini və lazımi şəkildə sənədləşdirildiyini müəyyən etməyə kömək edir. Məsələn, auditor ehtiyat nüsxələrin müntəzəm olaraq işləməsi üçün planlaşdırılıb-çalınmadığını yoxlaya bilər. O, formaların düzgün doldurulduğunu yoxlayacaq. Sübutların tədqiqi həmçinin yazılı sənədlərin və ziyarətçi qeydləri, işçilərin təlimatları və sistem verilənlər bazası daxil ola biləcək qeydlərin nəzərdən keçirilməsini əhatə edir.

Sorğu, müşahidə, fiziki müayinə və yoxlama nəzarətin səmərəli fəaliyyət göstərdiyinə dair lazımi əminliyi təmin etmədikdə təkrar icradan istifadə edilir. Bu üsul həm də avtomatlaşdırılmış idarəetmə vasitələrinin effektiv işlədiyini müəyyən etmək üçün faydalıdır. Bu, nəzarətin əməliyyat effektivliyini vurğulamaq üçün ən güclü sınaq növüdür. Bu metoddan istifadə etməklə auditor adətən avtomatlaşdırılmış hesablamanı yenidən yerinə yetirmək kimi sözügedən nəzarəti əl ilə yerinə yetirməlidir (7, s.30).

Yenidən icra (bəzən yenidən hesablama adlanır) yuxarıda göstərilən üç metodun birləşməsi nəzarətin effektiv işləməsinə kifayət qədər əminlik təmin etmədikdə istifadə olunur və ya bu üsul nəzarət vasitələrinin səmərəli işlədiyini nümayiş etdirmək üçün öz-özünə sübut etmək üçün istifadə oluna bilər. Bu sınaq üsulu (həmçinin CAAT) nəzarətin əməliyyat effektivliyini göstərmək üçün ən güclü test növüdür. Yenidən icra auditordan nəzarəti əl ilə yerinə yetirməsini tələb edir, məsələn, sistemin nəzarəti düzgün yerinə yetirdiyini təsdiqləmək üçün sistemin avtomatik hesabladığı hesablamanı yenidən yerinə yetirmək.

CAAT test üsulu tez-tez böyük həcmli məlumatların təhlili üçün istifadə olunur, lakin o, bütün həyata keçirilən əməliyyatların bir nümunəsi deyil, hər bir əməliyyatı təhlil etmək üçün də istifadə edilə bilər. CAAT-ı yerinə yetirmək üçün istifadə olunan xüsusi hazırlanmış proqram var. Proqram təminatı ümumiyyətlə CAAT-ı yerinə yetirmək üçün istifadə olunur ki, bu da elektron cədvəldən

tutmuş xüsusi verilənlər bazası və ya verilənlərin analitikası üçün nəzərdə tutulmuş proqram təminatının (məsələn, ACL) istifadəsinə qədər dəyişə bilər (9, s.24).

CAAT-ın iki geniş kateqoriyası var:

- ❖ Audit proqramı və test məlumatları;
- ❖ Audit proqramı.

Audit proqramı müştərinin sistemini sorğulamaq üçün istifadə olunur. O, paketlənmiş, hazır proqram ola bilər və ya müştərinin sistemində işləmək üçün yazıla bilər. Bu proqramların əsas üstünlüyü ondan ibarətdir ki, onlardan böyük həcmdə verilənləri yoxlamaq üçün istifadə oluna bilər ki, bunu əl ilə etmək səmərəsiz olardı. Daha sonra proqramlar nəticələri təqdim edə bilər ki, onlar daha çox araşdırıla bilsinlər.Onların yerinə yetirə biləcəyi xüsusi prosedurlara aşağıdakılar daxildir:

- ❖ Nümunələrin müəyyən edilmiş meyarlara uyğun çıxarılması, məsələn, təsadüfi;
- ❖ Müəyyən bir məbləğdən çox;
- ❖ Müəyyən bir məbləğdən aşağı;
- ❖ Müəyyən tarixlərdə;
- ❖ Nisbətlərin hesablanması və əvvəlcədən müəyyən edilmiş müəyyən meyarlara cavab verməyən göstəricilərin seçilməsi (yəni, müqayisə);
- ❖ Arifmetik dəqiqliyi yoxlayın (məsələn, əlavələr);
- ❖ Hesabatların hazırlanması (büdcə və faktiki);
- ❖ Məlumatların təbəqələşdirilməsi (məsələn, müştəri və ya yaşa görə hesab-fakturalar);
- ❖ Müştərilərə və təchizatçılara göndərmək üçün məktublar hazırlamaq və kompüterləşdirilmiş sistem vasitəsilə əməliyyatların izlənməsi (10, s.45).

CAAT-ın digər formaları da var ki, onlar kompüter texnologiyası inkişaf etdikcə getdikcə daha çox yayılır, baxmayaraq ki, cəlb olunan xərclər və mürəkkəblik hal-hazırda onlardan daha böyük resurslara malik daha böyük mühasibat firmaları üçün istifadəsini məhdudlaşdırır. Auditorun İT bacarıqlarına malik peşəkar təyin edə biləcəyi audit prosedurlarına məlumatların və əməliyyatların necə başlandığı, icazə verildiyi, qeydə alındığı, emal edildiyi və hesabat verildiyi və İT nəzarətinin necə tərtib edildiyi barədə müəssisənin İT personalından sorğunun aparılması daxildir.

Bunlardan başqa, üzləşdirmə, balanslardakı fərqlərin səbəbini bilmək üçün auditor tərəfindən istifadə edilən bir üsuldur. Məsələn, müştərinin bank kitabçası ilə bank çıxarışı və ya keçid kitabçasında göründüyü kimi bank balansındakı fərqi bilmək üçün auditor üzləşdirmə aktını hazırlayır (9, s.48).

Mühasibat uçotu hesabına ilkin daxilolma kitablarından göndərişləri yoxlamaq və balansı təsdiqləmək üçün auditor qeydləri yoxlamaq tələb olunur; məsələn, satış kitabını yoxlamaq üçün auditor satış reyestrindən satış kitabçasındakı qeydləri yoxlaya bilər. O, satış reyestrinin və satış kitabının qalıqlarını əlavə hesablaya bilər.

Auditorlar həmçinin mühasibat uçotunun tanınması və təsnifatlarının auditin maliyyə hesabatlarını hazırlamaq üçün istifadə olunan mühasibat uçotu standartına və çərçivəyə uyğun olub-olmadığını yoxlayırlar.

Bu yanaşmanın çatışmazlıqları ondan ibarətdir ki, audit resurslarının digərlərindən daha çox tələb edəcəyi çoxlu sayda əməliyyatları sınaqdan keçirmək tələb olunur. Bu yanaşmanın faydası ondan ibarətdir ki, o, auditorlara maliyyə hesabatlarına daxili nəzarətin aşkar edə bilmədiyi riskləri minimuma endirməyə kömək edə bilər.

**Nəticə**

Audit planı ümumi audit strategiyasından başlayaraq tapşırığın komandası üzvləri tərəfindən yerinə yetirilməli olan audit prosedurlarının xarakterini, vaxtını və həcmini ehtiva edir. Bu audit prosedurlarının planlaşdırılması tapşırığın audit planının hazırlanması zamanı auditin gedişində həyata keçirilir.

Auditorun risk qiymətləndirməsi prosedurlarının planlaşdırılması audit prosesinin əvvəlində baş verir. Bununla belə, xüsusi əlavə audit prosedurlarının xarakteri, vaxtı və həcminin planlaşdırılması həmin risklərin qiymətləndirilməsi prosedurlarının nəticəsindən asılıdır. Bundan

əlavə, auditor bütün qalan sonrakı audit prosedurlarını planlaşdırmazdan əvvəl bəzi əməliyyatlar, hesab qalıqları və açıqlamalar üzrə əlavə audit prosedurlarının icrasına başlaya bilər.

Audit yanaşmaları auditorların öz audit tapşırıqlarında istifadə etdikləri üsul və ya üsullardır. Həm daxili, həm də kənar auditlər tapşırığın xarakterinə, əhatə dairəsinə, müştərinin biznesinin xarakterinə və audit risklərinə əsaslanaraq öz audit fəaliyyətlərini fərqli şəkildə həyata keçirmək üçün audit yanaşmalarını tətbiq edirlər.

Doğru audit yanaşmasının seçilməsi vacibdir. O, auditora səmərəlilik və effektivlik baxımından audit fəaliyyətini yaxşılaşdırmaqda kömək edə bilər. Doğru audit yanaşması həm də auditorlara yüksək riskli sahələrə diqqət yetirməyə və aşağı riskli sahələrdə daha az səy göstərməyə kömək edə bilər. Fərqli audit firmaları öz audit testlərini həyata keçirmək üçün fərqli audit yanaşmalarından istifadə edə bilərlər.

Bununla belə, bütün zaman faktorları və risk faktorları nəzərə alınarsa, audit obyektinin gözləntiləri haqqında aydın təsəvvür yarana bilər. Bundan sonra daxili auditorlar audit məqsədlərinə nail olmaq üçün alternativ üsulları planlaşdıra bilirlər və müsbət nəticələr əldə etmək ehtimalı daha yüksəkdir. Gələcək daxili audit planlarının uğuru əvvəlki audit fəaliyyətinin işindən və yaxşı planlaşdırmadan asılıdır. Planlaşdırma prosesi effektiv daxili auditin planlaşdırılması üçün kritik olmalıdır.

## ƏDƏBİYYAT

1. Ataşov B. və b. Müəssisələrin maliyyəsi: dərslik / B.Ataşov, N.Novruzov, E.İbrahimov. – Bakı : Kooperasiya nəşriyyatı, 2009. - 339s.
2. Rzayev Q.R. Mühasibat uçotu və audit: dərslik. - Bakı: ADİU nəşriyyat, 2006.- 2-ci nəşr. –384s.
3. Teraxova V.A. Maliyyə uçotu. - Bakı: İqtisad Universiteti nəşriyyati, 2008. - 426s.
4. Zeynalov V.Z. Maliyyə: dərs vəsaiti. - Bakı: İqtisad Universiteti nəşriyyatı, 2010. - 361s.
5. Alexander D., Nobes C. (2010). Financial accounting. - 4th ed. England: Pearson. [Online]. - Available at: http://lib.bbu.edu.az/ (Accessed: 03.12.2021)
6. Russel J.P. (2009). Process auditing techniques. Available at: https://www.qualitywbt.org/
7. Parry M., Hughes, J. (2019). Accounting for governments from budget to audit.- US: PFM Training limite, 2019. - 738p.
8. Trang N.T. (2016). Internal audit methodology. Available at: https://www.theseus.fi/ (Accessed:25.01.2022)
9. Hayes R. and others (2005). Principles of auditing an introduction to international standards on auditin / R.Hayes, R.Dassen, A.Schilder, P.Wallage. - 2nd ed. UK: Pearson education.
10. Serpeninova Y. and others. Computer - assisted audit techniques: classification and implementation by auditior / Y.Serpeninova, S.Makarenko, M.Litvinova // Public Policy and Accounting. -2020. - №1(1). - p.44-49.[Online]. - Available at: https://www.researchgate.net/ (Accessed:25.01.2022)

## SUMMARY

**Rauf Allahyarov, Shafaq islamova**

## EVALUATION OF AUDIT METHODOLOGY IN THE ACTIVITY OF THE ENTERPRISE

The article studies the strategies and methods applied during the organization of audits inside and outside of an enterprise. Effective and ineffective aspects of audit planning have been identified, common difficulties and problems faced by the enterprise have been analyzed. The different audit methodologies that enterprises should apply according to the audit plan from a theoretical and practical points of view have also been studied.

***Key words:*** *audit, finance, enterprise, accounting, planning, evaluation, efficiency.*

## РЕЗЮМЕ

**Рауф Аллахьяров, Шафаг Исламова**

## ОЦЕНКА МЕТОДОЛОГИИ АУДИТА В ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЯ

В статье рассматриваются стратегии и методы, применяемые при организации проверок внутри и вне предприятия. Выявлены эффективные и неэффективные аспекты планирования аудита, проанализированы общие трудности и проблемы, с которыми сталкивается предприятие. Внимание было также уделено различным методологиям аудита, которые предприятия должны применять в соответствии с планом аудита с теоретической и практической точек зрения.



***Ключевые слова:*** *аудит, финансы, предприятие, учет, планирование, оценка, эффективность.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 132-134
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 132-134
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 132-134

**FATMA RZAYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*aliyevafatima33@gmail.com*

**UOT. 338.**

# İQTİSADİ QLOBALLAŞMA VƏ MİLLİ DÖVLƏT: NƏZƏRİ YANAŞMA

*Bu məqalənin əsas məqsədi iqtisadi qloballaşma ilə milli dövlət arasındakı münasibətləri təhlil edən nəzəri yanaşmaları araşdırmaqdır. Güclü liberal qloballaşma yanaşması iddia edir ki, iqtisadi qloballaşma ilə dövlət kiçildi, zəiflədi, nüfuzunu və suverenliyini itirdi, hətta milli dövlət də parçalanma ilə üzləşdi, digər üç yanaşma isə dövlət kiçilmədi, zəifləmədi və ya suverenlik itirmədi, yalnız məqsəd və funksiyalarında bir dəyişiklik baş verdi.*

***Açar sözlər:*** *qloballaşma, milli dövlət, kapital, siyasət, dünya bazarı*

XXI əsrin əsas anlayışlarından biri olan qloballaşma ən çox müzakirə olunan anlayışlardan biridir. Qloballaşmanın mənası və qloballaşmanı başa düşmək üçün ən yaxşı nəzəri vasitələrin nə ola biləcəyi ilə bağlı alimlər arasında birlik olmasa da, çoxlarının razılaşdığı bəzi məqamlar var. Əvvəla, XXI əsrin sonlarına doğru bütün dünyada sosial dəyişmə və transformasiya sürəti geniş vüsət aldı. İkincisi, bu sosial dəyişiklik dünyada ölkələr və insanlar arasında artan şəbəkələr və qarşılıqlı əlaqələr yaratmış və insanlar arasında bu mövzularda məlumatlılıq yaratmışdır. Üçüncüsü, qloballaşmanın iqtisadi, sosial, siyasi, mədəni və ideoloji təsirləri hər yerdə mövcuddur və qloballaşma onun hər bir ölçüsünün bir-biri ilə əlaqəli olduğu çoxölçülü bir hadisədir.

Qloballaşma tədqiqatlarında ən vacib suallardan biri qloballaşmanın nə vaxt başladığı ilə bağlıdır. Bu suala üç yanaşma var. Birinci yanaşmaya görə, qloballaşma insan varlığından bəri baş verən bir prosesdir. Beləliklə, insan 5.000-10.000 ildir mövcuddur. İkinci yanaşmaya görə, qloballaşma kapitalizmin və modernləşmənin inkişafı və yayılması ilə baş verən prosesdir. Ona görə də onun 500 illik tarixi var. Üçüncü yanaşmaya görə, kapitalizm sisteminin postindustrial, postmodernizasiya və ya yenidən qurulması nəticəsində baş verən yeni hadisədir. Yəni 20-30 illik yeni bir prosesdir. 1980-ci illərdən başlayaraq neoliberal iqtisadi siyasətin həyata keçirilməsi ilə beynəlmiləlləşən kapital dünya bazarında nəinki yeni qanunauyğunluqlar və ziddiyyətlər yaratmış, həm də dövlət hakimiyyətinin institutsionallaşdırılmasında, dövlət aparatlarının təşkilində və dövlətlərarası münasibətlərdə inanılmaz dəyişikliyə səbəb olmuşdur.

Alimlər neoliberal iqtisadi qloballaşma ilə milli dövlət arasındakı əlaqəni araşdıran müxtəlif nəzəriyyələr hazırlamışlar. Bu nəzəri yanaşmalar neoliberal iqtisadi qloballaşmanın problematikasını və milli dövlətin başına gələnləri aşağıdakı suallar çərçivəsində araşdırmışdır. Ədəbiyyatda milli dövlətin qüdrətini itirdiyini, hətta milli dövlətin sonunun gəldiyini yazan çoxlu kitab və məqalələr var. Burada əsas mövzu ondan ibarətdir ki, milli dövlətlər öz milli iqtisadiyyatlarını, pullarını, ərazi sərhədlərini, hətta mədəniyyətlərini və dillərini idarə etmək imkanlarını itirmişlər. Makro güc milli dövlətlərin əlindən çıxıb qlobal bazarın, transmilli şirkətlərin və qloballaşan kommunikasiya kanallarının əlinə keçdi. İstehsal və xidmətlər beynəlmiləlləşdikcə kapitalın hərəkətliliyinin artırılması öz səlahiyyətlərini fiskal büdcələşdirmə, maliyyə siyasəti və idarəetmə, investisiya qaydaları və işçilərin tənzimləmələri ilə bağlı hökumət siyasətləri üzərində tətbiq edir. Ohmea “Millət dövlətinin sonu” kitabında qloballaşmanı yeni dünya iqtisadiyyatının artan mobilliyi kimi xarakterizə edir. Kapital bazarlarının istiqamətləndirdiyi investisiyalar, bütün dünyada qaynaq və bazar axtarışında olan beynəlxalq şirkətlər, beynəlxalq təşkilatlanma və koordinasiyaya imkan verən informasiya sistemi, dünyanın ən yaxşı və ən ucuz məhsullarını almağa çalışan fərdi istehlakçılar bu

aktiv elementlər sırasına daxil edilə bilər. Ohmea görə, pullarına, bank işlərinə və kommunikasiyalarına nəzarətdən əl çəkməyən və informasiyaya nəzarət etməyə çalışan hökumətlər yuxarıda qeyd olunan mobilliyin üstünlüklərindən tam yararlana bilməzlər (2, s.25). İstehlakçılar milli iqtisadiyyatı və milli dövlətin təşkilini qorumaq cəhdləri ilə onların seçim azadlığını məhdudlaşdıran siyasətlərin məntiqini şübhə altına almağa başlayıblar. Nəticədə milli dövlət öz faydalı funksiyalarını itirərək zəifləməyə başladı. İqtisadi fəaliyyətin beynəlmiləlləşməsi xalqları dövlətlərarası siyasi əməkdaşlığa həvəsləndirir, hətta "Regional dövlətlər" də yarana bilər. Ölkə hökumətləri tənzimləmə etməklə və ya bölgədə federal hökumət qurmaqla öz siyasi səlahiyyətlərini həvalə edə bilərlər. Bu formalaşmanı stimullaşdıran fenomen beynəlxalq şirkətləri və istehlakçıları gücləndirən yeni informasiya texnologiyalarıdır.

Kennedinin fikrincə iqtisadi qloballaşma prosesində hökumətlər nəzarəti itirirlər. İşçilərin və inkişaf etməkdə olan ölkələrin mövqeləri eroziyaya uğrayır və təbii mühitə ziyan vurulur. Bu günkü qlobal cəmiyyət ənənəvi siyasi strukturlar, milli şüur, sosial ehtiyaclar, institusional nizam və vərdişlər kimi bir çox şeyi texnoloji dəyişiklik və iqtisadi inteqrasiya ilə uzlaşdırmaq vəzifəsi ilə üz-üzədir. Eynilə, Kobrin qloballaşmanın dövlətin nüfuzunu və müstəqil qərar qəbul etmə səlahiyyətini azaltdığı fikrini müdafiə edirdi. Sakamoto qloballaşmanın beynəlxalq idarəetmə ilə bağlı problemlər yaratdığını və dövlətlərin səlahiyyətlərinin nizamnamə və qaydaların tənzimlənməsi kontekstində azaldığını müdafiə edirdi (4, s.19). Rodrikin fikrincə, qloballaşma milli dövlətlər daxilində və dövlətlər arasında sosial və siyasi gərginlik yaradır. Mc.Micheal həmçinin iqtisadi qloballaşma ilə dövlətin gücünün azaldığını iddia edir ( 3, s.197). Evans də qloballaşmanın dövlətin təməlini sarsıtması fikrini müdafiə edir, çünki qloballaşma ilə birləşən neoliberal ideologiya dövlətə qarşıdır. Ən qabaqcıl təhlillərdən birinə sahib olan Strange də dövlətin nüfuzunun getdikcə azaldığını vurğulayır. O, iddia edir ki, milli dövlət və onun beynəlxalq sistemi qlobal dünyada atəş altındadır. Dövlət müdaxiləsinin artmaqda olduğunu, lakin onun yalnız nisbətən marjinal məsələlərdə artdığını bildirir. O, dünyada xüsusilə 1989-cu ildən sonra dövlətlərin daha çox olduğunu, lakin onların əksəriyyətinin zəif və nəzarətsiz olduğunu bildirir. Bu gün dünya bazarlarının qeyri-şəxs qüvvələri cəmiyyət və iqtisadiyyat üzərində ən çox siyasi nüfuza malik olduğu güman edilən dövlətdən güclüdür. Qloballaşma dövlətin öz milli və beynəlxalq işlərinə nəzarət etmək və idarə etmək imkanlarını əhəmiyyətli dərəcədə azaltmaqla dövlət suverenliyinin azalmasına səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Abbasbəyli A. Müasir beynəlxalq münasibətlər və qloballaşma. Dərslik. Bakı: 2007.
2. Ohmea K. The end of the nation state: the rise of regional economies. London: Harper Collins. 1995.
3. Mc.Michael P. Development and social change: A global perspective. Thousand Oaks, CA: Pine Forge. 1996.
4. Sakamoto Y. Global transformation. New York: UN University Press. 1994.


## SUMMARY

**Fatma Rzayeva**

## ECONOMIC GLOBALIZATION AND THE NATION STATE: A THEORETICAL APPROACH

The main purpose of this article is to study theoretical approaches analyzing the relationship between economic globalization and the nation-state. The strong liberal globalization approach argues that with economic globalization the state has become smaller, weakened, lost its authority and sovereignty, and even the nation-state has experienced disintegration. However, with the other three approaches, the state did not weaken and did not lose its sovereignty, but only faced with the restructuring of its goals and functions.

***Key words:*** *globalization, nation state, capital, policy, world market*

## РЕЗЮМЕ

**Фатьма Рзаева**

## ЭКОНОМИЧЕСКАЯ ГЛОБАЛИЗАЦИЯ И НАЦИОНАЛЬНОЕ ГОСУДАРСТВО: ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД

Основная цель данной статьи состоит в рассмотрении теоретических подходов, анализирующих отношения между экономической глобализацией и национальным государством. В то время как сильный подход либеральной глобализации утверждает, что с экономической глобализацией государство сократилось, ослабло, потеряло свой авторитет и суверенитет, и даже национальное государство столкнулось с распадом, в то время как другие три подхода не уменьшились, не ослабли или не потеряли свою суверенитета, произошло лишь изменение его целей и функций.

***Ключевые слова:*** *глобализация, национальное государство, капитал, политика, мировой рынок*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 135-139
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 135-139
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 135-139

**NƏSRİN ƏLİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*nesrin.lyv06@gmail.com*

**UOT: 338.**

# MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNDƏ İDARƏETMƏ FUNKSİYALARI

*İdarəetmə - özünün bütövlüyünü, quruluş vahidliyini saxlamaqla müəssisədə son məqsədə nail olmaq üçün tətbiq edilən müxtəlif təbiətli sistemlərin təsiretmə vasitəsidir. İdarəetmə funksiyaları müəssisədə idarəetmə quruluşunun yaradılması, təsərrüfatçılıq fəaliyyətinin məzmunu baxımından çox mürəkkəb münasibətlər sistemi hesab oluna bilər. İdarəetmə funksiyaları və xüsusiyyətləri hər bir quruma görə zaman-zaman dəyişir. Mənfəət məqsədli və ya qeyri-kommersiya təşkilatlarından məqsədlərinə uyğun və səmərəli istifadə edilməsini və fəaliyyətlərinin həyata keçirilməsini təmin edir.*

*Məqalədə müasir idarəetmənin universal dörd funksiyasından geniş şəkildə bəhs olunmuşdur. İdarəetmə funksiyaları, menecment sahəsində əmək bölgüsünün təzahür forması olduğundan, onların hər birinin öyrənilməsi və tətbiq edilməsi hər bir idarə rəhbəri (menecer) üçün olduqca vacibdir. Müəssisələrdə idarəetmə funksiyası planlaşdırma ilə başlayır, təşkilatlanma ilə güclənir və istiqamətləndirmə ilə davam edir. Son funksiya isə nəzarətdir. Nəzarət nəyin əldə olunmadığını və ya nə dərəcədə əldə olduğunu araşdırmaq və lazım gəldikdə düzəldici tədbirlər görməkdir.*

*Bu məqalədə əsasən müəssisələrin idarə olunmasında funksiya anlayışı, menecmentin əsas funksiyaları, hansı ki, planlaşdırma, təşkil etmə, motivləşdirmə, istiqamətləndirmə, nəzarət funksiyalarının əhəmiyyəti və rolu ön plana çəkilmişdir.*

***Açar sözlər:*** *idarəetmə, funksiya, nəzarət, müəssisə, planlaşdırma, istehsal*

Məlumdur ki, idarəetmə fasiləsiz və dinamik bir prosesdir. Bu prosesin düzgün təşkili və həlli, son nəticə əldə edilməsi istiqamətində görülən bütün işlərin ayrı-ayrı funksiyalar şəklində təşkili və icra edilməsini tələb edir. İdarəetmə məqsədlərin effektiv və səmərəli həyata keçirilməsi üçün bir qrup insanda əməkdaşlıq və koordinasiyanı təmin etmək üçün bütün səyləri nəzərdə tutur. Rəhbərlik dəyişən ekoloji şəraitdə qıt resurslardan səmərəli istifadə etməklə biznesin məqsədlərinə effektiv şəkildə nail olmaq üçün başqaları ilə əməkdaşlıq edir. İdarəetmə biznesi təşkil edən elementlərin ahəngdar işləməsini təmin edən prosesdir.

İdarəetmə prosesi statik deyil, dinamik və rasional prosesdir. Bu, ən azı bir hökmdar və bu hökmdarın şəxsi səlahiyyətindən istifadə etməsini tələb edir. Hökmdarlarla idarə olunanlar arasında ünsiyyət sistemi qurulmalı, əmək bölgüsünə və ixtisasa əsaslanan təşkilat inkişaf etdirilməlidir. Maddi və insan resurslarından sərbəst istifadə edilməli və bu resurslar arasında optimal harmoniya təmin edilməlidir.

İdarəetmə ehtiyacı insanlar qrup halında işləməyə başlayanda ortaya çıxmışdır. İnsanların birlikdə və ya qrup halında işi qədim Misir, Çin, Yunanıstan və Roma tarixlərində göründüyü kimi qədim dövrlərə gedib çıxır. Həmin dövrlərdən indiyədək idarəetmə fəaliyyətinin mövcudluğu, ticarət, tikinti, kənd təsərrüfatı və s. bir çox yerlərdə özünü göstərir. İdarəetmənin fəaliyyət növü kimi mövcudluğu qədim dövrlərə təsadüf etsə də, onun bir elm kimi yaranması və inkişafı XVIII əsrdə baş vermişdir. Bu səbəbdən idarəetmə "sənətlərin ən qədimi, elmlərin ən yenisi" adlandırılmışdır (3).

İdarəetmənin bir çox fərqli tərifləri verilmişdir. Bunların arasında ən çox yayılmış və ən sadə tərif "başqaları vasitəsilə iş görmək fəaliyyəti"dir. Fərqli təriflər olsa da, bütün təriflərin bir neçə ortaq nöqtəsi var. Bunlar başqaları ilə işləmək, təşkilatın məqsədlərinə çatmaq, ətraf mühiti dəyişmək və məhdud resurslardan səmərəli istifadə etməkdir. Müəssisələr girişləri müəyyən proseslərdən

keçirərək məhsul istehsal edirlər. Bütün bu prosesin həyata keçirilməsində idarəetmə fəaliyyəti aparıcı rol oynayır. Bununla belə, idarəetmə fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün bəzi funksiyalar mövcuddur. Bu funksiyalar biznesin rəqabət şəraitində fəaliyyət göstərdiyi müddətdə sağ qalmasına və məqsədlərinə ən dəqiq və ən effektiv şəkildə çatmasına şərait yaradır (2). Bu funksiyaları dörd başlıq altında toplamaq mümkündür:

1. Planlaşdırma;
2. Təşkil etmə;
3. İstiqamətləndirmə;
4. Nəzarət.

Planlaşdırma fəaliyyəti idarəetmənin birinci funksiyasıdır. İdarəetmə fəaliyyəti planlaşdırmadan başlayır. Bizneslər gələcəkdə nail olmaq istədikləri məqsəd və vəzifələri müəyyən etməli və onlara çatmaq üçün müxtəlif tədbirlər görməlidirlər. Bu planlaşdırmadır. Planlar bütün biznesi əhatə edir və bütün səviyyələrdə biznes işçilərinə rəhbərlik edir. İşçilər və menecerlər biznesin planlarını bilərək öz hərəkətlərini və üstünlüklərini seçir və müəyyən edirlər.

Plan gələcəkdə harada və necə olmaq istədiyiniz, nəyə nail olmaq istədiyinizlə bağlı qərar verilməsidir. Belə bir qərar plandır. Buna görə də, qərar vermək və plan hazırlamaq birlikdə nəzərə alınmalıdır. Yeganə fərq odur ki, planlar birdən çox qərardan ibarətdir, onlar qərarların cəmidir. Planlaşdırma planı üzə çıxarmaq üçün sərf edilən səyləri, vaxtı ifadə edir. Plan bir nəticədir. Planlaşdırma isə prosesdir. Əhəmiyyətli olan planlaşdırmadır, yəni daimi bir şəkildə bu gündən gələcək haqqında qısa və uzun müddətli məqsədlər və onlara nail olmaq yolları haqqında düşünməkdir. Plan prosesin sonundadır. Qərarla proses tamamlanır.

Planlaşdırma idarəetmə funksiyalarının birincisi və ən ümumisidir. Digər idarəetmə funksiyalarının planlaşdırılması bu funksiyanın davamıdır. Planlaşdırma fəaliyyətinin nə üçün həyata keçirildiyini aşağıdakı kimi izah etmək olar:

• Planlaşdırma işçilərə əməl etmələri üçün istiqamət verir: planlaşdırma fəaliyyəti müəssisədə əlaqələndirməni təmin edir.

• Planlaşdırma sürətlə dəyişən şərtlərin biznesə təsirini minimuma endirir: menecerləri irəliyə baxmağa, dəyişikliyi gözləməyə, dəyişikliyin təsirlərini düşünməyə məcbur etməklə qeyri-müəyyənliyi azaldır.

• Müəssisədə resursların israf edilməsinin və artıqlığının qarşısını alır: müəssisədə fəaliyyətlərin aparıldığı planlar sərf olunan vaxt, resurslar və artıqlıq minimuma endirilir. Bundan əlavə, planlaşdırma sayəsində proseslər və nəticələr aydın şəkildə müəyyən edilə bilər.

Planlaşdırma funksiyasını həyata keçirmək üçün dörd əsas məsələnin həlli nəzərdə tutulmalıdır:

a) resursların bölüşdürülməsi;
b) xarici mühitə uyğunlaşma;
c) daxili əlaqələndirmə;
d) təşkilati strategiyanı müəyyənləşdirmək.

Planlaşdırma funksiyasından sonra təşkilatçı (təşkil etmə) funksiyası gəlir. Yalnız planlaşdırmaq kifayət deyil. Planlaşdırdıqdan sonra növbəti mərhələdə görüləcək işlərin müəyyən edilməsi və qruplara bölünməsi, müəyyən edilmiş və qruplaşdırılmış işlərin təyin edilməsi və nəhayət, bu işlərin yerinə yetirilməsi üçün tələb olunan yer, nəqliyyat vasitəsi və avadanlıq müəyyən edilməli və satın alınmalıdır. Beləliklə, planlaşdırma fəaliyyəti nəticəsində təyin olunan hədəflər təşkilati funksiyası ilə canlanmağa başlayır (1).

Təşkilat funksiyasını vəzifələrin qruplaşdırılması, şöbələrin yaradılması və məqsədlərə uyğun olaraq əmr və vəzifələrin müəyyən edilməsi yolu ilə müvafiq biznes strukturunun yaradılması kimi müəyyən etmək mümkündür. Başqa sözlə, biznesin məqsədlərinə uyğun qurulması funksiyasının təşkili seçilmiş plan və strategiyalara əsaslanır. Planlar və strategiyalar müəssisələrdə "nə etməli" olduğunu müəyyənləşdirir.

Təşkilat prosesinin mərhələləri

Prosesin təşkili, məqsədlərin müəyyən edilməsi, tələb olunan işi müəyyən etmək və

qruplaşdırmaq, iş tələblərinə cavab vermək, iyerarxik quruluşun müəyyən edilməsi, səlahiyyət və vəzifələrin müəyyən edilməsi, müəyyən edilmiş vəzifələrin bölüşdürülməsi və s.

Təşkilat prosesinin mərhələlərini üç əsas başlıq altında toplamaq mümkündür:

1. Görüləcək işlərin müəyyən edilməsi və qruplaşdırılması;
2. Kadrların müəyyən edilməsi və təyin edilməsi;
3. Yerlərin, alətlərin və üsulların müəyyən edilməsi.

İdarəetmə funksiyalarının üçüncüsü oriyentasiyadır. Orientasiya sayəsində insanların özlərinə verilən tapşırıqları ən dəqiq və ən səmərəli şəkildə yerinə yetirmələri təmin edilir. İnsanların bu şeyləri doğru və yerində yerinə yetirməsi üçün əmr vermə sisteminin də düzgün işləməsi lazımdır. Aydın, tam və başa düşülən əmrlər sayəsində kadrlar bilavasitə görməli olduqları işlərə yönəldilir.

Müəssisələrdə idarəetmə funksiyası planlaşdırma ilə başlayır, təşkilatlanma ilə güclənir və istiqamətləndirmə ilə davam edir. Biznesdəki insanları onlara verilən tapşırıqları ən dəqiq və səmərəli şəkildə yerinə yetirmək üçün istiqamətləndirmək vacibdir. İnsanların işlərini düzgün yerinə yetirməsi əmr verə bilməyə və verilən əmrləri qəbul edib yerinə yetirməsinə bağlıdır. Buna nail olduqda istiqamətləndirmə funksiyası həyata keçirilir (1).

Son funksiya nəzarətdir. Nəzarətetmə idarəetmənin mühüm funksiyalarından biridir. Nəzarət sözü nəzər yetirmək, baxmaq, müşahidə aparmaq mənasını daşıyır. Nəzarətetmə müəssisədə intizamın yaranmasını, fəaliyyətin tənzimlənməsini, qayda-qanunlara, təlimatlara əməl olunmasını təmin edən idarəçilik funksiyasıdır. Nəzarət idarəetmənin obyektini və subyektlərini əhatə edir.

Məlum olduğu kimi, təşkilatlar müəyyən məqsədlərə nail olmaq üçün tikilir. Bu səbəbdən nəzarətin həyata keçirilməsi məcburi olan bir fəaliyyətdir. Nəzarət nəyin əldə olunmadığını və ya nə dərəcədə olduğunu araşdırmaq və lazım gəldikdə düzəldici tədbirlər görməkdir. Biznes tərəfindən edilən planlaşdırmanın uğurlu olub-olmamasından asılı olmayaraq məqsədə nə dərəcədə çatdığı məsələsi nəzarət obyektidir. Nəzarət nəticəsində əvvəllər müəyyən edilmiş standartlarla işin nəticəsi müqayisə edilir və baş verən kənarlaşmalar aşkar edilir. Sapma, kənarlaşma aşkar edildikdən sonra düzəldici tədbirlər görmək lazımdır. Beləliklə, biznes planlaşdırma, nəzarət və nəzarətlə başlayan funksiyalarını tamamlayır və bu funksiyalar ardıcıl və dövridir (4).

Effektiv nəzarət sisteminin xüsusiyyətlərini aşağıdakı kimi sıralamaq olar:

- Auditin ümumi məqsədi müəssisənin məqsədlərinə nail olunmasını asanlaşdırmaqdır. Bununla belə, nəzarət strategiyalar, siyasətlər və planlar şəklində müəyyən edilməli və arzu edilən məqsədlər qoyulmalıdır. Bu məqsədlər, siyasətlər, strategiyalar, metodlar və büdcələr standartlara uyğun olaraq ölçülməlidir. Nəticədə nəzarət tətbiqi standartlaşdırmaqla səmərəliliyi artırır və xərcləri dəyişir.
- Audit müvafiq fəaliyyətin ehtiyac və tələblərini əks etdirməlidir. Nəzarət sistemləri görülən işə uyğun olmalıdır. Məsələn kiçik müəssisələrdə audit sistemi iri müəssisələrlə müqayisədə çox fərqlidir.
- Nəzarət çevik olmalıdır. Biznesin fəaliyyət göstərdiyi daxili və xarici mühit daim dəyişir. Planlar, proqramlar və siyasətlər tez-tez dəyişir. Nəticədə idarəetmə sistemi çevikdir. Xüsusilə gözlənilməz hadisələr qarşısında çeviklik nümayiş etdirilməlidir. Audit öz fəaliyyətində çeviklik, dəyişən şərtlərə uyğunlaşma və təşkilati fəaliyyətlərin təkmilləşdirilməsi baxımından vacibdir. Ən yaxşı nəzarət sapmaları göstərən və düzəldici tədbirlər görəndir. Planlaşdırma proqnozlaşdırılan gələcək hadisələrə əsaslanır. Plan çox yaxşı qurulsa belə, gözlənilməz hadisələr plandan kənarda qalır və sapmalara səbəb olur. Nəzarət sistemi mümkün qədər tez plandan kənara çıxanlar üçün düzəldici tədbirləri təmin etməlidir.
- Yoxlama irəliyə baxmalıdır. Biznesin ümumi prinsipi olan ən az xərclə arzu olunan məqsədə çatmaq nəzarət sistemində də tətbiq edilməlidir. Audit funksiyasını yerinə yetirərkən auditin ən az xərclə həyata keçirilməsi üçün səylər göstərilməlidir. Yoxlama üçün çoxlu lazımsız fəaliyyətləri kənarlaşdırmaq lazımdır.
- Audit qərəzsiz olmalıdır. Təşkilat insan münasibətlərinin çox olduğu bir sistem olduğundan, çox emosional davranışın olduğu bir mühitdir. Audit qərəzsiz deyilsə, audit çətinləşir. Bunun kimi

əgər auditin əsaslandığı standartlar emosional məlumatlardan daha çox asılıdırsa, nəticələr əldə etmək mümkün deyil.

- Audit düzəldici tədbirlər görməlidir. Auditin əsas məqsədi olan islahedici tədbirlər görülür. Səhvlər birbaşa düzəldici tədbirlər görülməzdən əvvəl yaranır. Səbəblər araşdırılmalı və nasaz biznes sistemləri və yaxud şəxslər müəyyən edilməlidir.

- Nəzarət əhatəli olmalıdır. Audit fəaliyyəti bütün təşkilatı əhatə etməlidir. Xüsusilə top menecment yaxşı nəzarətə nail olmaq üçün bütün təşkilati məqamları əhatə etməlidir.

- Nəzarət başa düşülən olmalıdır. Auditin effektivliyi onun başa düşülməsindən asılıdır. Müxtəlif təşkilat səviyyələrində çalışan menecerlər auditin necə işləyəcəyini bilməlidirlər. Əgər işçilər auditi və onun standartlarını başa düşmürlərsə, tətbiqlərini standartlara uyğun həyata keçirə bilməzlər.

## ƏDƏBİYYAT


1. Ələkbərov Ə., İbrahimov F. Menecment. Bakı: 2004.
2. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Purhani S.H. Menecment. Bakı: 2013, 600 s.
3. Şahbazov K.A. Müasir menecment. Bakı: 1995.
4. Ağasəf Məmməd oğlu İmran. Menecment (dərslik). Bakı: Nurlan, 2007, 268 s.


## SUMMARY

**Nasrin Aliyeva**

## ADMINISTRATIVE FUNCTIONS IN THE ACTIVITY OF INSTITUTIONS


Management is a means of influencing the systems of various nature applied to achieve the ultimate goal in the enterprise while maintaining its integrity and structural unity. Management functions can be considered a very complex system of relationships in terms of the creation of the management structure in the enterprise and the content of economic activity. Management functions and features vary from time to time for each institution. It ensures that profit-oriented or non-profit organizations are acting and their activities are carried out in accordance with their goals and efficiently.

The article examines the four universal functions of modern management in detail. The study and application of each of them is extremely important for each head of department (manager), since management functions are a form of manifestation of the division of labor in the field of management. The management function begins with planning, is enhanced by organization, and continues with direction in organizations. The last function is supervision. Supervision is to examine what is not being achieved or to what extent it is being achieved and to take appropirate action as necessary.

The concept of function in the management of enterprises, the main functions of management, the importance and role of planning such as organizing, motivating, directing, and controlling functions are examined in this article.


***Key words:*** *management, function, supervision, enterprise, planning, production*

## РЕЗЮМЕ

**Насрин Алиева**

## ФУНКЦИИ УПРАВЛЕНИЯ В ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЙ

Управление-средство воздействия систем различного характера, применяемое для достижения конечной цели на предприятии при сохранении его целостности, структурного единства. Функции управления можно рассматривать как очень сложную систему взаимоотношений с точки зрения создания структуры управления на предприятии, содержания хозяйственной деятельности. Функции и характеристики Управления время от времени меняются в зависимости от каждого учреждения. Он обеспечивает использование некоммерческих или некоммерческих организаций в соответствии с их целями и эффективно, а также осуществление их деятельности.

В статье подробно рассмотрены четыре универсальные функции современного управления. Поскольку функции управления являются формой проявления разделения труда в сфере управления, изучение и применение каждой из них крайне важно для каждого руководителя управления (менеджера). На предприятиях функция управления начинается с планирования, усиливается организацией и продолжается направленностью. И последняя функция-контроль. Контроль заключается в изучении того, что не достигнуто или в какой степени достигнуто, и принятии корректирующих мер по мере необходимости.

В данной статье в основном рассматривается понятие функции в управлении предприятием, основные функции управления, значение и роль функций планирования, организации, мотивации, направления, контроля.


***Ключевые слова:*** *управление, функция, контроль, предприятие, планирование, производство*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25sentyabr 2023-cü il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 140-148**

**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 140-148**

**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 140-148**

**ABBAS MUSAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*abbas.elcinoglu@gmail.com*

**UOT: 332.146.3**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAHİBKARLIĞIN FORMALAŞMASI VƏ İNKİŞAFININ REGİONAL XÜSUSİYYƏTLƏRİ

***Tədqiqatın məqsədi*** *– Naxçıvan Muxtar Respublikasında iqtisadi sistemin və sahibkarlıq subyektlərinin potensial və imkanlarının müəyyən edilməsi, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektləri miqyasında əsas iqtisadi parametrlərin müqayisə edilməsi, sənaye və kənd təsərrüfatı, tikinti və ticarət, iaşə və digər sahələrdə fəaliyyətini təmərküzləşdirən sahibkarlıq subyektlərinin dinamikada olan vəziyyətlərinin araşdırılması.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvarı əlaqə və zəncirvarı asılılıq metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– Naxçıvan Muxtar Respublikasında 2020 və 2021-ci illərdə müxtəlif ölçülü sahibkarlıq subyektlərinin vəziyyətində baş verən dəyişikliklərin kəmiyyət-keyfiyyət ifadələrinin öyrənilməsi, onların səbəblərinin aşkara çıxarılması.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– müstəqil Azərbaycan Respublikasın və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında sahibkarın vəziyyətinin araşdırılan dövrdə sistemili və qarşılıqlı müqayisə aparılmaqla tədqiq olunması, onun tənzimləmə amilləri əsasında formalaşma yollarının dəqiqləşdirilməsi və müvafiq yekunların çıxarılması.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– Ölkənin iqtisadi sistemindən və sahibkarlıq subyektlərinin imkanlarından optimal istifadə olunması, onların xüsusiyyətlərinin müəyyən edilməsi, sahibkarlıq mühitində istehsal və istehlak istiqamətində yarana biləcək problem və çatışmazlıqların aradan qaldırılması yollarının təcrübə müstəvisində sistemli tədqiq edilməsi.*

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, iqtisadi sistem, sahibkarlıq subyektləri, Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikası*

## Giriş

Ölkənin sosial-iqtisadi irəliləməsi, mədəni-məişət həyatı bu sahədə mütəmadi məqsədyönlü addımların atılması ilə müşayiət olunmaqdadır. Bu sırada insanların fərdi təşəbbüskarlığının təşəkkül tapması, onun irəliləməsinin sistemlilik və komplekslilik şəraitində həyata keçirilməsi, fərdlərin fərdi təşkilati, idarəetmə, istehsalı nizamlama və digər keyfiyyətlərinin sərgilənməsi və araşdırılması kimi keyfiyyət ifadələri və onların kəmiyyət qarşılığı yaranmış situasiyalardan asılı olaraq spesifik situasiyaların yaranmasına səbəb olmuşdur.

Bu şərtlər daxilində izah olunan vəziyətin məzmun ekvivalenti insanlarda sahibkarlıq hissinin formalaşmasına səbəb olmaqdadır. Digər şərtlərlə yanaşı özünün azadlığı ilə fərqlənən, etikasına malik ***sahibkarlıq*** – məzmun etibarı ilə fiziki və hüquqi şəxslərin, onların birliklərinin mənfəət və ya şəxsi gəlir əldə etmək məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti, yaxud hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növlərinin, o cümlədən məhsul istehsalı, satış və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətini təcəssüm etdirməkdədir (1, s.362).

Sahə-ərazi, istehsal olunan məhsul (iş, xidmət) və digər əlaqəli əlamətləri özündə cəmləyən sahibkarlıq fəaliyyəti spesifik prinsiplərlə də fərqlənməkdədir. Sahibkarlığın prinsipləri kifayət qədər geniş diapozonu əks etdirsə də, onların sırasında nümunəvi təsnifatı aşağıdakı kimi ifadə etmək

mümkündür:

1. Konüllülük əsasında fəaliyyət növünün sərbəst seçilməsi;
2. Fiziki və hüquqi şəxslərin əmlaklarının və vəsaitlərinin sahibkarlıq fəaliyyətinə cəlbi;
3. Sahibkarlıq fəaliyyətində proqram fəaliyyətinin sərbəst formalaşdırılması;
4. "Təchizatçı (tədarükçü) – istehsalçı - istehlakçı" marşrutunda sahibkarlıq fəaliyyətinin fərqli tərəflərinə diqqətin yetirilməsi;
5. İnsanların işlə təminatının sərbəstliyinin təmin edilməsi;
6. Xalis mənfəətin hüquqi çərçivələr gözlənilməklə sərbəst istifadəsi;
7. Heç bir hüquqi-normativ məhdudiyyəti olmayan maddi-texniki, maliyyə, əmək və təbii ehtiyatlardan istifadənin reallaşdırılması, bəhs olunan sahələrdə arealın genişləndirilməsi;
8. Xarici iqtisadi fəaliyyətdə sərbəst iştirak etmə və s. (1, s.363).

Göründüyü kimi, hazırki dövrdə müstəqil Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin spektral və areal baxımdan geniş tərkib təsnifləşdirilməsi formalaşdırılmışdır. Onların vəziyyətinə, mövcud olmuş kənarlaşmalara mümkün qədər geniş baxışın təmin edilməsi məqsədilə makro, mikro və orta səviyyəli subyektlər timsalında müvafiq araşdırmaları həyata keçirmək məqsədəuyğun olardı.

Sahibkarlıq subyektlərinin təsnifləşdirilməsi prinsiplərin spesifik konfiqurasiyalarda fərdi şərait üçün tətbiq edilməsi bəlli elmi-nəzəri əsaslarla möhkəmlədilməlidir. Onun mühüm məqamları sırasında regional miqyasda real kəmiyyət ifadələrindən istifadə olunması, onların miqayisəli şəkildə təqdimatının təmin edilməsi, müxtəlif kəmiyyət formalarından istifadənin təmin edilməsi və s. nümayiş oluna bilər (5, s.292).

**Sahibkarlıq subyektləri regional müstəvidə**

Sahibkarlıq fəaliyyətinin ümumölkə miqyası ilə yanaşı, regional müstəvidə prioritet istiqamətlərinin tədqiqata cəlb olunması özünəməxsus əhəmiyyəti ilə fərqlənməkdədir. Bu sırada tədqiqatın obyekti kimi Naxçıvan Muxtar Respublikası, zaman parametri üzrə isə 2020 və 2021-ci illər əsas götürülməlidir. Tədqiqatın sistemliliyini qorumaq məqsədilə aşağıdakı istiqamətlərə aydınlıq gətirmək zəruridir:

1. Region miqyasında mövcud olan sahibkarlıq subyektlərin haqqında məlumat;
2. Yeni yaradılan regional sahibkarlıq subyektlərinin təkamül dinamikasının öyrənilməsi;
3. Regional müstəvidə əsas kapitala yönələn vəsait;
4. Regional sahibkarlıq subyektləri tərəfindən məhsul buraxılışı;
5. Regionun sahibkarlıq subyektlərində muzdla çalışan işçi sayı və s.

Təsnifatda göstərilən mühüm istiqamətlər hər biri digərləri ilə sıx əlaqəli şəkildə "hərəkətdədir". Müvafiq fəaliyyətin ilk mərhələsində obyekt kimi sahibkarlıq subyektləri çıxış etməkdədir. Bu məqsədlə iki ardıcıl cədvəl məlumatlarının araşdırmaya cəlbi zəruridir. İlk addım kimi cədvəl 1-i nəzərdən keçirmək məqsədəuyğun olardı.

**Cədvəl 1. Naxçıvan Muxtar Respublikasında mövcud olan sahibkarlıq subyektləri**

| Göstəricilər | | İllər | |
|---|---|---|---|
| | | 2020 | 2021 |
| **1.** | **Ölkə üzrə cəmi** | **316370** | **355906** |
| | o cümlədən | | |
| | a) Mikro subyektlər | 307717 | 346171 |
| | b) Kiçik subyektlər | 5943 | 6856 |
| | c) Orta subyektlər | 2710 | 2879 |
| **2.** | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **8615** | **8357** |
| | o cümlədən | | |
| | d) Mikro subyektlər | 8330 | 8064 |
| | e) Kiçik subyektlər | 167 | 173 |
| | f) Orta subyektlər | 118 | 120 |

Cədvəl 1-in məlumatları Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının sahibkarlıq subyektləri ilə müqayisəliliyin təmin olunmasını göstərməkdədir. Məsələn, "üfuqi" istiqamətdə 2020-ci illə müqayisədə 2021-ci ildə ölkə miqyasında 12,5%-lik *artım* (355906 **:** 316370) müşahidə olunduğu halda, həmin rəqəmin muxtar respublika səviyyəsində 3,0% *geriləmə* (8357 **:** 8615) yaşanmışdır.

Eyni obyektlərin "şaquli" tədqiqində muxtar respublikanın xüsusi çəkisi ölkə miqyasında 2020-ci ildə 2,7% olduğu halda (8615 **:** 316370), 2021-ci ildə həmin göstərici 2,4%-ə bərabər olmuşdur ki, (8357 **:** 355906), bu da 0,3%-lik geriləmədən xəbər verir (2,7% – 2,4%).

2020 və 2021-ci illəri əhatə edən və regionlarda sahibkarlıq ünsürünə aidiyyatı ilə fərqlənən üç tərkib ünsürün vəziyyətinə aydınlıq gətirilməsi göstərmişdir ki, Naxçıvan regionunda 2020-ci ilin nəticələrinə görə ümumi həcmdə:

- ✓ Mikro subyetklərin xüsusi çəkisi – 96,7% (8330 : 8615);
- ✓ Kiçik subyektlərin xüsusi çəkisi – 1,9% (167 : 8615);
- ✓ Orta subyetklərin xüsusi çəkisi – 1,4% (118 : 8615).

Öz növbəsində 2021-ci ilin regional nəticələrində eyni adlı göstəricilərin vəziyyəti və 2020-ci illə müqayisədə kənarlaşma həcmləri aşağıdakı kəmiyyətləri təşkil edəcəkdir:

- ✓ Mikro subyektlərin xüsusi çəkisi – 96,5% (8064 : 8357); 2020-ci illə müqayisədə kənarlaşma 0,2% (96,7% - 96,5%);
- ✓ Kiçik müəssisələrin xüsusi çəkisi – 2,0% (173 : 8357); 2020-ci illə müqayisədə kənarlaşma 0,1% (2,0% - 1,9%);
- ✓ Orta müəssisələrin xüsusi çəkisi – 1,4% (120 : 8357); 2020-ci illə müqayisədə kənarlaşma yoxdur.

Qeyd etmək yerinə düşər ki, mütləq ifadədə regionda nəzərdən keçirilən subyektlərin say ifadələrinin kəmiyyətlərində 2020-2021-ci illər arası kənarlaşma göstəriciləri -258 vahid (8357 - 8615); -266 vahid (8064 - 8330); +6 vahid (173-167); +2 vahid (120-118).

Yaranmış belə vəziyyət 2020-ci illə müqayisəd 2021-ci ildə Naxçıvan Muxtar Respublikasında sahibkarlıq sahəsində həyata keçirilən siyasətin pisləşməsindən xəbər verməkdədir. Bununla yanaşı regional iqtisadi sistemin bəzi fəaliyyət sahələri və istiqamətləri üzrə *dalğalanmalar* da görünməkdədir.

Tərəfimizdən bildirilmiş fikirlər regionun yeni yaradılmış sahibkarlıq subyektləri üçün də keçərlidir.

**Cədvəl 2. Naxçıvan Muxtar Respublikasının sahə və istiqamətləri üzrə yeni yaradılmış sahibkarlıq subyektləri**

| | **Göstərici** | **2020** | | | | **2021** | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | O cümlədən | | | Cəmi | O cümlədən | | |
| | | | mikro | kiçik | orta | | mikro | kiçik | orta |
| 1 | Ölkə üzrə cəmi | **167475** | **167271** | **161** | **43** | **118719** | **118537** | **138** | **44** |
| 2 | Naxçıvan MR | **2431** | **2423** | **2** | **6** | **2419** | **2409** | **4** | **6** |
| | o cümlədən: | | | | | | | | |
| | a) sənaye | 61 | 61 | - | - | 37 | 36 | | 1 |
| | b) kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 924 | 924 | - | - | 1167 | 1167 | - | - |
| | c) tikinti | 83 | 81 | - | 2 | 79 | 78 | 1 | - |
| | ç) ticarət, nəqliyyat vasitələr | 443 | 442 | 1 | - | 316 | 313 | 1 | 2 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | təmiri | | | | | | | | |
| | d) nəqliyyat və anbar təsərrüfatı | 213 | 213 | - | - | 190 | 190 | - | - |
| | e) turistlərin yerləşdirilməsi və iaşə | 57 | 56 | 1 | - | 41 | 40 | - | 1 |
| | i) informasiya və rabitə | 7 | 7 | - | - | 9 | 9 | - | - |
| | k) daşınmaz əmlak üzrə əməliyyatlar | 64 | 64 | - | - | 87 | 87 | - | - |
| | l) təhsil | 38 | 38 | - | - | 22 | 22 | - | - |
| | m) əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 22 | 18 | - | - | 15 | 11 | 2 | 2 |
| | n) digər sahələr | 519 | 519 | - | - | 456 | 456 | - | - |

Cədvəl 2-nin bir sıra spesifik məqama malik olması danılmazdır. Onların sırasında aşağıdakıları xüsusilə qeyd etmək zəruridir:

1. *2020-ci ildə ölkənin sahibkarlıq subyektləri göstəricilərində Naxçıvan Muxtar Respublikasının xüsusi çəkiləri aşağıdakı səviyyələrlə fərqlənməkdədir*:

a) Subyektlərin cəmi ifadəsində regionun xüsusi çəkisi – 1,2% (2431 : 167475);
b) Mikro subyektlər üzrə - 1,5% (2423 : 167271);
c) Kiçik müəssisələr üzrə - 1,3% (2 : 161);
d) Orta müəssisələr üzrə - 14,0 % (6 : 43)
e) Region səviyyəsində mikrosubyektlərin ümumi sayda xüsusi çəkisi – 99,7% (2423 : 2431); (ölkə üzrə analoji göstərici – 99,9%)
f) Region səviyyəsində kiçik müəssisələrin ümumi sahibkarlıq subyektlərinin sayında xüsusi çəkisi – 0,08% (2 : 2431); (ölkə üzrə analoji göstərici – 0,01%)
g) Region səviyyəsində orta müəssisələrin ümumi sahibkarlıq subyektlərinin sayında xüsusi çəkisi – 0,3% (6 : 2431); (ölkə üzrə analoji göstərici – 0,03%).

2. *2021-ci ildə ölkənin sahibkarlıq subyektləri göstəricilərində Naxçıvan Muxtar Respublikasının xüsusi çəkiləri aşağıdakı səviyyələrlə sərgilənməkdədir*:

a) Subyektlərin cəmi ifadəsində regionun xüsusi çəkisi – 2,0% (2419 : 118719);
b) Mikro subyektlər üzrə - 2,0% (2409 : 118537);
c) Kiçik müəssisələr üzrə - 2,9% (4 : 138);
d) Orta müəssisələr üzrə - 13,6% (6 : 44);
e) Region səviyyəsində mikrosubyektlərin ümumi sayda xüsusi çəkisi – 99,6% (2409 : 2419); (ölkə üzrə analoji göstərici – 99,8%)
f) Region səviyyəsində kiçik müəssisələrin ümumi sahibkarlıq subyektlərinin sayında xüsusi çəkisi – 0,2% (4 : 2419); (ölkə üzrə analoji göstərici – 0,01%)
g) Region səviyyəsində orta müəssisələrin ümumi sahibkarlıq subyektlərinin sayında xüsusi çəkisi – 0,2% (6 : 2419); (ölkə üzrə analoji göstərici – 0,04%).

Cədvəl 2-dən də göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə əsas ölkə səviyyəsində geriləmə 48756 subyekt (və ya 29,1%) təşkil etdiyi halda, müvafiq göstəricilər Naxçıvan Muxtar Respublikası miqyasında 12 subyektə və ya 0,5%-ə bərabərdir. Eyni müqayisələr regional miqyasda 2020 və 2021-ci ilin nəticələrinə görə fərqlidir: bəzilərində artma, bəzilərində isə azalma müşahidə olunmaqdadır.

İqtisadi sistemin təzahürü ümumilikdə ölkə üzrə olduğu kimi, regionlar miqyasda da sahə-ərazi prinsipi əsasında həyata keçirilməkdədir. Hər bi ölkənin iqtisadi sistemində maddi-istehsal sahələrinin təkamül göstəriciləri mühüm yer tutur. Belə ki, "yaradıcı" təməllərin formalaşdırılması ölkə (region) miqyaslı təşkilatlanmaya səbəb olmaqdadır (2, s.84).

Müvafiq cədvəlin sahəvi bölmələrində ilk yeri *sənaye* tutur. 2020-ci illə müqayisədə 2021-ci ildə regionda sahibkarlıq subyektlərin sayında 24 vahid (və ya 39,4%) geriləmə müşayiət

olunmuşdur. Bunun qarşılığı olaraq *kənd təsərrüfatı, meşə təsərrüfatı və bağçılıq* sahəsində söhbət 243 vahidlik (və ya 26,35 %-lik) artımdan gedir. Tikintidə cüzi geriləmə görünməkdədir: 4 vahid və ya 4,8%.

*Ticarət, nəqliyyat vasitələrinin təmiri* sahəsində geriləmə həcmi əsaslı xarakter daşımaqdadır. Onun mütləq həcmi 127 sahibkarlıq vahidi, geriləmənin xüsusi çəkisi isə 28,7% təşkil edəcəkdir. *Nəqliyyat və anbar təsərrüfatı* üzrə illərin müqayisəsi 2021-ci ildə 23 vahid geriləməni (və ya 10,8%) göstərməkdədir. *İnformasiya və rabitə* sahəsində olan artım 2 sahibkarlıq vahidini (və ya 28,6%) ifadə etməkdədir. Əsaslı artımlardan biri də *daşınmaz əmlak üzrə əməliyyatlar* sahəsində müşahidə olunmaqdadır. Bu yöndə artım 23 vahid və ya 35,9% təşkil etməkdədir.

Regional sahibkarlıq fəaliyyətinə nəzər yetirilməsində mühüm istiqamətlərdən birini də əsas kapitala yönələn investisiyalar təşkil etməkdədir. Bəhs olunan məsələyə sistemli yanaşmanı təmin etmək üçün ilk növbədə cədvəl 3-ə baxmaq yerinə düşərdi.

**Cədvəl 3.** *Naxçıvan MR-də sahibkarlıq təyinatı üzrə əsas kapitala yönəldilən vəsaitlər, min manat*

| **Göstəricilər** | **İllər** | |
|---|---|---|
| | **2020** | **2021** |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **544111,4** | **591407,3** |
| o cümlədən | | |
| a) Mikro subyektlər | 531309,1 | 584245,4 |
| b) Kiçik subyektlər | 2578,6 | 2851,8 |
| c) Orta subyektlər | 10223,7 | 4310,1 |

Cədvəl məlumatlarının üfuqi və şaquli nəzərdən keçirilməsi aşağıdakı məlumatları sərgiləmiş olur:

✓ 2020-ci illə müqayisədə 2021-ci ildə əsas kapitala qoyuluşların həcmi 47295, 9 min manat (591407,3 – 544111,4) və ya 8,7% (591407,3 : 544111,4) artmışdır;

✓ Bu kənarlaşmalar mikro subyektlər üzrə aşağıdakı nəticələri ifadə etməkdədir: 52936,3 min manatlıq (584245,4 – 531309,1) və ya 10,0%-lik (584245,4 : 531309,1) artım;

✓ Kiçik subyektlər üzrə kənarlaşma *artımla* müşayət olunmuşdur: 273,2 min manat (2851,8 – 2578,6) və ya 10,6% (2851,8 : 2578,6);

✓ Yuxarıdakıların əksinə olaraq orta həcmli subyektlərdə *geriləmə* baş vermişdir: -5913,6 min manat (4310,1 – 10223,7) və ya -57,8% (4310,1 : 10223,7);

✓ Qeyd etmək yerinə düşər ki, 2020-ci ilin ümumi kapital qoyuluşu yekununda mikro subyektlərin xüsusi çəkisi 97,6%, kiçik müəssisələrin xüsusi çəkisi 0,5% və orta subyektlərin xüsusi çəkisi 1,9% təşkil etdiyi halda, həmin göstəricilər 2021-ci ildə - 98,8%, 0,48% və 0,72%.

Xüsusi çəkilərdən aydın olur ki, 2020 və 2021-ci illərin müqayisəsi göstərir ki, əsas kapitala yönəldilən investisiyalar ancaq mikro subyektlərdə artımla yekunlaşmışdır (1,2%), digər iki qrupda xüsusi çəkilərin azalması görünməkdədir: 0,02% və 1,18%.

Sahibkarlıq subyektlərinin xarakterizə edilməsində mühüm göstəricilərdən birini də məhsul buraxılışı təşkil etməkdədir. Onun dəyər ifadəsində vəziyyətinə aydınlıq gətirmək üçün cədvəl 4-ə müraciət edək.

**Cədvəl 4.** *Naxçıvan Muxtar Respublikasının sahibkarlığın sahə və istiqamətləri üzrə məhsul buraxılışı, min man*

| | Göstərici | 2020 | | | | 2021 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | O cümlədən | | | Cəmi | O cümlədən | | |
| | | | mikro | kiçik | orta | | mikro | kiçik | orta |
| 1 | Ölkə üzrə cəmi | **19725676,1** | **7216169,0** | **2918187,0** | **9591320,1** | **24747439,2** | **9373358,8** | **4230072,6** | **11144007,8** |
| | Naxçıvan MR | 1004734,9 | 7 67513,7 | 4 9845,4 | 1 87375,8 | 134118,7 | 8 00424,2 | 76408,1 | 2572864 |
| | o cümlədən: | | | | | | | | |
| | a) sənaye | 1 42641,2 | 26273,3 | 2 2884,9 | 93483,0 | 1 44629,: | 25992,4 | 20047,2 | 98589,7 |
| | b) kənd, meşə təsərrüfatları və balıqçılıq | 8412,6 | 1552,5 | 1660,8 | 5199,3 | 13075,4 | 3799,0 | 5656,3 | 3620,1 |
| | c) tikinti | 522839,0 | 461218,9 | 8597,0 | 5 3023,1 | 592613,5 | 529304,0 | 13763,7 | 49545,8 |
| | ç) ticarət, nəqliyyat vasitələrinin təmiri | 160849,1 | 138028,4 | 5740,8 | 17079,9 | 167630,2 | 120694,2 | 26274,7 | 20661,3 |
| | d) nəqliyyat və anbar təsərrüfatı | 56452,5 | 45938,1 | 1829,8 | 8684,6 | 71744,3 | 46494,9 | 2021,0 | 23228,4 |
| | e) turistlərin yerləşdirilməsi və ictimai iaşə | 58743,0 | 58052,6 | 574,2 | 116,2 | 61010,3 | 59158,4 | 925,1 | 926,8 |
| | i) informasiya və rabitə | 15907,1 | 868,6 | 5772,9 | 9265,6 | 59722,2 | 865,6 | 5102,5 | 53754,1 |
| | k) daşınmaz əmlak üzrə əməliyyatlar | 934,1 | 272,4 | 139,1 | 522,6 | 1281,0 | 324,2 | 320,5 | 636,3 |
| | l) təhsil | 25369,0 | 25100,2 | 268,8 | - | 8886,8 | 5506,7 | 612,8 | 2767,3 |
| | m) əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 6583,4 | 5259,6 | 1322,3 | 1,5 | 5810,0 | 4998,6 | 567,4 | 244,0 |
| | n) digər sahələr | 6003,9 | 4949,1 | 1054,8 | - | 7715,7 | 3286,2 | 1116,9 | 3312,6 |

Cədvəl məlumatlarından aydın olur ki, 2020-ci illə müqayisədə ölkə üzrə 2021-ci ildə artım 5021763,1 min manat (24747439,2 – 19725676,1) və ya 25,5% (24747439,2 : 19725676,1) təşkil etmişdir. Analoji vəziyyət Naxçıvan Muxtar Respublikasında da müşahidə olunmuşdur. Bu halda artım 129383,8 min manat (1134118,7 – 1004734,9) və ya 12,9% (1134118,7: 1004734,9) təşkil etməkdədir.

2020-ci ildə regional müstəvidə ümumi qoyuluş həcmində tikinti (52,0%), ticarət, nəqliyyat vasitələrinin təmiri (16,0%) və sənaye (14,2%) böyük xüsusi çəkiyə malik olmuşdur. Analoji vəziyyət 2021-ci ildə də davam etmişdir. Öncül qruplar olan sənayenin payı 1988,1 min manat artaraq 12,8% xüsusi çəkiyə malik olmuşdur. Öz növbəsində tikintidə də vəziyyət artımla yekunlaşmışdır. Mütləq ifadədə artım 69774,4 min manat, xüsusi çəkinin səviyyəsi ilə 13,3%. Bu əsasda ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində zəruri göstəricilər 6781,1 min manat və 4,2%.

Digər tərəfdən, Naxçıvan regionu üzrə istər 2020-ci ildə, istərsə də 2021-ci ildə məhsul

istehsalında əsas ağırlıq mikrosubyektlərin payına düşmüşdür. Belə ki, əgər 2020-ci ildə mikrosubyektlər tərəfindən istehsal olunan məhsulların xüsusi çəkisi 76,4% (767513,7 : 1004734,9) və 70,6% (800424,2 : 1134118,7) olmuşdur. Düzdür, 2020-ci illə müqayisədə mikro subyektlərin xüsusi çəkilərində 5,8%-lik (76,4% - 70,6%) geriləmə olsa da, amma ən böyük, hiss solunacaq xüsusi çəki yenə də mikro subyektlərin payında qalmaqdadır.

Regional müstəvidə mövcud olan subyektlərin əsas göstəriciləri sırasında sahibkarlıq subyektlərində müzdla işləyənlərin say-tərkib ifadləri özünəməxsusluğu ilə fərqlənməkdədir. Bu əsasda olan məlumatların araşdıılmasında cədvəl 5-ə müraciət etmək məqsədəuyğun olardı.

***Cədvəl 5.*** *Naxçıvan Muxtar Respublikasının sahibkarlıq subyektlərində muzdla çalışan işçilərin sayı, nəfər*

| Göstəricilər | | İllər | |
|---|---|---|---|
| | | **2020** | **2021** |
| **1.** | **Ölkə üzrə cəmi** | **348723** | **357840** |
| | o cümlədən | | |
| | a) Mikrosubyektlər | 40850 | 40909 |
| | b) Kiçik subyektlər | 92125 | 102180 |
| | c) Orta subyektlər | 215748 | 214751 |
| **2.** | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **16482** | **15992** |
| | o cümlədən | | |
| | d) Mikrosubyektlər | 787 | 454 |
| | e) Kiçik subyektlər | 3509 | 3784 |
| | f) Orta subyektlər | 12186 | 11754 |

Cədvəl 5-dən də aydındır ki, 2020-ci illə müqayisədə 2021-ci ildə ölkə miqyasındakı sahibkarlıq subyektlərində çalışanların sayında 9117 nəfər (357840 - 348723) və ya 2,6% (357840: 348723) artım müşahidə olunmuşdur. Eyni göstərici Naxçıvan Muxtar Respublikası miqyasında 490 nəfər (15992 - 16482) və ya 2,9% (15992 : 16482) geriləməyə bərabərdir.

Digər tərəfdən, 2020-ci illə müqayisədə 2021-ci ildə işçi sayındakı kənarlaşma Naxçıvan Muxtar Respublikası üzrə aşağıdakı kimi olmuşdur:

a) mikro subyektlər üzrə - *geriləmə* 333 nəfər (454 - 787) və ya 42,3% (454 : 787);
b) kiçik subyektlər üzrə - *artım* 275 nəfər (3784 - 3509) və ya 7,8% (3784 : 3509);
c) orta subyektlər üzrə - *geriləmə* 432 nəfər (11754 - 12186) və ya 3,5% (11754 : 12186).

Təkcə 3 kateqoriya üzrə yekun saldo – 490 nəfər işsizdir. Bu isə müxtəlif səbəblərin nəticəsi ola bilər. Bu isə istehsalın mütərəqqiləşməsindən (mexanizkləşmə, avtomatlaşdırma və s.) istehsal olunan məhsulun bazarda alıcı tapmamasınadək olan diapozonu əhatə etməkdədir. Digər tərəfdən, özündə bəlli həcmdə işsiz ordusunu cəmləyən regional cəmiyyət 2020-ci illə müqayisədə 2021-ci ildə təkcə müvafiq sahibkarlıq kateqoriyasından əlavə 490 nəfərlik kəmiyyət ifadəsinin ümumi həcmə əlavə olunmasını şərtləndirməkdədir. Bu isə əlavə olaraq yeni iş yerlərinin yaradılması zərurətini sərgiləmiş olacaqdır.

**Nəticə**

Mövzu regional miqyasda sahibkarlıq subyektlərinin inkişafı məsələlərindən bəhs etməkdədir. Mövzunun aktuallığını nəzərə alaraq məqalədə ona müraciət olunmuşdur, bəlli problemlərə sistemli yanaşma təmin olunmuşdur.

İlk öncə sahibkarlıq anlayışı aydınlaşdırıldıqdan sonra, sahibkarlıq fəaliyyətinin prinsipləri sistemli şəkildə nəzərdən keçirilmişdir.

Məqalənin yazılışında sahibkarlıq subyektlərinin ümumi həcmi və növləri (mikro, kiçik və orta) üzrə regional müstəvidə icra olunan araşdırmalar əsas parametrlərdə ölkə göstəriciləri ilə müqayisə olunmaqla öyrənilməkdədir.

Kəmiyyət ifadələri 2020 və 2021-ci illəri əhatə etməkdədir. Bu sırada sahibkarlıq

subyektlərinin sayı və tərkibi haqqında informasiya əldə edildikdən sonra, bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilən vəsaitlər, sahibkarlıq subyektləri tərəfindən istehsal olunan məhsullar, bu qurumlarda fəaliyyət göstərən muzdlu işçilərin sayı kimi göstəricilərlə bağlı araşdırmalar icra olunmuşdur.

Haqqında bəhs olunan aktual məsələlərlə bağlı məqalədə beş cədvələ müraciət olunmuşdur ki, bu da "nəzəriyyə - təcrübə" sahəsində vəhdətdən xəbər verməkdədir. Müvafiq hesablamaların həyata keçirilməsi və bəlli nəticələrə gəlinməsi zəruri təhlil proseslərinin məntiqi təzahürüdür.

## ƏDƏBİYYAT


1. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə.Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), IV cild, Bakı: Şərq-Qərb, 2012, 591 s.
2. Allahverdiyev H.B. və b. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 446 s.
3. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman. 2002, 618 s.
4. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan: Əcəmi, 2020, 525 s.
5. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: Qərənfil. 2006, 591 s.
6. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, 466 s.
7. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. *Dərs vəsaiti*. Naxçıvan: Əcəmi, 2019, 264 s.
8. Hacızadə. E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 509 s.
9. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.M. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010, 508s.
10. www. stat.gov.az/enternrenership.


## SUMMARY

**Abbas Musayev**

### REGIONAL CHARACTERISTICS OF ENTREPRENEURSHIP FORMATION AND DEVELOPMENT IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC


**The purpose of the research-** Determining the potential and capabilities of the economic system and business entities in the Nakhchivan Autonomous Republic, comparing the main economic parameters on the scale of micro, small and medium-sized business entities, researching the dynamics of business entities that concentrate their activities in industry and agriculture, construction and trade, catering and other fields.

**The methodology of the research** - using methods of observation, grouping, comparative analysis, chain connection and chain dependence.

**The results of the research** –Studying the quantitative and qualitative expressions of the changes in the state of business entities of different sizes in the Nakhchivan Autonomous Republic in 2020 -2021, and revealing their reasons.

**The practical significance of the research** – the study of the situation of the entrepreneur in the independent Azerbaijan Republic and being an integral part of it, the Nakhchivan Autonomous Republic in the investigated period by conducting a systematic and mutual comparison, specifying the ways of formation based on its regulatory factors and drawing appropriate conclusions.

**The originality and scientific novelty of the research-** Optimum use of the country's economic system and opportunities of business entities, determination of their characteristics, systematic study of ways to eliminate problems and deficiencies that may arise in the direction of production and consumption in the entrepreneurial environment at the level of experience.


***Key words:*** *entrepreneurial activity, economic system, entrepreneurial subjects, Nakhchivan Autonomous Republic, The Azerbaijan Republic*

## РЕЗЮМЕ

**Аббас Мусаев**

## РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

**Цель исследования** – определение потенциала и возможностей экономической системы и предпринимательских субъектов в Нахчыванской Автономной Республике, сопоставление основных экономических параметров в масштабах предпринимательских субъектов микро, малых и средних размеров, определение положения по динамике предпринимательских суъектов, совокупляющих в себе деятельность в промышленности и сельском хозяйстве, в строительстве и торговле, в общественном питании и других отраслях.

**Методология исследования** – использование методов наблюдения, группирования, сопоставительного анализа, взаимных отношений и взаимной зависимости

**Результаты исследования** – изучение количественно-качественных показателей имеющих место изменений в положении предпринимательских субъектов различных размеров в 2020 и 2021-ом годах в Нахчыванской Автономной Республике

**Практическое значение исследования** – проведение системного и взаимно сопоставимого исследования, охватывающего временной промежуток изучения положения предпринимательства в суверенной Азербайджанской Республике, а также в его неотьемлимой части - Нахчыванской Автономной Республике, уточнение путей формирования на основе его регулирующих средств и выявление соответствующих результатов

**Оригинальность и научная новизна исследования** – оптимальное использование возможностей экономической системы страны и предпринимательских субъектов, определение их особенностей, системное изучение в практической плоскости путей устранения проблем и недостатков, и возможностей в направлении производства и потребления в предпринимательской среде



***Ключевые слова:*** *предпринимательская деятельность, экономическая система, субъекты предпринимательства, Нахчыванская Автономная Республика, Азербайджанская Республика*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25 sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 149-157
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 149-157
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 149-157

**ELŞƏN YUSİFOV**
*Azərbaycan Kooperasiya Universiteti*

**UOT: 63:339.13; 63:659.1**

# BİZNES MÜHİTİNİN STRUKTUR ELEMENTLƏRİ VƏ ONLARIN SAHİBKARLIQ FƏALİYYƏTİNƏ TƏSİRİ

*Tədqiqatın məqsədi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin nəzarətindən və təsirindən kənarda olan, biznesə müsbət və mənfi istiqamətdə təsir göstərən mühit amillərini müəyyənləşdirmək və formalaşmış biznes mühitinin sahibkarlıq fəaliyyətinin inkişafına təsirini öyrənməkdir.*

*Tədqiqatın metod və metodologiyası. Mövzunun öyrənilməsi zamanı məntiqi təfəkkür, elmi təfəkkür, sistemli yanaşma, statistik və müqayisəli təhlil kimi metodlardan istifadə edilmişdir. Mövzu dərsliklər, dərs vəsaitləri, xarici ədəbiyyat, dövri nəşrlər, elmi konfranslar kimi elmi-texniki məlumat mənbələri ilə əhatə olunmuşdur. Kiçik biznesin və özəl sahibkarlığın inkişafının tədqiqi zamanı statistik təhlil aparılmışdır. Məqalə Azərbaycan Respublikasının qanunvericilik bazası, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, görkəmli alimlərin iqtisadi və sosial sahələrə aid elmi əsərlərinə əsaslanır.*

*Tədqiqatın nəticəsi. Aparılan araşdırma nəticəsində məqaləmizdə aşağıdakı qənaətə gəlinmişdir:*

- *yerli hakimiyyət orqanları tərəfindən regional miqyasda biznes mühitinin yaxşılaşdırılmasına, kiçik biznesin və özəl sahibkarlığın inkişafına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi;*
- *sahibkarlıq sferasında əmtəələrin ixracının təşviqi və bu yöndə mövcud problemlərin həlli;*
- *kiçik biznes və sahibkarlığın inkişafına yönəldilən investisiyaların genişləndirilməsi və bu yöndəki fəaliyyətlərin təşviq edilməsi;*
- *xarici investisiyaların cəlb edilməsi məqsədilə bu istiqamətdəki potensial investorlara diqqət yetirilməsi və kiçik biznes və sahibkarlığın modernləşdirilməsi prosesində onlardan səmərəli istifadə edilməsi;*
- *sahibkarlıq subyektlərinin dövlət tərəfindən səmərəli müdafiəsinin təmin edilməsi.*

*Tədqiqatın məhdudiyyətləri: mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir edən mühit amillərinin çoxluğu və bu səbəbdən ölçülə bilməsindəki çətinliklər.*

*Tədqiqatın praktik əhəmiyyəti: tədqiqatın nəticələri müxtəlif ölkələrdə biznes mühitinin yaxşılaşdırılması prosesində, regionlarda kiçik biznesin və özəl sahibkarlığın inkişafı üçün konkret yanaşmaların işlənib hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın nəticələri, həmçinin sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətində tədqiqat aparan mütəxəssislərin elmi və təcrübi araşdırmalarında mühüm rol oynaya bilər.*

*Tədqiqatın elmi yeniliyi və orijinallığı onun sahibkarlıq fəaliyyəti üçün zəruri olan biznes mühiti və onun struktur elementlərinin araşdırılmasına, sahibkarlığın inkişafına təsir edən amillərin və onlar arasındakı qarşılıqlı əlaqələrin təhlil edilməsinə həsr olunmasıdır.*

***Açar sözlər:*** *mikro, kiçik və orta biznes, özəl sahibkarlıq, biznes mühiti, biznes mühitinin elementləri, biznes mühitinin inkişaf amilləri*

## Giriş

Müstəqilliyimizin ilk günlərindən bu günə qədər respublikamızda "Sahibkarlıq fəaliyyəti haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Təbii inhisar haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Mikro, kiçik və orta sahibkarlığın

inkişafı haqqında", "Dövlət-özəl tərəfdaşlığı haqqında" bir çox qanunların qəbulu, kiçik biznesin və özəl sahibkarlığın inkişafına yönəlmiş bir sıra hökumət qərarları və "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı nəticəsində iqtisadiyyatın davamlı inkişafı müşahidə olunur, onun şaxələndirilməsi və müasirləşdirilməsi həyata keçirilir, biznes fəaliyyəti üçün zəruri mühit genişlənir. Məhz bu baxımdan hər bir kiçik sahibkar daim əlverişli biznes mühitindən faydalanmağa çalışır və bu əsasda bazarda uğurla rəqabət aparır. Parantez açaraq bir faktı qeyd edək ki, biznes mühitinin davamlı yaxşılaşdırılması nəticəsi təsərrüfat subyektlərinin iqtisadi göstəricilərinin müsbət dinamikasında öz əksini tapır.

Biznes mühiti və sahibkarlıq fəaliyyəti özündə qarşılıqlı əlaqə və asılılığı ifadə edən şəraitin təzahürü kimi çıxış etməkdədir. Belə ki, "biznes mühiti" və "sahibkarlıq fəaliyyəti" anlayışları məzmunca fərqlənsələr də, bir ümumi məqsədə nail olmağa xidmət etməkdədirlər. Digər tərəfdən bu vəzifələrin icrası növbəti proseslərin reallıqda mümkünlüyünə şərait yaradır (2, s.21).

Biznes mühiti, onun struktur elementləri və sahibkarlıq fəaliyyətinə təsiri.

Aparılan araşdırma nəticəsində sahibkarlığın uğurlu inkişafı əhalinin gəlirlərinin strukturunda sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərin 2005-ci illə (8063,6 mln. manat) müqayisədə 2021-ci ildə (57181,5 mln. manat) 7,1 dəfə artması ilə ifadə olunmuşdur. Bunun başlıca səbəbi ölkə iqtisadiyyatının müxtəlif sahələrində mikro, kiçik biznesin və orta sahibkarlığın xüsusi çəkisinin ilbəil artmasıdır. Belə ki, 2021-ci ildə mikro, kiçik və orta sahibkarlığın ümumi daxili məhsulda xüsusi çəkisi 23,9 faiz, sənaye məhsulu istehsalında 8,2 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 54,2 faiz, tikintidə 43 faiz, ticarətdə 68,9 faiz, nəqliyyat və anbar təsərrüfatında 15,2 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətlərinin göstərilməsində 61,6 faiz, informasiya və rabitə xidmətlərində 24,4 faiz, təhsil xidmətlərində 77,7 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 49,4 faiz olmuşdur (1, s.64).

E.S.Bıkovanın araşdırmalarına əsaslanaraq qeyd edə bilərik ki, ölkədə kiçik biznesin və sahibkarlığın inkişafı aşağıdakı proseslərə müsbət təsir göstərir:

- Makroiqtisadi göstəricilərin dayanıqlılığına;
- İqtisadiyyatın tarazlılığının möhkəmlənməsinə;
- İxrac həcminin və qızıl-valyuta ehtiyatlarının artımının təmin edilməsinə;
- Dövlət büdcəsinin profisitlə həyata keçirilməsinə;
- Tədiyyə balansında müsbət saldonun formalaşmasına;
- Əhalinin həyat səviyyəsinin yüksəlməsinə;
- Əhalinin tərkibində biznes elitası təbəqəsinin genişlənməsinə (6, s.10).

Yuxarıda sadalanan hallar Azərbaycandakı biznes mühitinin iqtisadi inkişafa töhfə verdiyini göstərir. Çünki biznes mühitinin mövcud komponentləri ölkədə kiçik biznesin inkişafına müsbət təsir göstərir. Azərbaycandakı biznes mühitinin əsas komponentləri sxem 1-də göstərilmişdir.




***Sxem 1. Biznes mühitinin əsas komponentləri***

Sxem 1-də inzibati və hüquqi tənzimləmə orqanları, sosial və bazar infrastrukturu, maliyyə və əmək resursları, təbiət, torpaq və daşınmaz əmlak, habelə sahibkarlıq qabiliyyəti kimi biznes mühitinin mühüm komponentləri verilmişdir. Fikrimizcə, biznes mühitinin strukturu və onu formalaşdıran amillər fərqli spesifik xüsusiyyətlərə malik olsalar da, bu amillərin hamısı bir-biri ilə qarşılıqlı bağlıdır.

Məqaləmizdəki "biznes mühiti" termini sahibkarlıq subyektləri arasındakı qarşılıqlı əlaqələrin sərhədlərini və xarakterini müəyyən etmək üçün istifadə edilə bilər. Kiçik biznes subyektlərinin fəaliyyətinin hərəkətverici motivi onun iqtisadi maraqlarıdır. Kiçik biznes subyektləri özü üçün iqtisadi məkanın sərhədlərini daraldır, onları xarici mühit, biznesin aparılması üçün biznes mühiti kimi müəyyən edir. Başqa sözlə desək, biznes mühiti əsasən biznesin nəzarətindən və təsirindən kənarda olan və biznesə həm müsbət, həm də mənfi təsir göstərə bilən siyasi, iqtisadi, sosial və texnoloji qüvvələrin məcmusudur. Biznes mühitini bu və ya digər şəkildə biznesin inkişafına təsir edən, onun təşviqinə və böyüməsinə kömək edən bir kateqoriya kimi qəbul etmək olar. Bir başqa deyimlə, biznes mühiti mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün birlikdə əlverişli və ya qeyri-mümkün şərait yaradan müəyyən amillərin ardıcıllığıdır. Mikro, kiçik və orta sahibkarlığın inkişafına təsir edən ən mühüm amillərdən bəzilərini fərqləndirmək olar (sxem 2).

**BİZNES MÜHİTİ**

- Bazarın yetkinliyi və ölçüsü, o cümlədən istehlakçılarla operativ iş
- Bazara giriş üçün adekvat maneələr
- Təchizatçıların və subpodratçıların mövcudluğu
- Vençur kapitalı da daxil olmaqla kapitala çıxışı müəyyən edən maliyyə institutları
- Dövlət və ictimai fondlar hesabına maliyyələşdirilən elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin həcmi
- Tədqiqat fəaliyyətinə dəstək sistemi
- Biznes tərəfindən maliyyələşdirilməyən sahələrdə qeyri-kommersiya tədqiqat proqramlarına dəstək
- Düzgün qurulmuş qanunvericilik aktları və makroiqtisadi şərait

***Sxem 2. Biznes mühiti və onun sahibkarlığın inkişafına təsir edən amilləri***

Sxem 2-yə əsaslanaraq onu qeyd etmək olar ki, biznes mühiti sahibkarlıq fəaliyyətinə təsir edən dominant qüvvə kimi görünür. Bu amillər həm birbaşa, həm də dolayı yolla mikro, kiçik və orta sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərə bilər.

Azərbaycanda biznes mühitinin formalaşması və inkişafı aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

• Kiçik bizneslə özəl sahibkarlıq arasında iqtisadi əlaqələr və ya münasibətlər daha intensiv və şəffafdır;

• İşgüzar mühitdə kiçik sahibkarlıq subyektlərinin müstəqilliyi təmin edilmiş və azadlıqlarına zəmanət verilmişdir;

• İş dünyasında kiçik müəssisələr arasında rəqabət mühiti formalaşır;
• Kiçik müəssisələr risk etməyə, eyni zamanda, onu minimum səviyyədə saxlamağın yollarını öyrənməyə çalışırlar və ya can atırlar;
• Sosial müdafiə gücləndirilir;
• İşgüzar mühitdə biznesin təşkili və idarə edilməsinin etik prinsipləri və normaları gücləndirilir ki, bu da son nəticədə onun inkişafına təsir göstərir;
• Müəssisələrin həyat qabiliyyəti və inkişaf perspektivi yüksəlir;
• Bazar mexanizmi daha intensiv işləyir.

Biznes mühitinin bu xüsusiyyətləri kiçik biznes subyektlərinin fəaliyyətini stimullaşdırır. Biznes mühiti, həmçinin tsiklik olaraq inkişaf edir və kiçik biznesin inkişafı da daxil olmaqla daha yeni mərhələlərə keçir. Kiçik biznesin hər bir subyekti mənfəət əldə etmək məqsədilə biznes mühitində iştirak edərək öz təcrübəsini və potensialını reallaşdırır.

Kiçik biznes subyektləri fəaliyyət göstərəcəkləri regiondakı real vəziyyəti nəzərə alaraq öz perspektivlərini müəyyən edir. Belə ki, əlverişli biznes mühiti kiçik biznesin bazar ehtiyaclarını daha dolğun ödəməyə imkan verir. Digər bir tərəfdən əlverişli biznes mühiti regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayan elementlərdən biridir. Bu məfhum adı altında istehsalla xidmət fəaliyyəti, planlaşdırma ilə real istehsal həcmləri, klassik təsərrüfat subyektləri ilə yenilikçi quruluşların mövcudluğu birləşdirilir (4, s.48).

Parantez açaraq bir nüansı da vurğulayaq ki, hər hansı bir ölkənin biznes mühitinin vəziyyəti həmin ölkənin xarici investisiyalar cəlb etmək, eyni zamanda, kiçik və orta biznesi inkişaf etdirmək qabiliyyətini müəyyən edən başlıca amildir. Belə ki, istənilən sahibkarlıq subyekti sağlam biznes mühitinə malik, yəni xərclərin və risklərin minimum səviyyədə olduğu ölkələrə investisiya yatırmağı üstün tuturlar (3, s.17).

Biznes mühitinin mahiyyətini və məzmununu vurğulamaqla yanaşı, Azərbaycanda biznes mühitinin inkişaf miqyasını müəyyən etmək də bizim üçün çox vacibdir. Biznes mühitinin miqyası dedikdə, sahibkarlıq, investisiya, rəqabət və institusional mühiti əhatə edən mühit başa düşülür. Biznes mühitinin miqyasının önəmini Dünya Bankının veb-səhifəsindəki ifadədə tam aydınlığı ilə görmək olar. Dünya Bankının veb-səhifəsindəki ifadədə qeyd olunur: "Səmərəli investisiya mühiti hər bir ölkənin öz iqtisadi inkişafına təkan vermək strategiyasının zəruri dayağıdır. Öz növbəsində bu strategiya əməyin daha məhsuldar olması və yoxsul insanların daha yüksək gəlir əldə etməsi üçün imkanlar yaradır" (7).

Ancaq, fikrimizcə, biznes mühiti iqtisadi mühitin bir hissəsi olub kiçik biznesin və sahibkarlığın inkişafına töhfə verən, kiçik biznes subyektlərinin fəal şəkildə istifadə etdiyi mühitdir (sxem 3).




**Sxem 3. Biznes mühitinin miqyası.** *Mənbə: (5, s.187)*

Azərbaycanda kiçik biznesin və özəl sahibkarlığın inkişafı ölkədə qeydiyyatdan keçmiş və

fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı ilə xarakterizə olunur. Belə ki, 2021-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş və fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2019-cu illə müqayisədə 31,2 faiz artaraq 355906 olmuşdur. 2021-ci ildə qeydiyyatdan keçmiş və fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin strukturu diaqram 1-də verilmişdir.

**Diaqram 1.** *Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin strukturu*




*Mənbə: (1, s.24)*

Azərbaycanda qeydiyyatdan keçmiş və fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayının dinamikası aşağıdakı qrafik təsvirdə öz əksini tapmışdır (qrafik 1).

**Qrafik 1. Azərbaycanda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayının dinamikası**




*Mənbə: stat.gov.az*

Qeyd edək ki, Azərbaycanda qeydiyyatdan keçmiş və fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayında artım müşahidə olunsa da, respublikamızın regionlarında mikro,

kiçik və orta sahibkarlığın inkişafında nəzərə çarpacaq dərəcədə fərqlər də var. Başqa sözlə desək, bəzi regionlarda mikro, kiçik və orta sahibkarlığın inkişafında kifayət qədər yüksək inkişaf müşahidə edilir, bəzi bölgələrdə isə nəticələr xeyli aşağıdır. Bunu respublikamızda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsündə asanlıqla görmək olar (cədvəl 1).

**Cədvəl 1.** *Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü*

| İqtisadi rayonlar | İllər | | |
|---|---|---|---|
| | 2019 | 2020 | 2021 |
| **Ölkə üzrə cəmi:** | **217304** | **316370** | **355906** |
| Bakı şəhəri | 129989 | 151398 | 174286 |
| Naxçıvan Muxtar Respublikası | 7446 | 8615 | 8357 |
| Abşeron-Xızı iqtisadi rayonu | 22786 | 28521 | 32477 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 5937 | 6956 | 7518 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 12637 | 15044 | 17078 |
| Qarabağ iqtisadi rayonu | 10328 | 12019 | 13679 |
| Qazax-Tovuz iqtisadi rayonu | 12188 | 13372 | 14354 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 11270 | 11615 | 12462 |
| Lənkəran-Astara iqtisadi rayonu | 13653 | 17074 | 19938 |
| Mərkəzi Aran iqtisadi rayonu | 12710 | 15139 | 15702 |
| Mil-Muğan iqtisadi rayonu | 8725 | 9737 | 10422 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 13327 | 15783 | 16955 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 537 | 1156 | 1587 |
| Şirvan-Salyan iqtisadi rayonu | 9771 | 9941 | 11091 |

*Mənbə: Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq.*

Düzdür, cədvəl 1-in məlumatlarına nəzər saldıqda, respublikamızda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunmaqdadır. Lakin cədvəl 1-in məlumatlarını ətraflı araşdırdıqda, fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsündə, başqa sözlə desək, yerləşməsində disproporsionallıq nəzərə çarpır. Belə ki, respublikamızda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin böyük əksəriyyəti Bakı şəhərinin payına düşür və bu pay 2019-cu illə müqayisədə 1,1 faiz artaraq 49,0 faizə çatmışdır. Özünü mənfi yöndən təzahür etdirən bu artım tendensiyası ölkəmizin digər bölgələrində qeydiyyatdan keçən və fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə üzrə payının azalması nəticəsidir. Məsələn, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə üzrə bölgüsündə payı 2019-cu ildə 2,7 faiz olmuşdursa, bu pay 2021-ci ildə 0,4 faiz azalaraq 2,3 faizə düşmüşdür. Bu hal Dağlıq Şirvan iqtisadi rayonunda (2,2%-dən 2,1%-ə), Qazax-Tovuz iqtisadi rayonunda (4,5%-dən 4%-ə), Mərkəzi Aran iqtisadi rayonunda (4,7%-dən 4,4%-ə), Mil-Muğan iqtisadi rayonunda (3,2%-dən 3%-ə), Şəki-Zaqatala iqtisadi rayonunda (4,9%-dən 4,8%-ə), Şirvan-Salyan iqtisadi rayonunda (3,6%-dən 3,1%-ə) da müşahidə olunmaqdadır.

Bütün bu qeyd olunanlarla yanaşı bir faktı nəzər diqqətinizə çatdıraq ki, son illər respublikamızda hazırlanmış və qəbul edilmiş hüquqi baza zəminində yaradılan əlverişli biznes mühiti sayəsində kiçik biznes və özəl sahibkarlığın fəaliyyəti əhəmiyyətli dərəcədə intensivləşmişdir. Əlverişli biznes mühitinin yaradılması çərçivəsində biznes subyektlərinin iqtisadi azadlıqlarının və rəqabət mühitinin genişləndirilməsinə, istehsal həcmlərinin artırılmasına və kiçik sahibkarlıq subyektləri arasında iqtisadi əlaqələrin şaxələndirilməsinə böyük diqqət yetirilmişdir.

**Nəticə**

Aparılan araşdırma nəticəsində tərəfimizdən belə qənaətə gəlinmişdir ki, Azərbaycanın iqtisadi göstəriciləri müsbət dinamika ilə xarakterizə olunsa da, kiçik biznesin və özəl sahibkarlığın dövlət tənzimlənməsində hələ də problemlər mövcuddur. Bu kontekstdə kiçik biznesin və özəl sahibkarlığın inkişafı və təşviqi üçün biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

• Yerli hakimiyyət orqanları tərəfindən regional miqyasda biznes mühitinin yaxşılaşdırılmasına istiqamətlənmiş, kiçik biznesin və özəl sahibkarlığın inkişafına yönəlmiş diqqətlə düşünülmüş tədbirlərin həyata keçirilməsi;

• Kiçik biznes və sahibkarlıq sferasında əmtəələrin ixracının təşviqi və artırılması, bu istiqamətdə mövcud problemlərin həlli;

• Kiçik biznes və sahibkarlığın inkişafına yönəldilən investisiyaların genişləndirilməsi və bu yöndəki fəaliyyətlərin təşviq edilməsi;

• Xarici investisiyaların cəlb edilməsi məqsədilə bu istiqamətdəki potensial investorlara diqqət yetirilməsi və kiçik biznes və sahibkarlığın modernləşdirilməsi prosesində onlardan səmərəli istifadə edilməsi;

• Xüsusi mülkiyyətin və sahibkarlığın daha da inkişaf etdirilməsi və onların dövlət tərəfindən səmərəli müdafiəsinin təmin edilməsi.

Bundan əlavə, mikro, kiçik və orta sahibkarlığın təkmilləşdirilməsi məqsədilə sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı, tikintiyə icazələrin alınması, elektrik enerjisi təchizatı sisteminə qoşulması, əmlakın qeydiyyatı, beynəlxalq ticarət və müqavilələrin icrası sahəsində islahatların ardıcıl davam etdirilməsi zəruridir.

Yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, biznes mühiti kiçik biznes və sahibkarların fəaliyyətini aktivləşdirən və asanlaşdıran, ölkənin inkişafına müsbət təsir göstərən mühitdir. Fikrimizcə, biznes mühitinin müsbət təsirini artırmaq üçün dövlət mexanizminin və bazar mexanizmlərinin bir-birini tamamlayan funksiyalarını əlaqələndirmək lazımdır. Çünki, biznes mühiti iki mexanizm – dövlət və bazar mexanizmləri əsasında yaxşılaşdırılır və təkmilləşdirilir. Başqa sözlə desək, bu mexanizmlər arasında koordinasiya olmadan biznes mühiti bazar iqtisadiyyatının subyektlərinə lazımi təsir göstərə bilməz.

## ƏDƏBİYYAT


1. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq – 2022. Statistik məcmuə. ARDSK, Bakı: 2022, 218 s.
2. Bağırov M.S., Mahmudov C.İ. Biznes mühiti regional müstəvidə. “Naxçıvan” Universitetinin Elmi Əsərlər jurnalı, № 2(26), Nuh, 2022, s. 19-25.
3. Faydalı biznes və investisiya mühitinə dair vəsait. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, 2006, 156 s.
4. Mahmudov M.M., Mahmudov İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: 2011, 370 s.
5. Арипов О.А. Структурные элементы деловой среды и их влияние на функционирование субъектов малого бизнеса и предпринимательства. Региональные проблемы преобразования экономики, №8, 2019, стр. 184-191 (www.rppe.ru).
6. Быкова Е.С. Методологические основы оценки институциональной среды предприятия при формировании интеграционных процессов. Вестник Саратовского государственного социально-экономического университета, № 5 (49), 2013, стр. 9-11.
7. UN Human Development Report 2005
8. stat.gov.az

## SUMMARY

**Elshan Yusifov**

## STRUCTURAL ELEMENTS OF THE BUSINESS ENVIRONMENT AND THEIR IMPACT ON ENTREPRENEURIAL ACTIVITY

The purpose of the research-is to determine the environmental factors that are beyond the control and influence of micro, small and medium-sized business entities, which affect business in a positive and negative direction, and to study the impact of the formed business environment on the development of entrepreneurial activity.

The method and methodology of the research. Logical thinking, scientific thinking, systematic approach, statistical and comparative analysis methods have been used in the research. The topic is studied through scientific and technical information sources such as textbooks, teaching aids, foreign literature, periodicals, scientific conferences. A statistical analysis has been used in order to study the development of small business and private entrepreneurship. The article is based on the legislative framework of the Azerbaijan Republic, the decrees and orders of the President of the Azerbaijan Republic, and the scientific works of prominent scientists in the economic and social fields.

The result of the research. As a result of the research the following results have been concluded:

• implementation of measures aimed at improving the business environment, development of small business and private entrepreneurship on a regional scale by local authorities;

• promoting the export of goods in the sphere of entrepreneurship and solving existing problems in this direction.

• expansion of investments aimed at the development of small business and entrepreneurship and promotion of activities in this direction.

• in order to attract foreign investments, paying attention to potential investors in this direction and effectively using them in the process of modernizing small business and entrepreneurship;

• providing effective protection of business entities by the state.

The limitations of the research. The multitude of environmental factors affecting the activity of micro, small and medium-sized enterprises and difficulties in measuring them.

The practical significance of the research. The results of the research can be used in the process of improving the business environment in different countries, in the development of specific approaches for the development of small business and private entrepreneurship in the regions. The results of the article can also play an important role in the scientific and practical research of experts conducting research in the direction of the development of entrepreneurial activity.


***Key words:*** *micro, small and medium business, private entrepreneurship, business environment, business environment elements, business environment development factors*

## РЕЗЮМЕ

**Эльшан Юсифов**

## СТРУКТУРНЫЕ ЭЛЕМЕНТЫ БИЗНЕС-СРЕДЫ И ИХ ВЛИЯНИЕ НА ПРЕДПРИНИМАТЕЛЬСКУЮ ДЕЯТЕЛЬНОСТЬ

Целью исследования является определение факторов внешней среды, находящихся вне контроля и влияния субъектов микро-, малого и среднего бизнеса, влияющих на бизнес в положительном и отрицательном направлении, а также изучение влияния формируемой бизнес-среды на развитие предпринимательской деятельности.

Метод и методика исследования. При изучении предмета использовались такие методы, как логическое мышление, научное мышление, системный подход, статистический и сравнительный анализ. Тема освещается научно-техническими источниками информации, такими как учебники, учебные пособия, зарубежная литература, периодические издания, научные конференции. При изучении развития малого бизнеса и частного предпринимательства был проведен статистический анализ.

Статья основана на законодательной базе Азербайджанской Республики, Указах и Распоряжениях Президента Азербайджанской Республики, научных трудах видных ученых в экономической и социальной областях.

Результат исследования. В результате исследования в нашей статье были сделаны следующие выводы:

• реализация мер, направленных на улучшение бизнес-среды, развитие малого бизнеса и частного предпринимательства в региональном масштабе органами местного самоуправления;

• содействие экспорту товаров в сфере предпринимательства и решение существующих проблем в этом направлении;

• расширение инвестиций, направленных на развитие малого бизнеса и предпринимательства и стимулирование деятельности в этом направлении;

• обращение внимания на потенциальных инвесторов в этом направлении с целью привлечения иностранных инвестиций и их эффективного использования в процессе модернизации малого бизнеса и предпринимательства;

• обеспечение эффективной защиты субъектов предпринимательства государством.

Ограничения исследования: количество факторов внешней среды, влияющих на деятельность микро, малых и средних предприятий и, следовательно, трудности их измерения.

Практическая значимость исследования: Результаты исследования могут быть использованы в процессе улучшения бизнес-среды в разных странах, при разработке конкретных подходов к развитию малого бизнеса и частного предпринимательства в регионах. Результаты исследования также могут сыграть важную роль в научных и экспериментальных исследованиях специалистов, проводящих исследования в направлении развития предпринимательской деятельности.

Научная новизна и оригинальность исследования заключается в его посвященности изучению деловой среды и ее структурных элементов, необходимых для осуществления предпринимательской деятельности, анализу факторов, влияющих на развитие предпринимательства, и взаимосвязей между ними.


***Ключевые слова:*** *микро, малый и средний бизнес, частное предпринимательство, деловая среда, элементы деловой среды, факторы развития деловой среды*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25 sentyabr  2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 158-163
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 158-163
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 158-163

**ZAMİR TAĞIYEV**
*Bakı Dövlət Universiteti*
*tagiyevzamir@gmail.com*

**UOT: 349:336.7; 351.72; 347.734/. 735**

# VALYUTANIN MAHİYYƏTİ VƏ ELMİ-NƏZƏRİ ƏSASLARI

*Məqalədə, ölkələrin milli iqtisadiyyatları və dövlətlərarası beynəlxalq iqtisadi münasibətlərin hərəkətverici qüvvəsi olan valyuta anlayışının elmi və nəzəri əsaslarından söz açılmış, onun mahiyyətindən bəhs olunmuşdur. İqtisad elminin müxtəlif nümayəndələri tərəfindən valyuta termininin izahı və elmi cəhətdən əsaslandırılmasına diqqət çəkilmiş, xüsusilə də, valyuta anlayışına yanaşmaları barəsində söz açılmışdır. Eyni zamanda, valyuta sahəsindəki proseslərinin milli və beynəlxalq səviyyələrdəki əsaslandırılması məqalədə öz yerini almışdır. Bunlarla yanaşı, valyuta tənzimlənməsi sahəsində dövlət tənzimlənməsinə yer verilmiş, bu istiqamətdə Azərbaycan Respublikasında "Valyuta tənzimi" haqqında qanunun əhəmiyyətindən bəhs olunmuşdur. Bunlarla yanaşı, həmin qanunun maddələri üzrə əsaslandırmalar da irəli sürülmüş, həmçinin onun reallaşma mexanizmləri göstərilmişdir.*

*Məqalədə, irəli sürülmüş olan müddəalar şəkillər vasitəsilə əksini tapmışdır. Valyuta, hər şeydən əvvəl, istənilən bir müstəqil ölkənin pul nişanəsi olaraq çıxış etməkdədir. Eyni zamanda, bu anlayış, dövlətlərin qlobal iqtisadi mübadilədə və başqa qlobal münasibətlərdə təmsil olunan pul vahidi, milli banknot olaraq da ifadə oluna bilər. Yəni valyuta termininin zəruri mənalandırılması xüsusilə, milli iqtisadiyyat üçün aktual olan münbasibətlərin təzahürü, onun maliyyə əsası və perspektivlilik xüsusiyyətlərini özündə daşımaqdadır.*

*Eyni zamanda, məqalədə göstərilir ki, valyutaya dünya miqyaslı anlaşmalar üzrə təşkil olunan hesablarda qeydiyyat olaraq yerini almış olan hesablaşma pul vahidləri də aid olunur. Bu mənada, valyuta əlaqələri nisbi sərbəstliyə sahib olub, tədiyə balansı, valyuta kursu, kredit və əməliyyatlar üzrə hesablaşma yolu ilə reallaşmış olur. Valyuta əlaqələri çox müxtəlif dövlətlərin iqtisadi inkişaf miqyaslarının və onlar daxilindəki qlobal iqtisadi əlaqələrin perspektivliliyində zəruri rola malik olur. Ölkələrin milli valyutalarının qlobal hesablaşmalarda həyata keçirilmiş olması və onun xarici pul vahidlərinə mübadilə olunması dövlətin valyuta tənzimləmələri ilə nizama salınır.*

***Açar sözlər:** valyuta, milli iqtisadiyyat, valyuta siyasəti, valyuta tənzimi, iqtisadi münasibətlər, kapital ixracı*

İqtisadi inkişafın bütün mərhələlərində sosial-iqtisadi münasibətlərin zəruri ifadə formalarından birini də valyuta ilə bağlı olan məsələlərin əsaslandırılmasından, elmi və nəzəri cəhətlərinin ortaya qoyulmasından və ölkələrin milli iqtisadiyyatlarında onun zəruriliyindən ibarət olan məsələlər təşkil etməkdədir. İqtisad elmindən məlumdur ki, "valyuta" italyan mənşəli termin olub, Azərbaycan dilinə tərcümədə qiymət və ya dəyər anlayışlarını özündə birləşdirən mühüm amil olaraq çıxış etməkdədir. Valyuta, hər şeydən əvvəl, istənilən bir müstəqil ölkənin pul nişanəsi olaraq çıxış etməkdədir. Eyni zamanda, bu anlayış, dövlətlərin qlobal iqtisadi mübadilədə və başqa qlobal münasibətlərdə təmsil olunan pul vahidi, milli banknot olaraq da ifadə oluna bilər. Yəni valyuta termininin zəruri mənalandırılması xüsusilə, milli iqtisadiyyat üçün aktual olan münbasibətlərin təzahürü, onun maliyyə əsası və perspektivlilik xüsusiyyətlərini özündə daşımaqdadır.

Məhz valyutanın ölkələrin milli iqtisadiyyatları üçün aktuallığının nəzərə alınması, onun iqtisadiyyatın sahə strukturu ilə birbaşa əlaqəsinin və hərəkətverici təsirə malik olmasının diqqətdə

saxlanılması bir çox iqtisadi və sosial sahələr üzrə alimlərin, təhlilçilərin və analitiklərin əsərlərində, qənaət və analizlərində mühüm yer almışdır.

D. Vəliyev "Beynəlxalq iqtisadiyyat" kitabında əsaslandırır ki, beynəlxalq iqtisadi əməliyyatları həyata keçirmək üçün istifadə olunan ödəmə vasitəsinə valyuta deyilir. Başqa sözlə, hər hansı bir milli pul vahidi beynəlxalq hesablaşma və iqtisadi münasibətlərin iştirakçısı kimi çıxış etdikdə valyutaya çevrilir. Valyuta rolunu yalnız müxtəlif ölkələrin pul vahidləri (məsələn, ABŞ dolları, Alman markası və s.) deyil, həmçinin beynəlxalq ödəmə vasitəsi olaraq, pul əvəzinə qəbul olunan çek, xəzinə bonları, pay sənədləri, istiqrazlar və s. kimi digər qiymətli kağızlar da rol oynayır. Ona görə də, valyuta deyildikdə onların hamısı başa düşülməlidir (5, s.116).

Naxçıvan Dövlət Universitetinin professoru A.İ.Şirəliyev "İqtisadi nəzəriyyə" kitabında qeyd edir ki, ölkələr arasında iqtisadi əlaqələrin artması ilə bağlı beynəlxalq valyuta əlaqələrinin miqyası getdikcə genişlənir. "Valyuta" italyan sözü olub, Azərbaycan dilində "dəyər" deməkdir. Hər bir ölkənin milli pul vahidinə valyuta deyilir. Beynəlxalq valyuta münasibətləri dünya təsərrüfatında beynəlxalq xidmətlər formasında, əmtəə və kapital ixracı əsasında qərarlaşır (6, s.393).

Bəhs olunan əsaslandırmalardan da aydın olur ki, valyuta anlayışının açıqlamasında istər ayrı-ayrı ölkələrin milli, istərsə də, bütövlükdə dünya iqtisadiyyatının beynəlxalq və qlobal miyqasda maliyyə münasibətlərinin ifadəsi yerini almaqdadır.

Gəncə Dövlət Universitetinin alimləri O.Q.Məmmədli və F.İ.İsmayılovun "İqtisadi nəzəriyyə" kitabında qeyd olunur ki, valyuta sözü qiymət, dəyər mənasını verməkdə və ölkənin pul vahidi-manat, dollar, funt sterlinq və s. demək olur. Hər bir bir milli bazarın özünün valyuta sistemi vardır. Milli valyuta anlayışına toxunan alimlər belə əsaslandırır ki, bu termin ölkənin pul sisteminin ayrılmaz tərkib hissəsidir. Lakin o, təkcə daxili pul tədavülünü deyil, həm də, beynəlxalq hesablaşmalarla

Şəkil 1

**Milli valyuta sisteminin əsas ünsürləri**




əlaqədar meydana çıxan münasibətləri də əhatə edir. Alimlər milli valyuta sisteminin əsas ünsürlərini ayırmaqla, onları şəkil 1-in məlumatlarında olduğu kimi qeyd etmişlər (2, s.778).

Bakı Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi T.S.Vəliyevin və Ş.S.Qafarovun "İqtisadi nəzəriyyə" dərsliyində göstərilir ki, beynəlxalq iqtisadi inteqrasiya prosesində iştirak etmiş olan ölkələr arasında qarşılıqlı münasibətlərin tənzimlənməsində beynəlxalq valyuta mexanizmindən istifadə olunur. Burada, beynəlxalq valyuta münasibətlərinə diqqət çəkilərək göstərilmişdir ki, bu anlayış, dünya pulunun fəaliyyəti və ölkələr arasında müxtəlif təsərrüfat əlaqələrinə xidmət olunması ilə bağlı olan iqtisadi münasibətləri ifadə etməkdədir (3, s.376). Qeyd olunanlar nəticəsində aydın olur ki, həmin əlaqələrin strateji, sosial-iqtisadi tərəfləri qlobal təsərrüfatı müstəvisində yatırımın geniş təkrar istehsalı məqsədilə zəruri mühit açmaqdan ibarət olmaqdadır. Hazırda, ETT-nin tərəqqisi ilə bağlı olaraq dünya dövlətləri içərisində xarici iqtisadi münasibətlər də tədricən möhkəmlənir. Bəhs olunanlar da həmin dövlətlər daxilində əmtəə xidmətlərin, yatırım ixracının və başqa ikitərəfli

mübadilə əlaqələrinin tərəqqisi ilə valyuta əlaqələrinin də perspektivliliyinə zəmin yaratmışdır.

Bir sıra ədəbiyyatlarda beynəlxalq iqtisadi münasibətlərin perspektivliliyinə görə milli valyuta mexanizminin əsasında dünya valyuta mexanizmi ortaya qoyulmaqdadır. Həmin valyuta mexanizmi ölkələrarası anlaşmalarla müəyyən olunan qlobal valyuta əlaqələrinin formalaşması növüdür. Bu istiqamətdə bir sıra amillər mövcud olmaqdadır ki, onu da, şəkil 2-nin məlumatlarında ifadə etmək olar.

**Şəkil 2**

**Dövlətlərarası razılaşmalarla təsbit olunan beynəlxalq valyuta münasibətlərinin ünsürləri**




Yuxarıda qeyd olunanlarla yanaşı, onu da bildirmək olar ki, valyutaya eyni zamanda dünya miqyaslı anlaşmalar üzrə təşkil olunan hesablarda qeydiyyat olaraq yerini almış olan hesablaşma pul vahidləri də aid olunur. Bu mənada, valyuta əlaqələri nisbi sərbəstliyə sahib olub, tədiyə balansı, valyuta kursu, kredit və əməliyyatlar üzrə hesablaşma yolu ilə reallaşmış olur. Valyuta əlaqələri çox müxtəlif dövlətlərin iqtisadi inkişaf miqyaslarının və onlar daxilindəki qlobal iqtisadi əlaqələrin perspektivliliyində zəruri rola malik olur. Ölkələrin milli valyutalarının qlobal hesablaşmalarda həyata keçirilmiş olması və onun xarici pul vahidlərinə mübadilə olunması dövlətin valyuta tənzimləmələri ilə nizama salınır. Daha doğrusu, bir dövlətin milli valyutası valyuta ticarətində digər dövlətin valyutasına dəyişdirilir və ya reallaşmış olur.

İqtisadi mahiyyətinə və sosial əhəmiyyətinə görə valyuta termini üç istiqamətdə izah oluna bilər. Bunu şəkil 2-nin məlumatlarında da görmək olar.

**Şəkil 3**

**Valyuta terminin mənalandırılması**




Ölkələr milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi proseslərində bütün istiqamətlərlə yanaşı valyuta proseslərinin də nizama salınması, həmin istiqamətdə dövlət siyasətinin müəyyən olunması və makroiqtisadi baxımdan etibarlılıq yaradılması məsələlərinə diqqət yetirmiş olurlar. Azərbaycan Respublikasında da bu sahədə həyata keçirilmiş olan dövlət tənzimlənməsi aktuallığı ilə

seçilməkdədir. 1994-cü il 21 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunan "Valyuta tənzimi" haqqında Qanunu bu sferada mühüm amil olmuşdur. Həmin qanunda "Azərbaycan Respublikasının Milli Valyutası" anlayışının mənalandırılması verişmişdir. Bunu şəkil 3-ün məlumatlarında görmək olar (1).

**Şəkil 3**




Şəkil 3-ün məlumatlarından aydın olur ki, Azərbaycan Respublikasında valyuta sahəsində dövlət tənzimlənməsinin müxtəlif istiqamətlərindən məqsədyönlü qaydada olmaqla istifadə olunur. Azərbaycan Respublikasının "Valyuta tənzimi" haqqında Qanununda:

- Milli valyuta ilə əməliyyatlar;
- Azərbaycan Respublikasında valyuta mübadiləsi fəaliyyətinin həyata keçirilməsinin ümumi əsasları;
- Valyuta sərvətləri üzərində mülkiyyət hüququ;
- Azərbaycan Respublikasının valyuta ehtiyatlarının formalaşması və ondan istifadə olunması;
- Müəssisə və təşkilatların valyuta vəsaitinin formalaşması, Rezidentlərin xarici valyuta hesabları və digər məsələlərin tənzimlənməsinə yer verilmişdir (7).

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Əməkdar elm xadimi T.S.Vəliyevin, professor Ə.P.Babayevin və professor M.X.Meybullayevin "İqtisadi nəzəriyyə" dərsliyində göstərilir ki, valyutalar barəsində araşdırmalar apararkən aydın olur ki, onu işləmə prosedurlarından asılı olaraq üç hissəyə ayırmaq olar. Bunlardan birini tam çevrilən valyuta olaraq ifadə etmək olar ki, onlar da, heç bir məhdudiyyət qoymayan ölkələrin valyutalarıdır. Bu tip valyutalar, xüsusi icazə olmadan, istənilən bir dövlətin valyutası ilə dəyişdirilə bilər. Buna, valyutanın konvertləşdirilməsi kimi də baxıla bilir. Tam çevrilmiş olan valyutalara ABŞ, Kanada, Avropa birliyi ölkələri, Yaponiya və s. ölkələrin pul vahidlərini misal göstərmək olar. Hazırda Beynəlxalq Valyuta Fondunun üzvü olan 180-dən artıq ölkədən 60 ölkənin valyutası tam (sərbəst) valyuta olaraq çıxış etməkdədir. Bununla yanaşı, müəyyən sahələrdə valyuta əməliyyatlarına məhdudiyyətlər qoyulan, xüsusilə də rezidentlər (həmin ölkələrin fiziki və hüquqi şəxsləri) barəsində valyuta məhdudiyyəti saxlanılan ölkələrin valyutalarına qismən çevrilmiş olan valyutalar deyilir. Çevrilməz (qapalı) valyutalar isə, yalnız bir ölkə daxilində tətbiq olunan valyutalardır. Buna misal olaraq, İEOÖ-lərin əksəriyyətinin və keçmiş QİYŞ –in üzvü olan ölkələrin valyutalarını qeyd etmək olar (4, s.637).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Valyuta tənzimi" haqqında qanunu. 21 oktyabr 1994-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunub.
2. Məmmədli O. Q., İsmayılov F. İ. İqtisadi nəzəriyyə. Bakı: MBM, 2007, 800 s.
3. Vəliyev  T. S., Qafarov Ş. S. İqtisadi nəzəriyyə. Bakı: Azpoliqraf LTD MMC, 2004, 504 s.

4. Vəliyev T. S., Babayev Ə, P., Meybullayev M. X. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 1999, 684 s.
5. Vəliyev D. Ə. Beynəlxalq iqtisadiyyat. Bakı: Azərbaycan Universiteti, 1998, 382 s.
6. Şirəliyev A.İ. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı: Elm, 2004, 420 s.
7. https://e-qanun.az/framework/9238

## SUMMARY

**Zamir Tagiyev**

## THE ESSENCE AND SCIENTIFIC THEORETICAL BASIS OF CURRENCY

The article deals with the essence, the scientific and theoretical basis of currency, which is the driving force of the national economies of the countries and interstate international economic relations. The explanation and scientific classification of the term “currency” by various representatives of economic science, and in particular, approaches to the concept of currency have been discussed. Also the article studies the justification of foreign exchange processes at the national and international levels. Moreover, state regulation in the field of currency regulation, and the importance of the law on "Currency Regulation" in the Azerbaijan Republi have been discussed. The explanations for the articles of that law enforcement as well as the mechanisms of its realization have been studied .

All assertions have been illustruted through charts. The currency is a monetary unit of any independent country. At the same time, this concept can be expressed as a national banknote, the monetary unit of the states represented in the global economic exchange and other global relations. In other words, the necessary meaning of the term currency includes, in particular, the manifestation of the relations that are relevant for the national economy, its financial basis and prospective characteristics.

The article also indicates that the currency includes settlement currency units registered in the accounts organized under world-wide agreements. In this sense, currency relations have relative freedom and are realized through the balance of payments, exchange rate, credit and settlement of transactions. Currency relations have a necessary role in the perspective of the economic development scales of many different states and global economic relations within them. The fact that national currencies of countries are implemented in global settlements and its exchange to foreign currency units is regulated by the currency regulations of the state.

***Key words:*** *currency, national economy, currency policy, currency regulation, economic relations, capital export, etc.*

## РЕЗЮМЕ

**Замир Тагиев**

## СУЩНОСТЬ И НАУЧНО-ТЕОРЕТИЧЕСКАЯ ОСНОВА ВАЛЮТЫ

В статье рассмотрены научно-теоретические основы понятия валюты, являющейся движущей силой национальных экономик стран и межгосударственных, международных экономических отношений, а также рассмотрена его сущность. Было уделено внимание объяснению и научному обоснованию термина валюта различными представителями экономической науки, в частности обсужден подход к понятию валюты. В то же время в статье свое место заняло обоснование валютных процессов на национальном и международном уровнях. В дополнение к этому государственному регулированию уделялось место в сфере валютного регулирования, и в этом направлении обсуждалось значение Закона «О валютном регулировании» в Азербайджанской Республике. Помимо них были выдвинуты обоснования статей того закона, а также показаны механизмы его реализации.

В статье выдвинутые предложения отражены посредством рисунков. Валюта, прежде всего, выступает денежным знаком любой независимой страны. В то же время это понятие может быть выражено как национальная банкнота, денежная единица государств,

представленных в мировом экономическом обмене и других глобальных отношениях. Иными словами, необходимое значение термина валюта включает в себя, в частности, проявление отношений, актуальных для национальной экономики, ее финансовой основы и перспективных характеристик.

В то же время в статье показано, что валюта включает расчетные единицы валюты, учитываемые на счетах, организованных в соответствии с мировыми соглашениями. В этом смысле валютные отношения обладают относительной свободой и реализуются через платежный баланс, валютный курс, кредит и расчеты по сделкам. Валютные отношения играют необходимую роль в перспективе масштабов экономического развития многих различных государств и глобальных экономических отношений внутри них. Факт внедрения национальных валют стран в глобальные расчеты и их обмен на единицы иностранной валюты регулируется валютным регулированием государства.

***Ключевые слова:*** *валюта, национальная экономика, валютная политика, валютное регулирование, экономические отношения, вывоз капитала и др.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25 sentyabr 2023-cü il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 164-169**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 164-169**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123),164-169**

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*
*kemaletehmezbeyova75@gmail.com*

**UOT:658.562: 658.62.018.012**

# MAL-MATERİAL EHTİYYATLARININ QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSAS XUSUSİYYƏTLƏRİ

*Materialla faktiki maya dəyərini ancaq ayın axırında hesablamaq olar. Materialların hərəkəti isə müəssisələrdə hər gün baş verir və onların daxil olmasına və sərf edilməsinə aid sənədlər öz vaxtında rəsmiləşdirilir, daha doğrusu, əməliyyatlar başa çatdıqca rəsmiləşdirilir və uçotda öz əksini tapır. Ona görə uçotda möhkəm, əvvəlcədən müəyyən edilmiş uçot qiymətləri adlanan qiymətin istifadə edilməsinə tələbat meydana çıxır. Ehtiyatlar (xammal, material, yanacaq və başqaları) əmək əşyaları olmaqla, əmək vasitələri və işçi qüvvəsi ilə birlikdə istehsal prosesində iştirak edir və öz dəyərini tamamilə yeni yaradılmış məhsulun (işin, xidmətin) üzərinə keçirirlər. Maddi qiymətlilərin faktiki maya dəyəri onların əldə edilməsinə çəkilən məsrəflərdən, əlavələrdən (üstəliklər), təchizat, xarici iqtisadi təşkilatlara ödənilən komisyon təltifatından, mal birjalarının xidmətlərinin dəyərindən, gömrük rüsumlarından, kənar təşkilatların qüvvələri ilə həyata keçirilən saxlanma, göndərilmə və daşınma xərclərindən əmələ gəlir.*

***Açar sözlər.*** *ehtiyatlar, uçot, maya dəyəri, sistemlər, materiallar, komsiyon*

Maddi qiymətlilərin faktiki maya dəyəri onların əldə edilməsinə çəkilən məsrəflərdən, əlavələrdən (üstəliklər), təchizat, xarici iqtisadi təşkilatlara ödənilən komisyon təltifatından, mal birjalarının xidmətlərinin dəyərindən, gömrük rüsumlarından, kənar təşkilatların qüvvələri ilə həyata keçirilən saxlanma, göndərilmə və daşınma xərclərindən əmələ gəlir. Ehtiyatların uçotu 8 MMUS ilə tanınır və 35 maddəsi var. Bu standart ehtiyatlar adlı 2 BMUS-na əsaslanır 8 MMUS-nın 19-cu maddəsinə əsasən ehtiyatların uçotu və qiymətləndirilməsinin istiqamətləri aşağıdakılardan ibarətdir:

1) Ehtiyatların uçotunun sistemləri;
2) Ehtiyatların maya dəyəri;
3) Ehtiyatların qiymətləndirilməsi usulları;
4) Ən aşagı dəyərlə qiymətləndirilmə qaydası.

Həmin standarta əsasən ehtiyyatlar vəsait qoyuluşunun bir hissəsidir və ehtiyyatlara daxildir:

a) Alınan mallar və hazır məhsul;
b) İstehsalatda saxlanılan xammal və materiallar;
c) Bitməmiş istehsal;
d) Satışda olan ehtiyyatlar.

Ehtiyatlar digər hesablarda da mövcud ola bilər. Məsələn, 202 “Əsas istehsalat”, 203 “Tikinti üzrə bitməmiş işlər”, 204 “Hazır məhsul”, 205 “Mallar”, 206 “Satış məqsədi ilə saxlanılan digər aktivlər”, 207 “Digər ehtiyyatlar”, 208 “Ehtiyatların dəyərinin düzəlməsinə görə düzəlişlər”, 8 MMUS-ın 11-ci maddəsinə əsasən ilkin dəyər onun alınmasına, yerləşdirilməsinə, daşınmasına çəkilən xərclərin məcmusudur. Lakin məhsul balansda o zaman qeyd olunur ki, o istehsalata verilsin. Onda satın alınmış malların istehsalata verilməmişdən qabaq anbarda saxlanma xərcləri də ilkin dəyərə daxil edilməlidir. 8 MMUS-ın 10-cu maddəsinə əsasən ilkin dəyər kimi mümkün xalis satış dəyərindən ən kiçik olan dəyəri götürülməlidir. Məsələn, keçən il müəssisə 1000 m dəzgah alıbdır. Bu il o məhsul 950 m satılır. Müəssisənin uçot siyasətinə və standarta əsasən məhsul 950 m satılmalıdır.

8 MMUS-ın 23-24-cü maddələri bir-birini əvəz edə bilməyən və ayrı saxlanılan ehtiyatlara

aiddir. Məsələn, satışa çıxarılan mallar antikvardır, yəni unikaldır və alış qiyməti ilə qiymətləndirilməlidir. Digər unikal bir ehtiyat sifariş əsasında tikilən binadır. O sifarişçinin tələblərini ifadə etdiyi üçün dəyişdirilə bilməz. Məlumdur ki, ehtiyatların hərəkəti, istehsal xərclərinin formalaşması mühasibat uçotunun çox mühüm obyektidir. İstehsal prosesində ehtiyatlar müxtəlif qaydada istifadə olunur. Onlardan bəziləri (xammal və materiallar) istehsal prosesində tamamilə istehlak olunur, digərləri (məsələn, ehtiyat hissələri) heç bir dəyişikliyə uğramadan məmulata daxil edilir, üçüncüsü (məsələn, yağlayıcı materiallar, rəng, boya və s.) özlərinin yalnız formalarını dəyişir, dördüncü qrup material dəyərləri isə (məsələn, azqiymətli və tezköhnələn əşyalar) onların kimyəvi tərkibinə və yaxud kütləsinə daxil olmayaraq yalnız məmulatların hazırlanmasına şərait yaradır.

Bütün ehtiyatlar istehsal prosesində istifadə üsuluna və təyinatına görə aşağıdakı qruplara bölünür:

-Xammal (metallurgiya istehsalında filiz, toxuculuq sənayesində pambıq lifi və s.);

- Əsas materiallar (maşınqayırmada qara metallar, ağac emalı sənayesində meşə materialları);

-Satın alınan yarımfabrikatlar (dəzgahqayırmada mühərriklər, avtomobil sənayesində şinlər və s.);

- Köçməkçi materiallar (sürtkü materialları, rəng, boya və s.);
- Tullantılar (yonqarlar, kəsik borular, qırıntılar və s.);
- Taralar (ağac, karton metal);
- Yanacaqlar (odun, daş kömür və s.);
- Ehtiyat hissələri (maşın və avadanlıqların əsaslı təmiri üçün detallar);
- Azqiymətli və tez köhnələn əşyalar.

Həmin təsnifat qrupları əsasında müəssisələr və materialların qalığı olması və istifadəsi haqda hesabat tərtib edirlər. Materialların uçotunun təşkilinin mühüm ilkin şərti onların qiymətləndirilməsindən ibarətdir. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq xammal, əsas və köməkçi materiallar, yanacaq, alınmış yarımfabrikatlar və digər material ehtiyatları uçot və hesabatda onların faktiki maya dəyəri ilə əks olunmalıdır.

Maddi qiymətlilərin faktiki maya dəyəri onların əldə edilməsinə çəkilən məsrəflərdən, əlavələrdən (üstəliklər), təchizat, xarici iqtisadi təşkilatlara ödənilən komisyon təltifatından, mal birjalarının xidmətlərinin dəyərindən, gömrük rüsumlarından, kənar təşkilatların qüvvələri ilə həyata keçirilən saxlanma, göndərilmə və daşınma xərclərindən əmələ gəlir.

Materialla faktiki maya dəyərini ancaq ayın axırında hesablamaq olar. Materialların hərəkəti isə müəssisələrdə hər gün baş verir və onların daxil olmasına və sərf edilməsinə aid sənədlər öz vaxtında rəsmiləşdirilir, daha doğrusu, əməliyyatlar başa çatdıqca rəsmiləşdirilir və uçotda öz əksini tapır. Ona görə uçotda möhkəm, əvvəlcədən müəyyən edilmiş uçot qiymətləri adlanan qiymətin istifadə edilməsinə tələbat meydana çıxır. Hazırda materialların qiymətləndirilməsinin aşağıdakı metodlarını tətbiq edirlər:

1. Azad bazar (müqavilə) və ya dövlətin (preyeskurant) nizamlaşdırılmış topdansatış qiymətləri ilə. Tədarük müqavilələrini bağlayan zaman müəssisələr tərəfindən müstəqil olaraq müəyyən edilir və malgöndərən- müəssisələr və malalan müəssisələr arasında hesablaşmalar zamanı, malgöndərənin ödəmə sənədlərində göstərilməklə buraxılış (satış) qiymətləri şəklində istifadə olunur.

2. Nomenklatura uçot qiyməti ilə. Ona əldə edilən (tədarük edilən) materialların plan maya dəyəri, orta alış qiymıtləri və b. daxildir. Bütün hallarda onların əsasını nəqliyyat-tədarükat xərclərinin planlaşdırılan (hesablanan) həcmini əlavə etməklə müqavilə və ya preyekurant qiymətləri təşkil edir. Qaimə faktura təqdim edildikdən sonra sənədlər maşurut-qayimə vərəq ilə birlikdə mühasibatlığa təqdim olunur, burada nəqliyyat tədarükat qiymətləri hesablanır. Nəqliyyat tədarükat qiymətləri dedikdə yüklərin qablaşdırılması və mühafizəsi xərcləri komisyon və ezamiyyə xərcləri yolda olan təbii itkilər, suğorta xərcləri başa düşülür. Materialların qiyməti müntəzəm olaraq yol və digər xərclərin dəyişməsi ilə əlaqədar olaraq dəyişir. Bununla birlikdə materialların faktura qiyməti də dəyişir. Buna görə materialların faktiki maya dəyəri orta kəmiyyət vasitəsi ilə hesablanır. Tutaq ki, faktiki istehsal olunan məhsulların faktiki maya dəyərini müəssisə orta kəmiyyətlə hesablayır.

Miasala baxaq, 15 günə 40 ədəd məhsul istehsal olunub. Ona birbaşa və dolayı xərclər aşağıdakı kimidir. Materiallar----- 1000, Əmək/haqqı---1500, amartizasiya----1000 man, dolayı məsrəflər 500, sair xərclər 1000 man. İndi bir məhsul vahidinə düşən m/d –ni hesablayaq. Biz bunun üçün sərf olunan m\d istehsal günlərinin sayına bölək. 5000/15 = 333.3(bir günə düşən orta m\d)

333.3 x 15(gün) = 4999.5(tapırıq orta ümumi m\d)

Bir məhsul vahidinə düşən maya dəyərinin orta kəmiyyətini hesablamaq üçün orta ümumi m\d bölürük istehsal olunan məhsulun həcminə. 4999.5\ 40 = 124.9875.m (bir məhsul vahidinə düşən orta m\d). Bundan sonra hər məhsul vahidinə düşən faktiki maya dəyərini hesablayaq. 5000 \ 40 = 125 man. İndi maya dəyərinə 1000 manat güzəşt əlavə edək. Onda faktiki qiymətlər 5000+1000=6000\40=150. Orta maya dəyəri ilə 4999.5 +1000 = 5999.5 \40 = 149.9875 alınan nəticələri müqayisə edək. Əvvəlcə bir məhsul vahidində baş verən kənarlaşmanı hesablayaq. 150 - 49.9875 = 0.0125X 100=12.5. İndi ümumi gəlirləri müqayisə edək: 12.5 x40 =500. Ümumi xərclərdən çıxaq orta maya dəyərini (5000-4999.5= 0.5X 100=50 m). İndi qiymətdən gələn gəliri müqayisə edək: 6000 – 5999.5= 0.5x100=500. Materialların həqiqi tədarük m\d hesablamaq üçün pereskurant (müqavilə) qiymətinin üzərinə nəqliyyat xərcini əlavə edəcəyik. Müəssisə pereskurant qiyməti ilə (Dövlətin topdan satış qiyməti) müqavilə bağlandıqdan sonra satıcı alıcıya hesab faktura göndərir. Hesab fakturada satıcının qiymətləri göstərilir. Bu zaman satıcı alıcıya hesab-faktura təqdim edir, malın pulunu alır.

| N | Qiymətlin adı. | ölçü | miq | Vahidin qiyməti | Məb | sair |
|---|---|---|---|---|---|---|
| 1 | kreslo | ədəd | 15 | 70 | 1050 | --- |
| 2 | kompüter | ədəd | 2 | 400 | 800 | --- |
| | Cəmi | | | | 1850 | |
| | | ƏDV18% | | | | |
| | | Yekun | | | 3435 | |

Bundan sonra alıcı müəssisənin vəkalətnamə verdiyi şəxs satıcıya qaimə-faktura təqdim edir, mal buraxılır.

| N | Qiymətlinin adı | ölcü | miq | Vahidin qiyməti | Məb | sair |
|---|---|---|---|---|---|---|
| 1 | taxta | ədəd | 15 | 70 | 1050 | --- |
| 2 | kompüter | ədəd | 2 | 400 | 800 | --- |
| | Cəm | | | | 1850 | |
| | | ƏDV18% | | | | |

Sonra istehsalat üçün mallara buraxılış tələbnaməsi verilir.

Müəssisədə uçotun düzgün aparılmaması üçün məsələ qaldırılır, istehsala verilən məsrəflərlə

| № | Xidmətin növü | 202-hesabın Dt.Digər hesabların krediti. | | | | Hesabat dövrü xərclərin cəmi | Bitməmiş istehsal qalığı | | Dt-202digər hesab.kt | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Material | əmək\h | Köhnəlmə | Mal satan | | Hesabat dövrü | | anbar | Satılıb | qalıq |
| | | | | | | | İlinəvvəl | Cəm | | | |
| | Kır | 201 | 533 | 112 | 531 | | | | 204 | 701 | |
| | | 840 | 200 | 300 | 600. | 1940 | 300 | 2240 | 900 | 540 | 700 |

faktiki məsrəflər tutuşdurulur.

Faktiki. 1940. Plan –1800 = 14

İlkin sənədlər əsasında müəyyən olunmuşdur ki, buraxılış tələbnamələrində tələb olunan 10-ədəd kreslo əvəzinə səhvən 12 ədəd kreslo istehsal edilmişdir.

Lakin buraxılış tələbnaməsində qeyd olunsa da digər sənədlərdə qeyd olunmamışdır. Nəticədə müəssisəyə dəyən 140 man zərər aradan qaldırılmışdır. 140 man xərc artımı hər məhsul vahidinin dəyərini artırmışdır. 1940 \10 =194 m. 1800\ 10 = 180. 194 -180 =14.

Auditor inventarizasiya əsasında müəyyən edir ki, anbarda 2-ədəd kreslo kəsir gəlmişdir. İki ədəd kreslo malların buraxlış tələbnaməsində aşkar olundu. Belə ki, istehsala 10 ədəd əvəzinə 15 ədəd kreslo verilmışdir. Anbarda materialların uçotu anbar uçotu kartiçkasında aparılır. Müəssisənin anbarında 50 ton məhsul vardır. 40 tonda material tələb olunur. Satıcı müəssisə alınan məhsulu öz

| Yoxlama zamanı aşkar eailib | | | | Anbar .faktiki mal | | İnentarizasiya nəticəv | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | əskik gəlmə | | Artıq gəlmə | |
| ad | Mi | qiy | Məb | miq | Məb | miq | Məb | Mi | Mə |
| Kresl | 3 | 70 | 210 | 15 | 1050 | 2 | 140 | ---- | --- |
| Kanpü | 2 | 400 | 800 | 2 | 800 | ------ | --- | ---- | ---- |
| Cəm. | 5 | 470 | 1010 | 17 | 1850 | | | | |

anbarında minimum 2, maksimum 4 həftə saxlamağa razıdır. Saxlama xərci 1 həftə üçün 1000 manatdır. Məsələni həll etmək üçün audit dəvət olunub. Audit minimum xərclə məhsulu anbardan çıxarmağa çalışır. Onda audit alıcının anbarının tutumunu müəyyənləşdirir və ayda istehsal günlərinin sayını tabeldən götürür (14) və hesablama aparır.

50000 x1oo = 25000 ton.

Audit müəssisədən məhsulu minimum müddətə çıxarmağın yolunu tapdı. Bunun üçün alıcının anbarında olan materialların miqdarını 100 hasil edib minumum həftənin sayına bölürük. Bu zaman alıcı müəssisənin anbarından istehsala nə qədər material buraxıla biləcəyini hesablayır. 25000\5 = 5000 x 6 -= 30 deməli müəssisə bir həftə ərzində satıcı müəssisənin anbarını boşalda bilər. Ehtiyyatların qiymətləndirilməsi.

Müəssisə öz material ehtiyatlarını artırmaq fikirindədir. Satıcı müəssisələr güzəştlər təklif edir. Mühasib alacağı materialların hansı qiymətdə effektli olacağını bilmir. Müəssisə auditor dəvət etmək məcburiyyətindədir. Audit ən güzəştli variantı seçməlidir. O öyrənir ki, mal-materialların qiymətinə görə müəssisələrdə hər ton üzrə qiymət aşağıdakı kimidir.

8t-- 500
7.9t 500--1500
7.8t ---1500--3000
7.7----3000-- 5000
7.6 ---- 5000 –dən yuxarı.

Audit müəssisələrin materiala olan tələbinin 5000 t,olduğunu bilir. Materialların saxlama xərcləri illik xərclərin 15%-ni təşkil edir. Hər sifariş üçün çatdırılma 7 manatdır. Ehtiyyatların ən optimal miqdarı tapılmalıdır. Ehtiyatlar müəssisənin aktivləri olduğundan başqa, həm də ümumi gəlirin hesablanmasının mühüm bir hissəsidir. Misal, bir müəssisə 31 mart 2000-ci il tarixində başa çatmış maliyyə ili ərzində satmaq məqsədi ilə 453600.000 m məbləğində mal almışdır. Həmin dövrdə alıcılara satış məbləği 450.000 m. təşkil edib. Deməli, ticarət hesabında ümumi gəlir aşağıdakı kimi hesablanıb: 31 mart 2000-ci il tarixdə başa çatmış il üzrə ticarət hesabı -453600, satışlar- 450 000 man. İndi ehtimal edək ki, həmin bu müəssisə 31 mart 2000-ci il tarixdə başa çatmış il ərzində aldığı malların hamısını satmayıb. İlin axırına müəssisənin anbarında 3600 m məbləğində mal qalmışdır. 8 N MMUS-nın 25 maddəsi ilə abarda qalan ehtiyyatların maya dəyərinin qiymətləndirilməsin metodları tanınır. Anbarda qalan ehtiyyatların qiymətləndirilməsinin bir sıra metodları vardır:

1) Birinci daxil–birinci cıxış (FİFO). Bu üsulda mallar xronoloji qaydada buraxılır. Yəni əvvəlcədən anbarda qalan mallar birinci satışa verilir, ikinci anbara təzə gətirilən mallar satışa verilir.

2) Son daxil olma-birinci çıxış. Burada birinci satışa təzə gətirilən mallar çıxarılır, sonra anbarda qalan mallar satışa verilir. Bu üsul Amerikan Mühasiblər Asossasiyası tərəfindən tövsiyyə

olunmur. 3) Ortaçəkili dəyər üsulu. Ehtiyyatların OMD üsulu ilə hesablanması zamanı anbarda qalan malın qiyməti ilə təzə gətirilən malın qiyməti toplanıb bölünür. Ehtiyyatların qiymətini təyin etmək üçün müxtəlif uçot formalarından istifadə olunur.

1) Anbar uçot kartı və ya bin kart.

2) Ehtiyyatların uçot kartı.

16aprel -300.x 12=3600. 300 x 15=x15=4500.(3600+4500=8100 gəlir)

21aprel-200 x15m.400 x 17m=9800 m. .

26aprel-400 x 17.300 x 18.=7100.

8100+9800+7100=25800.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| tarix | Mədəd. m | | Məxa .man | | Qalıq. man | | Qiymət.m |
| | miq | məb | miqd | Məbl | Miqd | Məb | man |
| 01.04.19 | --- | ----- | . + | ----- . + | 300= | 3600= | 100x.12m |
| 10.04.19 | 500 | 7500 | ----- | ---- -- | 800 | 11100 | 100.x12m. +500 x15. |
| 16.0419 | | | 600 | 8100 | 200 | 3000 | 100x12 |
| 20.04.19 | 500 | 8500 | ----- | ------ | 700 | 11500 | 200.x.15m 500 x 17. |
| 21.04.19 | ---- | ----- | 600 | 9800 | 100 | 1700 | |
| 20.04.19 | 500 | 9000 | ------ | ----- | 600 | 10700 | 500 x18m |
| 30.04.19 | ---- | ------ | 400 | 7100 | 200 | 3600 | 300 x18m. |

.

Qilmətləndirmənin üsulu. OMDU(AVİCO)

| Ehtiyytların uçot kart | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| tarix | Mədəd. m | | Məxa .man | | Qalıq. man | | Qiymət.m |
| | miq | məb | miqd | Məbl | Miqd | Məb | man |
| 01.04.19 | --- | ----- | . + | ----- . + | 300= | 3600= | 300x.12m |
| 10.04.19 | 500 | 7500 | ----- | ---- -- | 800 | 11100 | 300.x12m. +500 x15. |
| 16.0419 | | | 600 | 8100 | 200 | 3000 | 200 x15m |
| 20.04.19 | 500 | 8500 | ----- | ------ | 700 | 11500 | 200.x.15m 500 x 17. |
| 21.04.19 | ---- | ----- | 600 | 9800 | 100 | 1700 | 100x17m. |
| 20.04.19 | 500 | 9000 | ------ | ----- | 600 | 10700 | 100 x 17m 500 x18m |
| 30.04.19 | ---- | ------ | 400 | 7100 | 200 | 3600 | 300 x18m. |

11100\800=13.900

13.9+16.4=17.3=47.6

11500\700=16.400

10700\ 600=17.300

## ƏDƏBİYYAT

1. Abbasov Q., Səbzəliyev S. Mühasibat (maliiyə) uçot. Bakı: 2003.
2. Ağayev Vaqif. Audit- XV fəsil. Bakı: 2011.
3. Kərimov Aydın. Mühasibat uçotu, vergilər. Bakı: 2012.
4. Abbasov Q. Sıfırdan başlayan mühasibat uçotu. Bakı: 2012.
5. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu, B.: 2004.
6. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. B.: 2011.
6. Abbasov Teymur. Mühasibat uçotunun Beynəlxalq və milli standartlarının əsasları. Bakı: 2019.

## SUMMARY

**Kamala Tahmazbayova**

## MAIN CHARACTERISTICS OF INVENTORY VALUATION

The actual cost of the material can be calculated only at the end of the month. On the other hand, the movement of materials at enterprises occurs daily, and documents relating to their receipt and expenditure are processed in a timely manner, more precisely, they are processed as operations are completed and reflected in accounting. Therefore, there is a need to use the so-called predetermined accounting prices in accounting. Resources (raw materials, fuel and others), being objects of labor, participate in the production process together with the means of labor and labor force and fully transfer their value to the newly created product (work, service). The actual cost of tangible assets consists of the costs of their acquisition, surcharges (surcharges), supplies, commission fees paid to foreign economic organizations, the cost of commodity exchange services, customs duties, storage, shipping and transportation costs carried out by third-party organizations.

***Key words:*** *resources, accounting, cost, systems, materials, commission*

## РЕЗЮМЕ

**Камала Тахмазбекова**

## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ОЦЕНКИ ЗАПАСОВ

Фактическую стоимость материала можно рассчитать только в конце месяца. На предприятиях каждый день происходит движение материалов, а документы, связанные с их поступлением и расходом, оформляются вовремя, вернее, по мере выполнения операций оформляются и отражаются в бухгалтерском учете. Поэтому возникает потребность в использовании в бухгалтерском учете так называемых фиксированных, заранее определенных расчетных цен. Запасы (сырье, материалы, топливо и др.), являясь предметами труда, участвуют в процессе производства наравне с орудиями труда и рабочей силой, и их стоимость совершенно новая они тратят на созданный продукт (работу, услугу). Фактическая стоимость материальных ценностей складывается из затрат, произведенных на их приобретение, прибавления (излишки), поставки, комиссионных, уплаченных внешнеэкономическим организациям, стоимости услуг товарных бирж, таможенных пошлин, расходов на хранение, отгрузку и транспортировку, осуществленных силами внешних организаций.

***Ключевые слова:*** *Резервы, учет, Стоимость, системы, материалы, комиссия.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25 sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 170-174
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 170-174
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 170-174

**YUSİF ZAMANLI**

**UOT: 658.562: 658.62.018.012**

# İNNOVASİYA STRATEGİYASININ FİRMANIN İNKİŞAFINA TƏSİRİ

*İnnovasiya menecmentinin fərqli xüsusiyyəti onun elmi-texniki nailiyyətlərdən geniş istifadə edilməsinə, yeni texnologiyanın geniş tətbiqinə, istehsal edilən məhsulun keyfiyyət göstəricilərinin artırılmasına, idarəetmədəyeni metodlar tətbiq edilərək istehlakçıların tələbatının ödənilməsinə və beləliklə də iqtisadi artımın əldə edilməsinə yönəldilmişdir. Yeni problemlər elmi-texniki və innovasiya fəaliyyətinə yeni prizmadan baxmaqla, elmi-texniki məhsula yeni yanaşmaların və onların düzgün idarə edilməsinin də formalaşmasını şərtləndirir. Ölkənin innovasiya sisteminin düzgün formalaşması və düzgün idarə edilməsi qarşıda duran əsas məsələdir.*

*Bu məqalədə innovasiya strategiyasının firmanın inkişafına təsiri tədqiq edilmişdir. Dünya təcrübəsinin Azərbaycanda tətbiqi firmalarda yeni imkanlara şərait yaradır ki, bu da məqsədə nail olmanı sürətlndirir.*

***Açar sözlər:*** *firma, innovasiya, innovativ strategiya, strateji menecment, innovasiya menecmenti*

Bazar iqtisadiyyatı şəraitində hər bir müəssisə rəqabət mühitində mövqeyini qorumaq üçün yeni məhsul istehsal etməli və mövcud məhsulları daima modernləşdirməlidir. Buna isə yalnız innovasiya fəaliyyətini genişləndirməklə nail olmaq mümkündür. Odur ki, innovasiya menecmentinə həsr edilmiş çoxsaylı ədəbiyyatlarda qeyd edilir ki, innovasiya –yeni məhsullar, istehsal, maliyyə, kommersiya və s. xarakterli sosial-iqtisadi və təşkilati-texniki qərarlardır; innovasiya–sahibkarlıq ruhu ilə motivləşdirilmiş istehsal amillərinin yeni elmi-təşkilati kombinasiyasıdır; istehsal vasitələrində və digər novator fəaliyyətindəki əsaslı dəyişikliklərdir; yeni texnoloji ideyaların, təkliflərin, elmi-texniki qərarların praktiki tətbiq edilməsi və həyata keçirilməsidir; yeni praktiki vasitələrin yaradılması, yayılması və istifadəsinin kompleks prosesidir; aparılmış elmi tədqiqatların və ixtiraların istehsalda tətbiqidir və s.

Firmanın (müəssisənin) innovasiya fəaliyyəti nəticə etibarilə mövcud problemlərin aşkar edilməsi, infrastrukturların köməyi ilə innovasiya prosesinin həyata keçirilməsini və innovasiya fəaliyyətinin səmərəli təşkilini özündə ehtiva edir. İnnovasiya fəaliyyətinin təkmilləşdirilməsi üçün aşağıdakıların icrası təmin edilməlidir:

- Fasiləsiz yaxşılaşdırma sisteminin tətbiq edilməsi;
- Yeniliyin mükafatlandırılması məqsədilə motivləşdirmə sisteminin təkmilləşdirilməsi;
- İşçilərin yeniliyə (innovasiyaya) olan subyektiv müqavimətinin aradan qaldırılması;
- Daxili və xarici marketinq məlumatlarının toplanması və emalı sisteminin təkmilləşdirilməsi;
- İnnovasiya layihələrinin işlənilməsi, baxılması, təsdiqi, həyata keçirilməsi, monitorinqinin aparılması qaydalarının reqlamentləşdirilməsi və firmada strateji menecmentin təkmilləşdirilməsi.

Strategiya çoxcəhətli anlayış olub, firmanın qarşısında duran məqsəd və vəzifələrin həyata keçirilməsinə yönəldilən dəqiqləşdirilmiş kompleks-plandır. Şirkətin (firmanın) strategiyası bazarda onun mövqeyini möhkəmləndirən, eləcə də istehlakçıların cəlb olunması və tələblərinin ödənilməsi üzrə uğurlu rəqabət üstünlüyünü təmin edəcək idarəetmə planıdır. Başqa sözlə, strategiya şirkətin inkişaf yollarının, bazarların, rəqabət metodlarının və biznesin aparılmasını bildirir.

Firmanın inkişaf strategiyasını hazırlayarkən, onun bir sıra tələblərə cavab verməsinə nail olmaq vacibdir:

- nail olunmalı ümumi iş, həlledici və əsas məqsədlər olmalı;
- koordinasiya edilmiş rəhbərlik bildirilməli;
- mütərəqqi təşəbbüsə kömək olmalı;
- başlıca qüvvələr lazımi yerdə və zamanında cəmləşməli;
- zəmanətli resursları təmin etməli;
- maksimum nəticə əldə edilməsi zamanı resurslardan minimum istifadə üçün taktiki hərəkətlərin çevikliyini nəzərdə tutmalıdır.

P.Druker inkişaf strategiyasını məqsədinə görə 4 qrupa bölür:

- *ilk daxil olmaq və kütləvi zərbə endirmək;*
- *cəld və gözlənilmədən hücum etmək;*
- *ekoloji boşluqları tapmaq və zəbt etmək;*
- *əmtəənin, bazarın yaxud sahənin iqtisadi xarakteristikasını dəyişmək.*

Əlamətlərinə görə, inkişaf strategiyasını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. *Hücum yaxud Sıçrayış Strategiyası;*
2. *Müdafiə yaxud Sağlamlaşdırma Strategiyası;*
3. *Təşkilatın fəaliyyətinin azalması və dəyişməsi strategiyası.*

Qarşıya qoyulan məqsədlərin üstünlük dərəcəsindən asılı olaraq strategiyanın müxtəlif növləri mövcuddur və təşkilat öz fəaliyyətini həmin strategiyalar əsasında istiqamətləndirməlidir. Strategiyaları aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Məhsul-bazar strategiyası;
2. Marketinq strategiyası;
3. Rəqabət strategiyası;
4. Sahələr yığınının idarə edilməsi strategiyası;
5. Yeniliklər strategiyası;
6. Kapital qoyuluşları strategiyası;
7. İnkişaf strategiyası;
8. Udma strategiyası;
9. Xarici investisiya strategiyası;
10. İxrac fəaliyyətinin genişləndirilməsinə istiqamətləndirmə strategiyası;
11. Xarici iqtisadi müdaxilə strategiyası.

Şübhəsiz ki, müəssisələr üçün rəqabət qabiliyyəti yüksək olan yenilik istehsal etməyin yolu şirkətin innovativ mədəniyyətə sahib olmağından keçir. Şirkətin işçiləri nə qədər yeniliyə meyilli olsalar innovasiya prosesinə keçid şirkət üçün bir o qədər asan və daha az maliyyətli olar. Lakin bu da bir həqiqətdir ki, illər ərzində eyni bir düzəndə çalışan firma birdən birə davamlı şəkildə yeniliyə tabe tutularsa bu işçilərin həmin yeniliyə adaptasiya olmaları bir az çətin olur. Bu məsələlərdə mərhələli davranmaq daha məqsədəuyğun sayılır. Müəssisələrdə innovativ mədəniyyətin təsis edilməsi və innovativ bir quruluşa sahib olması üçün lazım olan xüsusiyyətləri aşağıdakı kimi sıralamaq mümkündür.

- ✓ Uzaqgörənlik, strateji və mədəniyyət liderliyi;
- ✓ Yenilik və müvəffəqiyyəti vurğulamaq;
- ✓ Güclü bir müştəri mərkəzlilik;
- ✓ Keyfiyyətin idarə olunmasına əhəmiyyət vermək;
- ✓ Elastik və uyğun təşkilati struktur;
- ✓ Yüksək səviyyəli əməkdaşlıqlar, qrup çalışması və güvən;
- ✓ İşçilərin idarəetmədə iştirakını təmin edən idarəetmə tərzi və əmək qüvvəsinə səlahiyyətin verilməsi;
- ✓ İnsan resurslarına əhəmiyyət vermək;
- ✓ Davamlı öyrənmə, dəyişmə və irəliləmə;
- ✓ Effektiv məlumat, rabitə və qəraralma sistemləri;
- ✓ Prosesin idarəolunmasına əhəmiyyət vermək;
- ✓ Məhsul, proses və bazar inkişaf etdirməyə əhəmiyyət vermək.

İnnovasiya onu dəstəkləyən bir mədəniyyət içərisində daha çox davam etdirilə bilər. Bunun üçün isə müəssisələrin yuxarıda sadalanan xüsusiyyətlərə sahib olması qaçınılmazdır. Xüsusilə işçiləri innovasiya mövzusunda cəsarətləndirən, dəstəkləyən, yeni fikir və informasiyaya çatdıran bir mədəniyyətin inşa edilməsi, onların həm təşkilatın daxilində həm də xaricində əlaqələrinin inkişaf etdirilməsinə gətirib çıxaracaq. Bu şəkildə təşkilatın işçiləri vasitəsi ilə həm işçilərin həm də təşkilatın xaricindəki ortaqların, müştərilərin, vasitəçilərin və tədarükçülərin yenilik cəhdlərinə qatqısı təmin ediləcəkdir.

Müəssisələr baxımından innovasiya ilə əlaqədar iki əsas problem mövcuddur. Bunlardan birincisi innovasiyanın ortaya çıxarılma prosesini əhatə edən innovasiyanın idarə olunma problemidir. Digəri isə innovasiyanın effektiv bir şəkildə qiymətləndirilməsi üçün lazım olan marketinq problemdir. Yeni ortaya çıxarılan innovativ məhsul, xidmət və ya iş modelinə qədər mükəmməl olursa olsun düzgün strategiya ilə marketinq olunmadığı halda bazarda müştərilər tərəfindən rəqbət görməyəcək və dolayısı ilə heç bir müsbət nəticə verməyəcəkdir. Bu baxımdan da müəssisələrin qarşısında duran bu iki əsas problemi həll etmək və dolğun bir innovativ nəticəyə gəlmək üçün düzgün innovasiya strategiyalarının qoyulması əsas şərtdir (9).

Müəssisə üzrə innovasiya siyasətinin həyata keçirilməsi zamanı aşağıdakılar nəzərdə tutulmalıdır:

- İnnovasiya fəaliyyətinin plan - proqramının hazırlanması;
- Yeni məhsullar işlənib hazırlanması, gedişinə və onun tətbiqinə nəzarət edilməsini;
- Yeni məhsullar yaradılmasının layihələrinə baxılmasını;
- İnnovasiya fəaliyyəti proqramının material və maliyyə resursları ilə təmin edilməsini;
- İnnovasiya fəaliyyətinin ixtisaslı heyətlə təmin edilməsini.

Elmi-texniki tərəqqinin və istehsalın inkişafı nöqteyi-nəzərdən innovasiya fəaliyyəti 5 cür olur:

1. **Böyük innovasiya.** Bunların nəticəsində inqilabi yeniliklər həyata keçirilir ki, istehsal strukturunu, idarəetməni və iqtisadi inkişafın sürətini kökündən dəyişir.
2. **Radikal innovasiya**. Elmi ideyalar və ixtiralarla nəticələnir ki, bunların da əsasında texnoloji sistemlərin keyfiyyətinin kökündən dəyişdirilməsi və yeni istehsal sahələrinin yaranması mümkün olur.
3. **Prinsipial innovasiya.** Böyük ixtiralar və elmi-texniki təkliflərlə nəticələnir ki, bunların da bazasında köhnə texnologiyanın yenisi ilə əvəz edilməsi şərti ilə yeni texnologiya yaranır.
4. **Təkmilləşdirilmiş innovasiya.** Mövcud texnologiyanın, obyektlərin, məhsulun və texnikanın təkmilləşdirilməsinə yönəldilmiş innovasiyadır.
5. **Sadə innovasiya.** Bunun vasitəsilə istehsalda istifadə edilən texnika və texnologiyanın texniki-iqtisadi parametrlərinin bir müddət saxlanmasına nail olunur.

İdarəetmənin bu formasının fərqli xüsusiyyəti ondan ibarətdir ki, o, elm və texnikadan geniş istifadə edilməsinə, yeni texnologiyanın hərtərəfli tətbiqinə, yeni texnologiyanın özünün hərtərəfliliyinə, məhsulun keyfiyyətinin yüksəldilməsinə, yaradıcılıq axtarışları və yeniliklər, idarəetmədə yeni mütərəqqi formaların tətbiqi əsasında istehlakçıların tələbatının ödənilməsinə və beləliklə də iqtisadi artımın əldə edilməsinə yönəldilmişdir (9).

Müəssisələrdə innovativ mədəniyyətin təsis edilməsi və innovativ bir quruluşa sahib olması üçün lazım olan xüsusiyyətləri aşağıdakı kimi sıralamaq mümkündür.

- ✓ Uzaqgörənlik, strateji və mədəniyyət liderliyi;
- ✓ Yenilik və müvəffəqiyyəti vurğulamaq;
- ✓ Güclü bir müştəri mərkəzlilik;
- ✓ Keyfiyyətin idarə olunmasına əhəmiyyət vermək;
- ✓ Elastik və uyğun təşkilati struktur;
- ✓ Yüksək səviyyəli əməkdaşlıqlar, qrup çalışması və güvən;
- ✓ İşçilərin idarəetmədə iştirakını təmin edən idarəetmə tərzi və əmək qüvvəsinə səlahiyyətin verilməsi;
- ✓ İnsan resurslarına əhəmiyyət vermək;

- ✓ Davamlı öyrənmə, dəyişmə və irəliləmə;
- ✓ Effektiv məlumat, rabitə və qəraralma sistemləri;
- ✓ Prosesin idarə olunmasına əhəmiyyət vermək;
- ✓ Məhsul, proses və bazarı inkişaf etdirməyə əhəmiyyət vermək.

İnnovasiya onu dəstəkləyən bir mədəniyyət içərisində daha çox davam etdirilə bilər. Bunun üçün isə müəssisələrin yuxarıda sadalanan xüsusiyyətlərə sahib olması qaçınılmazdır.

Xüsusilə işçiləri innovasiya mövzusunda cəsarətləndirən, dəstəkləyən, yeni fikir və informasiyaya çatdıran bir mədəniyyətin inşa edilməsi, onların həm təşkilatın daxilində həm də xaricində əlaqələrinin inkişaf etdirilməsinə gətirib çıxaracaq. Bu şəkildə təşkilatın işçiləri vasitəsi ilə həm işçilərin, həm də təşkilatın xaricindəki ortaqların, müştərilərin, vasitəçilərin və tədarükçülərin yenilik cəhdlərinə qatqısı təmin ediləcəkdir (10, s.23).

## ƏDƏBİYYAT


1. İmran A.M. Menecment (dərslik). Bakı: Nurlan, 2007, 268 s.
2. İsmayılov S.F. Müəssisənin diversifikasiya strategiyası. //Azərbaycanın Vergi Xəbərləri. №6. Bakı, 2011, s. 61-72.
3. Əliyev T.N., Həsənov Ə.H. Rəqabət qabiliyyətli sənayedə sahibkarlığın inkişafı. Bakı: 2013, Avropa, 76 s.
4. Axundov Ş.Ə. Marketinqin əsasları. Bakı: 2001, 572 s.
5. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.H. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010, 508 s.
6. Kərimov X.Z. Strateji menecment. Dərs vəsaiti. Bakı: Təhsil, 208, 440 s.
7. Yahudov X.M. Menecmentin əsasları. Dərs vəsaiti. Bakı: Təhsil, 2007, 330 s.
8. Yahudov X.M. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı: Çıraq, 2005, 504 s.
9. Тычинский А. В. Управление инновационной деятельностью компаний: современные подходы, алгоритмы, опыт. Таганрог: ТРТУ, 2006.
10. Орлов А. И., Орлова Л. А.Современные подходы к управлению инновациями и инвестициями // Экономика XXI века. -2002. -№ 12. -С. 3-26
11. https://www.stat.gov.az/
12. http://www.economy.gov.az
13. http://www.minenergy.gov.az/
14. http://www.taxes.gov.az/
15. http://eco.gov.az/az


## SUMMARY

**Yusif Zamanli**

## THE IMPACT OF INNOVATION STRATEGY ON THE DEVELOPMENT OF COMPANY


A distinctive feature of innovation management focuses on the widespread use of scientific and technical activities, the widespread introduction of new technology. It is also aimed at increasing the quality indicators of manufactured products and meeting the needs of consumers by applying new methods in management, thus achieving economic growth.

It was noted that new problems, looking at scientific and technical and innovation activities from a new perspective, also substantiate the formation of new approaches to scientific and technical products and their proper management. The correct formation and proper management of the country's innovation system is the main issue ahead. This article examines the impact of the innovation strategy on the development of the company. The application of international experience

in Azerbaijan creates new opportunities in firms, which accelerates the achievement of the goal.
***Key words:*** *firm, innovation, innovation strategy, strategic management, innovation management*

**РЕЗЮМЕ**

**Юсиф Заманлы**

**ВЛИЯНИЕ ИННОВАЦИОННОЙ СТРАТЕГИИ НА РАЗВИТИЕ ФИРМЫ**

Отличительной особенностью инновационного менеджмента является его ориентация на широкое использование научно - технической деятельности, широкое внедрение новой технологии, повышение качественных показателей выпускаемой продукции и удовлетворение потребительского спроса путем внедрения новых методов управления, а значит, и на достижение экономического роста. Новые проблемы, рассматривая научно - техническую и инновационную деятельность с новой точки зрения, обусловливают также формирование новых подходов к научно - техническому продукту и их правильное управление. Правильное формирование и правильное управление инновационной системой страны-главный вопрос, стоящий перед нами.

В данной статье рассматривается влияние инновационной стратегии на развитие фирмы. Применение мирового опыта в Азербайджане создает новые возможности в фирмах, что ускоряет достижение цели.
***Ключевые слова:*** *фирма, инновация, инновационная стратегия, стратегический менеджмент, инновационный менеджмент*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25 sentyabr 2023-cü il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2023, № 2 (123), 175-179
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2023, № 2 (123), 175-179
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2023, № 2 (123), 175-179

**AYNUR HÜSEYNZADƏ**
*Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi*
*Coğrafiya İnstitutu*
*aynur.huseynzade@atmu.edu.az*

**UOT. 379.85.**

# TƏBİİ-TURİZM POTENSİALININ ÖYRƏNİLMƏSİNƏ ELMİ-METODİKİ YANAŞMALAR

*Turizm və onun gələcək inkişafı mövcud ehtyatlardan çox asılıdır. Bir bölgədə turizm kompleksinin formalaşması, həmin ərazinin turistlər arasında cəlbediciliyi ilə müəyyən edilir. İqtisadi coğrafi baxımdan, turizm fəaliyyəti üçün əlverişli olan ehtiyatlar və təbii şəraitin ərazi məcmusu vacibdir. Bu ehtiyatların və təbii şəraitin diapazonu isə genişdir. Buraya regionun təbii, tarixi, mədəni və sosial-iqtisadi xüsusiyyətləri daxildir. Hər hansı bir əraziyə aid olan müxtəlif obyekt və təzahürlər regionun turizm potensialı kimi səciyyələndirilir. Məqalədə bu sahə ilə məşğul olan alimlərin metodiki yanaşması təhlil edilmişdir.*

***Açar sözlər**: turizm, turizm ehtiyatları, turizm potensialı, destinasiya, rekreasiya*

## Giriş

Elmi ədəbiyyatda və dərsliklərdə hər hansı bir ərazidə turizm fəaliyyətinin həyata keçirilmə imkanlarını daha dolğun ifadə edən "turizm ehtiyatları" və "turizm potensialı" anlayışlarından geniş istifadə olunur. Turizmin inkişafı ehtiyatların müxtəlifliyindən asılı olduğu üçün uzun müddətdir ki, tədqiqatçılar turizm ehtiyatlarının mahiyyəti, strukturu və qiymətləndirilməsi ilə bağlı məsələlərə maraq göstərirlər. Turizm ehtiyatlarının ilk tədqiqinə rekreasiya coğrafiyasının çərçivəsində başlanılmış və "rekreasiya ehtiyatları" anlayışı işlənib hazırlanmışdır. Bu anlayışa və onun mahiyyətinə yanaşmalar bir sıra sovet tədqiqatçıların əsərlərində öz əksini tapmışdır [1, s. 64].

I.I.Pirojnik rekreasiya ehtiyatları kimi turizm xidmətlərinin istehsalı üçün istifadə edilə bilən, həmçinin müalicəvi, idman-sağlamlıq və ya ekskursiya turizmi ehtiyaclarını ödəyə biləcək təbii və antropogen (mədəni) landşaftların elementləri və müxtəlif birləşmələrini qeyd edir. Onun fikrincə, "rekreasiya ehtiyatları" anlayışı "təbii şərait" və "turizmin inkişafı üçün mədəni-tarixi zəmin" anlayışları ilə eyni deyil. Rekreasiya ehtiyatları, müəyyən dərəcədə təbii şərait və tarixi-mədəni obyektlərdir ki, onlar da sosial ehtiyacların təsiri və rekreasiya xidmətlərində birbaşa istifadə olunma ehtimalı ilə istehsal qabiliyyətinə gətirilir.

N.S.Mironenko və I.T.Tverdoxlebovun əsərində rekreasiya ehtiyatlarının aşağıdakı təyini verilir. Rekreasiya ehtiyatları -istirahət, turizm və müalicə üçün istifadə edilə bilən təbii və antropogen mənşəli obyekt və təzahürlərdir. Müəlliflər qeyd edirlər ki, rekreasiya ehtiyatları ərazidə rekreasiya fəaliyyətinin təşkilinə, rekreasiya zonalarının və mərkəzlərinin formalaşmasına, onların ixtisaslaşmasına və iqtisadi səmərəliliyinə təsir göstərir [10].

L.A.Bagrova və başqaları bu anlayışı daha da inkişaf etdirmişlər. Onlar "rekreasiya ehtiyatları" adı altında təbii, təbii-texniki və sosial-iqtisadi geosistemləri və onların elementlərini başa düşmüşlər. Anlayışın belə təyini, rekreasiya fəaliyyəti üçün əlverişli xüsusiyyətlərə malik təbii və təbii-texniki geosistemlərin yalnız istirahət məqsədli istifadəyə cəlb edildiyi halda rekreasiya ehtiyatları hesab edilə biləcəyini nəzərdə tutur [2].

## Təhlil və müzakirə

Coğrafiya elmində rekreasiya ehtiyatları anlayışı ilə yanaşı, "turizm ehtiyatları" anlayışından da geniş istifadə edilir. Ölkəmizdə bu anlayışdan istifadə edərkən bir çox tədqiqatçılar, ilk növbədə,

"Turizm haqqında" Azərbaycan Respublikası Qanununa istinad edirlər. Qanuna görə "turizm ehtiyatları – səyahət edilən ölkənin (yerin) mədəni, tarixi və təbii irsi, infrastruktur obyektləri və turistlərin tələb və ehtiyaclarını təmin edə bilən digər obyektlərin məcmusu"dur.

Sovet tədqiqatçıları Y.S.Putrik və V.V.Sveşnikova görə "Turizm ehtiyatları – turizm-ekskursiya fəaliyyəti üçün əlverişli olan ətraf mühitdəki təbii və insan əməyi ilə yaradılan obyektlərin və təzahürlərin məcmusudur". Bu fəaliyyət turistlərin sağlamlığını, onların emosional vəziyyətini yaxşılaşdırmaq və mənəvi inkişafını təmin etməyə istiqamətlənmişdir. Müasir turizmi ehtiyatların yerləşmə xüsusiyyətləri və keyfiyyətini nəzərə almadan təsəvvür etmək mümkün deyil. Müəlliflər, rekreasiya və turizm ehtiyatları anlayışının üst-üstə düşdüyünü qeyd etsələr də, turizmin rekreasiyaya tabe olduğunu və turizm ehtiyatlarının rekreasiya ehtiyatlarının tərkib hissəsi kimi çıxış etdiyini vurğulayırlar.

M.B.Birjakov turizm fəaliyyətində insan ehtiyaclarını ödəyə bilən təbii-iqlim, sosial-mədəni, tarixi, memarlıq və arxeoloji, elmi və sənaye, tamaşalar, dini və digər obyekt və ya təzahürləri turizm ehtiyatları adlandırır. Müəllifin fikrincə, turizm turizm ehtiyatlarından məqsədli və ağlabatan istifadəyə əsaslanır [3]. Turizm ehtiyatlarının mahiyyəti - turist marağı obyektləridir ki, bunlar potensial olaraq turizm prosesində yaranan insanların ehtiyaclarını ödəyə bilirlər. Turist marağı və turist təsüratı turizm ehtiyatlarından və obyektlərindən turizm məqsədləri üçün istifadənin əsasını təşkil edir.

N.P.Kraçiloya görə, turizm ehtiyatları insanın ehtiyaclarını ödəyən təbii komponentlərin, sosial-iqtisadi şəraitin və mədəni dəyərlərin məcmusudur. Müəllifin qeyd etdiyi kimi, turizmin inkişafı üçün əlverişli turizm ehtiyatlarına malik olan müəyyən ərazilərin olması mühümdür. Onları şərti olaraq turizm üçün bir növ xammal adlandırmaq olar. Turizm ehtiyatları və obyektlərinin dəyəri onların bənzərsizliyi və spesifikliyi hesab edilir [6].

Turizm ehtiyatlarının öyrənilməsinin ən vacib cəhətlərindən biri onların təsnifatıdır. Y.S.Putrik və V.V.Sveşnikov turizm ehtiyatlarını 2 qrupa bölürlər: təbii və sosial-iqtisadi ehtiyatlar. Təbii turizm ehtiyatları təbii mühitin müəyyən komponentlərinə -iqlim, su, meşə mənsubiyyətinə görə səciyyəvidir; onların funksional məqsədi sağlamlıq, idraki və idmandır. Sosial-iqtisadi turizm ehtiyatlarına tarixi və mədəni obyektlər (abidələr və xatirə yerləri, muzeylər və s.), təzahürlər (etnoqrafik, siyasi, sənaye və s.), həmçinin maliyyə, maddi və əmək ehtiyatları daxildir.

Turizm ehtiyatlarının spesifikliyi onların xüsusiyyətlərində özünü göstərir. Turizm ehtiyatlarını xarakterizə edən və onların inkişaf ehtimalını təyin edən ən vacib göstəricilər həcmi və paylanma sahəsidir. Turizm ehtiyatları, onların mənimsənilməsindən asılı olan bir sıra spesifik xüsusiyyətlərə görə də fərqlənir: mövsümilik, əlçatanlıq, cəlbedicilik, rahatlıq, unikallıq, tipiklik [8]. Bundan əlavə, turizm ehtiyatlarının xarakterik xüsusiyyətlərinə bütövlük, dinamizm, tutum, sabitlik, etibarlılıq [6], həmçinin öyrənilmə dərəcəsi, ekskursiya dəyəri, landşaft xüsusiyyətləri, istifadə üsulu [9] və digərləri daxildir.

N.C.Qafarova görə "ən ümumi mənada, konkret regionda turizm fəaliyyəti və turistlərin cəlb olunması üçün istifadə oluna bilən hər bir mövcudiyyat turizm ehtiyatları hesab edilə bilər". Müəllif qeyd edir ki, "turizm ehtiyatı" anlayışı çox vaxt "rekreasion ehtiyat" anlayışı ilə eyniləşdirilir ki, bu da turizmin – rekreasiyanın bir hissəsi kimi başa düşülməsiylə şərtlənir. Rekreasiya ehtiyatları adı altında insanın rekreasiya tələbatlarının ödənilməsinin şərti kimi çıxış edən təbiət, sosial-iqtisadi və mədəni dəyərlərin ahəngdarlığını başa düşmək lazımdır[ 7].

Turizm ehtiyatlarının müxtəlifliyi, onların keyfiyyət və xüsusiyyətlərinin meydana çıxması turizmin daima dəyişmə və inkişafda olmasına imkan verir. Yeni, əvvəllər inkişaf etdirilməmiş ərazilərin və təbii obyektlərin cəlb edilməsi səbəbindən böyüyür. Turizm ehtiyatları yeni turizm növlərinin ortaya çıxması nəticəsində, əvvəllər istifadə edilməmiş bütün təbii, tarixi və mədəni obyektlərin turist dövriyyəsinə daxil olması səbəbindən artır.

Beləliklə, müxtəlif müəlliflərin araşdırmaları nəzərə alınmaqla, qeyd etmək olar ki, "turizm ehtiyatları" anlayışı kifayət qədər işlənilmiş və onun bütün tərkib hissələri olduqca tam və obyektiv

şəkildə təqdim edilmişdir. Bu anlayışla paralel olaraq, turizmin resurs bazasını xarakterizə etmək üçün "turizm potensialı" anlayışından da tez-tez istifadə olunur.

Məlumat xarakterli nəşrlərdə "potensial" anlayışı hər hansı bir problemi həll etmək, müəyyən bir məqsədə çatmaq üçün istifadə edilə bilən mənbələr, vasitələr, ehtiyatlar kimi təqdim edilir. Bu anlayış çoxtərəfli və çoxşaxəlidir. Turizm sektoru da daxil olmaqla müxtəlif sahələrdə tətbiq edilir. Turizm potensialı anlayışına rekreasiya coğrafiyası çərçivəsində rast gəlinir ki, bura da da əvvəlllər daha çox "rekreasiya potensialı", "təbii-rekreasiya potensialı", "turizm-rekreasiya potensialı", "rekreasiya-resurs potensialı" kimi anlayışlar istifadə edilirdi.

Rekreasiya potensialı adı altında, müəyyən bir ərazidə rekreasiya fəaliyyətinin təşkili üçün təbii və sosial-mədəni zəminlərin məcmusu başa düşülür. Çox vaxt rekreasiya potensialı adı altında, ərazidə olan nadir və ya nisbətən əlçatan olan təbii obyektlər başa düşülür [12].

Turizm potensialı anlayışı elmi nəşrlərdə 2000-ci illərin əvvəllərində meydana çıxmış və hələ kifayət qədər inkişaf etdirilməmişdir. Ancaq buna baxmayaraq, bu anlayışı təhlil edən əsərlər vardır. Bu tərifi rusiyalı tədqiqatçı Y.A.Xudenkix inkişaf etdirmişdir. O, əsərlərində turizm potensialını, ərazinin hərtərəfli xarakteristikası üçün əlverişli olan turizmin resurs bazasının müəyyənləşdirilməsində əsas anlayışlardan biri kimi təqdim etmişdir. Turizm potensialı yalnız turistlərin maraq obyektlərini (aktual və perspektivli) deyil, həm də sektor baxımından fəaliyyətin həyata keçirilməsi üçün bütün zəruri şərtləri nəzərə almağa imkan verir. Müəllif turizm potensialının quruluşunu aşağıdakı bloklar şəklində təqdim edir: təbii; tarixi-mədəni; sosial-iqtisadi; məlumat; demoqrafik; əmək; maliyyə; texnoloji; idarəçilik [4-5].

Ərazinin təbii və mədəni irsi turizm üçün resurs bazası hesab olunur, çünki turizm qorunan dəyərlərin kütləvi qavranılmasını təmin etdiyi üçün mirasdan istifadənin ən təsirli forması kimi tanınır. İrs - dərketmə, estetik qavrayış və yaradıcılıq baxımından ən yüksək turist ehtiyaclarının reallaşdırılması üçün resurs bazası yaradır. Ərazinin turizm resurslarının, potensialının və irsinin nisbəti turizm potensialının müəyyən edilməsi üçün əsas ola bilər. Yeri gəlmişkən qeyd edilməlidir ki, ölkəmizdə bəzi tədqiqatçılar turizm resurslarını xarakterizə edərkən onu turizm ehtiyatları ilə eyniləşdirirlər. Məsələn, C.A.Məmmədov və S.H.Rəhimova görə "turizm resursları təbii, sosial-mədəni, sağlamlıq resurslarının məcmusu. Turizm resursları insanın istirahəti zamanı müxtəlif rekreasiya tələbatlarının ödənilməsinə xidmət etməlidir" [11].

Polşalı iqtisadçı M.Truasi hələ 1960-cı ildə turizm resurslarını iki hissəyə bölmüşdür: a) İnsan tərəfindən yaradılan resurslar; b) insan tərəfindən yaradılmayan resurslar. O, həmçinin təbii resursları:- flora və fauna, landşaft, dağlar, göllər, çaylar, dənizlər, iqlim və s. sonuncu hissəyə əlavə etmişdir: M.Truasinin bölgüsündə mədəni və tarixi dəyərləri olan obyektlər İnsan əməyi nəticəsində meydana gələn resurslara daxil edilir. Həmçinin, turizm infrastrukturu, səfər müddətində turistin bütün maddi texniki baza ilə təmin edilməsi bu hissəyə aid edilir.

Fransız iqtisadçısı P.Defer də turizm resurslarının təsnifatını vermiş və bu resursları dörd hissəyə ayırmışdır: hidrom, fitom, litom və antropom. P.Defer hidrom qrupuna su resurslarını(mineral bulaqlar, göllər, çaylar, dənizlər, d\niz sahili zonalar, buzlaqlar, şəlalələr və s.), fitom qrupuna landşaft (dağlar, vulkanlar, meşələr), həmçinin milli parklar, botanika bağları və s., litom qrupuna insanın əməyinin nəticələri: incəsənət abidələri, arxitektura, mədəniyyət, memarlıq nümunələr, etnologiya (məs. etnoqrafik kəndlər və yaxud açıq səma altında olan muzeylər), müasir orijinal qurğular (körpülər, hündür binalar, idman və mədəniyyət mərkəzləri, aeroportlar, teleqüllələr və s.), antropom qrupuna insanın özü, eyni zamanda onun işi, adət-ənənəsi, folkloru, bayramları, milli geyimləri, musiqisi və digərlərini daxil etmişdir.

Hər bir ərazinin turizm inkanları müxtəlifliyi ilə səciyyəvidir. Eyni zamanda, ərazinin turizm potensialını ən tam əks etdirən məhz coğrafi xüsusiyyətlərdir. A.I.Zıryanovun qeyd etdiyi kimi, məhz coğrafi spesifiklik turizmin inkişafı strategiyasının formalaşması üçün əsasdır. Ərazinin coğrafi xüsusiyyətlərindən başqa tarixi özəlliyi və digər komponentlər də turizm üçün əhəmiyyətə malikdir. Bütün bunlar kül hallında ərazinin turizm üstünlüklərini digər ərazilərdən fərqləndirir.

Ərazinin coğrafi spesifikliyi, tipikliyi və bənzərsizliyinin uzlaşması onun turizm potensialının ərazi fərqliliyində ifadə olunur. Turizm potensialının məkan yekcinsliyi turizmin inkişafı üçün fərqli imkanlara və rəqabət üstünlüklərinə malik ərazilərin müəyyən edilməsinə ehtiyac yaradır və ərazi kontekstində qiymətləndirmə işinin aktuallığını müəyyən edir. Turizm ehtiyatlarını qiymətləndirmək və təhlil etmək üçün Coğrafiya elmində müxtəlif yanaşmalar və metodlar hazırlanmış və elmi mənbələrdə əks olunmuşdur.

**Nəticə**

Təbii-turizm potensialının elmi-metodiki baxımdan öyrənilməsi üçün mövcud yanaşmaların müxtəlifliyi coğrafiya elmində bu məsələnin aktuallığından xəbər verir. Ölkəmizdə turizmin inkişafı naminə bölgələr üzrə strategiyanın elmi cəhətdən əsaslandırılmış şəkildə hazırlanmasına ehtiyac duyulur. Rekreasiya-turizm ehtiyatlarının və ərazinin kompleks turizm potensialının tədqiqinin mövcud olan əsas müddəalarından istifadə, turizm fəaliyyətinin müəyyən sahələrinin, xüsusən də təbiət yönümlü turizminin inkişaf imkanlarını öyrənmək üçün yeni yanaşmalar hazırlamağa imkan verir.

Rekreasiya və turizm ehtiyatlarına ilə bağlı mövcud olan əsas araşdırmalar təhlil edildikdən sonra ərazinin turizm imkanlarının öyrənilməsinə kompleks, inteqral yanaşmanın ümumi meylini görmək olur. Bu yanaşma, təbiət yönümlü turizmin resurs potensialının öyrənilməsi metodologiyasının hazırlanması üçün əsasdır. Ərazinin turizm baxımından inkişafı üçün yalnız turizm obyektlərinin bənzərsizliyi, təbii və mədəni landşaftların müxtəlifliyi, hər bir turizm ehtiyatlarının dəyəri, rahatlığı və cəlbediciliyi əsas götürülə bilməz. Turizm potensialının öyrənilməsi üçün bütün komponentləri nəzərə almaqla kompleks şəkildə yanaşmaq lazımdır.

## ƏDƏBİYYAT


1. Багрова Л.А., Багров Н.В., Данилова Н.А., Преображенский В.С., Ступина Н.М. Условия рекреационной деятельности и рекреационные ресурсы // География рекреационных систем СССР. М.: Наука, 1980. С. 12-27.;
2. Багрова Л.А., Багров Н.В., Преображенский В.С. Рекреационные ресурсы (подходы к анализу понятия) // Известия АН СССР. Серия географическая. 1977. №2. С. 5-12
3. Биржаков М.Б. Введение в туризм: учебник. М.; СПб.: Изд-во «Невский Фонд», «Издательский дом Герда», 2004. 443 с.
4. Худеньких Ю.А. Пермский туризм: территориальная организация и региональное развитие / Перм. ун-т. Пермь, 2006. 189 с.;
5. Худеньких Ю.А. Подходы к оценке туристского потенциала территории на примере районов Пермского края // География и туризм: сб. науч. тр. / Перм. ун-т. Пермь, 2006. Вып. 2. С. 217-230
6. Крачило Н.П. География туризма. К.: Вища школа. Головное изд-во, 1987. 208 с.
7. Qafarov N.C. Turizmin iqtisadiyyatı, Bakı,2012, "Kooperasiya" nəşriyyatı, 440 səh. Dərslik, səh.139-140
8. География туризма и экскурсий в СССР: учеб, пособие / И.В. Зорин, И.И. Пирожник, Ю.М. Пряхин [и др.]. М.: ЦРИБ «Турист», 1985. 87 с.
9. Гуляев В.Г. Организация туристской деятельности: учеб, пособие. М.: Нолидж, 1996. 312 с.]
10. Мироненко Н.С., Твердохлебов И.Т. Рекреационная география. М.: Изд-во Моск, ун-та, 1981. 208 с
11. Məmmədov C.A., Rəhimov S.H. "Turizm termin və anlayışlarının izahlı ensiklopedik lüğəti", Bakı,2003,208 səh. Səh.163
12. Николаенко Д.В. Рекреационная география: учеб, пособие для студентов высш. учеб, заведений. М.: Гуманит. изд. центр ВЛАДОС, 2001. 279 с

## SUMMARY

**Aynur Huseynzade**

**SCIENTIFIC AND METHODOLOGICAL APPROACHES TO THE STUDY OF NATURAL-TOURISM POTENTIAL**

Tourism and its further development are highly dependent on existing resources. The formation of a tourist complex in a region is determined by the attractiveness of that area among tourists. From an economic geographical point of view, the territorial totality of resources and natural conditions favorable for tourist activity is important. And the range of these resources and natural conditions is wide. This includes the natural, historical, cultural and socio-economic characteristics of the region. Various objects and manifestations belonging to any territory are characterized as the tourist potential of the region. The article analyzes the methodological approach of scientists dealing with this area.


***Key words***: *tourism, tourism resources, tourism potential, destination, recreation*


## РЕЗЮМЕ

**Айнур Гусейнзаде**

**НАУЧНО-МЕТОДИЧЕСКИЕ ПОДХОДЫ К ИЗУЧЕНИЮ ПРИРОДНО-ТУРИСТСКОГО ПОТЕНЦИАЛА**

Туризм и его дальнейшее развитие во многом зависят от имеющихся ресурсов. Формирование туристского комплекса в регионе определяется привлекательностью этого района среди туристов. С экономико-географической точки зрения важен территориальный комплекс ресурсов и природных условий, благоприятных для туристской деятельности. Однако диапазон этих ресурсов и природных условий огромен. Сюда входят природные, исторические, культурные и социально-экономические особенности региона. Различные объекты и проявления, относящиеся к какой-либо территории, характеризуются как туристический потенциал региона. В статье проанализирован методический подход ученых, занимающихся данной областью.


***Ключевые слова***: *туризм, туристические ресурсы, туристический потенциал, направление, отдых*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *20 sentyabr 2023-cü il*
***Çapa qəbul edilmişdir:*** *25 sentyabr 2023-cü il*

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.

5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə

**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

***REDAKSİYA HEYƏTİ***

## TO THE AUTHORS!

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules**:**

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism**. Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books ( collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см х 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).

2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.

3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).

4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.: Гаджиев И.М. Территориальные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис... доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так***: Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

***<u>РЕДКОЛЛЕГИЯ</u>***

## DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

Nəşriyyat direktoru: Əli Həşimov
Mətbəə müdiri: Vidadi Kazımov
Aparıcı redaktor: Sahilə Abbasova
Aparıcı redaktor: Günel Məmmədova
Aparıcı korrektor: Sitarə Əlizadə

Yığılmağa verilib: 25. 09. 2023
Çapa imzalanıb: 30. 09. 2023
Formatı: 60/90, 32/1, həcmi 11.37 ç/v
Sifariş №113, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*"Qeyrət" nəşriyyatı*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*